AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

# AŞIQ GÖZƏLLƏMƏLƏRİ



BAKI – 2020

*Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin qərarı ilə nəşr olunur*

**AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ.**
**"AŞIQ GÖZƏLLƏMƏLƏRİ" ŞEİR ANTOLOGİYASI**
Bakı, 2020, 424 səh.

*Hazırlayanlar:* ***Məhərrəm QASIMLI***
Aşıqlar birliyinin sədri,
Əməkdar elm xadimi, professor

***Mahmud ALLAHMANLI***
filologiya elmləri doktoru, professors

Redaktor: ***Aynur XƏLİLOVA***
filologiya üzrə fəlsəfə doktoru, dosent
***Altay MƏMMƏDLİ***
filologiya üzrə fəlsəfə doktoru, dosent

***Antalogiyada ozan-aşıq poeziyasının mühüm qolunu təşkil edən gözəlləmələrin geniş oxucu auditoriyasına təqdim olunması nəzərdə tutulmuşdur. Bu məqsədlə Dədə Qorquddan üzü bəri gələn ustad sənətkarlarımızın yaradıcılığındakı çeşidli gözəlləmə örnəkləri toplanıb bir araya gətirilmişdir. Gözəlləmə havaları üstündə oxunan bu nümunələr ulularımızın gözəllik təsəvvürlərini, əxlaq və mənəviyyat zənginliyini, saz-söz sinəsində daşınıb gələn bədii-estetik dəyərləri aydınlaşdırmaq baxımından mükəmməl poetik sərvətdir. Topluda ustad aşıqların yaratdığı gözəlləmələrlə yanaşı, dastanlardan, el şairlərinin yaradıcılığından seçilmiş poetik örnəklərə də yer verilmişdir.***

***Antalogiya geniş oxucu kütləsi ilə bərabər, aşıq ifaçılığı ilə məşğul olan sənət adamları üçün də faydalıdır.***

**© Azərbaycan Aşıqlar Birliyi**

# SAZ HAVALI GÖZƏLLƏMƏLƏR

**Sazın bağrı başından qopan, axarı-baxarı ilə könül dalğalandıran aşıq havaları və həmin havaların melodik düzümü ilə qanad-qanada verən ayrıca şeir biçimləri vardır ki, saz-söz biliciləri, ustad aşıqlar sözü gedən saz havalarını da, onlara uyuşan poetik söz çeşidlərini də *“gözəlləmə”* adıyla möhürləyiblər. Bu qəbildən olan saz havalarının və onların melodik ovqatına köklənən poetik örnəklərin başlıca mahiyyəti gözəlliyin insan ruhunda yaratdığı xoş əhvalı sazın-sözün sirli-sehrli cazibəsiylə könüldən-könülə yaymaq, eldən-elə, mahaldan-mahala əziz bir ərməğan kimi paylayıb bölüşməkdi.**

**Dədə Qorqud zamanından üzü bəri ustad aşıqların sənət dünyasında gözəlin, gözəlliyin təsvir-tərənnümü saz havalarının, aşıq şeirlərinin, dastanların başlıca təkan nöqtələrindən birinə çevrilib. Belə saz havalarının da, poetik örnəklərin də ümumi əhvalı ritmik, oynaq və şən-şux keyfiyyət üzərindədir.**

**“Gözəlləmə” səciyyəli saz havaları əsasən üç axar boyunca tarixin dərinliklərindən bizə doğru yol alıb gəlməkdədir. *Birinci axar* mahalların, tayfa və elatların adını, ünvanını üstünə götürən “Gözəlləmə havaları”dır: “Təbriz gözəlləməsi”, “Ovşarı” (“Avşar gözəlləməsi”), “Şahsevəni (“Şahsevən gözəlləməsi”), “Şirvan gözəlləməsi”, “Göyçə gözəlləməsi”, “Aran gözəlləməsi”, “Dərbənd gözəlləməsi”, “Urmani gözəlləmə”, “Ordubadi” (“Ordubad gözəlləməsi”), “Qaradağ gözəlləməsi”, “Zəncan gözəlləməsi” və s. Bu sıradan olan bəzi gözəlləmələr mahalın, elatın, tayfanın adını süsləyən bir *“gül”* kəlməsiylə də işarələnir: “Naxçıvangülü”, “Göyçəgülü”, “Gəncəgülü”, “İncəgülü”, “Sərabgülü” havaları həmin qəbildəndir.**

**Gözəlləmə havalarının *ikinci axarı* saz havasını bəstələyən aşıqların adı ilə yayılıb məşhurlaşır. Bu havaların adında “gözəlləmə” sözü yer alsa da (“Azaflı gözəlləməsi”, “Şakir gözəlləməsi”, “Kamandar gözəlləməsi”, “Pənah gözəlləməsi”, “Məmmədağa gözəlləməsi”), almasa da melodiyanın janr tutumu və intonasiya səciyyəsi onun gözəlləmə mahiyyəti daşıdığını açıq-aydın göstərmiş olur: “Cəlili” – Aşıq Cəlil gözəlləməsi, “Qəhrəmanı” – Aşıq Qəh-**

**rəman gözəlləməsi, “Hüseyni” – Aşıq Hüseyn Şəmkirli gözəlləməsi, “Şəmşiri” – Aşıq Şəmşir gözəlləməsi şəklində anlaşılır.**

**Gözəlləmə ruhu daşıyan** ***üçüncü qisim saz havaları*** **ənənəvi klassik havaların ifa üçün seçilən poetik mətnin ruhundan gələn dinamik- oynaq ruhu ortaya çıxaran melodik axardır. “Gilənarı”, “Qaragözü”, “Qəmərcanı”, “Sarıtel”, “Dübeyti”, “Paşaköçdü”, “Gəraylı”, “Orta şəşəngi” və s. havalar üstündə oxunan məşhur mahnılar bu melodik axardan təkan götürmüşdür. Məsələn, Aşıq Ələsgərin “Ay Sarıköynək” rədifi üstündəki qoşması bir poetik mətn olaraq “Orta şəşəngi” havası ilə elə qaynayıb qovuşmuşdur ki, havanın melodik ahəngi səslənən kimi hər kəs “Ay Sarıköynək” poetik intonasiyası üzərinə köklənir. “Orta sarıtel” havası üstündə Öysüzlü Aşıq Səmədin məşhur “Yoluna qurban, qaragöz” mahnısı da bu melopoetik qovuşuğa əyani sübutdur. Yaxud da Murad Niyazlının “Gilənar” havası üstündə oxuduğu “Bir səhər gəl, bir günorta, bir axşam” mahnısı həmin melopoetik qovuşmanın nəticəsi olaraq el arasında həmdə“Murad gilənarı” şəklində yayılmışdır. Belə gözəlləmə örnəkləri olduqca çoxdur. Bu bir daha onu göstərir ki, saz gözəlləmələri (“melo gözəlləmələr”) ilə söz gözəlləmələri (poetik gözəlləmələr) arasında olduqca dərin uyğunluq və vəhdət vardır.**

**Təkcə aşıq sənətində deyil, onun mənəvi sələfi olan ozan yaradıcılığında da gözəlləmələrin özünəməxsus yerinin olduğu görünməkdədir. “Dədə Qorqud” boylarında, xüsusən də ozan soylamalarında rast gəlinən obrazlı poetik söyləyiş tərzi, böyük ehtimalla, əhval yüksəldən, oynaq, ritmik qopuz havalarının müşayiəti ilə (məsələn, eposda adı keçən “Yelətləmə” havası kimi) gerçəkləşmişdir:**

***Bərü gəlgil, başum bəxti, evüm təxti!***
***Evdən çıqub yüriyəndə səlvi boylum!***
***Topuğında sarmaşanda qara saçlum!***
***Qurulu yaya bənzər çatma qaşlum!***
***Qoşa badam sığmayan tar ağızlum!***
**Güz almasına bənzər al yanaqlım!**

**Ozan gözəlləmələrində müraciət-xitab şəklində qurulan təşbeh və epitetlər həm obrazın portret cizgilərini, həm də ozanın öz könül dünyasındakı bədii zənginliyi heyrətamiz bir təravətlə təqdim edə bilir:**

***Yalab-yalab yalabıyan incə donlum!***
***Yer basmayıb yüriyən səlvi boylum!***
***Qar üzərinə qan dammış kimi***
***qızıl yanaqlum!***
***Qoşa badam dar ağızlum!***
***Qələmçilər çaldığı qara qaşlum!***
***Qurması qırq tutam qara saçlum!***

**Dədə Qorqud soylamalarının poetik ruhuna yaxınlığı və doğmalığı ilə seçilən el bayatıları arasında gözəlləmə səciyyəsi daşıyan unikal örnəklərin olduğu da diqqəti çəkir. Həmin bayatı-gözəlləmələr nikbin ruhlu xalq mahnılarında, eləcə də qoşma qəlibi üzərindəki oynaq-ritmik aşıq havalarının hər bənddən sonrakı yedək məqamında mətnin ovqatına uyğun şəkildə istifadə olunur:**

***Zülf uzun üzə dəyər,***
***Hörüyün dizə dəyər.***
***Yanaqdakı cüt xalın***
***Beş min beş yüzə dəyər.***

***Mən aşığam gül-gülə,***
***Bülbül gülə, gül gülə.***
***Yar telinə gül taxıb,***
***Calaq olub gül gülə.***

***Mən aşıq yardan əzəl,***
***Bağçadan, bardan əzəl.***
***Camalın aydan göyçək,***
***Sinəndi qardan əzəl.***

**Örnək gətirilən bayatılardakı portret cizgiləri aşıq şeirinə məxsus təsvir-tərənnüm üslubu ilə yaxından səsləşir.**

**Aşıq poeziyasını ərsəyə gətirən ustad sənətkarların – Qurbanidən Aşıq Ələsgərə, Molla Cumadan Aşıq Şəmşirə, Mikayıl Azaflıyacan hər bir qüdrətli saz-söz ustadının könül dünyasında gözəlləmələrin qabarıq şəkildə nəzərə çarpması saz-söz ruhunun gözəllik işığına, onun təravətinə nə qədər dərindən bağlı olduğunu açıb göstərir. Aşıq gözəllikdən gələn bədii-estetik həzzin bağrına basıb çaldığı saz havalarının dalğalanmasına, qoşduğu sözlərin təlatümlü şəkildə qanadlanmasına, özü ilə bərabər qarşısındakı saz-söz əhlinin – dinləyici auditoriyasının ruhlanmasına təkan verdiyini görüb bu axara öz sənət fəaliyyətində əhəmiyyətli dərəcədə önəm verməyə çalışmışdır.**

**On altıncı yüzillikdə Qurbani sazının, Qurbani sözünün bağrı başından havalanmış:**

***Sallana-sallana gələn Salatın,***
***Gəl belə sallanma, söz dəyər sənə.***
***Al-yaşıl geyinib durma qarşıda,***
***Yayın bədnəzərdən, göz dəyər sənə.***

***Getmə, getmə, görüm kimin yarısan,***
***Hansı bəxtəvərin vəfadarısan?***
***Kölgədə bəslənmiş quzey qarısan,***
***Səhərin yelləri tez dəyər sənə.***

***Qurbani der, heç kəs yarın öyməsin,***
***Düymələ yaxanın çarpaz düyməsin.***
***Dəstələ zülflərin yerə dəyməsin,***
***Yollar qubarlanar, toz dəyər sənə -***

**qoşma bütün parametrləri ilə mükəmməl bir gözəlləmədir. Gözəlin-Salatın adlı qızın nazlana-nazlana (“sallana-sallana”) gəlişi, əyninə geydiyi könül titrədən al-yaşıl libası, qüzey qarına bənzər bəyazlığı, torpağa dəyəcək qədər uzun saçlı, uzun hörüklü olması aşıq sözünün poetik ecazıyla çox böyük ustalıqla canlandırılmışdır. Bu, əslində Azərbaycan gözəlinin aşıq könlündən qopan ilk unudulmaz**

**milli portretidir.**

**Abbas Tufarqanlı (XVII əsr) poetik istedadının təqdim etdiyi çoxsaylı gözəlləmələr bir tərəfdən etnoqrafik koloritinin bolluğu, bir tərəfdən də aşıq-şair ilhamının portret təsvirinə yönəltdiyi bədii rəng çalarları ilə seçilir:**

***Başına döndüyüm alagöz Pəri,***
***Geyinmiş yaşılı, alınan oynar.***
***Cəvahir mətahi, dürr xiridarı,***
***Tutubdu dəstindələlinən oynar.***

***Sevdiyim əyninə geyibdi ağı,***
***Çəkibdi sinəmə düyünü-dağı.***
***Zülfün əncəbini eylər məzağı -***
***Ağ üzdə münəvvər xalınan oynar.***

***Ay Abbas, Pərinin bu şux işləri,***
***Yorğun maral kimi xoş baxışları.***
***İncidən, sədəfdən, dürdən dişləri,***
***Qaymaq dodaqları balınan oynar.***

**Saz-söz gözəlinin boy-buxun və camal yaraşığı aşığın təsvir etdiyi milli-etnoqrafik cizgilər fonunda daha ecazkar görünür:**

***Qanovuz köynəyi, atlas qoftası,***
***Yaşıl basmaları nə gözəl imiş.***

**Abbas Tufarqanlı tarixi-etnoqrafik detalları söz gücünə yaratdığı gözəl portreti üzərinə elə köçürür ki, qarşıdakı obraz sanki sehirli şəkildə canlana bilir. Adama elə gəlir ki, bu gözəl obrazı aşığın misraları boyunca ilğımlı bir təlatümlə daim diri və duru qalmağı bacarır, sözə-sənətə, şair ilhamına güc vermək qüdrətini özündə saxlayır:**

*Başına örtübdü kəlağay gəzər,*
*Əyri tel üstündə qızıl düymələr.*
*Belinə bağlayıb zərbafdan kəmər,*
*Çəpgənli-çarqatlı ağ bədən gəlir.*

**Xəstə Qasımın (XVIII əsr) gözəlləmələrində tarixi-poetik ənənənin qorunması ilə yanaşı, bir sıra yeni təqdimatların, poetik əhvalın qarşılaşdığı mənzərələrə uyğun şəkildə mənalandırılması meylinin güclənməsi və bu axar üzərində gözlənilməz bədii məharət nümayiş etdirilməsinin də şahidi oluruq:**

*Gümüş kəmər bağlayıbdı belinə,*
*Danışdıqca mail oldum dilinə,*
*Gül uzatdım nazlı yarın əlinə-*
*Canım aldı, gülü məndən alınca.*

**Şux, oynaq gözəlləmə ruhunu təkcə poetik obrazlarla yox, həm də axar-baxarlı söz düzümü, axıcı-emosional deyimlərin harmonik qaydada mətn boyuna yerləşdirilməsi ilə təqdimatı da gözəlləmələrin üslubi əlavələrini artırmışdır. Sözü gedən cəhət Xəstə Qasımın bu qəbildən olan şeirləri üçün olduqca səciyyəvidir. “Tər” deyiminin çoxmənalı çalarlarda şeir boyuna harmonik tərzdə nizamlanması bu anlamda diqqətçəkici bir gözəllik mənzərəsi yaradır:**

*Tər zülfün, tər bulmuş tər buxağında,*
*Tər bəyaz, tər əhmər, tər yanağında.*
*Tər şəkkər, tər damaq, tər dodağında,*
*Tər tutub, tər dişlər, tər gülər Sənəm.*

**Aşıq ədəbiyyatında mükalimə-dialoq şəklində qurulmuş gözəlləmə örnəklərinə sənətin bütün xronikal mənzərəsi boyunca rast gəlmək olur. Belə ki aşığın üz-üzə gəldiyi xanımla poetik mükalimə şəklində qurduğu “Dedim-dedi” biçimli gözəlləmələr (aşıqlar belə şeirlərə “güllü qafiyə” deyirlər) canlı və dinamik örnəklər kimi uzun zamandan bəri saz-söz dövriyyəsində yaşamaqdadır. Qurbani,**

**Ərzurumlu Əmrah, Hüseyn Şəmkirli, Molla Cuma, Aşıq Şenlik, Dədə Şəmşir və başqa ustad sənətkarların sinəsindən pərvazlanan “güllü qafiyə” üstündəki gözəlləmələr aşıq repertuarının qızıl fonduna çevrilmişdir.**

***Dedim: Ala nədi? - Dedi: Gözümdü,***
***Dedim: Şəkər nədi? - Dedi: Sözümdü,***
***Dedim: Şirin nədi? - Dedi: Üzümdü,***
***Dedim: Öpməlisən! - Söylədi: Yox-yox.***

***Dedim: Siyah nədi? - Dedi: Telimdi,***
***Dedim: Şəkər nədi? - Dedi: Dilimdi.***
***Dedim: Nazik nədi? - Dedi: Belimdi,***
***Dedim: Qucmalısan! - Söylədi: Yox-yox.***

**Bütün şeir boyu davam edən bu dramaturji dialoqu ustad Ərzurumlu Əmrah (XVIII əsr) misilsiz bir sənət ustalığı ilə ərsəyə gətirmişdir. Bu poetik ənənə Azərbaycan  və Anadolu aşıqlığı ilə yanaşı türkmən özbək baxşı yaradıcılığında da geniş yayılmışdır.**

**Həm yaratdığı “gözəlləmə havaları”  (“Hüseyni”, “Bayramı”, “Şəmkir sarayı” və s.) ilə, həm də düzüb qoşduğu çeşid-çeşid qoşma-gəraylıları ilə aşıq poeziyasına mükəmməl incilər bəxş edən  Hüseyn Şəmkirli (XIX əsr) də öz könül dünyasını gözəllik üstünə kökləmişdir. Ustad sənətkarın üç rəngli  donda (ağ, qırmızı və sarı) gördüyü gözəlləri “ağ gül”, “qırmızı gül” və “sarı gül” obrazlarında təsviri  əslində insan  və təbiət gözəlliyinin vəhdətini təqdim etmək baxımından  əvəzsiz bir peyzaj-tablodur:**

***Ağca gülün qapısından baxmalı,***
***Qızılgülü ağ buxağa taxmalı,***
***Sarı gülü dəstə tutub qoxmalı,***
***Ağ gül, qırmızı gül, illah sarı gül.***

**XIX yüzilliyin azman sənətkarı Aşıq Ələsgərin milli Azərbaycan gözəllərinin təsvir-tərənnümünə  yönəlmiş onlarla qoşma və gəraylıları var ki, bu poetik örnəklər ayrıca bir portret –gözəlləmə**

**silsiləsi kimi düşünülə bilər. Belə ki, aşıq Ələsgər təsvir və tərənnümünə ayrıca şeir həsr etdiyi otuza yaxın el gözəlinin (Güləndam, Müşgünaz, Telli, Güllü, Gülpəri, Mələk, Gülxanım, Sarıköynək, Nənəpəri, Səhnəbanı, Həcər xanım, Şəkər xanım və s.) camal və kamal vəhdətindəki incəlikləri misilsiz sənətkarlıqla işləmiş və hər şeirində Azərbaycan milli gözəlinə məxsus yeni və bənzərsiz bir portret ortaya çıxarmışdır:**

***Səni gördüm, əl götürdüm dünyadan,***
***Ala gözlü, qələm qaşlı, Güləndam!***
***Alma yanağına, bal dodağına,***
***Baxan kimi ağlım çaşdı, Güləndam!***

***Tovuz kimi şüx bəzənib durubsan,***
***Ala gözə siyah sürmə vurubsan,***
***Sağ ol səni, yaxşı dövran qurubsan,***
***Bu dünyanın sonu puşdu, Güləndam!***

**Dədə Ələsgərin gözəlləmələri aşıq şeiri şəkillərinin böyük əksəriyyətini çevrələyir. Ustadın sinəsindən qanadlanan gözəllik səciyyəli qoşmaları, gəraylıları, təcnisləri, müxəmməs və divaniləri yüksək sənətkarlıq məziyyətləri ilə zəngin xəzinəni xatırladan poetik incilərdir. Onun əsl sərraf gözü ilə ipə-sapa düzdüyü həmin şeirlər saz havaları ilə çox rahat şəkildə uzlaşır. Ələsgər sözü ilə saz havalarının yaratdığı melodik vəhdət o qədər güclüdür ki, hansı şeirin hansı havadan pərvazlandığını asanlıqla müəyyənləşdirmək olur. Bunun bircə səbəbi var: söz duyumu kimi saz duyumunun da yüksək səviyyədə olması böyük sənətkara belə bir sənət imkanı açmışdır.**

***Yanaqların güldü solmaz,***
***Oxladın, yaram sağalmaz,***
***Qaşın cəllad, gözün almaz,***
***Bağrımı kəsə tellərin.***

**Bu misralar gəraylı ölçüsündəki saz havalarının, xüsusən də**

**gözəlləmə ritmli havaların demək olar ki, hamısının boyuna biçilibdir. Qoşma qəlibi üzərindəki gözəlləmə ovqatlı saz havaları da Aşıq Ələsgər qoşmaları ilə çox rahat dil tapa bilir:**

***Cilvələnib nə qarşımda durubsan,***
***Anam sənə qurban, ay Sarıköynək!***
***Mələksən, çıxıbsan cənnət bağından,***
***Heç kim olmaz sənə tay, Sarıköynək!***

**Tarixi ənənənin qüvvətli davamı kimi görünən Hüseyn Bozalqanlı (XIX-XX əsrlər) gözəlləmələrini əks etdirən poetik örnəklərdəki söz, misra, bənd düzümü o qədər böyük həssaslıq və sərraflıqla qurulmuşdur ki, təqdim olunan portretin yaratdığı axar-baxardan doymaq və ayrılmaq olmur:**

***Quba qaz yerişli, maral baxışlı,***
***İnnabı dodaqlı, mirvari dişli,***
***Ucu güləbatın xurmayı saçlı,***
***Telinə şirmayı şana yeridi.***

**yaxud:**

***Ağ bədən, ağ libas, bir mah camaldı,***
***Huridi, pəridi, mələk misaldı...***

**və ya:**

***Qaş oynatdı, qıya baxdı,***
***Könlümün evini yıxdı.***
***Al geyindi, seyrə çıxdı,***
***Çöllər qırmızı geyindi.***

**Aşıq gözəlləmələrinin ən diqqətçəkici cəhətlərindən biri insanı xoş ovqata kökləmək, bu ovqat üstündə onun həyata, gözəlliyə olan mehr-məhəbbətini gücləndirməkdir. Bu keyfiyyət göstəricisi XX əsr aşıqlığında da ana axarlardan biri kimi görünür. Aşıq Şəmşirin**

**dillər əzbəri olan**

***Nazlı canan axşam çağı,***
***Göz dikmişdi yola sarı.***
***Çin-çin olub qıvrım saçı,***
***Tökülmüşdü qola sarı.***

***Aşkar baxma arif duyar,***
***Ara vurma mərdimazar.***
***Ləblərinin şirəsi var,***
***Arı qonar bala sarı.***

***Üzün göstər qəmər kimi,***
***Açılmış təzə-tər kimi,***
***Şəmşiri bir kəmər kimi,***
***Dola, incə belə, sarı –***

**gözəlləmə - gəraylısının təqdim etdiyi poetik ruh sonrakı dönəm Azərbaycan aşıqlarının – Aşıq Şakir, Aşıq İmran, Aşıq Nabat, Hüseyn Cavan, Mikayıl Azaflı, Məzahir Daşqın, Əkbər Cəfərov, Kamandar Əfəndiyev, Murad Niyazlı, Əhməd Rüstəmov, Pənah Pənahov, Avdı Qaymaqlı və başqalarının el arasında yayılmış gözəlləmələri üçün də səciyyəvidir.**

**Aşıq poeziyasında gözəlləmələrin böyük əksəriyyəti qoşma və gəraylı qəliblərindəki şeir biçimlərini çevrələyir. Bununla belə divani, müxəmməs, cığalı təcnis üzərində qurulmuş gözəlləmələrə də rast gəlinir. Müxəmməs-gözəlləmələrə və onların çeşidli biçimlərinə daha çox Molla Cumanın diqqət yetirdiyi görünür. Onun məşhur "Pəri" rədifli gözəlləməsi zəncirlənmiş cığalı müxəmməs örnəyidir:**

***Nagahdan gördü gözüm,***
***Sən təki insanı, Pəri.***
***Hurisən, Məlikəsən,***
***Cənnətin qılmanı, Pəri.***
***Yaralar məlhəmisən,***
***Dərdlərin dərmanı, Pəri.***

*Gözəllər sərdarısan,*
*Məhbubların xanı, Pəri.*
*Şah kimi taxta çıxıb,*
*Edərsən divanı, Pəri.*
*İzzət, ikram qılaram,*
*Xidmətində qalaram,*
*Qul-qurbanın olaram,*
*Əgər qəbul eləsən,*
*Qolum boynuna salaram.*
*Qolum boynunda,*
*Əlim qoynunda,*
*Çiynim çiynində,*
*Eşqin beynimdə.*
*Sarmaşıb köynək kimi,*
*Durum sənin əynində.*
*Əyninə al məni, gəl,*
*Qat bu cana canı, Pəri.*

**Müxəmməs-gözəlləmələr Varxiyanlı Məhəmməd, Şəmkirli Hüseyn, Aşıq Ələsgər, Vəli Bozalqanlı, Xəyyat Mirzə, Aşıq Şəmşir, Əlimərdanlı Nəcəf və Mikayıl Azaflı yaradıcılığında da geniş yer tutur.**

**Dastanlarımızda yer alan məşhur gözəlləmələr (“Nərgiz” (“Tahir-Zöhrə”), “Yaxan düymələ-düymələ” (“Əsli-Kərəm”), “Nə bağ bildi, nə də bağban” (“Abdulla-Cahan”), “Yarı gördüm bağ içində” (“Məsum-Diləfruz”), eləcə də Yəhya bəy Dilqəm, Ağdabanlı Qurban, Şair Nəbi, Xəyyat Mirzə, Bozalqanlı Vəli, Şeyda Əziz, İsmayıl Sadıqlı, Həsən Mülkülü kimi el şairlərinin saz-söz məclislərinə yaraşıq gətirən şeirləri də gözəlləmə ovqatının geniş miqyasda yayıldığını göstərir.**

***İSTƏKLİ OXUCU, sənin qarşındakı bu şeir antologiyası əski çağlardan üzü bəri yol alıb gələn saz-söz gözəlləmələridir. Daha doğrusu, bu yönün – istiqamətin ən seçkin örnəkləridir. Üç bölümdən ibarət antoloji nəşrin “Ozan-aşıq gözəlləmələri”, “Dastan gözəlləmələri” və “El şairlərinin gözəlləmələri” şəklində düzümlənməsində əsas məqsəd tarixi mənzərənin daha aydın görünməsidir. Ancaq bütün***

***hallarda bu gözəlləmələri birləşdirən sazdır, o səbəbdən də bunlar sıradan düzülüb qoşulmuş gözəlləmələr deyildir, saz havalı gözəlləmələrdir; sazı qanadlandıran – havalandıran gözəlləmələr...***

**P.S.** ***...Nə qədər gözəl obrazını yaratmaq məqsədi daşıyan bədii-estetik meyar varsa, nə qədər gözəlliyə dəyər verə bilmək kimi uca bir mənəvi duyğu qalırsa, bu əhvalı yaşadan saz-söz gözəlləmələri də sənət meydanında və insanın könül dünyasında qarşısıalınmaz bir axarla yaşayacaqdır.***

***Məhərrəm QASIMLI,***
***Əməkdar elm xadimi, filologiya***
***elmləri doktoru, professor,***

***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru, professor***

# OZAN-AŞIQ GÖZƏLLƏMƏLƏRİ



## DƏDƏ QORQUD

***Kitabi - Dədə Qorqud»un ilk cümləsindəki bilgiyə əsasən Dədə Qorqud təxminən min üç yüz il bundan qabaq yaşamışdır. Türk folklor arealında dolaşan çoxsaylı çeşidli rəvayətlər və dastanın verdiyi informasiya Dədə Qorqudun şəxsiyyəti, yüksək sənət istedadı, el müdriki olması ilə bağlı mükəmməl təsəvvür formalaşdırır. Ozan-aşıq sənətinin babası, qopuzun yaradıcısı və qopuz havalarının ilk bəstəçisi sayılır. Dədə Qorqud oğuz dastançılığının əsasını qoymuş oğuznaməçi ozandır. Onun qoyub getdiyi möhtəşəm ədəbi irsin ən əzəmətli abidəsi «Kitabi- Dədə Qorqud» boylarıdır. Bu boylardakı gözəlləmə səciyyəli müraciət-xitablar öz poetik dolğunluğu ilə diqqəti çəkir.***

Bərü gəlgil, başum bəxti,
evüm təxti!
Evdən çıqub yüriyəndə
səlvi boylum!
Topuğında sarmaşanda
qara saçlum!
Qurulu yaya bənzər
çatma qaşlum!
Qoşa badam sığmayan
dar ağızlum!
Güz almasına bənzər
al yanaqlım!

***

Yalab-yalab yalabıyan incə donlum!
Yer basmayıb yüriyən səlvi boylum!
Qar üzərinə qan dammış kimi
qızıl yanaqlum!
Qoşa badam dar ağızlum!
Qələmçilər çaldığı qara qaşlum!
Qurması qırq tutam qara saçlum!

## XALQ BAYATILARI

Qara at nalı neylər,
Qara qaş xalı neylər,
Sən kimi yarı olan
Dövləti, malı neylər.

***

Mən aşığam gül gülə,
Bülbül gülə, gül gülə,
Yar telinə gül taxıb
Calaq olub gül-gülə.

***

Əziznəm, bu dağlar,
Bu qayalar, bu dağlar.
Qamətin sərv ağacı,
Zülfün onu budaqlar.

***

Mən aşıq incə belə,
Ay belə, incə belə.
Qulpun sınsın, ay səhəng,
Minibsən incə belə.

***

Əzizim, belə bağlar,
Kəmərin belə bağlar.
Bülbül ötər, gül açar,
Yaşasın, belə bağlar.

***

Mən aşıq yardan əzəl,
Bağçadan, bardan əzəl.

Camalın aydan göyçək,
Sinəndi qardan əzəl.

***

Əzizim, özgə şana,
Zülf üzdə özgə şana.
Ləblərin zənburuyam,
Getmərəm özgə şana.

***

Mən aşıq, yüz qanadı,
Sonanın yüz qanadı.
Yel əsdi, zülf dağıldı,
Tel dəydi, üz qanadı.

***

Zülf uzun üzə dəyər,
Hörüyün dizə dəyər,
Yanaqdakı cüt xalın
Beş min beş yüzə dəyər.

***

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə.
Qoy məni öldürsünlər
Bir alagöz qız üstə.

***

Mən aşıq gül üşüdü,
Şeh düşdü, gül üşüdü.
Güldün ağlım aprdın,
Bu necə gülüş idi?

***

Mən aşıq gözəl oxlar,
Bağında gözəl oxlar.
Çirkin oxlaya bilməz,
Oxlasa gözəl oxlar.

***

Əzizim, yar arxına,
Su gəlib yar arxına.
İncədir barmaqların,
Qorxuram yarar xına.



## QURBANİ

***XVI-XVII yüzilliyə mənsub ustad sənətkardır. Araz çayı sahilindəki Diri dağın ətəyində, indiki Cəbrayıl rayonunun ərazisində məskun olmuşdur. Bu səbəbdən də şeirlərindən Qaradağ, Qarabağ, Xüdafərin körpüsü, Diri dağı, Diri kəndi və Araz çayının adları sıx-sıx keçir. Aşığın əsl adı Qurban olmuş, lakin o, divan ədəbiyyatı şairlərində olduğu kimi öz adını təxəllüs olaraq «Qurbani» şəklində işlətmişdir. Yaradıcılığından səfəvi-qızılbaş xanədanına yaxınlığı hiss olunur. Şeirlərində təsəvvüf simvolikası da güclüdür. Güclü təbə, məlahətli saz ifaçılığına malik olmuş ustad aşığın düzüb-qoşduğu şeirlər öz mükəmməl poetik tutumu, forma və mövzu rəngarəngliyi ilə seçilir. Məhəbbətin və gözəlliyin təsvir- tərənnümünə həsr olunmuş şeirləri aşıqların repertuarında mühüm yer tutur.***

### DİLBƏR

Durum dolanım başına,
Aşığından küsən dilbər!
Üzüm sürtüm ayağına,
Nə mən denim, nə sən, dilbər!

Mina qəddin zəbərcəddi,
Nə desən cana minnətdi,
El köçüb, otaq xəlvətdi,
Gəlsən alam busən, dilbər!

İtirmişəm maralımı,
Bir sinəsi yaralımı,
Gündüz səbri-qərarımı,
Gecə yuxum kəsən dilbər!

Qurbani özünə bəydi,
Yar həsrəti qəddim əydi,
Nə dedim xətrinə dəydi,
Bu mən dilbər, bu sən dilbər!

## ALDATDI MƏNİ

Ay ağalar, ay qazılar,
Yar yaman aldatdı məni.
Əl atdım yarın dəstinə,
Bir kənara atdı məni.

Tor qurdum çeşmim gölünə,
İlişdi sonam telinə,
Düşdüm dilbilməz əlinə,
Aldı, ucuz satdı məni.

Qurbanidi mənim adım,
Adəm atadı bünyadım,
Çahar atdım, şeş oynadım,
Yenə fələk uddu məni.

## GƏLDİM

Yar, səni ədalət bildim,
Mən qapına dada gəldim.
Çox cəfa çəkdim yolunda,
Ömür verdim bada, gəldim!

Ləbin içib çeşmim qanı,
Olmuşam cəllad qurbanı,
Qoynundu əttar dükanı,
Nə əcəb bu, dada gəldim!

Qurbanidi mənim adım,
Mövlamdan aldım muradım,
Sinəndi müjdəm, baratım –
Şəkərə, nabata gəldim!

## GÜLƏ-GÜLƏ

Girdim yarın bağçasına,
Dedim dərdim gülə-gülə.
Mən ona elə müştağam,
Necə bülbül gülə, gülə.

Naşı bağban, satma gülü,
Haramdı ağçası, pulu,
Küsdürdün şeyda bülbülü,
Daha gəlməz gülə, gülə.

Qurbaniyəm irməmişəm,
Yar qəsrinə girməmişəm,
Belə cəllad görməmişəm,
Aldı canım gülə-gülə.

## GÖZ DƏYƏR SƏNƏ

Sallana-sallana gələn Salatın,
Gəl belə sallanma, söz dəyər sənə.
Al, yaşıl geyinib durma qarşıda,
Yayın bədnəzərdən, göz dəyər sənə.

Getmə, getmə, görüm kimin yarısan,
Hansı bəxtəvərin vəfadarısan,
Kölgədə bəslənmiş quzey qarısan,
Səhərin yelləri tez dəyər sənə.

Qurbani der, heç kəs yarın öyməsin,
Düymələ yaxanın çarpaz düyməsin.
Dəstələ zülflərin yerə dəyməsin,
Yollar qubarlanar, toz dəyər sənə.

## BƏNÖVŞƏNİ

Başına döndüyüm, alagöz Pəri,
Adətdi dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə dər dəstə bağla,
Tər buxaq altına düz bənövşəni.

Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşıq ağlın itirmiş.
Mələklərmi dərmiş, göydən gətirmiş,
Hayıf ki, dəriblər az bənövşəni.

Başına döndüyüm, bağa gəl, bağa.
O gözəl hüsnündən bağa nur yağa.
Dərib dəstə-dəstə taxar buxağa,
Bənövşə qız iylər, qız bənövşəni.

Qurbaniyəm, könlüm bundan sayrıdı,
Neynəmişəm yarım məndən ayrıdı?!
Ayrılıqmı çəkib boynu əyridi,
Heç yerdə görmədim düz bənövşəni.

## SEVİNSİN

Ay ağalar, bu dünyanın üzündə,
Təzəcə açılan güllər sevinsin!
Bir başı çalmalı, xumar gözlünün,
Zülfünü dağıdan yellər sevinsin!

Gəlsin bahar fəsli, açılsın yazlar,
Göllərə tökülsün ağ quba qazlar,
Bəyzadə oğlanlar, xanzadə qızlar,
Yar ilə danışan dillər sevinsin!

Qurbaniyəm, mən sevərəm Narıncı,
Yar-yar deyib oldum axır zarıncı.
Almanı, heyvanı, narı, turuncu,
Bu  dördünü dərən əllər sevinsin!

## KƏNARINDA

Bu gün bir gözəlin seyrinə vardım,
Əlində şanası tel kənarında.
Halqa-halqa, qıvrım-qıvrım, çinbəçin,
On dörd hörük gördüm bel kənarında.

Qapına gəlmişəm sayılam, sayıl,
Haq verən paylara olmuşam qayıl,
Pərimin boynunda heykəl-həmayıl,
Ləl-bazubənd düzüb qol kənarında.

Qurbani der, mənim sözüm düzgündü,
Yar əlindən yazıq canım üzgündü,
Baxdım, yarın gözü mənə süzgündü,
Bir cüt öpüş aldım yol kənarında.

## DOĞRU

Nə ola, bir şadlıq xəbəri gələ,
Yüklənə barxanam ellərə doğru.
Naşı ovçu bərə bəklər, əylənər,
Marallar sayrışar çöllərə doğru.

Səhərdən yüklənir nazlımın köçü,
Cənnətülməvadır qoynunun içi,
Əbrişin telləri, mürəssə saçı,
Hərdəm səfa qılar bellərə doğru.

Sevdiyimin gürcü imiş atası,
Əskik olmaz qoç igidin xatası.
Qaşı kaman, sinəm onun butası,
Qatı yay çəkilir qollara doğru.

Bağçalarda qurudulur barama,
Naşı təbib, məlhəm etmə yarama.
Dedim: Pərim, zülflərini darama,
Könül gəşt eyləyər xallara doğru.

Qurbani der: Naləm yandırır daşı,
Üstümə gəlməsin təbibi-naşı.
Ümmana dönəndə gözümün yaşı,
Axıban tökülər sellərə doğru.

## VERMƏRƏM SƏNİ

Başına döndüyüm, ay Pərizadə,
Can içində cana vermərəm səni.
Neynirəm bostanı, neynirəm bağı,
Yüz bağa, bostana vermərəm səni.

Dağlarda maralsan, çöllərdə ceyran,
Ordubad, Naxçıvan boyuna heyran.
Tamaşaya gələr cəmi Gülüstan,
Külli Dağıstana vermərəm səni.

Qurbani der, can içində can gələ,
Yaş yerinə gözlərimdən qan gələ.
Camalın görməyə Süleyman gələ,
Təxti-Süleymana vermərəm səni.

## YADİGARIDI

Bir Pəri sevmişəm, sizin ellidi,
Gözəlliyi hamılara bəllidi.
Şux göz, mina gərdən, incə bellidi,
Gecə-gündüz işim ahu-zarıdı.

Əcaib gözəldi, nə xoş dilbərdi,
Cəmalına cümlə aləm əfzəldi.
Ağzında dişləri ləlü gövhərdi,
Sinəsi dağların təzə qarıdı.

Qurbani der, zülfün ucu xəyətdi,
Qurandakı qulhuvəllah əhətdi.
Desələr sərində bu nə halətdi?
De ki, bir Pərinin yadigarıdı.

## XOŞ GƏLDİN

Bu gün nə xoş gündü, nə xoş saatdı,
Qədəm basdın, Pəri xanım, xoş gəldin!
Ləblərin aşiqə abi-həyatdı,
Təzələdin ruh-rəvanım, xoş gəldin!

Gözlərin nərgizdi, hüsnün mahtaban,
Açılıb gül, süsən, sünbül, ərğəvan.
Zanbağı, yasəmən, bərgi-ireyhan,
Fəsli-bahar gülüstanım, xoş gəldin!

Şad elədin Qurbaninin didarın,
Həsrətin çəkirdim sən kimi yarın.
Saldın bağa külli cəmi dostların,
Gözəllər şahvarı canım, xoş gəldin!

## LƏBLƏRİN

Ey gözəl, tellərin yıxdı evimi,
Bürünmüşdür al dodağa ləblərin!
Rahat qoymur  bir dəm xumar gözlərin,
Salmış məni dağa, daşa ləblərin!

Şerü-qəzəl mən söylərəm şanına,
Olsun varım qurban sənin canına,
Mən yetiməm, bir al məni yanına,
Gəlsin onda kef, damağa ləblərin!

Şipşirindir dilin, sinən yeməli,
Sana Leyli, Əsli, Şirin deməli,
Ağ bədənsən, incə bel, gül məməli,
İşıq salır al yanağa ləblərin!

Tər qönçəsən, əgər xarın olmasa,
Bir laçınsan, sarı, sarın olmasa,
Mənim kimi can-nisarın olmasa,
Düşər ol dəm çox sorağa ləblərin!

Olsun fəda mülkü-malım zülfünə,
Çəkər məni dərd, xəyalım zülfünə,
Heyran oldum mən, a zalım, zülfünə,
Qoymur ancaq danışmağa zülflərin!

Qurbani der: bəsdir məni puç etdin,
Aldın əqlim əldən, dəli, gic etdin,
Zəhmətimi, həm səyimi heç etdin,
Axır saldı Qaradağa ləblərin!

## AÇILMIŞ

Pərimin bağında seyran eylədim,
Sanasan bağçada güllər açılmış.
Çıxardım könüldən dərdi, qübarı,
Xoş göftarlı şirin dillər açılmış.

Sifətdə Züleyxa – yarı Yusifin,
Xubların xubusan, eylərəm vəsfin,
Boyu uzun, beli incə məhbubun,
Buxağında gözəl xallar açılmış.

Hasil oldu Qurbaninin diləyi,
Tanımaram nə sultanı, nə bəyi,
Mirvari qolbağı, bəyaz biləyi,
Dal gərdəndə siyah tellər açılmış.

## EYLƏDİ

Bir Pəri sevmişəm sizin ellərdə,
Məni camalına heyran eylədi.
Bunca bir gözəli bulmadı könül,
Gəzdi bu cahanı, seyran eylədi.

Əsli şahzadədi, ismidi Pəri,
Yolunda qoymuşam can ilə səri.
Bir təklif eylədi, getdim içəri,
Dindirdikcə könlüm xəndan eylədi.

Gümüş piyaləlim, altun ayaqlım,
Sürahı gərdənlim, qaymaq dodaqlım.
O ceyran yerişlim, ayna qabaqlım,
Qurbani der, məni candan eylədi.

## ABBAS TUFARQANLI

***XVII yüzillikdə yaşayıb yaratmış Haqq aşığıdır. Təbriz yaxınlığındakı Tufarqan elindən olduğu üçün «Tufarqan Abbas» və ya «Abbas Tufarqanlı» adı ilə tanınmışdır. Aşıq şeiri şəkillərindən böyük məharətlə istifadə edərək təkrarsız poetik örnəklər yaratmışdır. Dörd yüzdən çox aşıq şeirinin cəmləşdiyi «Abbas və Gülgəz» dastanı poetik mətn çeşidlərinin zənginliyinə görə saz havalarının əksəriyyətini çevrələmək imkanı ilə nəzər-diqqəti cəlb edir. Abbas Tufarqanlının şeirləri lirik-romantik ovqatı, yüksək obrazlılığı, zəngin dil gözəllikləri, dərin ustad öyüdləri və mükəmməl fəlsəfi-ürfani ümumiləşdirmələri, məhəbbətin tərənnümü və gözəlləmələri ilə özünəməxsus sənət ucalığında durur.***

### NEYLƏR

Nazlı yarın qəmər hüsnü,
Ay, günü, tələti neylər?
Yarın ləbindən bal əmən,
Şəkəri, şərbəti neylər?!

Ağladıban gülən olsa,
Eynim yaşın silən olsa,
Bir yar ki, dərd bilən olsa,
Qaş, göz, işarəti neylər?!

Qara zülfü kəmənd olan,
Ləbləri dolu qənd olan,
Başdan-ayağa bənd olan,
Zinəti, sərvəti neylər?!

Çıxıb təxt üstə oturan,
Ağ üzdən busə götürən,
Abbası yara yetirən,
Kəbə, ziyarəti neylər?!

## BƏNZƏR

Pəri, sənin püstanların,
Heç bilmirəm nəyə bənzər.
Biri yasin surəsinə,
Biri əlif-beyə bənzər.

Biri mimdi, biri cimdi,
Onları xəlq edən kimdi?
Biri səhər doğmuş gündü,
Biri bədir aya bənzər.

Biri Alxatın alması,
Biri Bağdadın xurması.
Biri şəkərin xırdası,
Biri şamamaya bənzər.

Mən Abbasam, ağlım çaşır,
Qolların boynumdan aşır.
Qızıl taxt üstdə boylaşır,
Bir cüt şahzadəyə bənzər.

## GÜLGƏZ İNDİ

Atasınnan, anasınnan,
Gül gəzindi, gül gəzindi.
Atasınnan, anasınnan
Gül, gəz, indi, gül, gəz, indi.

Yarı ağ libada gördüm,
Yarı ağlı badə gördüm,
Yarı ağlı bada gördüm,
Gülgəz indi, Gülgəz indi.

Sən məni ağlama da gör,
Sən məni ağlamada gör,
Sən məni ağlamada gör,
Gülgəz indi, Gülgəz indi.

Bu işdə əyandı Abbas,
Bu iş də dayandı Abbas,
Bu iş də də yandı Abbas,
Gül, gəz indi, gül, gəz indi.

## İNCİMƏSİN

Qədəm qoyub yar yanına gələndə,
Elə gəl, elə get yol inciməsin.
Şəkər ləblərindən mənə busə ver,
Dodaq tərpənməsin, dil inciməsin.

Dərildi bostanlar, boş qaldı tağlar,
Könül istədiyin verməsən ağlar,
Ağ sinən üstündə darayı bağlar,
Heykəl arasından sal, inciməsin.

Bülbül fəğan eylər gül həvəsindən,
Qoşa nar asılıb yar sinəsindən,
Elə gəl, elə get bağ-bərəsindən,
Bülbüllər hürküşüb gül inciməsin.

Gözəllər içində sən qızıl güllər,
Dolansın başına şeyda bülbüllər,
Əsmə, səba yeli, titrəmə, çöllər,
Cığalar tərpənib tel inciməsin.

Abbas deyər: Ağlayanlar güləndə,
Nazlı yar soruşub halım biləndə,
Mərhəmət eyləyib bizə gələndə,
Elə gəl, elə get yol inciməsin.

## TƏZƏ-TƏRDİ

Könül bir cananın sevdasındadı,
Cismdə insandı, mahi-ənvərdi.
Boyunu arzular bağçada bülbül,
Bilmirəm susəndi, ya sənubərdi.

Sevdiyimin hüsnü qüreyşin nuri,
Kənanın Yusifi, Çinin fəqfuri.
Deyirlər behiştdə çox olur huri,
Onlar da köhnəlib, yar təzə-tərdi.

Çoxu aşıqlığı asan şey sandı,
Cəfasını gördü, çox tez usandı.
Abbas bir pərinin oduna yandı,
Görənlər dedilər: bax, səməndərdi.

## SƏNİ

Başına döndüyüm, ay Əsmər xanım,
Nə göyçək yaradıb yaradan səni.
Mənim meylim sənnən belə ki, xoşdu,
İstəməm gedəsən buradan səni.

Gəlmə xoryat, yarı yolda qalarsan,
Seyrəqib əlində zəlil olarsan,
İki dostu bir-birinnən salarsan,
Görüm haqq götürsün aradan səni!

Gözəllər içində bəsli, bəllisən,
Tərlan cilvəlisən, yüz xəyallısan,
Ağ sinəsi bir cüt qoşa xallısan,
Görcəyin tanıdım oradan səni.

Gözəllikdə sənin əvəzin hanı?
Hüsnünü bəxş edib kərəmin kanı.
Dağların maralı, çölün ceyranı,
Ovçular keçirməz bərədən səni.

Haqq da bilir Adəm ata zatıyam,
Göyü bilməm, yerin yeddi qatıyam.
Şikəstə Abbasam, xərabatıyam,
Könül, heç görmədim abadan səni.

## OYNAR

Başına döndüyüm alagöz Pəri,
Geyinmiş yaşılı, alınan oynar.
Cəvahir mətahı, dürr xiridarı,
Tutubdu dəstindələlinən oynar.

Sevdiyim əyninə geyibdi ağı,
Çəkibdi sinəmə düyünü, dağı.
Zülfün əncəbini eylər məzağı,
Ağ üzdə münəvvər xalınan oynar.

Ay Abbas, Pərinin bu şux işləri,
Yorğun maral kimi xoş baxışları.
İncidən, sədəfdən, dürdən dişləri,
Qaymaq dodaqları balınan oynar.

## GÜL, PƏRİ
***(təcnis)***

Nə gülürsən, mənim kimi gülüncə,
Sən mənə gülüncə, dərdə gül, Pəri!
Alişan otaqda, zərnişan bağda,
Süsəni, sünbülü dər də, gül, Pəri!

Bir zaman gəzirdik Təbrizdə dağı,
Sinəmə çəkirsən dağ üstdən dağı.
Bənd edibsən mənim kimi dustağı,
Sən məni qoyubsan darda, gül, Pəri!

Abbas gətirildi dar ayağına,
O qulaş qolların sal ayağına.
Qanından xına yax əl-ayağına,
İndi mənim kimi mərdə gül, Pəri!

## ƏL AMAN

Başına döndüyüm, a Gülgəz Pəri,
Əmərlər dilini, aman, əl aman!..
Badi-səba mənlə yaman yağıdı,
Dağıdar telini, aman, əl aman!..

Kəsmə ala gözün siyah sürməsin,
Seyrəqiblər qönçə gülün dərməsin.
Pünhan danış, bədnəzərlər görməsin,
Kəsərlər dilini, aman, əl aman!..

Hərdən sən Abbası yada salanda,
Dindirib, söylədib, könlün alanda,
Əbrişim saçların səcdə qılanda,
İncidir belini, aman, əl aman!..

## GƏLİR

Yar geyinib yaşılından, alından,
Elə bildim sonam bu, sudan gəlir.
Müjgan atdı, dəydi, keçdi sinəmdən,
O cadu qəmzələr, busudan gəlir.

Örtübən başına şalı-zər gəzər,
Abıdan nimtənə, qızıl düymələr,
Yaraşır belinə zərbafdan kəmər,
Çəpkənli, çarqatlı buy sudan gəlir.

Abbasam, çəkərəm aman-amana,
Nə ola yetəydi əlim canana.
Qoynu içi dönüb tazə bostana,
Sərxoş sevdiciyim bu sudan gəlir.

## YÜZ İLƏ

Qadir mövlam, budur səndən diləyim,
Görüm yarın ömrü yetsin yüz ilə.
Artıq ola malı, mülkü, dövləti,
Altmış nəri bir qatara düzülə.

Sədəf incə, dodaq incə, dil incə,
Canım çıxdı yar könlünü alınca.
Ölüm yeydi bu dünyada qalınca,
Bir igid ki, qatarından üzülə.

Qaşlarına çəkilibdi bil, qələm,
Ağız davat, göz mürəkkəb, dil qələm,
Yalan desəm çək gözümə mil, qələm,
Sənəd verrəm, qulun ollam yüz ilə.

Abbas deyər: Dildəki hərf neçədir?
Neçə gövhər, neçə ləl,  neçə dürr?
Sanamadım zülfün muyu neçədir,
Qorxuram ki, şanə dəyə, üzülə.

## ÖP

Könül, Məcnun kimi yayın dağlara,
Əyil bu lalənin budağından öp!
Pərvanə tək dolan yarın başına,
Arala tellərin, qabağından öp!

Almaq olmaz nanəcibin qızını,
Çəkmək olmaz bədəsilin nazını.
O üzünü, bu üzünü, gözünü,
Dilindən, dişindən, dodağından öp!

Kitabda oxunan Sina yaxşıdı,
Seyrəqib gərdəni sına yaxşıdı.
Mən dedim: Öpməyə sinə yaxşıdı,
Könül ha yalvarır buxağından öp!

Bağçalar titrəşir bardan ötəri,
Almadan, heyvadan, nardan ötəri.
Abbas, ağlayardın yardan ötəri,
Dur Şahi-Mərdanın ayağından öp!

## AY BU YANDA DUR

Başına döndüyüm, alagöz Pəri,
Apardın ağlımı, ay bu yanda dur!
Ağıl başda olmaz, ruh da bədəndə,
Eylədin tarımar, ay bu yanda dur!

Halaldandır mayam, bulunmaz haram,
Qırxlar məclisində mən orda varam.
Seyrəqib adamla heç olmaz aram,
Şeytandı, felindən, ay bu yanda dur!

Abbasam, dövranım ay belə keçdi,
Dolandı ruzigar, ay belə keçdi.
Sallandı bir Pəri, ay belə keçdi,
O səbəbdən dedim, ay bu yanda dur!

## PƏRİMİN

Mən gəlirdim Tufarqanlı elindən,
Yolum düşdü obasına Pərimin.
Salam verdim, əleyk aldı salamım,
Qonaq oldum babasına Pərimin.

Pərim təklif etdi çaşta düşməyə,
Su istədim, şərab verdi içməyə,
Könül quşu pərvazlanıb uçmağa,
Uçar, qonar cığasına Pərimin.

Dal gərdənə tökülübdür hörmələr,
Mina kəmər incə belə bürmələr,
Atlas qofta üstə qızıl düymələr,
Düzülübdür yaxasına Pərimin.

Qul Abbasam, gəldim burda qalmağa,
Saralıban heyva kimi solmağa,
Cəfa çəkib belə gözəl almağa,
Əcəb düşdüm sevdasına Pərimin.

## GÖZ ALA
*(cığalı təcnis)*

Bir gözəlin şövqü düşüb cahana,
Yoxdur sənin kimi gözəl, göz ala.
        Mən aşiqəm Cahana,
        Canım qurban Cahana.

Haqqın əziz bəndəsi,
Xoş gəlmisən cahana.
Yaradıb yaradan salmış cahana,
Yoxdu sənin kimi gözəl, göz ala.

Bağbansan  bağa bax, bağ işini gör,
Bağ bəslə, bağ becər, bax, işini gör,
Aşıq, bax, işini gör,
Bağa bax, işini gör.
Nə yatdın, kamil ovçu,
Maralın baxşını gör.
Hələ sən tərlanın baxışını gör,
İstəyir canımı gözəl göz ala.

Abbas deyər: Mən qurbanam sənə yar,
Uzun boylu, tuti dilli sənə yar.
Mən aşiqəm sənə yar,
Sənəd verdim sənə yar.
Qərib aşıq, qürbət el,
Canım aldın sən, a yar.
Dolandım dünyanı neçə sənə yar,
Görmədim sən kimi gözəl, göz ala.



## SARI AŞIQ

***Sarı Aşıq XVII yüzilliyin saz-söz sənətkarıdır. El arasında yayılmış rəvayətlər onun əsl adını müxtəlif şəkillərdə təqdim edir: Abdulla, Abduləli, Sarıca Nəbi, Qərib və s. Əslən Anadolunun Qaraman elindən olub, sonradan Qaradağ mahalına, oradan isə Zəngəzura köçmüş, Güləbirt adlı yerdə yaşamışdır. Peşəkar aşıqlıq fəaliyyəti ilə məşğul olması barədə konkret məlumat yoxdur. Sarı Aşıq bayatı ustadı kimi məşhurlaşmış, bununla belə bir sıra qoşma və gəraylıları da olmuşdur. Yaxşı adlı bir qızı sevmiş, onların uğursuz sevgi hekayəti «Aşıq və Yaxşı» dastanına çevrilmişdir. Sarı Aşığın bayatıları böyük əksəriyyətlə cinaslı və müəyyən rəvayətə bağlı olan poetik örnəklərdir. Bir sıra bayatıları gözəlləmə səciyyəsi daşıyır.***

### BAYATILAR

Zülfün suda mar kimi,
Oynar su damar kimi.
Sızıldatdın Aşığı
Yağa su damar kimi.

Mən Aşıq dolan bağı,
Gəz bağı, dolan bağı.
Zülfündən öyrənmişəm
Boynuna dolanmağı.

Arazın altı novlar,
Bəy gələr, altın ovlar.
Bəxtəvərdi zülflərin,
Buxağın altın ovlar.

Mən aşıq qara baxdım,
Ağ baxdım, qara baxdım.
Sinən yadıma düşdü,
Dağlarda qara baxdım.

Mən aşıq, yara bağlar,
Yar meylin yara bağlar.
Yaramı yar bağlasın,
Yar yaxşı yara bağlar.

Aşıq yaxşı dan gözlər,
Mürgün yaxşı dən gözlər.
Baxdıqca şirin düşər,
Doymaz Yaxşıdan gözlər.

Sənin süzgün gözlərin,
Qəmdən üzgün gözlərin.
Yaxşıdan doymaz, Aşıq
Baxsa yüz gün gözlərin.

Mən aşğam dəryalar,
Keçdim gəldim dəryalar.
Bəxtəvər zülfün ucu
Ağ buxaqdan tər yalar.

Mən aşıq o bahanı,
El hanı, oba hanı?!
Zülfünə can vermişəm.
Kim verər o bahanı?

Mən aşıq yan dursun,
At oxunu, yan dursun.
Zülfünə qadağa qoy,
Ağ üzündən yan dursun.

## AŞIQ ÖMƏR
***(1621-1707)***

***Kırım-tatarlarının görkəmli aşığıdır. Gözləvə (indiki Yevpatoriya) şəhərində anadan olmuşdur. Təxminən səkkiz ilə yaxın Qafqazda, Kiçik Asiyada yaşamışdır. Şeirləri Azərbaycan aşıqlarının repertuarında bu gün də mühüm yer tutur. Özbəkistanda ustad sənətkarın iki cildlik şeirlər kitabı çap olunmuşdur.***

### QISQANIRAM

Gəl, dilbərim, qan eyləmə,
Səni qandan qısqanıram.
Doğan aydan, əsən yeldən,
Səni gündən qısqanıram.

Təbibim, zəhm ilə baxma,
Qulunu odlara yaxma.
Yanağına güllər taxma,
Səni güldən qısqanıram.

Haldan anlar haldaşım var,
Yola gedər yoldaşım var,
Üç yaşında qardaşım var,
Səni ondan qısqanıram.

Ömər deyər, viran yurdam,
Səndən ayrı köhnə dərdəm,
Sən bir quzu, mən bir qurdam,
Səni məndən qısqanıram.

## NAZINAN

Bu gün gözəllərin şahı,
Gəlib keçdi min nazınan.
Seyr eylədim ay üzünü,
Gülüb keçdi min nazınan.

Dinlədim şirin kəlamın,
Tanrının ali salamın,
Görübən kəmtər qulamın,
Baxıb keçdi min nazınan.

Qəzəblənsə çatar qaşın,
Zar edər aşiqin işin.
Rəhmə gəlib çeşmin yaşın,
Silib keçdi min nazınan.

Busə dilədim dilbərdən,
Min nəzər eylədim yerdən,
Ömərin ağlını sərdən,
Alıb keçdi min nazınan.

## SƏN KİMİNSƏN

Sığallanıb seyrangaha,
Çıxan dilbər, sən kiminsən?
Siyah zülfün mah üzünə,
Tökən dilbər, sən kiminsən?

Baxdım gözünə, qaşına,
Bənzətdim hüma quşuna.
Məni hicran atəşinə,
Yaxan dilbər, sən kiminsən?

Payinə üz sürtən qullar,
Dəmbədəm mədhini söylər,
Al yanaq üstünə güllər,
Taxan dilbər, sən kiminsən?

Seyr edər, gedər bostanə,
Bülbül qonar gülüstanə,
Bizə məstanə-məstanə,
Baxan dilbər, sən kiminsən?

Aşıq Ömər, yarə varma,
Gedib təmənnadə durma.
Xumar  gözə siyah sürmə,
Çəkən dilbər, sən kiminsən?

**YARASIDIR**
***(güllü  qafiyə)***

Dedim: -Dilbər, yanaqların qızarmış.
Dedi: -Çiçək taxdım, gül yarasıdır.
Dedim: - Danə-danə olmuş xalların.
Dedi:- Zülfüm dəydi, tel yarasıdır.

Dedim:-Dilbər, sənə yazıldı qanım.
Dedi: -Neyçün elə dersən, sultanım?
Dedim: - Kimlər sardı incə əndamın?
Dedi: - Özün sardın, əl yarasıdır.

Dedim: -Bu Ömərin ağlını aldın.
Dedi: - Sevdiyinə peşmanmı oldun?
Dedim: - Gözəl, neyçün saralıb soldun?
Dedi: - Çəkdiyim dərd dil yarasıdır.

## GÖZƏL BİR CANANA KÖNÜL DÜŞÜRDÜM

Gözəl bir canana könül düşürdüm,
Aldı məni qaşlarının arası.
Hüsnü camalından ağlım çaşırdım,
Yaradan Tanrıya qaldı çarəsi.

Sevgili cananım güldən nazikdir,
Çəkmişəm nazını bağrım əzikdir,
Gözəlim, cəfandan tənim bezikdir,
Gülə-gülə gəl, ey canım parası.

Telli durnam dilə gəlib bax deyir,
Yerdə, göydə düşmənlərin çox deyir,
Nə qaçırsan, səndən ayrı yox deyir,
Bəyaz gərdanında dişlər yarəsi.

Aşıq Ömər der ki, eşqə yanaram,
İçib eşqin şərabını qanaram.
Qibləm haqdır, yönüm sənə duraram,
Mehrabındır iki gözüm arası.



## ORDUBADLI KƏRİM

***XVII yüzillikdə Naxçıvan saz-söz mühitinin yetirdiyi nadir istedadlardandır. Ordubad mahalında anadan olmuşdur. “Kərim və Süsən” dastanı onun adı ilə bağlıdır. Bu dastana “Ordubadlı Kərimin nağılı” da deyirlər. Haqqında müxtəlif səpkili rəvayətlər, əhvalatlar dolaşmaqdadır. Əlimizdə olan poetik örnəkləri onun yüksək istedadının göstəricisidir.***

### İNCİMƏSİN

Asta dolan, asta yeri,
Nazlı yarım inciməsin.
Qol salım incə boynuna,
Nazlı yarım inciməsin.

Geyinibdi zərü ziba,
Üzünə çəkibdi rüba.
Gəzir bağı tuba-tuba,
Nazlı yarım inciməsin.

Kərim deyər, gəl barışaq,
Şirin-şirin bir danışaq,
Dodaq-dodağa qarışaq,
Nazlı yarım inciməsin.

### DOLAŞDI

Səhər-səhər günəş seyran edəndə,
Uçdu şeyda bülbül, gülə dolaşdı.
Demə, çiçəklərə qonan şəfəqdir,
Bəyaz şanə siyah telə dolaşdı.

Sən ki, eşqə düşdün, de, olan oldu,
Könül şəhərində çox talan oldu,
Yarın hörükləri bir ilan oldu,
Qıvrılıban incə belə dolaşdı.

Kərim sultan oldu, çox kərim dedi,
Süsənə düşmüşdür şakərim dedi.
O qədər ağlayıb dilbərim dedi,
Çeşmimin içində gilə dolaşdı.



## XƏSTƏ QASIM

***Təbriz yaxınlığındakı Tikmədaş qəsəbəsində yaşamışdır. Tikmədaş qəbiristanlığında məzarının üstündəki qəbir daşından onun 1702-ci ildə doğulub 1778-ci ildə vəfat etdiyi məlum olur. Şirvan, Dağıstan, Ərdəbil və Urmiyaya səfərləri barədə bilgilər şeirlərində və haqqında yaradılmış dastan-rəvayətlərdə öz əksini tapmışdır. Nadir şah Əfşarın Dağıstana yürüşü zamanı (1743-cü il) məşhur söz ustadı Ləzgi Əhmədlə üç gün deyişməsi haqqında əhvalatlar xalq arasında bu gün də yaşamaqdadır. Savadlı olduğu üçün el arasında «Molla Qasım» adı ilə də tanınmışdır. Ərəb və fars dillərini bilmiş, Quranın ən mötəbər hafizlərindən sayılmışdır. Aşıq şeiri şəkillərinin yeni və mürəkkəb çalarlar qazanmasında bu böyük sənətkarın müstəsna rolu olmuşdur. Təcnis çeşidlərinin bir çox yeni örnəkləri məhz Xəstə Qasımın adı ilə bağlıdır. Əzəmətli söz sərrafının yaratmış olduğu bir çox müəmma və qıfılbəndlər indinin özündə də açılmamış qalır.***

### EYLƏRSƏN

Gözəl, səndə nə qaydadır,
Gedəni yoldan eylərsən.
Salarsan eşqin oduna,
Ulusdan, eldən eylərsən.

Mən ha billəm sən əttarsan,
Qənd ilə noğul satarsan.
Dəryalara tor atarsan,
Sonanı göldən eylərsən.

Gözəl, nə bildin halımı,
Əyibsən qəddü dalımı.
Mən Qasıma bu zülümü,
Kim eylərdi, sən eylərsən.

## YAR DÜŞDÜ, YAR DÜŞDÜ

Ay həzarat, ay camaat,
Dağa qar düşdü, qar düşdü.
Özüm qaldım qürbət eldə,
Yada yar düşdü, yar düşdü.

Gedin deyin anasına,
Sığal versin sonasına.
Yar, sinənin arasına
Bir cüt nar düşdü, nar düşdü.

Xəstə Qasımı qəm basdı,
Yar bizi zülfündən asdı.
Şeyda bülbül güldən küsdü,
Gülə xar düşdü, xar düşdü.

## BAŞINA DOLANDIĞIM

Yaxşı olur qohum, qardaş,
El, başına dolandığım.
Harda görsən yara yalvar,
Dil, başına dolandığım.

Budur gəldi bahar vaxtı,
Sinəm oldu yarın taxtı,
Soyuldu bülbülün raxtı,
Gül, başına dolandığım.

Qaşların qurar divanı,
Taxtdan salar Süleymanı.
Xəstə Qasımın canını
Al, başına dolandığım.

## SƏNƏM, GƏL

Tərifli gözəllər gəlhagəl oldu,
Yaşıllı, zərbaflı, allı Sənəm, gəl!
Ovçunu görəndə maral baxışlı,
Ay üzü birçəkli, xallı Sənəm, gəl!

Aşıq odur, bir söz desin özündən,
Aləm bada gedər ala gözündən,
Danışanda şəkər damar sözündən,
Qaymaq dodaqları ballı Sənəm, gəl!

Xəstə Qasım deyər: Hənək hənəkli,
Ağ üzündə qoşa xallar bənəkli,
Atlas nimtənəli, ipək köynəkli,
Üstü-başı tirmə şallı Sənəm, gəl!

## QURBANI

Qəriblikdə mənə həmdəm olan yar,
Bir bəri gəl, ayaqların qurbanı.
Şikəstə könlümə məlhəm olan yar,
Dilin, dişin, dodaqların qurbanı.

Könlüm istər yara qurban olmağa,
Dolanıb başına heyran olmağa,
Ala gözlü yara mehman olmağa-
Fərş döşənmiş otaqların qurbanı.

Xəstə Qasım, sən yolundan azarsan,
Məcnun kimi səhraları gəzərsən.
Ala gözlü yara namə yazarsan,
Qələmdanın, barmaqların qurbanı.

## GÜLÜ MƏNDƏN ALINCA

Ay ariflər, bir tərlanım uçubdur,
Sağ əlimdən sol əlimə alınca.
Onu tutan xeyrü bəhrin görməsin,
Mən yazığın naləsi var dalınca.

Gümüş kəmər bağlayıbdı belinə,
Danışdıqca mail oldum dilinə,
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı gülü məndən alınca.

Alimdən dərs aldım əlif- bey üçün,
Surahilər düzülübdür mey üçün,
Dəli könlüm, qəm çəkirsən nə üçün,
Qəmli günün şad günü var dalınca.

Xəstə Qasım vədə verdi yüz ilə,
Yaşılbaşlar göldən-gölə düzülə,
Bir igid ki, qatarından üzülə,
Ölüm yeydir bu dünyada qalınca.

## OLA

Bir gözəl sevəsən boyu tamaşa,
Görən kimi könül ona bənd ola.
Gözəlliyi, gül camalı bir yana,
Dil-dodağı şəkər ola, qənd ola.

Bir gözəl sevəsən qaməti bəstə,
Görəndə aşiqi eyləyər xəstə,
Çoxdan axtarıram bir elə kəs də,
İşarə anlaya, dərdimənd ola.

Mən Qasımam, əl götürdüm canandan,
Canan qarşı gəlsə keçərəm candan,
Rəngi artıq ola güldən, reyhandan,
Zülfləri boynuna bir kəməd ola.

**TƏR GÜLƏR, SƏNƏM**
***(döşəmə)***

Tər getdim tər yarın tər xanəsinə,
Tər mehman, tər eylər, tər gülər Sənəm.
Tər xubdur, tər şuxdur, tər nazənindir,
Tər deyər, tər söylər, tər gülər Sənəm.

Tər zülfün, tər bulmuş tər buxağında,
Tər bəyaz, tər əhmər, tər yanağında.
Tər şəkkər, tər damaq, tər dodağında,
Tər tutub, tər dişlər, tər gülər Sənəm.

Tər qəmzən, tər xədəng, tər sinəsində,
Tər atmış, tər peykan, tər sinəsində.
Tər asmış, tər narın, tər sinəsində,
Tər dəyməz, tər saxlar, tər gülər Sənəm.

Tər çeşmi, tər cadu, tər fitnəlidir,
Tər lalə tər dərib, tər tutmalıdır,
Tər miyan, tər gərdən, tər sonalıdır,
Tər durub, tər gəzər, tər gülər Sənəm.

Tər bülbül tər qonar tər budağında,
Tər Məcnun tər gəzər, tər bu dağında,
Tər lalə tər bitər tər budağında,
Tər Qasım, tər dərər, tər gülər, Sənəm!

## ABDALGÜLABLI AŞIQ VALEH
*(1722-1822)*

***XVIII əsrin görkəmli sənətkarlarından biridir. Qarabağın Gülablı kəndində ömür sürmüşdür. Adı Səfi, təxəllüsü Valehdir. Şeirlərindən də görünür ki, mükəmməl təhsilə yiyələnmişdir. Valeh aşıq yaradıcılığına gəlincəyə qədər dini elmləri, klassik ədəbiyyatı dərindən öyrənə bilmişdir. Kərbəla ziyarətinə getmiş, bu səbəbdən də el arasında həm də “Kərbəlayi Səfi” adı ilə tanınmışdır. Dövrünün ustadlarından olan Aşıq Səməddən sənət dərsi almışdır. Fitri istedadı və yaradıcı qabiliyyəti ilə erkən yaşlarından Qarabağda, ondan uzaqlarda məşhurlaşmışdır. Dərbənddə aşıq Zərnigarla deyişmiş, “Valeh və Zərnigar” bu səfərdən yaranmışdır. Aşıq Valeh böyük söz ustadı olmaqla bərabər, həm də saz havalarının istedadlı bəstəçisi olmuşdur. Onun barmaqlarından qopan “Baş Sarıtel”, “Orta Sarıtel”, “Qarabağ qaytağısı”, “Aran gözəlləməsi” havaları indi də aşıqların repertuarında geniş yer tutur.***

### OLUM

Bu duran bir cüt sonanın,
Hansına qurban mən olum?!
Süzgün baxıb can alanın,
Hansına qurban mən olum?!

Qəddi-qaməti dünyada,
Maşallah çəkər ustada.
Hər ikisi mələkzada,
Hansına qurban mən olum?!

İki təzə növcavanım,
Qəmzələri tökür qanım,
Valeh deyir, birdi canım,
Hansına qurban mən olum?!

## BU GƏLƏN BİR CÜT GÖZƏLİN

Bu gələn bir cüt gözəlin,
Yolunda qoymuşam səri.
Biri əcəb səfalıdır,
Birisinin adı Pəri.

Biri dağların qarıdır,
Biri bağçalar barıdır,
Küllü dünyanın varıdır,
Lərzəyə salıb sərsəri.

Valeh sevdi Zərnigarı,
Olar onun xidmətkarı,
Atsa üzündən niqabı -
Mat eylər şəmsü qəməri.

## BÜKÜLMÜŞ

Bu yer gözəlinə nabələd oldum,
Söz dedim, qurumuş dilə bükülmüş.
Xətayını görcək eylədim xəta,
Dürrü gövhər bir məndilə bükülmüş.

Səhər ikən mehman olduq bunlara,
Geyinib batıblar yaşıl allara.
Qızıl bazubəndlər şümşad qollara,
Gümüş kəmər incə belə bükülmüş.

Qurban olum ala gözün məstinə,
Süzgün baxıb girmə canım qəsdinə,
Əlim qoyum tər sinənin üstünə,
Darçına, mixəyə, hilə bükülmüş.

Nabələdəm ulusuna, soyuna,
Mina gərdəninə, uca boyuna.
Divanə Valehi sən al qoynuna,
Elə bil ki, bülbül gülə bükülmüş.

## BİR QIZ İLƏ BİR GƏLİNİN BƏHSİ VAR

Bir qız ilə bir gəlinin bəhsi var,
Gəlin deyər: Bu gün meydan məndədi.
Qız da deyər: Açılmamış qönçəyəm,
Fəsli-bahar, bağı-reyhan məndədi.

Gəlin deyər: Ördəyim var, qazım var,
Şirin-şirin söhbətim var, sazım var,
Sallananda yüz qız qədər nazım var,
Həya, iman, ədəb, ərkan məndədi.

Qız deyər: Mən oxşamışam anama,
Ləlü mərcan düzülübdü tanama.
Əl vursalar tağdan qopar şamama,
Əl dəyməmiş tağı-bostan məndədi.

Gəlin deyər: Gəl qız, düşmə araya,
Gər mən ölsəm, aləm batar qaraya.
Bəzənərəm, sallam səni bəlaya,
Şövq salan camalü can məndədi.

Valeh deyər: İkinizə mən qurban,
Yolunuzda mən qoymuşam başla can.
Eyləməyin bu qəribi bağrıqan,
Sizdən ötrü çeşmi-giryan məndədi.

## XƏSTƏ HASAN

***Çıldır-Ağbaba aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. XVIII əsrin sonu XIX əsrin birinci yarısında yaşamışdır. Xəstə Hasanın yaşadığı dövrdə bölgədə Ürfani, Qul Qarani, Usta Polad, Küfdadi, Molla Xəlis, Aşıq Teyfi, Dəli Tammı və b. aşıqlar olmuşlar. Xəstə Hasan beş aşıqla – Aşıq Polad, Qul Qarani, Öməri, İrfani (Ürfani), Sefili ilə deyişmişdir. Xəstə Hasandan bəhrələnən Aşıq Nuru, Aşıq Şenlik, Aşıq Abbas, Aşıq Summani, Aşıq Mustafa, Aşıq Cebecili, Aşıq Zülalı, Aşıq İzani və b. bölgədə olduqca güclü bir mühit yaratmışdılar.***

***Gözəlləmə üstündə düzüb qoşduğu şeirlər Borçalı, Çıldır-Ağbaba və Qars aşıq mühitlərində geniş yayılmışdır.***

### OYNAMASIN

Geyinib-kecinib toya gedənlər,
Amanat, amanat qız oynamasın.
Cavandı oynamaq ona xoş gedər,
Yüngüllük eyləyib tez oynamasın.

Yad-yağılar əyri-üyrü baxarlar,
Ağ əllərə əlvan həna yaxarlar,
Töhmət edər, başımıza qaxarlar,
Kəlağay altından göz oynamasın.

Xəstə Hasan deyər: Alagöz yarım,
Sənə qurban olsun dövlətim, varım.
Demirəm oynamasın, oynasın yarım,
Ədalı-işvəli naz, oynamasın.

## QIZLARIN

Fəsli bahar, yaz ayları gələndə,
Açılar qoynunda gülü qızların.
Tumurcux-tumurcux tər buxağından,
Axar ləblərindən balı qızların.
Hürülərin, pərilərin eşisiz,
Bu qərib könlümün qəm yoldaşısız,
Əlli qızın, yüz gəlinin başısız,
Qucmağa yaraşır beli qızların.

Xəstə Hasan, öldüyümü bilsələr,
Səlib verib səlatımı qırsalar,
Məzarımı yol üstündə qursalar,
Gələndə uğrasın yolu qızların.

## GÖZƏLLƏR

Gözəllər dərgahına uğradım,
Birər-birər bəri varın, gözəllər.
Bəriyə varanda can təzələnir,
Haqq veribdi bu güzarı, gözəllər.

Kiminiz xınalar əzdirin üzə,
Kiminiz şəkərlər qatdırın sözə,
Üz tutub nəzərlər çevirin bizə,
Sevindirin dostu-yarı, gözəllər.

Xəstə Hasan deyər dürdü sözümüz,
Gözəllərdə qaldı iki gözümüz,
Baxa-baxa bir aşığa  üzümüz,
Yetirməyin zəhrimara, gözəllər.

## MAŞALLAH

Təzədən bir gözəl çıxdı aləmə,
Al yanağı, gül buxağı maşallah!
Onun gözəlliyin aldım qələmə,
Bədr sifət, ay camala maşallah!

İsmin Mələkdir, yoxsa Salatın,
Xətəmin zərnişan, sırması altun,
Qaldır niqabını aç, Güləbatın,
Dal gərdəndə sarı teli, maşallah!

Xəstə pir əlindən içibdi bada,
Gözəllər əlindən gedərəm dada,
Daha tərif olmaz bundan ziyada,
İndi baxdı gülə-gülə, maşallah.

## MUYLARIN

Mənim sonam cilvə verib özünə,
Darayıb gərdənə tökər muyların.
Görən həsrət, görməyənnər qiyamət,
Bu qədər sitəmə yetər muyların.

Şan verib şanədən, cığalı başdan,
Yan verib yanınnan, tökülüb döşdən,
Müjgan kirpiklərin o qələm qaşdan,
Enər dal gərdənə yatar muyların.

Xəstənin sevdiyi növbahar fəsli,
Binadan gözəldi onnarın nəsli,
Necə yaxdı xan Kərəmi xan Əsli,
Məni də yandırar betər muyların.

## VARXİYANLI MƏHƏMMƏD

***(təx. 1770-1860-cı illərin axırı)***

***Zaqatalanın Varxiyan (indiki Bəymətli) kəndində yaşamışdır. Atası din xadimi olmuşdur. Məhəmməd də ilk təhsilini Şəkidə mollaxanada almışdır. Beş il dini təhsil aldıqdan sonra Şuşaya getmiş, M.P.Vaqifin açdığı məktəbdə iki il təhsil almışdır. M.P.Vaqifin, M.V.Vidadinin təsiri altında şeirlər yazmışdır. Aşıq şeirinin müxtəlif şəkillərində qoşma, gəraylı, müxəmməs, divani və s. yaratmışdır. Onun şeirlərinin mühüm bir hissəsini gözəlləmələr tutur.***

### YAVAŞ GET

Sallanıban gedən dilbər,
Kərəm elə, yar, yavaş get.
Məni dərdə salan dilbər,
Kərəm elə, yar, yavaş get.

Gül dibini almasın xar,
Könlümə gətirmə qubar,
Sinəm döşə tamah qılar,
Ağ buxağı qar, yavaş get.

Məhəmmədəm, yaş tökərəm,
Yollarına göz dikərəm,
Müdam intizar çəkərəm,
Qəddi-qələmkar, yavaş get.

### SALDIN

Qulun ollam binalı yar,
Məni gözdən nədən saldın?
Dərdə dərman bilməz idin,
Məni gözdən nədən saldın?

Bağında gül bəyaz olmaz,
Olsa da yar rəngi solmaz,
Hərcayının andı olmaz,
Məni gözdən nədən saldın?

Ağ üzündə xaldan ötrü,
Ləbindəki baldan ötrü,
Bu puç olan maldan ötrü,
Məni gözdən nədən saldın?

Məhəmməd der: Dərdim çoxdu,
Sinəmə vurduğun oxdu.
Səndən qeyri yarım yoxdu,
Məni gözdən nədən saldın?

## SÖZ SƏNDƏN

Nazlı dilbər, gəl ixtilat eyləyək,
Sazı məndən, simi məndən, söz səndən.
Ərzimizi hansı yana yetirək,
Davat məndən, qələm məndən, yaz səndən.

Dilbər, mayıl oldum sənin oynuna,
Bəslə şamamalar, doldur qoynuna,
İzin olsa qolum salım boynuna,
Öpmək məndən, qucmaq məndən, üz səndən.

Məhəmmədəm, bizim bağa gələsən,
Siyah zülfü dal gərdənə salasan,
Mən ovçuyam, sən bir ceyran balasan,
Çəmən məndən, çiçək məndən, göz səndən.

## GƏLİN

Maral kimi bu dağları gəzirsən,
Ceyranın quzusu, sağısan gəlin!
Düşdüm məclisinə tarümar oldum,
Bəzəyirsən bu yığnağı sən, gəlin!

Səni görən olur xəstə, zarıncı,
Xalın kimi şölə verməz hər inci,
Sinən üstə yetir narı, turuncu,
Firdovsi-əlanın bağısan, gəlin!

Məhəmmədə qaldı bu daği-həsrət,
Gecəni, gündüzü saətbəsaət,
Öldürürsən öldür, vermə xəcalət,
Həmişə canıma yağısan, gəlin!

## BU QIZ

Buraxsanız məni çəkəcək dara,
Əl-aman əlindən bax bu qız, bu qız.
Qonumu, qonşunu gətirib zara,
Cümləsi deyərlər ax bu qız, bu qız.

Bilin, unudacaq o haqqı, sayı,
Yaxşını, yamanı, pisi, qolayı,
Götürüb əlinə bir çatma tayı,
Gör necə durubdu  şax bu qız, bu qız.

Məhəmmədəm, sizə eylərəm minnət,
Qoymayın qanımı tökə bu cəllad.
Çıxsanız aradan, versəniz möhlət,
Məni doğrayacaq bax bu qız, bu qız.

## QURBAN OLASAN
*(müxəmməs)*

Bir belə ay gözəlin özünə qurban olasan,
Dindirib, danışdırıb sözünə qurban olasan,
Camalı mahi-taban, üzünə qurban olasan,
Süzülüb nə xoş baxır, gözünə qurban olasan,
Nə əcəb, göftarı xoş, avazına qurban olasan.

Qız, sənin qoynun içi mixək, darçın, hil kimidi,
Tökülüb dal gərdənə saçların sünbül kimidi,
Dəhanın şəhdi-şəkər, dodaqların bal kimidi,
Mərmər sinə, bəyaz buxaq, yanaqların gül kimidi,
Bülbülü şeyda oluban, yazına qurban olasan.

Bircə baxın bu gözələ, nə əcəb türfə çağıdı,
Məclisi məst eləyən, əlində kövsər sağıdı,
Sinəsi mərmər kimi, Savalanın yaylağıdı,
Sonası pərvaz olub, şux tərlanın növrağıdı,
Çöllərində ördəyinə, qazına qurban olasan.

İstərəm ol xudadan bir gecə yanda qalası,
Könlünə sirdaş olub, həmişə dərdin alası,
Açılmış qönçə kimi  şükufəli bağ lalası,
Dağında maral quzusu, yazında ceyran balası,
Səkə-səkə seyrə çıxıb, düzünə qurban olasan.

Məhəmmədəm, kəşt elədim, bu cümlə cahanı gəzib,
Gəncəni, Qarabağı, Şəkini, Şirvanı gəzib,
Xoyu, Salmas, Marağa, Təbrizi, Tehranı gəzib,
Arayıb axtarıban, mülkü Süleymanı gəzib,
Bir belə şux gözəlin nazına qurban olasan.

## AŞIQ ALI
*(1800-1911)*

***Göyçə aşıq mühitinin ustad sənətkarlarından olmuşdur. Erkən yaşlarından saza-sözə maraq göstərmiş, Göyçənin Kərkibaş kəndində Ağ Aşığa (Aşıq Allahverdiyə) on il şəyirdlik etmişdir. Fitri istedadı, zəngin yaradıcılığı ilə aşıq ədəbiyyatına töhfələr vermişdir. Göyçənin tanınmış saz-söz ustadları onun yanında sənətin sirlərinə yiyələnmişlər. Deyilənə görə, onun iyirmidən çox şagirdi olmuşdur. Aşıq Alı bir əsrdən çox ömür sürmüş, təxminən 70-80 il çalıb oxumuş, ağır məclislər aparmış, sazı, sözü ilə məclisləri zinətləndirmişdir. “Aşıq Alının Türkiyə səfəri” dastan-rəvayəti dillər əzbəri olmuşdur.***

### OLMUR

Bizim elin gözəlinin,
Camalından doymaq olmur.
Boy-buxunu can alandı,
Ləbləri tək qaymaq olmur.

Əydi budaq bar əlindən,
Dağ zinhardı qar əlindən,
Eşq badəsin yar əlindən
Alsan, yerə qoymaq olmur.

Bir söz dedim yada qandı,
Bu məkanda qada-qandı,
Sevmək nədi? Qadağandı,
El-obaya yaymaq olmur.

Aralıyam sirdaşımdan,
Həbibimdi ilk yaşımdan.
Alı doymur  göz-qaşından
Qeyrisinə uymaq olmur.

## OLDU

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə,
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Aşıq Alı sənə qurban,
Gəl eyləmə bağrımı qan,
Göldən uçdu tülək tərlan,
Sar da kəklik alan oldu.

## DOLANDI

Həbibimdi, təbibimdi Bəsdi yar,
Uydu könlüm o dildara dolandı.
Vəfasız dünyanın vəfalı yarı,
Əmr eylədi, düz ilqara dolandı.

Tay olmaz sədrinə bir qeyri sinə,
Qoymadı qoynuna bir qeyri sinə,
Yarı meyl etmədi bir qeyrisinə,
Gəldi neçə zülfü qara dolandı.

Yazı haxdan oldu, o doldu yandı,
Hərdən əbru təki o doldu yandı,
Sevda aləmində od oldu yandı,
Alı səməndərdi, nara dolandı.

## GÖZ

Nə maralda, nə ceyranda görmüşəm,
Belə sərraf, belə sərxoş alagöz.
Əfsun edib məni saldı azara,
Ucbatından hey çəkirəm nala, göz.

Bircə kərrə dolananda qıyğacı,
Yaradır cismimdə can ehtiyacı,
Alır can evindən küllü xəracı,
Bais olur qovğa, qeylü qala göz.

Alını oxladı bir pərizada,
Görməmişəm böylə afət dünyada,
Bir nəzər eylədi, gəldim fəryada,
Yaranıbdı can evinə bəla göz.

## YOLUNA

Asta-asta gərdən çəkib gedən yar,
Payandaz eylərəm üzüm yoluna.
Gedişin naləmdi, gəlişin aləm,
Haçandan dikilib gözüm yoluna.

Görüb gül üzünü olmuşam səfil,
Çəkəmməz dərdimi heç nə onu bil.
Almırsan əlimdən qönçə, qərənfil,
Dərdim tər bənövşə, düzüm yoluna.

Sən Alıya Məcnun adı qoyma gəl,
Sinəm üstə qəmli odu qoyma gəl,
Sər-hesab olmağa yadı qoyma gəl,
Qəmli pasibanam özüm yoluna.

## HƏCƏRƏ

Bəşər deyil, huri-qılman deyərəm,
Gözəllərin məhək daşı Həcərə.
Zinət verir mina gərdən, şəhla göz,
Mələk sima, qələm-qaşı Həcərə.

Neçələri firqətindən nalandı,
Məhşər qurub, can atəşə salandı.
Gəldi, neçə el gözəli dolandı,
Bənzəmədi bir həmyaşı Həcərə.

Məğrur dolanmağı eylədi peşə,
Kim görsə eynindən ah-zara düşə,
Züleyxa seyr etsə tapar əndişə,
Şirin görsə inan çaşı Həcərə.

İnanma bir kimsə məramın əyə,
İnadkardı, könül vermir kimsəyə.
Məhəl qoymaz nə sultana, nə bəyə,
Mail olur nadan, naşı Həcərə.

Qürurlu yarandı nəslin əzəli,
Alıya şövq versin dünya gözəli,
Bir qıya baxarsa müşkül düzəli,
Nə iltimas addımbaşı Həcərə.

## QAŞLARIN

Hilalidən sərih pürü qəmzəli,
Nədir dürrü zəmanədi qaşların.
Tiri-xədənginə sədrim nişanə,
Bir nisbəti kamanadı qaşların.

Yanaqları parə aya təşbehdi,
Səyyarəli bir səmaya təşbehdi,
Sərbazın dəstində yaya təşbehdi,
Səyaları hər yanadı qaşların.

Duruşu can alan çərxi-fələkdi,
Hifsində çeşmilər sanki mələkdi,
Alma canım, Alı nakamdiləkdi,
Nədən mənə kəc yanadı qaşların.

## TÜKƏZBAN

Sənsən qönçə dəhan, sərvi xuraman,
Yaraşırsan bağça, bağa, Tükəzban.
Bəyaz sinə, gözü şəhla, qaş kaman,
Müştaq oldum ay qabağa, Tükəzban.

Əsil şükufəsən on dörd yaşında,
Fəzl fərasətsən qəlb sirdaşında,
Xəlq oldun həyalı, əqli başında,
Ürbənd salma al yanağa,  Tükəzban.

Pür qəmidim qəfil qəza qədərdən,
Gördüm hüsnün, kənar oldum kədərdən,
İnsaf eylə, salma məni nəzərdən,
Yolundadı sər sədağa, Tükəzban.

Apardın əqlimi sahib simənbər,
Ahu çeşmiləri az yana döndər,
Etmə biganəlik, can əldən gedər,
Tab eyləməz yaşamağa, Tükəzban.

Yazıq Alı qəm dustağı yarandı,
Şəmsi qızmar, baqi qara arandı,
Köçhaköçdü, el yaylağa darandı,
Güzar eylə bizim dağa, Tükəzban.

## MƏDİNƏ

Gözəl qiyafəli, Leyli kamallı,
Sənsən gözəllərin şahı, Mədinə.
Sevənlərdən gəl birinə könül ver,
Çəkdirmə amanı, ahı, Mədinə.

Bəyaz sinən dağda qarı andırır,
Hüsnün möminlərə dini dandırır,
Mübtəlanı eşq atəşi yandırır,
Kəc dolanır rəvan rahı, Mədinə.

Bir an firqətinə tab etmir ürək,
Əsli məlakəsən, hüsnün mübarək,
Camalın şölədi, şəmsi nə gərək,
Heyran qoydun ərşdə mahı, Mədinə.

Sevənindən seyrə çıxma aralı,
Zamanın hökmüdü, vədə daralı,
Kamil ovçu ram eyləyər maralı,
Sən səyaqi, zülf siyahı, Mədinə.

Şanə bil zülfünə badi-səbanı,
Qoyma qeyli-qalda eli-obanı,
Tədbirdə aqil bil Alı babanı,
Sən birinin ol pənahı, Mədinə.



## HÜSEYN ŞƏMKİRLİ
## *(1811-1891)*

***Şəmkir mühitinin yetirdiyi ustad sənətkarlardandır. Qapanlı kəndində doğulmuş, ailələri bir müddət sonra həmin rayonun Qaracəmirli kəndinə köçmüşdür. Ömrünün sonuna qədər Qaracəmirli kəndində yaşayan sənətkar səksən yaşında Gədəbəyin Ağbulaq yaylağında vəfat etmiş və Qalakənd qəbiristanlığında dəfn edilmişdir. Ərəb, fars və türk dillərində mükəmməl təhsil görmüş, deyilənə görə, on ilə Yaxın Şərq ölkələrini gəzmişdir. Savadlı olduğunu, çoxlu mənbələr oxuduğunu şeirlərində, ayrı-ayrı bənd və beytlərində xatırlatmışdır. Aşıq Hüseyn Göyçə mahalına getmiş, Aşıq Ələsgərlə görüşmüş, səmimi qurulmuş məclisdə hər iki sənətkar «Mərd» rədifi üstündə divani söyləmişdir. “Aşıq Hüseyn və Reyhan xanım”, “Aşıq Hüseyn və Bəyçoban” dastanları onun bədii təxəyyülünün məhsuludur. «Aşıq Hüseyni» “Dilqəmi”, “Sarayı”, “Şəmkir gözəlləməsi”, “Zarıncı”, “Zeynalabdini” adlı havalar onun bəstəçi barmaqlarının yadigarıdır. Aşıqların söz repertuarında onun gözəlləmələri xüsusi yer tutur.***

### XAL ÜSTÜNƏ

Nazlı yarın gül yanağı,
Yaraşıbdı xal üstünə.
İncə belə gümüş kəmər,
Düzülübdü pul üstünə.

Gördün ki, yarın yar deyil,
Tərgini qılmaq ar deyil.
Gen dünya sənə dar deyil,
Birini  də al üstünə.

Hüseyn ağlar zarı-zarı,
Getməz könlümün qubarı.
İtirmişəm nazlı yarı,
Durum çıxım yol üstünə.

## AY QIZ

Boyun sənin tuba kimi,
Qaşların da kaman, ay qız!
Görmüşəm mah camalını,
İtirmişəm iman, ay qız!

Xınalı nazik əllərin,
Baldan şirin dillərin,
Ağ üzündə siyah tellərin,
Qoxudu yasəmən, ay qız!

Ağladırsan, güldürürsən,
Çeşmim yaşın sildirirsən,
Bimürvətsən, öldürürsən,
Dad əlindən, aman, ay qız!

Sənsən Hüseynin zinəti,
Qəlbində dərdi, həsrəti,
Neyləyər səkkiz cənnəti,
Ləblərindən əmən, ay qız!

## BU QIZ MƏNİ

Gedirdim yoldan eylədi,
Bu qız məni, bu qız məni.
Ulusdan, eldən eylədi,
Bu qız məni, bu qız məni.

Qara qaşlar bağrım kəsər,
Gah əzizlər, gah da küsər,
Saçlarıynan dardan asar,
Bu qız məni, bu qız məni.

Baxmır Hüseynin sözünə,
Üzümü qoyam üzünə,
Yandırar eşqin közünə,
Bu qız məni, bu qız məni.

## BAYAZ

Durum dolanım başına,
Bir bəri bax, bəri, Bayaz.
Camalındı mahi taban,
Xurşidin xavəri Bayaz.

Ağ üzündə siyah tellərin,
Şəkkərdən şirin dillərin,
Yanaqda qızıl güllərin,
Kənar elə xarı, Bayaz.

Qamətin ər-ər kimidir,
Buxağın mərmər kimidir,
Sədrin qələmkar kimidir,
Dişlərin mirvari, Bayaz.

Hüseynin gözü mübtəlası,
Başında eşqin havası,
Geyinib əlvan libası,
Qurşadın kəməri, Bayaz.

## QOYNUNDA

Xəbər almaq ayıb olmaz,
O nədi, pəri, qoynunda?!
Öldürürsən mən yazığı,
Saxlarsan narı qoynunda.

Otağına qədəm basdıq,
Söhbətinə qulaq asdıq,
Sinən döşək, məmən yasdıq,
Sal yataq yeri qoynunda.

Sənmi yarından doyubsan,
Bağrımın başın oyubsan,
Hüseyni yetim qoyubsan,
Qalıb əlləri qoynunda.

## SARI GÜL

Yarın bağçasında üç gül açılıb,
Ağ gül, qırmızı gül, illah sarı gül.
Hər üçü də bir-birindən öyməli,
Ağ gül, qırmızı gül, illah sarı gül.

Ağca gülün qapısından baxmalı,
Qızılgülü ağ buxağa taxmalı,
Sarı gülü dəstə tutub qoxmalı,
Ağ gül, qırmızı gül, illah sarı gül.

Ağ gülü bənzətdim ağ göyərçinə,
Qızılgül bənzəyir göydə laçına,
Hüseyn müştaqdır gülün üçünə,
Ağ gül, qırmızı gül, illah sarı gül.

## OYNASIN

Başına döndüyüm toy adamları,
Siz də deyin toya gələn oynasın.
Adını demirəm, eldən ayıbdı,
Qəmzəsi bağrımı dələn oynasın.

Duman gəldi bu dağları bürüdü,
Ortalıqda olan pünhan sirr idi,
Bu məclisdə əyləşənin biridi,
Yaşmağın altından gülən oynasın.

Əyninə geyibdi bərqadan dizlik,
Dostlar arasında itməyə düzlük,
Hər əlində vardı bir ala yüzlük,
Yüzlüyü əlinə alan oynasın.

Şəmkirli Hüseynəm, eylərəm fəğan,
Yaş yerinə didələrim tökər qan,
Filankəsin qızı, üzü məhtəban,
Məni bu dərdlərə salan oynasın.

## KİMİ

Şərbət görməmişəm mən bu dünyada,
Ləblərinin abi-həyatı kimi.
Şəkərdi dəhanın, dilindi şirin,
Dodaqların Misir nəbatı kimi.

Altından zər geyib, üstdən qələmkar,
Böyür düymə, sinə geniş, yaxa dar,
Sevdiyimin əcəb gül camalı var,
Bədirlənmiş ayın büsatı kimi.

Başında örpəyin bağı ipəkdən,
Qızıl qotaz çal keçirdi dirsəkdən,
Aylar, illər həsrətini çəkməkdən,
Hüseynəm, incəldim xəyatı kimi.

## GÖRMÜŞƏM

Şəmkir mahalında, Morul elində,
Günəş üzlü məhliqanı görmüşəm.
Cəvahirlər düzülübdü telinə,
Gözəllikdə canlar canı görmüşəm.

Badisəba dəydi, açıldı çarqat,
Görcək camalını ağıl qaldı mat,
Belə gözəl gəlməz dünyaya, heyhat,
Bəndə salan zənəxdanı görmüşəm.

Alma yanaqlara lala yaraşır,
Siyah zülfü qəddi dala yaraşır,
Qaymaq dodaqları bala yaraşır,
O qaş-gözü can alanı görmüşəm.

Büllur bədən zər-zəbanın içində,
Bir ulduzdur asimanın içində,
Ləli-cəvahiri kanın içində,
Elə bil ki, Bədəxşanı görmüşəm.

Aşıq Hüseyn, budur dərdin əlacı,
Mehriban ol, sözün söyləmə acı,
Cəvahirlə Gövhər olsunlar bacı,
O gözlərdə bu cahanı görmüşəm.

**BU GƏLƏN**
***(cığalı müxəmməs)***

Həzərat, bircə baxın,
Canlar alandı bu gələn.
Gözləri cəllada dönüb,
İsmi Qaytandı bu gələn.
Özü bir səxa kanı,
Adil divandı bu gələn.
Özü gül, saçı sünbül,
Yaqut-yəməndi bu gələn.
Yaquta bənzər yanaq,
Mərmərə bənzər buxaq.
Bir aya bənzər qabaq,
Kövsərə bənzər dodaq,
Ağ gülə bənzər ayaq,
Qoy bassın gözüm üstə,
Qucmalı candı bu gələn.

Bağlayıb gümüş kəmər,
Üstü tamam danənişan.
Geyinib qəddi dala,
Tər libası tər yaraşan.
Ağ əndamı başdan-başa,
Ətirli gül, müşk-fəşan.
Al yanaq, ayna qabaq,
Siyah zülfü ənbərəfşan.
Həm didarı şirindi,
Göftarı şirindi,
Bağça-barı şirindi,
Qoşa narı şirindi,
Bir belə bəşər olmaz,
Huri, qılmandı bu gələn.

Axşam, sabah mən dolanım,
Belə gözəlin başına!
Vəsməni çəkib gözünə,
Sürməni yaxıb qaşına.
Keçirib qızıl tananı
Nazik əliynən guşuna.
Canını qurban edəsən
Bir belə cənnət quşuna.
Götürüb setarəni.
Basıb mərməri döşünə.
Döşündə məməsi var,
Qızıldan düyməsi var.
Nə şirin həvəsi var,
Kəklik kimi səsi var,
Bir ağır ölkəsi var.
Ölkəsinə qurban olum,
Misrə sultandı bu gələn.

Gecə-gündüz əməsən,
Ləblərindən misli-gülab.
Eşqinə düşənlərin
Canında qalmayıbdı tab.
Nə yatım, nə dincəlim,
Gözlərimdə olmayır xab.
Bir miskin gədəsi ola,
Mənim kimi xanəxərab.
Zəhər versən içərəm,
Nə ki, əllərinlə şərab.
Nazik əlinə qurban,
Qara telinə qurban,
İncə belinə qurban,
Danış, dilinə qurban,
Gələn yoluna qurban.
Bu gəlişdə insan olmaz
Nuşirəvandı bu gələn.

Biçarə Aşıq Hüseyn,
Bax, yar nə nazınan gəlir.
Geyinib qəddi-dala,
Güləcə xəzinən gəlir.
Yığıbdı gözəlləri,
Qırx incə qızınan gəlir.
Götürüb setarəni,
Söhbəti sazınan gəlir.
Deyəsən, şeyda bülbüldü,
Baharı yazınan gəlir.
İçməmişəm ayılam,
Ağıl gedib, zayılam.
Camalına mayılam,
Hər nə desən qayılam,
Qapınızda sayılam.
Mənə inayət eləsin,
Dərdə dərmandı bu gələn.

## BƏZƏNİB

Genə gəlib bahar fəsli,
Aləmi-roşən bəzənib.
Seçmə gözəllər əyninə
Geyib zərnişan bəzənib.
Baxırsan sağa, sola,
Görürsən hər yan bəzənib.
Səf çəkib huri, mələk,
Pəriyü qılman bəzənib.
Yasaq qılmayın dilimə,
Qoy deyim dastan, bəzənib.
Baxmasın gözəllərə
Adamların bəd nəzəri.
Əndələnib nalə çəkib,
Ölməsin güldən ötəri.

Naz ilə canım alan,
Olubdu dilim əzbəri.
Yaradan, bir rəhm elə,
Pozulmasın bu səfləri.
Fəhm elə, diqqət elə,
Gör necə canan bəzənib.

Gözəllər tər əndama,
Geyinibdi, ağı yenə.
Can cəsəddən ayrılır,
Qalmadı bir tağı yenə.
Ala gözlər süzüləndə
Eyləyir misağı yenə.
Bir sənəm seyrə çıxıb,
Gör paylayır sağı yenə.
Şənini vəsf eləyim
Bir şuxi tərlan bəzənib.

Gəzmişəm görməmişəm
Mən bir belə gül camalı.
Gülgəzi kalağaya
Bürünübdü qəddi-dalı.
Hal bilən, şirin gülən
Ağ üzündə qoşa xalı.
Rəhm elə, mürvətə gəl,
Salma belə qilü qalı.
Qoy deyim, bu məclisdə,
Nə gözəl dövran bəzənib.

Dərdlilər təbib deyib,
Yığılıb dərmana bu gün.
Gözəlin gül camalı
Şux salır hər yana bu gün.
Yanıram atəşinə

Mən mərdi-mərdanə bu gün.
Yazıq Hüseynin könlünü,
Eyləmə pərvanə bu gün.
Aşıqlar qara geyib,
Gözəllər əlvan bəzənib.



## DOLLU MUSTAFA

***XIX əsr Urmiya aşıq mühitinə mənsub olan saz-söz ustadıdır. Deyilənlərə görə, o, Borçalıda da çoxlu məclislər aparmış, aşıq mühitinin inkişafına özünün töhfələrini vermişdir. Borçalıda tanınmış aşıqlarla qarşılaşmış, deyişmələri də olmuşdur. Şair Ağacanla, Aşıq Şenliklə deyişmələri bu gün də xalq arasında söylənməkdədir. Dollu Mustafa ilə Ağacanın əldə səkkiz deyişməsi vardır. Bu deyişmələr hər iki sənətkarın Şərq elminə, mədəniyyətinə nə qədər dərindən bələdliyini aydınlıqla göstərir. Haqqında “Dollu Mustafa və Maral xanım” adlı dastan var.***

### AĞRIN ALIM

Nə durubsan astanada,
Qaşı qaytan, ağrın alım.
Səhər-səhər bağ içində,
Gülə batan, ağrın alım.

Büllur buxaq, bəyaz gərdən,
Ağlımı aparır sərdən,
Aşiqinə hərdən-hərdən,
İşvə satan, ağrın alım.

Qoynundakı əcəb nəstə,
Aləm görsə olar xəstə,
Əllərində dəstə-dəstə,
Nərgiz tutan, ağrın alım.

Cilvələn, süz, nazlı canan,
Gəl eyləmə bağrımı qan,
Qaşlarından qurub kaman,
Müjgan atan, ağrın alım.

Nə baxırsan yanı-yanı,
Olum gözlərin qurbanı,
Dərdə salma Mustafanı,
Ağcaqutan, ağrın alım.

## SƏNƏM SƏNİ

Səhər gördüm bulaq üstə,
Sənəm səni, Sənəm səni.
Xəlq eləyib əcəb nəstə,
Sənəm səni, Sənəm səni.

Doymaq olmaz qələm qaşdan,
Sənin kimi bağrı daşdan,
Seçəmmədim yaşılbaşdan,
Sənəm səni, Sənəm səni.

Ağ üzdə xalı bənövşə,
Könül həsrət yumru döşə.
Axtarır gözüm həmişə,
Sənəm səni, Sənəm səni.

Gül camalın bədirli ay,
Qaşlarındı qurulu yay,
Eyləmərəm dünyaya tay,
Sənəm səni, Sənəm səni.

Əskik olmaz gözəl, xatan,
Dol Mustafa sənin butan.
Verməz mənə zalım atan,
Sənəm səni, Sənəm səni.

## GƏLİN
*(toy tərifnaməsi)*

Səhərdən çıxdın qarşıma,
Gül baxcada gəzən gəlin.
Dərib, dərib buxaq altda,
Tər bənövşə düzən gəlin.

Bülbülü güldən eylərsən,
Gedəni yoldan eylərsən,
Ulusdan, eldən eylərsən,
Gözlərini süzən gəlin.

Qaşların qurar divanı,
Kirpiklərin tökər qanı,
Öldürürsən neçə canı,
Çoxlar bağrın əzən gəlin.

Gümüş kəməri belində,
Şirmayı şana telində,
Cumub çalxanıb gölündə,
Sona kimi süzən gəlin.

Bilmirəm əsil-soyunu,
Xublar arzular boyunu,
Mustafa tutsun toyunu,
Al yaşıla bəzən gəlin.

## AŞIQ ƏLƏSGƏR
*(1821-1926)*

***Azərbaycan aşıq sənətinin nəhəng simalarından olan Aşıq Ələsgər Göyçə mahalının Ağkilsə kəndində doğulmuş, bütün həyatı boyu orada yaşamışdır. Dövrünün adlı-sanlı aşığı Qızılvəngli Aşıq Alıdan sənət dərsi alaraq, beş il ustada qulluq etmişdir. Gənclik illərindən mükəmməl sənəti və qüdrətli poetik istedadı ilə təkcə Göyçə mahalında deyil, Gəncə, Naxçıvan, Qarabağ, Qazax-Şəmşəddin, Borçalı-Tiflis, Dərələyəz, Çıldır-Ağbaba mahallarında da ad çıxaran Aşıq Ələsgərin saz-söz dühası hələ sağlığında əfsanələşmişdir. Qüdrətli söz sərrafının gözəlləmə və ustadnamələrinin dillər əzbərinə çevrilməsində yüksək poetik sənətkarlıqla yaradılmış obrazlı canlandırma məharəti və elat danışıq koloritini əks etdirən xəlqi təqdimat manerası mühüm rola malikdir.***

### CEYRAN

Durum dolanım başına,
Qaşı, gözü qara Ceyran!
Saldın eşqin ataşına,
Eylə dərdə çara, Ceyran!

Söz eşidib, ərzim qansan,
Mən yanıram, sən də yansan.
Özün bir tülək tərlansan,
Niyə uydun sara, Ceyran?!

Ələsgərəm, abdal ollam,
Eşqin girdabında qallam,
Küsdürmüşəm, könlün allam
Yalvara-yalvara, Ceyran!

## TELLƏRİN

Ay qız, sənin nə vədəndi,
Kəsilib qısa tellərin.
Kələğayı əlvan, qıyğacı,
Üstündən basa tellərin.

Yanaqların güldü solmaz,
Oxladın, yaram sağalmaz,
Qaşın cəllad, gözün almaz,
Bağrımı kəsə tellərin.

Bağban ağlar bar ucundan,
Xəstə ölər nar ucundan,
Ələsgər tək yar ucundan
Batıbdı yasa tellərin.

## ÜZÜN MƏNDƏN NİYƏ DÖNDÜ?

Gəl, ey mehri-məhəbbətim,
Üzün məndən niyə döndü?
Ağzı şəkər, ləbi qəndim,
Üzün məndən niyə döndü?

Ayrılıqdan ölüm yeydi,
Həsrətin qəddimi əydi,
Nə dedim, xətrinə dəydi,
Üzün məndən niyə döndü?

Təşrif buyur gedək bağa,
At zülfünü sola, sağa,
Ələsgər sənə sadağa,
Üzün məndən niyə döndü?

## KƏKLİK

Həsrətini çəkə-çəkə,
Dərdim yetdi yüzə Kəklik!
Qız, sən Allahı sevərsən,
Ürbənd tutma üzə, Kəklik!

Dostdan dosta bu nə fənddi,
Zülfün boynuma kəmənddi,
Dişin dürdü, dilin qənddi,
Dodaqların məzə, Kəklik!

Geydiyin yaşıl, əlvandı,
Elədiyin nahaq qandı,
Ələsgər sənə qurbandı,
Sən gələndə bizə, Kəklik!

## YERİDİ

Bir gözəl keçdi qarşımdan,
Sallandı, yana yeridi.
Kirpik çaxdı, oğrun baxdı,
Od saldı, cana, yeridi.

Ovçu tək bərədə durdu,
Qaşlarından kaman qurdu,
Müjganın sinəmə vurdu,
Qəmzəsi qana yeridi.

Hanı belə huri, qılman,
Eyləmir dərdimə dərman,
Çeşmim yaşı olub ümman,
Yaşılbaş sona yeridi.

Camalın bənzətdim aya,
Əhsən qüdrət verən paya,
Endirib salmadı saya,
Dost mehribana, yeridi.

Dedim: qız, getmə, amandı,
Ələsgər oduna yandı.
Dedi: qocadı, pirandı,
Mərdü mərdana yeridi.

## GÜLXANIM

Səhər-səhər sığal verir,
Aynaqabağa Gülxanım.
Tay olmaz dağlarda lala,
Gülgəz yanağa, Gülxanım!

Vəsfin yayılıb mahala,
Maşallah o xəttü xala,
Müştaqam ləbində bala,
Qaymaq dodağa, Gülxanım!

Mələkzadə, huri, qılman,
Qəza qəddim qılıb kaman,
Məni həsrət qoyma, aman,
Büllur buxağa, Gülxanım!

Xub çəkilib qəddi-dallar,
Ağ üzündə qara xallar.
Mədhin eşidən cahallar,
Düşüb sorağa, Gülxanım!

Ələsgərəm, qadan allam,
Getmərəm, yanında qallam,
Pərvanəyəm, qurban ollam,
Şama, çırağa, Gülxanım!

## DOLANIR

Axşam-sabah, çeşmə, sənin başına,
Bilirsənmi, necə canlar dolanır!?
Büllur buxaq, alma yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

Afərin xudanın haqqı-sayına,
Camalları bənzər bayram ayına.
Belə gözəllərin xaki-payına,
Mənim kimi çox qurbanlar dolanır.

Gördüm gözəlliyin bizə bildirir,
Qaş oynadır, xəstə könlüm  güldürür,
İşvəyü nazıyla adam öldürür,
Qəmzəsində nahaq qanlar dolanır.

Məni qoca gördü ürbəndin açdı,
Ala gözlərinə gözüm sataşdı,
Huş başımdan çıxdı, xəyalım çaşdı,
Mürği-ruhum asimanlar dolanır.

Adım Ələsgərdi, Göyçə mahalım,
Dolanım başına, mən dərdin alım,
Hüsnün şöləsinə xəstə xəyalım,
Pərvanədi, şəmistanlar dolanır.

## GETMƏ, AMANDI

Gözəllər sultanı, mələklər şahı,
Alagöz cananım, getmə, amandı!
Dərdindən xəstəyəm, çəkirəm ahı,
Ölürəm, loğmanım, getmə, amandı!

Camalın göyçəkdi bayram ayından,
Görən doymaz qamətindən, boyundan,
Layiq deyil qurban kəsim qoyundan,
Sənə qurban canım, getmə, amandı!

Sən mələkzadəsən, ay mina gərdən,
Görənin ağlını alırsan sərdən,
Kəsmə iltifatın qul Ələsgərdən,
Kərəmli sultanım, getmə, amandı!

## GÜLƏNDAM

Səni gördüm, əl götürdüm dünyadan,
Ala gözlü, qələm qaşlı, Güləndam!
Alma yanağına, bal dodağına,
Baxan kimi ağlım çaşdı, Güləndam!

Tovuz kimi şüx bəzənib durubsan,
Ala gözə siyah sürmə vurubsan,
Sağ ol səni, yaxşı dövran qurubsan,
Bu dünyanın sonu puşdu, Güləndam!

Heç demirsən Ələsgərim hardadı?
Səbəb nədi gülün meyli xardadı?
Mənim gözüm qoynundakı nardadı,
Aşığa lütf etsən, xoşdu, Güləndam!

## SARI KÖYNƏK

Cilvələnib nə qarşımda durubsan,
Anam sənə qurban, ay Sarıköynək!
Mələksən, çıxıbsan cənnət bağından,
Heç kim olmaz sənə tay, Sarıköynək!

Doymaq olmur işvəsindən, nazından,
Fərə kəklik kimi xoş avazından,
Yel vurdu, ürbəndi atdı üzündən,
Elə bildim doğdu ay, Sarıköynək!

Gözəlsən, tərifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala,
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, Sarıköynək!

Gərdənə yaraşır qızıl həmayıl,
Görənin ağlını eyləyir zayıl,
Həsrətin çəkənlər olubdu sayıl,
Yığır qapılardan pay, Sarıköynək!

Tuti dilli, sərvi boylu Salatın!
Yoxdu mərhəməti bu səltənətin,
Göndər gəlsin Ələsgərin xələtin,
Eyləmə əməyin zay, Sarıköynək!

**DÜŞDÜ**

Çərşənbə günündə, çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, keçdi sinəmdən,
Cadu - qəmzələri qanıma düşdü.

İşarət eylədim, dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli dildi,
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.

Ələsgərəm, hər elmdən halıyam,
Dedim: sən dərdlisən, mən yaralıyam,
Dedi: nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü.

## QAŞLARIN

Ay nazənin, ay qabağın altından,
Nə göyçək çəkilib qara qaşların!?
Gözlərin süzüldü, canım üzüldü,
Vurdu ürəyimə yara qaşların!

Əslin mələk, cismin huri-qılmandı,
Camalın şoxundan ciyərim yandı.
Ədalət hakimdi, adil divandı,
Rəhm eləmir günahkara qaşların.

Gözlərin görənin canını alır,
Həsrətini çəkən vaxtsız qocalır.
Sərdarı, sultanı taxtından salır,
Bərhəm vurur ürüzgara qaşların.

Gözüm qaldı hilal qaşın tağında,
Məcnun oldum, qaldım Leyli dağında,
Yazıq Ələsgəri qoca çağında,
Zülm ilə çəkdirir dara qaşların.

## ƏVƏZDİ

Gözəllər sultanı, ay Səlbi xanım,
Sallanışın bir mahala əvəzdi.
Gözlərinə qiymət qoya bilmirəm,
Qaşın min tümənlik mala əvəzdi.

Sürahi gərdənli, qəddi mötədil,
Səni gül yaradıb Cabbari-Cəlil,
Ləblərin şirəsi abi-Səlsəbil,
Ləzzəti dünyada bala əvəzdi.

Ələsgərin ağlın aldın sərindən,
Saf gövhərsən, sərraf seçib dərindən.
Sən bir gülsən şəbnəmlərin tərindən,
Demək olmaz sənə lala əvəzdi.

## YAVAŞ GET

Geyinib, qurşanıb seyrə çıxan yar,
Alagözlü Səhnəbanım, yavaş get!
Bir qıya baxanda evlər yıxan yar,
Cəllad olub tökmə qanım, yavaş get!

Mən sənə aşiqəm, sən mənə xata,
Dəhanın bənzəyir qəndə, nabata,
Ləbin tənə vurur abi-həyata,
Qoynu cənnəti-rizvanım, yavaş get!

Ələsgərəm, oldum dəli-divana,
At müjganın, sinəm qoydum nişana.
Sallanışın bənzər huri-qılmana,
Kəbəm, qibləm, din-manım, yavaş get!

## YARAŞIR

Sallana-sallana gələn Salatın,
O sərxoş yerişin yola yaraşır.
Salıbsan gərdənə heykəl həmayıl,
Qızıl bazubəndlər qola yaraşır.

Sinəm dərd əlindən oldu yaralı,
Səni görənlərin çaşır xəyalı,
Bürüyüb zülfünü başının şalı,
Heratı kəlağay şala yaraşır.

Könül mayil olub siyah telinə,
Nazik barmağına, şümşad əlinə,
Əcəb qurşanıbdı incə belinə,
Gümüş kəmər qəddi-dala yaraşır.

Olmaz sənin kimi bir qönçə dəhan,
Behiştdən gəlibsən, ay huri, qılman!
Tutubsan dəstində bənövşə, reyhan,
Gülgəz yanağına lala yaraşır.

Aşıq Ələsgərə çoxdu zavalın,
Aparar ağlımı günəş camalın,
Nə göyçək görünür üzündə xalın,
Gülgəz zənəxdanın xala yaraşır.

## KÖYNƏYİNƏ

Güləbatın qıyı tər sinən üstə,
Nə gözəl yaraşır, qız, köynəyinə.
Sinən Kəbə, köynək Kəbə örtüyü,
İzin versən sürtəm üz köynəyinə.

Gözəl yaranıbsan qali-bəladan,
Yanağın göyçəkdi güldən, laladan,
Zərgər gül doğrasın zərin tiladan,
Əlindən gəldikcə düz köynəyinə.

Ələsgər də dost yolunda sürünür,
Sinən üstə dərdə dərman görünür,
O köynəyə nar məmələr bürünür,
Onçu qurban olluq biz köynəyinə.

## GƏLİBDİ

Xəstə könül dərdü qəmdən ayıldı,
Bu gün məclisimə bir can gəlibdi.
Şöləsi aləmi edib münəvvər,
Zahir deyil, özü pünhan gəlibdi.

Onun bu gəlməyi gör nəyə bənzər,
Nə xana, sultana, nə bəyə bənzər,
Misirdən gəlmiş bir köynəyə bənzər,
Kənanda Yaquba dərman gəlibdi.

Ələsgər görcəyin candan usanıb,
Camalından şəmsü qəmər utanıb,
Nə behiştdə bu cür qılman yaranıb,
Nə dünyaya belə insan gəlibdi.

## GÜLLÜ

Tovuz kimi qalxdı çeşmə başından,
Bütün gözəllərin gözəli Güllü!
Almadı yanağın, büllur buxağın,
Dodaqların meyli, məzəli, Güllü!

Qıya baxdın, məni saldın zillətə,
Yusif kimi necə düşdüm qürbətə,
Hicran qəmi məni salıb möhnətə,
Səni gördüm, dərdim azalı, Güllü!

Ələsgər qurbandı, ay boyu Minə!
İncidən, mərcandan düzüb köysünə,
Tərsa üzün görsə, tez gələr dinə,
Alim görsə, gedər saz alı, Güllü!

## OLA

Hər yetən gözələ gözəl deməræm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola.

Hər görəndə həsrət ilə sarışa,
Deyə, gülə, şirin-şirin danışa,
Əl dəyəndə tez-tez küsə, barışa,
Ortalıqda söhbət ola, saz ola.

Nə uzun, nə gödək – münasib gərək,
Ağzı, burnu nazik, dodaq kip gərək,
Əndam büllur, bədən güldən saf gərək,
Baxtın vura, bu nişanda qız ola.

Ərdən boşanmışdan bir az kənar dur,
Əri ölən gözələ bax, boyun bur,
Aşıq Ələsgər, bir tərlana torun qur,
Bəlkə, tora düşən bir şahbaz ola!

## SEÇİLMİŞ

Xublar məclisinə güzar eylədim,
Gördüm gözəllərin xası seçilmiş.
Baxdım, diqqət ilə nəzər eylədim,
Gül əndamı, tər libası seçilmiş.

Oldum sadağası bu gözəllərin,
Mərfətdə kamildi, kamalda dərin,
Əsəli-müsəffadı şəhdi ləblərin,
“Əsəl” baldı, “müsəffa”sı seçilmiş.

Demə Ələsgərin ağlı zayıldı,
Şəmsü qəmər mah camala mayıldı,
Gözüm gördü, könlüm qəmdən ayıldı,
Şikəstə qəlbimin pası seçilmiş.

## İNCİMƏRƏM

İstər dara çəkdir, istər qul elə,
Qoymuşam əmrinə qol, inciməréм.
Həsrətindən Məcnun oldum səhrada.
Alırsan canımı al, inciməréм.

Həsrətindən saralıban solanam,
İzin versən, yar, boynuna dolanam,
Əlli yol çapılam, yüz yol talanam,
Bir şey deyil dövlət-mal, inciməréм.

Ələsgərəm, yandım eşq ataşında,
Gözüm qaldı kirpiyində, qaşında,
Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstündən yol, inciməréм.

## GÖZƏLLƏR

Səhər vaxtı, mənim müşkül çağımda,
Çıxdınız qarşıma dəstə, gözəllər!
Camalız şöləsi nuri-təcəlla,
Görsə, şəfa tapar xəstə, gözəllər!

Qəmgin idim, sizi görüb gülürəm,
Qaşınız qiblədi, səcdə qılıram,
İkram ilə sizə sarı gəlirəm,
Siz də gəlin asta-asta, gözəllər.

Minəş günə bənzər, Əsli bir aya,
Şəms olub aləmə salıbdı saya.
İncimərəm, qəsəm olsun xudaya,
Qədəm bassa gözüm üstə gözəllər.

Sizi gördüm, çaşdı ağlım, xəyalım,
Güllüyə qurbandı dövlətim, malım,
Olmayaydı bir qocalıq, bir ölüm,
Yaşayaydı bu həvəsdə gözəllər!

Pərzad məlakədi, Gövhər bir xanım,
Görən kimi yandı dinim, imanım.
Yazıq Ələsgərəm, sərgardan canım,
Qurban sizi kimi dosta, gözəllər!

## NARIN ÜZ

Könül, sən ki, düşdün eşqin bəhrinə,
Narın çalxan, narın silkin, narın üz!
Dost səni bağına mehman eyləsə
Almasın dər, gülün iylə, narın üz!

Tikdiribsən qəsir, eyvan, oda sən,
O nökərin, o sevdiyin, o da sən,
Qıya baxdın, məni saldın oda sən,
İnsaf eylə, gəl könlümü narın üz!

Aşıq olan sözün deməz tərsinə,
Tər gəzən dünyada gedər tər sinə.
Tər sinəyə qismət olsun tər sinə,
Narın üzə qoy söykənsin narın üz!

Ürüsxət ver, sözüm deyim, Qayım ağa!
Yuyar qəssal qəddim, bükər qayım ağa.

Ləzzət verər bal qatanda qaymağa,
Onlardan da ləziz olar narın üz.

Tərlansan, ovlatma sarı dur gedək,
Bu sınıq könlümü sarı, dur gedək!
Ələsgərəm, bizə sarı dur gedək!
Bir dərdimi eyləyibsən, Narın, yüz!

## GÖZƏLƏ
***(müxəmməs)***

Canımı qurban eylərəm,
Bir belə tərlan gözələ;
Hal bilən, şirin gülən,
Dosta mehriban gözələ:
Boy uca, gərdən mina,
Zülfü pərişan gözələ;
Dolanıb mürği-ruhum,
Olubdu mehman gözələ;
Xəstəyəm yalvarıram,
Həkimi-loğman gözələ.

Gözəl xanım cilvələnib,
Gözəllərin xası kimi;
Görəni Məcnun eylər,
Leylinin sevdası kimi;
Ala gözlər şölə çəkir,
Göyün sürəyyası kimi;
Çəpgəni hər rəng çalır
Tovuzun cığası kimi;
Baratdı, behiştdən gəlib,
Geydirib qılman gözələ.

Gözəl kəklik al geyinib
Gözəllər xasından gözəl;
Silkinir, gərdən çəkir,
Göllər sonasından gözəl;
Qabliyət, mərifət tapıb
Ata-anasından gözəl;
Libas əndamına layiq,
Əndam libasından gözəl;
Gözəlliyi cəm veribdi
Xaliqi-sübhan gözələ.

Qəmgin idim, xələt verdi.
Məlul könlüm aşdı gözəl;
Arifsən, əhli-ruhsan,
Can sənə peşkaşdı, gözəl;
Ay qabaq şölə verir,
Qaşın göyçək qaşdı, gözəl;
Nə qədər gözəl görmüşəm,
Hamısından başdı gözəl;
Cavanşir gözəllərinin
Cəmisi qurban gözələ!

Fələkdən gileyliyəm,
Mənə günü qara verib;
Mömini zəlil eyləyib,
Suru günahkara verib;
Tərlanı sara yazıb,
Tər qönçəni xara verib;
Ələsgər Məcnun olub,
Meylini dağlara verib;
Tərk edib ibadəti
Bağlayıb dastan gözələ.

## MƏLƏK
*(müxəmməs)*

Mən səni bənzətmişəm,
Huriyə, qılmana, Mələk!
Gözlərin canlar alır,
Qəmzən çəkir qana, Mələk!
Qaşın qüdrətdən çəkilib,
Oxşayır kamana, Mələk!
Xalının bir dənəsin
Vermərəm cahana, Mələk!
Üzün görüb ayrı düşən
Qalar yana-yana, Mələk!

Geyinib əndamına
Əbrü, ətlaz, alı, gözəl;
Xara don, zərin nimtənə,
Başındakı şalı gözəl;
Bəxtəvər gümüş kəmər,
Qucur qəddi-dalı gözəl;
Qulağında qızıl sırğa,
Zənəxdanda xalı gözəl;
Qılıbsan hüsnün şamına,
Sən məni pərvana, Mələk!

Əslin düz, nəslin yaxşı,
Olmuşam elinə mail;
Oxuyan şeyda bülbüllər
Bağında gülünə mail;
Tutiyi-şirin zəban
Olubdu dilinə mail;
Həftrəng mürği-tovuz
Pərişan telinə mail;
Zülfünlə tor qurubsan
Alıcı tərlana, Mələk!

Gözəlin məclisində
Şirin söhbət, saz dolanır;
Hüsndən könüllərə
Bahar keçir, yaz dolanır;
Süzür gəlir səkə-səkə
Sanki quba-qaz dolanır;
Qaşında, kirpiyində
İşvə, qəmzə, naz dolanır;
Gözləri cəllad olub
Qəsd eləyir cana, Mələk!

Gözəllər dəstə-dəstə
Qulluğuna sana gəlir;
Ağa, rəiyyət, bəy, gəda,
Əmrinə fərmana gəlir;
Aşıq, alim, molla, seyid
Dad çəkib, amana gəlir;
Dəlilər dəxi düşür
Mərizlər loğmana gəlir;
Xəstədi, Ələsgəri
Sən yetir dərmana, Mələk!

## GƏLİR
### *(müxəmməs)*

Yetişib bahar fəsli,
Yar Leyli dağından gəlir;
Sanki Fərhadın Şirini
Sürüdən, sağından gəlir;
Dəstində lalə, nərgiz,
Behiştin bağından gəlir;
Sallanıb ala gözlüm,
Sərin yaylağından gəlir;

Alvızın tərlanı tək
Yenə ovlağından gəlir.

Sona tək sığallanıb,
Bəzək veribdi başına;
Gözünə siyah sürmə,
Vəsməni yaxıb qaşına;
Təzəcə yetmiş olar
On beş, on altı yaşına;
Allahın əziz bəndəsi
Gəlir hər kəsin xoşuna;
Tərifi düşüb ellərə
Hamı sorağından gəlir.

Gəzmişəm, görməmişəm
Belə boyu bəstə xanım;
Camalın bayram ayı,
Görən düşər xəstə, xanım!
İncimərn qələm qoysan
Əgər gözüm üstə, xanım!
Cəllad kimi giribsən
Can almağa qəsdə, xanım!
Məcnunun çöllər gəzib,
Sənin fərağından gəlir.

Necə yayınır, çalxanır,
Göllərin sonasına bax!
Başına herat kalağay,
Altının cunasına bax!
Tanrı bəxtəvərinin
Əlinin xınasına bax!
Boynunda mina silsilə,
Zülfünün şanasına bax!
Tökülüb burma birçəyi,
Ucu qulağından gəlir.

Qövr eylədi köhnə yaram,
Gözüm gördü yarı yenə;
Alışdı, təzələndi
Sinəmin dağları yenə;
Qoynu cənnət bağıdı,
Yetişibdi barı yenə;
Bimürvət Ələsgərdən
Əsirgər nübarı yenə;
Müşkü ənbər qoxusu
Onun buxağından gəlir.



## XALTANLI TAĞI

***XIX əsrin birinci yarısında Quba rayonunun Xaltan kəndində yaşamışdır. Quba, Şamaxı tərəflərdə məşhur olmuş, bir müddət Dağıstanda da yaşamışdır. Onun Dağıstana getdiyi illər Şeyx Şamil hərəkatı dövrünə düşmüşdür. Quba ağsaqqallarının söyləmələrinə görə, Xaltanlı Tağının əsli Təbrizdən olmuşdur. “Bəlkə gəlmədim” rədifli şeirində də buna işarələr vardır.***

### GÖZƏL

Xaliq xəlq edəndə cümlə cahanı,
Xoş yaradıb bu torpağı, nə gözəl!
Dəlisov çayları, şərbət suları,
Çəməni, çəhlimi, dağı, nə gözəl!

Dingi, dəyirmanı, dəmiri, daşı,
Hər seyri-səfası, çörəyi, aşı,
Həyəti- bacası, mülkü, maaşı,
Təzə-tər bostanı, tağı, nə gözəl!

Qızılgüllər qönçələnib oyanıb,
Ağacları baş əyibən dayanıb,
Budaqları al-qırmızı boyanıb,
Nügədinin solu-sağı, nə gözəl!

Tağı deyər, vəsfin söyləm, nəhayət,
Meyvəcətin çəkər bütün vilayət,
Cavan oğlanları əhli-səxavət,
Əziz saxlar hər qonağı, nə gözəl!

## ÖYSÜZLÜ SƏMƏD
*(1840-1918)*

***Tovuz aşıqlığının yetirdiyi ustadlardan olmuşdur. Yüksək yaradıcı təbi, fitri istedadı ilə sayılıb-seçilmişdir. Ustadların repertuarında yaşayan poetik örnəkləri, o cümlədən də gözəlləmələri bunun nümunəsidir. Müxtəlif toplularda gəraylı, qoşma, təcnis və müxəmməsləri çap olunmuşdur.***

### QARA GÖZ

De görüm, hardan gəlirsən,
Yoluna qurban, qara göz.
Birçə danış şirin-şirin,
Dilinə qurban, qara göz.

Zülflərin gərdəndən aşır,
Vəsfində dilim dolaşır.
Sona kimi başı yaşıl,
Gölünə qurban, qara göz.

Aşıq Səməd məlul baxır,
Naz-qəmzən evimi yıxır.
Darayırsan, yana çıxır,
Telinə qurban, qara göz.

### DİLBƏRİN

Gözüm yollarda qalıbdı,
Düzəlib ayı dilbərin.
Bu camalda, bu kamalda,
Kim olar tayı dilbərin?

Mən demirəm, görən deyir,
Yara bələd olan deyir,

Yar yanından gələn deyir,
Qəşəngdir boyu dilbərin.

Səmədin yağısı qaşlar,
Könül sevdiyini xoşlar,
Xəbər alır yar-yoldaşlar,
Nə vaxtdır toyu dilbərin?

**ZEYNƏB**

Saxlayıbdı aşığına,
Ağ üzündə xalı Zeynəb.
Dodaqları süd qaymağı,
Əcəb beçə balı, Zeynəb.

İstərəm gələm oynuna,
Qolum dolayım boynuna.
Turunc götürüb qoynuna,
O səri sevdalı Zeynəb.

Qəlbdən-qəlbə gər yol olsa,
Dəli könlüm eşqə dolsa,
Canan cananını bulsa,
Ola xoş havalı, Zeynəb.

Yar məni eşqə salmasa,
Onnux sinəma çalmasa,
Sevən, sevəni almasa,
Yaman olur halı, Zeynəb.

İşarət eylərəm qansan,
Mən yanaram, sən də yansan.
Məni özünə yar sansan,
Səməd qadan ala, Zeynəb,

## GÖZƏLLƏR

Səhər-səhər durub ayna qabağa,
Siyah vəsmə çəkir qaşa gözəllər.
Geyinib bəzənir ala, qumaşa,
Kəlağay bağlayır başa gözəllər.

Birinin yanağı dağlarda lala,
Birinin dodağı şirin piyala,
Haçan ki, gözlərim sataşır xala,
Az qalır xəyalım çaşa, gözəllər.

Səmədəm, olmuşam sizlərə heyran,
Güllü bağçaları edəsiz seyran,
Ulu məclislərdə mən açam dövran,
Süzəsiz qarşımda qoşa, gözəllər.



## ŞENLİK ÇILDIRLI
*(1853-1912)*

***Çıldır-Ağbaba aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından saza, bədahətən söz deməyə meyilli olmuşdur. Əsl adı Həsəndir. Dayısı İbrahim onun istedadını görüb Borçalıda o zaman məşhur olan Aşıq Nurunun yanına gətirmişdir. Sonralar "Şenlik" adı ilə məşhurlaşan Həsən Aşıq Nurunun yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. Aşıq Şenlik ömrünün böyük hissəsini Borçalıda, Çıldırda keçirmişdir. Şenliyin şeirləri 1920-ci illərdən Azərbaycan mətbuatında çap olunmağa başlamışdır. "Lətif şah", "Sevdəgar şah və Gülnaz", "Salman bəy və Durna", "Səməd bəy", "Məhəmməd və Güldanə", "Əhməd və Gözəl" dastanları vardır. Yaradıcılığında gözəlləmələr də mühüm yer alır.***

### İSTƏR

Yenə könül quşu pərvaz eyləmiş,
Dövr edib qonmağa bir budaq istər.
Bəzənib gözəllər göy çəmənlərdə,
Bəzən də türfayə bir otaq istər.

Yağışda, yağmurda, qarda, boranda,
O dağlar eşqinə yanar bir yanda.
Yayın isti çağı bürkü vuranda,
Yanları yarpızlı bir bulaq istər.

Bəzən həddən aşar mənim məlalım,
Bəzən bulaq kimi durular halım,
Bir mələk eşqiylə Şenlik xəyalım,
Dünya yaşadıqca yaşamaq istər.

## ÇƏKƏR

Sevda sitəmindən cismim səd parə,
Qəm ləşkəri bu hicrana mil çəkər.
Loğman-təbib olub sağaltsa yaram,
Kim bilir, müddəti neçə il çəkər!?.

Hicran alayları doymaz qanımdan,
Görən ibrət alar Nuh tufanımdan.
Cəllad kimi tutub gireyvanımdan,
Nə alar canımı, nə də əl çəkər.

Şenliyin fəryadı yeksan-xak kimi,
Salıbdı lərzəyə qəm əflakımı.
Məndə olan dərdin hicran yükünü
Nə kirədar daşır, nə də fil çəkər...

## GETDİ

Necə ağlamayım, necə yanmayım,
Sonam, düşdü məndən aralı getdi.
Bir ox atdı, sinəm san-şan eylədi,
Sağı cismim yandı, paralı getdi.

Hicran qəhrindəyəm, bağlıdı qolum,
Sevda həsrətindən qalmayıb halım.
Canıma susayan o qanlı zalım,
Məni qoydu qəmdə, yaralı getdi.

Sanki bir mələkdi əlvanlı donda,
Pürrü pərvaz eylər hərə bir yanda,
Şenlik der, taqətim qalmadı canda,
Kəsildi səbrimin qərarı getdi.

## BİR YARA
### *(cığalı təcnis)*

Eşq odunnan ataş alıb yanıram,
Ərzi-halım yetirsəniz bir yara.
Əzizinəm bir yara,
Bir hicrandı, bir yara.
Dərd bilən təbib gəlsə,
Məlhəm sevər bir yara.
Gecə-gündüz ahu-fəryad eylərəm,
Leyli- nahar intizaram bir yara.

Varmı mənim kimi şamu-səhər ləliyən,
Şirin canı eşq oduna talıyan.
Əzizinəm talıyan,
Talan düşüb talıyan.
Deyirlər murad alar,
Haqqdan dilək diliyən.
Məni belə dəli dərviş eliyən,
Bir hicrandı, bir əfkardı, bir yara.

Qul Şenliyəm, qara baxtım ağ deyil,
Sinəm üstə çalın-çarpaz dağ deyil.
Əzizinəm dağ deyil,
Düyün deyil, dağ deyil.
Keçdi dövrü zamanə,
Zatı münkir sağ deyil.
Var əndamım başdan-başa sağ deyil,
Yüz min yerdən şan-şan olub bir yara.

## MOLLA CUMA
*(1854 -1920)*

***Azərbaycan aşıq sənətinin inkişafında misilsiz rol oynamış ustadlardan biri Molla Cumadır. Uşaqlıqdan saza-sözə xüsusi maraq göstərən Cuma təqribən on beş-on altı yaşlarından saz çalmağa başlamış, el arasında söyləndiyinə görə, elə həmin yaşlarda da ona vergi verilmişdir. Şəki-Zaqatala-Balakən bölgəsi və Dərbənd-Dağıstanda el-oba məclislərində saz-sözüylə ad çıxarmışdır. Poetik irsi zəngin və çoxşaxəliliyi ilə mühüm önəm daşıyır. Beş hecalıdan on altı hecalıyadək elə bir aşıq şeiri şəkli yoxdur ki, Molla Cuma ondan istifadə etməsin. Özünəqədərki bəlli aşıq şeiri şəkillərindən əlavə o, bir çox yeni biçimlərdə şeirlər də yaratmışdır. Onun gəraylı, qoşma, təcnis, divani və müxəmməs kimi biçimlər üzərində apardığı yeniləşmələr klassik Şərq poetikasına məxsus fiqur və qaydaların aşıq şeiri şəkillərinə tətbiq edilməsi nəticəsində baş vermişdir. Poetik irsinin mühüm bir qismini gözəlləmələr təşkil edir.***

### ZÜLFÜN
*(zəncirləmə gəraylı)*

Hər səhərdən sığallayıb
Cərgə düzdün yüzə zülfün.
Gah darayıb, gah yağlayıb,
Xoş göstərdin gözə zülfün.

Zülfün kəməndin atmağa,
Gecə-gündüz oynatmağa,
Müştəriyəm, gəl satmağa,
Birin allam yüzə zülfün.

Zülfün çəkəndə şanaya,
Dönüb yaşılbaş sonaya,
Batırıban əl xınaya,
Boyadıbsan təzə zülfün.

Zülfün kimi ilan olmaz,
Şair kimi yalan olmaz,
Burda qədrin bilən olmaz,
Dur, aparaq bizə zülfün.

Zülfün gərdəninə yayıb,
Görənləri bihuş qoyub,
Molla Cuma tərif deyib,
Götürübdür sözə zülfün.

## DÖNMƏZ

Bir gözələ gözüm düşdü,
Mən dönərəm, könül dönməz.
Ruhum getdi, ağlım çaşdı,
Mən dönərəm, könül dönməz.

Dərdimi söylərəm başdan,
Ay qabaqdan, qələm qaşdan,
Şirin dilli bir ölmüşdən,
Mən dönərəm, könül dönməz.

Molla Cuma, eylə dastan,
Mail baxan gözü məstan,
Bir vəfalı, sevən dostdan,
Mən dönərəm, könül dönməz.

## SƏNİN

Gözəl, səndən xəbər alım,
Ağ əndamın qarmı sənin?
Dilin şirin, ləbin ballı,
Bizə rəhmin varmı sənin?

Qəddin çinar, belin şüşə,
Dişlərin oxşar gümüşə,
Buxağındı gül-bənövşə,
Yanaqların narmı sənin?

Sinəndə bir cüt şamama,
Nə yaraşır gül əndama,
Layisqi Molla Cuma,
Doğru söylə, yarmı sənin?

## OYNAŞIR

İsmi Pünhan elə şirin danışır,
Ay qabaqda qələm qaşlar oynaşır.
İki ləbi bir-birinə sarmaşır,
Gül ağzında gövhər dişlər oynaşır.

Məclisə çıxanda durur bəy kimi,
Yasa getsə eylər bayram, toy kimi.
Danışanda şaqqıldayır göy kimi,
Havanın üzündə quşlar oynaşır.

Molla Cuma, şad könlünü yıxanda,
Müştaq-müştaq yollarına baxanda,
Hərdən gəlib qabağımdan çıxanda
Cigərimdə eşq atəşlər oynaşır.

## KÜSÜBSƏN

İsmi Pünhan, niyə məndən küsübsən?
Dost mehriban ya bir olar, ya iki.
Bir gün ölsəm hamı deyər, heyifdir,
Canı yanan ya bir olar, ya iki.

Sən şöləsən, mən çevrəndə fanaram,
Bülbülünəm, gülşənindən kənaram,
Od tutuban hər məclisdə yanaram,
Dərdim qanan ya bir olar, ya iki.

Hilal qaşa nə layiqdi o sürmə,
Meylin qırıb, üzün məndən çevirmə,
Cuma deyər, hər yetənə sirr vermə,
Sirrin bilən ya bir olar, ya iki.

## PEŞKƏŞDİR
*(qoşayarpaq)*

Bir zülfü ənbərə, qaşı peykərə,
Bir gözü xumara canım peşkəşdir.
Bir yanaq əhmərə, üzü qəmərə,
Bir dişi gövhərə canım peşkəşdir.

Bir ləbi sükkərə, dili şəkkərə,
Bir sinə mərmərə, bəxti əxtərə,
Bir qəddi ər-ərə, təzə nübkərə,
Bir belə dilbərə canım peşkəşdir.

Bir ismi əzbərə, əndamı tərə,
Bir cavan bəşərə, gözəl duxtərə,
Bir eşqi əxkərə,  çox zülümkərə
Cumayam, aşkara canım peşkəşdir.

## SƏNİ

Al yaşıl bəzənib seyrə çıxanda,
Ayınan ulduza verməərəm səni.
Yoxdur bərabəri huri qılman da,
Misirdə yüz qıza verməərəm səni.

Şəkildə Yusifin camalı səndə,
Çoxdur bərabəri huri qılman da,
Şəkiyə, Şirvana, Quba, Dərbəndə,
Tehrana, Təbrizə verməərəm səni.

Molla Cuma olub hicran tapdağı,
Dərdimin ortağı, sirrim kürrağı,
Gəncəyə, Bakıya, cəm Qarabağa
Ol şəhri Tiflisə verməərəm səni.

## BİR MƏN BİLİM, BİR SƏN BİL, BİR DƏ HEÇ KİM?

Ey canan, mən sənə  aşiq olmuşam,
Bir mən bilim, bir sən bil, bir də heç kim?
Sən məhbubda mənə məşuq olmağı,
Bir mən bilim, bir sən bil, bir də heç kim?

Könlüm istər hər an səni görmağı,
Sarmaşıban qol boynuna salmağı,
Qara gözün məni Məcnun etmağı,
Bir mən bilim, bir sən bil, bir də heç kim?

Molla Cuma bədnam oldu arada,
Loğmanımsan et dərdimə çara da.
Ya kəs başım, ya da yetir murada,
Bir mən bilim, bir sən bil, bir də heç kim?

## QADASIN ALDIĞIM
***(divani)***

Yar başına mən dolanım, qız qadasın aldığım,
Açılanda fəsli-bahar, yaz qadasın aldığım.
Bu sözləri dilnən desəm, dilim yanar kül olar,
Qoy alım əlimə telli saz, qadasın aldığım.

Qələm qaşın əymәlidir, qaynayır qanım mənim,
Sən təki qədir bilənə peşkəşdi canım mənim,
Hər gözəldə gözüm yoxdu, düzü peymanım, mənim,
Gözəllikdə yoxdur sənə söz, qadasın aldığım.

Belə yardan kim inciyər, çağıranda hay verir,
Al yanaqdan zəkat çıxır, bir busə də pay verir,
Dili şirin qəndi-nabat,  ləblərindən mey verir,
Cuma ilə zarafata döz, qadasın aldığım.

## PƏRİ
***(zəncirləmə cığalı müxəmməs)***

Nagahdan gördü gözüm,
Sən təki insanı, Pəri.
Hurisən, Məlikəsən,
Cənnətin qılmanı, Pəri.
Yaralar məlhəmisən,
Dərdlərin dərmanı, Pəri.
Gözəllər sərdarısan,
Məhbubların xanı, Pəri.
Şah kimi taxta çıxıb,
Edərsən divanı, Pəri.

Divanına mən gələrəm
İzzət, ikram qılaram,
Xidmətində qalaram,
Qul-qurbanın olaram,
Əgər qəbul eləsən,
Qolum boynuna salaram.
Qolum boynunda,
Əlim qoynunda,
Çiynim çiynində,
Eşqin beynimdə.
Sarmaşıb köynək kimi,

Durum sənin əynində.
Əyninə al məni, gəl,
Qat bu cana canı, Pəri.

Gəl qataq canı cana,
Xatirimə dəyməgilən.
Sındırıb şad könlümü,
Dal qəddimi əyməgilən.
Gəlmişəm ayağına,
Naz-qəmzəni öyməgilən.
Sevərsən bir Tanrını,
Mən yazığa qıymagilən.
Ver mənim muradımı,
Qiyamətə qoymagilən!
Qiyamətdi qaşların,
Güləbatın saçların,
İnci, mərcan dişlərin,
Xub fincandır döşlərin,
Bu biçarə başıma
Çox ağırdır daşların.
Ağır daş atma,
Nazını satma,
İşi uzatma,
Xalqı oyatma,
Qanıma bais olub
Babala batma.
İki dostun arasına
Salmagilən qanı, Pəri!

Qan salma aralığa,
Çün eşqimə pərvanəsən.
Bəxtəvər yaranmısan,
Bu dünyada bir danəsən.
Sərraflar qədrin bilir,
Cəvahirsən, dürdanəsən.

Xoş qılıq, xoş ixtilat,
Açıq qabaq – mərdanəsən.
Al-əlvan hənalayıb,
Tök tellərin gərdənə sən.
Gərdən göyçək, tel nazik,
Qucmaq üçün bel nazik,
Barmaq şümşad, əl nazik,
Xoş danışan dil nazik.
Çox qəmlidir ürəyim,
Bircə danış, gül nazik.
Nazik uşaqsan,
Kağızdan ağsan,
Ağca buxaqsan,
Qaymaq dodaqsan.
Maşallah, göz dəyməsin,
Əcəb yumşaqsan.
Bircə gecə eylə qonaq,
Sevindir mehmanı, Pəri.

Mehmanınam, gəldim sana,
Eylə qonaq, al qoynuna.
Götürüb qucağına,
Tifil kimi sal qoynuna.
Yalayım tər sinəni,
Dağılıbdır bal qoynuna.
Sərvətli tüccar kimi,
Doldurmusan mal qoynuna.
Yerbəyer müştərilər,
Eyləyibdi yol qoynuna.
Müştəriyəm boyuna,
O gözəlcə xoyuna,
Ətrü ənbər boyuna,
Edən haqqü sayına,
Dərdlərə dərman olan,

Abi-kövsər çayına.
Çayın popuxdur,
Rəngi də şuxdur,
Suyun soyuqdur,
Yaza yovuqdur,
Kirpiyin oxdur.
Gəzsələr cəmi dünyanı
Heç tayın yoxdur.
Kim olar bərabərin
Sənsən Kərəm kanı, Pəri!
Yəqin bil, Kərəm kanı,
Mən yanıram atəşinə!
Beyqafıl gəldim bu gün,
Düşdüm betər savaşına.
Mayılam camalına,
Həm gözünə, həm qaşına.
Yıxılım ayağına,
Durum dolanım başına.
Həm sənə qurban olum
Həm də sənin yoldaşına.
Yoldaşın pərvazdı, gəlin!
Xub yerişin qazdı, gəlin!
Bu necə əndazdı, gəlin?!
Baxışın şahbazdı, gəlin!
Doğmusan şəmsü qəmər,
Gül didarın yazdı, gəlin!
Ey bahar, yazım,
Durna avazım,
Əlimdə sazım,
Eşit niyazım,
Aç qolunu qucaqlaşaq,
Demək nə lazım.
Oynatsın Molla Cuma
Şamamatək səni, Pəri!

## DİLBƏR
*(zəncirləmə müxəmməs)*

Bülbül kimi səyriyəndə,
Səsin gəldi guşə, Dilbər.
Durnasayaq oxumağın,
Əcəb gəldi xoşa, Dilbər.
Həzər qıldım camalına,
Sevdan endi başa, Dilbər.
Qaynayıb eşqin qazanı,
Könlüm düşdü coşa, Dilbər.
Tanrı səni xub yaradıb,
Var əndamın şüşə, Dilbər.

Ol yaradan yaradıbdır,
Sən balanı necə nazlı.
İncə belli, şümşad əlli,
Fəsih dilli, şirin sözlü,
Orta boylu, gözəl xoylu,
Ənbər boylu, qəmər üzlü,
Qələm qaşlı, şux baxışlı,
İncə dişli, maral gözlü,
İzin ver, hüsnünə edim
Doyunca tamaşa, Dilbər.

Tamaşa eləyim, dilbər.
Durubanı qabağında.
Aşığın qətli yazılmış
Lalə əhmər yanağında.
Xəstənin dərdinə dərman
Zahir olmuş dodağında.
Vallah, billah, of demərəm,
Canım çıxsa ayağında.
Yazığam insaf etginən,
Bağrı dönmüş daşa, Dilbər.

İnsaf eylə, ey bağrı daş,
Aman yarım, tut amanı.
Çünki vermiş sənə Allah
O xubluğu, elə canı.
Gül nəfəsin mat eyləmiş
Süsən, sünbülü, reyhanı.
Açıldı köksüyün bəndi,
Nagah gördüm tər sinəni.
Sədəfdən taxtın üstündə
Şah əyləşmiş qoşa, Dilbər.

Şahlarındı narınc, turunc,
Nur qübbəsi iki püstan.
Yuxudan oyanıb təzə-tər
Yenibdir sinənin üstdən.
Nə hünəri var şairin,
Birin vəsfin edə dastan.
Dərməli çağıdır indi,
Əsirgəmə onu dostdan.
Göz sataşdı, əqil çaşdı,
Tutuşdum atəşə, Dilbər.

Tutuşanda atəşinə,
Cəsədimdən can qaçıbdır.
Ağ buxağın şöləsindən,
Gül rəngindən qan qaçıbdır.
Eylə bir danışıb güldün
Ruhum məndən yan qaçıbdır.
Qərəz görüb, ədalətin
Ölkəsindən xan qaçıbdır.
Qatlaşarmı bu hicrana
Ya sultan, ya paşa, Dilbər?
Qadağan ver bu hicrana,
Arada qan, qada eylər.

Məşuq üçün aşiq olsa,
Sərv boyundan əda eylər.
Xoş halına ol kimsənin,
Canın sənə fəda eylər.
Sail olub Molla Cuma,
Yar, qapında səda eylər.
Ev sahibi rəhm etməzmi
Qapıda dərvişə, Dilbər?

**GƏLİN**
***(Zəncirləmə cığalı müxəmməs)***

İstəyirəm ol Xudadan,
Sən olasan yarım, gəlin!
Yolunda peşkəş eylərəm,
Külli - dövlət, varım, gəlin!
Apardın dini - imanım,
Səbr ilə qərarım, gəlin!
Eylədin Məcnun məni,
Yoxdur namus, arım, gəlin!
Gəzdirdin divanə kimi,
Üzdün ixtiyarım, gəlin!
İxtiyarımı üzürsən,
Üzünə tel düzürsən,
İşvə, nazla gəzirsən,
Sən əzrail donunda,
Can almağa hazırsan.
Canımı alasan,
Başa bəlasan,
Bir gəl yola sən,
Göyçək balasan,
Of, nə olar, ilahidən,
Sən mənim olasan.
Həmişə sənlə keçə
Xoşca ruzigarım, gəlin!

Ruzigar sənlə keçə,
Ey cahü cəlallı bala!
Qaməti şümşad kimi,
A sərv tək dallı bala!
Dil nabat, ağız şəkər,
Dodaqları ballı bala!
Gah gülür, gah oynayır,
Bu tərlan xəyallı bala!
Geyinib al-qırmızı,
Həm özü sığallı bala!
Sığallıdır boy-buxun,
Ağrın alım, gəl yaxın,
Qoy doyunca bir baxım,
Öyünü yıxdın çoxun,
Sinəmi qoydun nişana,
Bağırdan keçdi oxun,
Oxun candadır,
Qəsdin qandadır,
Fikrin yandadır,
Dərdin məndədir,
Gözüm səndədir,
Quran götür əl basım,
And içim, inangılan,
Sözümə, dilbərim, gəlin!

Dilbərim sənsən mənim,
Ay təzə növrəstə gülüm!
Qabaqda tellər durur,
Dəstəbədəstə, gülüm!
Hicranı çox çəkibən,
Mən düşmüşəm xəstə, gülüm!
Al yanaqdan bir busə
Şəfqət elə dosta, gülüm!
Of, səni qucaqlayıb,

Basım bağrım üstə, gülüm!
Qucaqlayım, belin, yar!
Sığallayım telin, yar!
Sal boynuma qolun, yar!
Ver əlimə əlin, yar!
Aman, məni öldürür,
Bu şirincə dilin, yar!
Dilin bülbüllü,
Saçın sünbüllü,
Yanağın güllü,
Nə incə belli,
Bircə rəhm etginən
Aşığın öldü.
Öldürmə mən yazığı,
Ey şahi - sərdarım, gəlin!

Öldürüb mən yazığı,
Olma bais qanə, gözəl!
Oynadıb qaş-gözünü,
Od salırsan canə, gözəl!
Alışıb piltə kimi,
Qaldım yana-yana, gözəl!
Bir busə elə zəkat
Mən qərib mehmanə, gözəl!
Mehmanam, ey nigar,
Gəl yanıma aşikar.
Vermə mənə intizar,
Öldüm, olma bixəbər,
Möhkəm yapış qolumdan,
Çıxdı canım, aman, yar!
Yarım, amandı!
Halım yamandı.
İşim ümmandı,
Qəddim kamandı.

O narınc məmələrin,
Dərdə dərmandı.
Ağzıma yetir görüm,
Qoyurmu azarım, gəlin?!

Düşmüşəm azarına,
Dünya mənə dardı, əziz!
Xəstəyə dərman olan
Məmələrin nardı, əziz!
Sərbəsər var əndamın,
Təzə yağan qardı, əziz!
Gürcüstan vilayətin,
Həm mahalın Çardı, əziz!
Kəndini soran olsa,
Ol Qımır-Bazardı, əziz!
Qımır-Bazar Ülkəri,
Ağrın alım, gəl bəri!
Etdin məni sərsəri,
Hurisənmi, ya pəri?
Dürüst adın Əmnətdir,
Yoldaşın imiş Pəri.
Əminə, adına qurban,
Əsən badına qurban,
Yandım oduna qurban,
Şirin dadına qurban.
Hərdəm Molla Cumanı,
Sal bir yadına qurban!
Gecə-gündüz, sübhi-şam
Dilimdə əzbərim, gəlin!

## HÜSEYN BOZALQANLI
*(1863-1941)*

***Aşıq Hüseyn bütün ömrü boyu Tovuzda, doğma kəndi Bozalqanlıda yaşamışdır. O, ifaçılıq məharətindən daha çox yaradıcılıq keyfiyyətinə görə şöhrətlənmişdir. Aşıqlığın bağlı olduğu fəlsəfi-ürfani qaynaqları, Quran və islam mədəniyyətini, o cümlədən təsəvvüfün incəliklərini dərindən bildiyi və bədahətən şeir söyləmək qabiliyyətinə malik olduğu üçün söz-sənət sınaqlarında özünü yetkin sənətkar kimi aparmış, söylədiyi şeirlərin poetik sərrastlığı və dərin məna-məzmun tutumu ilə qarşısındakıları heyran qoymuşdur. Onun müxtəlif vaxtlarda Aşıq Ələsgər, Qaraçöplü Aşıq Musa, Xəyyat Mirzə, Miskin Əli, Şair Ağacan, Quşçu İbrahim, Qazaxlı Mirzə Səməd, Bozalqanlı Şair Vəli, Əlimərdanlı Nəcəf kimi ustad sənətkarlarla deyişmələri dillər əzbərinə çevrilmiş, hətta həmin əhvalatlar dastanvari rəvayətlər şəkli alaraq aşıq repertuarına daxil edilmişdir.***

### DOLANDIĞIM

Səhər-səhər çıx qarşıma,
Dur, başına dolandığım!
Oğrun gözlə qıyğacı bax,
Gör, başına dolandığım!

Tellərin dönüb kəməndə,
Gözəllər olub şərməndə,
Qara saçın dal gərdəndə,
Hör, başına dolandığım!

Hüseynin aldın canını,
Apardın din, imanını,
Əsirgəmə müjganını,
Vur, başına dolandığım!

## GEYİNDİ

Bahar oldu, çiçək açdı,
Güllər qırmızı geyindi.
Çırtıq dəydi, üz qanadı,
Xallar qırmızı geyindi.

Yarım yuxudan oyandı,
İncidi, küsdü, oysandı,
Barmaq buxağa dayandı,
Əllər qırmızı geyindi.

Mayiləm mina gərdəna,
Ağ bədənə, gül əndama,
Zülfünə qoyubdur xına,
Tellər qırmızı geyindi.

Baş oynatdı, qıya baxdı,
Könlümün evini yıxdı.
Al geyindi, seyrə çıxdı,
Çöllər qırmızı geyindi.

Yanaqları güldən təzə,
Ağzı qaymaq, dili məzə,
Hüseyn, canan gəldi bizə,
Yollar qırmızı geyindi.

## QAYITDI

Bir sona sallandı çıxdı xanadan,
Süzmüş  oylağına gəldi, qayıtdı.
Axtardı səyadın, bula bilmədi,
Baxdım ki, pərişan oldu, qayıtdı.

Gecənin nisfində yatan çağında,
Sevgilər ixtilat qatan çağında,
Maral bərəsinə çatan çağında,
Yad ovçudan bir xəf aldı, qayıtdı.

Dostumu nəfsimə sata bilmədim,
Şikara oxumu ata bilmədim,
O gecə sübhədək yata bilmədim,
Atəşi cismimə saldı, qayıtdı.

Baxdım bu gəlməyin qeyri qəsdi var,
Bəzəyi, zinəti, şövqü, şəsti var,
Anladım dilbərin yəqin dostu var,
Arif eyhamından bildi, qayıtdı.

Ağ libas, ağ bədən, bir mah camaldı,
Huridi, pəridi, mələk misaldı,
Mürğü ruhum uçdu, rəngim saraldı,
Hüseynə çəngəlin çaldı, qayıtdı.

## SARI KÖYNƏK

Səhər çağı qafil çıxdın qarşıma,
Yıxdın atam evin, ax, sarı köynək!
Maral kimi süzüb keçdin bərədən,
Dönüb bir ovçuna bax, sarı köynək!

Sədrin Savalanda yayılmış qardır,
Köysündə baş verən turuncdur, nardır,
Camalın şöləsi şəmsi-qəmərdir,
Salıbdır aləmə şux, sarı köynək!

Zəbanın şəkərdir, dəhanın məzə,
Dilin şərbətində lütf edə bizə,

Qızıl üzük kəsdir, qaşı firuzə,
Nazik barmaqlara tax, sarı köynək!

Yanağın lalası saralıb, solmaz,
Şahmar zülfün çalan kimsə sağalmaz,
Gedər bu gözəllik sənə də qalmaz,
Vardır sənin kimi çox sarı köynək!

Aşıq Hüseyn deyər, hüsnünə dastan,
Behiştdən gəlibdir bu huri, qılman,
Kirpiyin almasdır, qaşların kaman,
Vurubdur sinəmə ox, sarı köynək!

## BU GÜN

Yenə bayram oldu xublar evində,
Şükür yaradana, nə cəlal bu gün.
Ay qabaqda hilal qaşlar çatılıb,
Şox salıb buxağa qoşa xal bu gün.

Yollar şölələnib dönüb çırağa,
Yar qədəmin basıb bizim otağa,
Laləzar geyinib başdan-ayağa,
Bas bağrına, telli sazı, çal bu gün.

Yar ilə çörəyi bir yeməyimiz,
Küsüşüb, barışıb, gülüşməyimiz,
Hüseyn deyər, bizim görüşməyimiz,
Qoşa bayram oldu dalbadal bu gün.

## HƏM ONDA SƏNİ

Bir gecə mən sənə mehman olanda,
Sən məni istədin, ha mən də səni.
İlqar verib, dönüb beyilqar olsan,
Məzəmmət eyləyər hamı onda səni.

Qol boynuna salıb sənə söz dedim,
Namə ha yazmadım, üzbəüz dedim.
Vədə verdin, üç saata gözlədim –
Səkkizdə, doqquzda, həm onda səni.

Hüseyn deyər mətləbimə çataydım,
Məclisində xoş ixtilat qataydım,
Sərxoş olub eyvanında yataydım,
Axtaran tapaydı ha məndə səni.

## OLA
### *(cığalı təcnis)*

Könül sevdi gözəllərin xasını,
Qasidin əlində naməlum ola.
    Qarşıda naməlum,
    Hicran çəkdim naməlum.
    Rəqib, evin yıxılsın,
    Yurdun olsun naməlum.
Bir eyvan otaqda sürəm səfasın,
Ağ tər sinəsində nəm əlim ola.

Yaxşı olar gözəllərin halalı,
Qəvvas çəkər dəryalardan ha ləli.
    Qarşıda halalı,
    Sirr ver, görsən halalı.
    Gözəlin bivəfası
    Axır canın hal alı.

Sən də çalış, haqdan dilə halalı,
Haramdan dövlətim, nə malım ola.

Aşıq Hüseyn, dərdin yetər bir yüzə,
Canan gəlsə canım verrəm bir üzə.
 Qarşıda bir üzə,
 Ördək göldə bir üzə.
 Bağban, yad qoyma bağa,
 Bir sındıra, bir üzə.
Nütfədən qarışan verər büruzə,
Nə fitnəsi kəsər, nə məlum ola.



## MİRZƏ BİLAL
*(1872-1937)*

***Xalq arasında Mirzə Bilal kimi tanınan Bilal Mustafa oğlu Mikayılov Şirvan aşıqlarının atası sayılır. Şamaxının Qəşəd kəndində doğulmuşdur. Şamaxıda Seyid Əzim Şirvaninin məktəbində oxumuşdur. Bilal orada oxuya-oxuya saza həvəs göstərmiş, Aşıq İbrahimin yanında şagird olmuşdur. Sənətin sirlərini, mükəmməlliklə öyrənmiş, ustadı ilə məclislər aparmış, Şirvanda, ondan kənarlarda ustad sənətkar kimi tanınmışdır. “Şirvan şikəstəsi”, “Şirvan gəraylısı”, ”Qobustan şikəstəsi”, “Döymə Kərəmi” kimi saz havalarına yeni xallar vurmuşdur. “Bilal peşrovu” havasının yaradıcısıdır. Muğamın sirlərini “Şirvan bülbülü” Mirzə Məhəmmədhəsəndən öyrənmişdir. Yaradıcı aşıq olmuş, aşıq şeirinin müxtəlif formalarında nümunələr yaratmışdır. Aşıq Mirzə Bilal 1937-ci il iyunun 17-də həbs olunmuş, noyabrın 26-da xalq düşməni kimi güllələnmişdir. O, Şirvan aşıq və muğam ifaçılığının yüksəlişində müstəsna xidmətlərə malik olmuşdur.***

### DALMIŞAM

Aman Allah, dada yetiş,
Gör nə fəğana dalmışam?
Eşqin odu düşüb cana,
Çəkib zəbana dalmışam.

Günəş üzü, ay sinəsi,
Tutub cahanı şöləsi,
Baldan şirindi kəlməsi,
Meyli o cana salmışam.

Qulağında qızıl tana,
Töküb zülfün dörd bir yana,
Bilal deyir, yardan mana,
Gəlib nişana, almışam.

## KƏKLİK

Vurulmuşam camalına,
Gəl dərdimi qan, a Kəklik.
Gəlin kimi ayağına,
Sən qoymusan xına, Kəklik.

Başın yaşıl, gözün qara,
Oxşayırsan nazlı yara,
Qaçma bizdən uzaqlara,
Qal bu yerdə, sona Kəklik.

Qış sovuşub yaz gələndə,
Qız, gəlinlər gül dərəndə,
Onlara gəl qarış sən də,
Qaçma məndən yan, a Kəklik.

Azad dolan bizim yerdə,
Son qoymuşuq qəmə, dərdə,
Aşıq Bilal məclislərdə,
Nəğmə desin sana, Kəklik.

## OLMUŞAM

Şeirin, məhəbbətin ülvi mənasın,
Əzəldən hiss edib, qanan olmuşam.
Hicranın oduna gecəbəgündüz,
Səməndər quşu tək yanan olmuşam.

İlk baharın laləsini görəndə,
Dost bağında tər bənövşə dərəndə,
Danışanda, oynayanda, güləndə,
Sevdalı hüsnünə uyan olmuşam.

Mənim gözəlimin yox imiş tayı,
Camalı xəcl edər günəşi, ayı,
Şirvanlı Bilalam, Kürdən o tayı,
Gəzib dolanmışam, heyran olmuşam.

## SEVGİLİM

Gecə-gündüz həsrətini çəkməkdən,
Oldum tamam günü qara, sevgilim!
İnsaf nədir, mürvət nədir bilmədin,
Çəkdirdin sən məni dara, sevgilim!

Bir dərdim var – yar əlində çarəsi,
Dərmanımdır iki qolun arası,
Qövr eyləyir ürəyimin yarası,
Həsrət qoyma şirin nara, sevgilim!

Gözün cəllad, kirpiklərin kamandır,
Vüsalından ayrı düşmək yamandır,
Bir busə ver ləblərindən, amandır,
Ciyər oldu parə-parə, sevgilim!

Mehman olub otağında yatmadım,
Ov bərədən keçdi, ovu atmadım,
Bilal deyir, vüsalına çatmadım,
Qismət olma sitəmkara, sevgilim!

## ƏSƏD RZAYEV
***(1874-1951)***

***Aşıq Əsədin atası Tovuz rayonunun Bozalqanlı kəndindən olmuş, yerli bəylərin zülmündən qaçıb Qaraqoyunluya getmişdir. 1932-ci ildə yenidən Tovuz rayonunun Bozalqanlı kəndinə köçmüşdür. Aşıq Ələsgərin yanında dörd il şagird olmuşdur. Aşıq sənətinin sirlərini, dastanları mükəmməlliklə öyrəndikdən sonra müstəqil aşıqlığa başlamış, ömrünün axırına qədər Tovuz rayonunda yaşamışdır. Gözəl, məlahətli səsi, misilsiz ifaçılıq qabiliyyəti, dastanları mükəmməlliklə bilməsi onu xalq arasında məşhurlaşdırmışdır. Folklorşünas H.Əlizadə “Koroğlu” dastanının bir neçə qolunu və xalq dastanlarının bir çox variantlarını “Koroğluxan” aşıq kimi tanınan Aşıq Əsəddən yazıya almışdır.***

### KİMDƏN ÖYRƏNDİN

Oğrun-oğrun daldalardan,
Baxmağı kimdən öyrəndin?
Qəfildən könlüm evini,
Yıxmağı kimdən öyrəndin?

Gül xəcildi yanağına,
Bal bələnib dodağına,
Qızıl üzük barmağına,
Taxmağı kimdən öyrəndin.

Mail oldum qələm qaşa,
Sədəf kimi inci dişə,
Əsədin canın atəşə
Yaxmağı kimdən öyrəndin?

## YOL ÜSTÜNDƏ DURAN GÖZƏL

Yol üstündə duran gözəl,
Söylə görüm, haralısan?
Yaranıbsan bir qətrədən,
Hansı yerin maralısan?

Yaradıb Cabbarü Cəlil,
Bədnəzəri olsun zəlil.
Nə baxırsan məlul-məlul,
Yoxsa yardan yaralısan?!

Əsəd deyir, intizaram,
Açılmış güllərin dərəm,
Hər gün sənlə seyrə varam,
Heyif, bizdən aralısan.

## BOYLANA-BOYLANA

Cilvələnib kəklik kimi,
Ötür boylana-boylana.
Müjganların sinəm üstə,
Atır boylana-boylana.

Eşqinən çalıram sazı,
Sənsən aşığın murazı,
Bu beymürvət qəmzə-nazı,
Satır boylana-boylana.

Navat deyərlər adına,
Aşiqin salmaz yadına,
Şirin canım eşq oduna,
Qatar boylana-boylana.

Gözüm doymur ala gözdən,
Meylini döndərmə bizdən,
Aşıq Əsəd, önümüzdən,
Ötür boylana-boylana.

## QURBANI
***(Xəstə Qasıma nəzirə)***

Sallana-sallana qədəm qoy bizə,
Asta yeri, ayaqların qurbanı.
Təbibimsən məlhəm eylə yarama,
Gül əlində barmaqların qurbanı.

Hüsnünü görəndə gözüm qamaşır,
Vəsfini deyəndə dilim qamaşır,
Dindirirəm şirin-şirin danışır,
Şəhdi-şəkər dodaqların qurbanı.

Ayna qabaq çəkilibdi varağa,
Gülgəz gül döşənib zülfə, buxağa,
Yaralıyam, qalxa bilməm ayağa,
Tut qolumdan dayaqların qurbanı.

Əsədəm gəzmişəm dağlar arası,
Yaman olur nazlı yarın yarası,
Sən ağlama gedər gözün qarası,
Ləkə düşər yanaqların qurbanı.

## DÜŞÜBDÜ

Bir gözəl sallandı çıxdı xanadan,
Gördüm zülfü sol-sağına düşübdü.
Belə sandım can almaqdı xəyalı,
Siyah tellər yanağına düşübdü.

Əhli dildi, məhəbbətdən danışam,
Mənəm onun eşq oduna alışan,
Görməmişəm gözllərdə bu nişan,
Ayın, günün xoş çağına düşübdü.

Bu bəxtəvər görən kimin yarıdı,
Şux gözəldi, məhbubların barıdı,
Hər kəs gördü pişvazına yeridi,
Səcdə qılıb ayağına düşübdü.

Sənubər qəddinə geyibdi ağı,
Bizə qəsd eyləyir beymürvət yağı,
Bir cavan eşqindən dolanır dağı,
Məcnun olub sorağına düşübdü.

Atıb gərdəninə zülfü şahmarı,
Yayılıb aləmə camalın nuru,
Qurubdu qarşımda məhəbbət toru,
Aşıq Əsəd dustağına düşübdü.

## O GÖZƏLDİ, BU GÖZƏL

Nagah yerdən üç gözələ tuş oldum,
Biləmmədim o gözəldi, bu gözəl.
Camalları bənzər bayram ayına,
Seçən yoxdu o gözəldi, bu gözəl.

Birisi sultandı əyləşib taxtda,
Biri keşt eyləyir kefdə, damaqda,
Birinin gözləri canlar almaqda,
Seçəmmədim o gözəldi, bu gözəl.

Əsəd girməz hər məclisə, hər toya,
Zəhməti, zilləti getməsin zaya.
Sərraflar yığışıb qiymətin qoya,
Qoy desinlər o gözəldi, bu gözəl.

## GƏLİN
***(müxəmməs)***

Nagah mənə urcah oldun,
Ay qaşları qara, gəlin.
Günəş kimi zərrələndin,
Şövqün düşdü bazara, gəlin.
Bədnəzərdən pünhan dolan,
Gələrsən nəzərə, gəlin.
Çoxu sənə mail oldu,
Sən salarsan azara, gəlin.
Zərrü-ziba geyinmisən,
Üstündən bir xara, gəlin.

Üst-üstündən dörd don geyib,
Hamısının köbəsi ala.
Gör bir necə cilvələnib,
Çinniyib qabağa, dala;
Tər libası, tər əndamı,
Mən istərəm daim qala,
Bəşərliyə şəkk elədim,
Mən düşdüm özgə xəyala.
Zülflərin adam çalır,
Dönübdü şahmara, gəlin.

Birisi növrəstə gəlin,
Biri yəqin qızdı, bilin.
Yetmiş iki hava çalır,
Teli incə sazdı, bilin;
Göydən gəlmiş məleykədi,
Yerdə quba qazdı, bilin;
Qoynu cənnətin bağçası,
Həm bahardı, yazdı bilin;
Aşiqinə zülm elədin,
Saldın ahu-zara, gəlin.

Bu zülmün qabağında,
Mən bilmədim haralıdır.
Geyinib Kuban forması,
Hansı yerin maralıdır.
Qıyğac baxıb canlar alır,
Bildim yardan yaralıdır.
Ədhəminən xəbər aldım,
Dedi, məndən aralıdır.
Yaram üstən yara vurdun,
Oldum para-para, gəlin.

Araz üstdən bu ceyranı,
Gətiriblər qova-qova.
Mail olub mina boya,
Ərənlər də çıxdı ova.
Mən ki, köhnə kamandaram,
Başıma gəlibdi hava.
Badi-səba sən xəbər ver,
Tovusda Telli Zeynaba.
Əsədin də sinəsinə,
Vurubdu min yarə, gəlin.

## XIRDACA QIZ
### *(müxəmməs)*

Naz ilə gəldin otağa,
Leyli nişan, xırdaca qız!
Tovus kimi cilvələnib,
Artırır şan, xırdaca qız!
Biri hüri, biri pəri,
Biri də sən, xırdaca qız!
Gözləri cəllada dönüb,
Qəmzəsi qan, xırdaca qız!

Məclisə o əmr eləyib
Aşiqini saz eyləsin.
Davud kimi nəfəs çəkib
Bir də xoş avaz eyləsin.
Bülbül kimi cəh-cəh vurub
Zimistanı yaz eyləsin!
İşvə, qəmzə canım alır
Daha bizə az eyləsin.
Mən ki, sənin aşiqinəm
Eylə güman, xırdaca qız!

Gəzmişəm hər ölkəni,
Belə canan görməmişəm.
Boylananda durna sayaq
Qaşı kaman görməmişəm.
El, obada, ay həzərat,
Allah, aman görməmişəm!
Mənim kimi eşq əlindən
Oda yanan görməmişəm.
Yaraların məlhəmisən
Öldüm aman, xırdaca qız!

Cahıl, ahıl, qarasaqqal,
Görüb səni mayil olub.
Didarından ayrı düşən,
Ağlı gedib zail olub,
Sən Leylisən, min bir Məcnun
Çölə düşüb sail olub;
Hər nə fərmayiş buyursan,
Hamı ona qail olub;
Əmirinə baş əyiblər
Buyur fərman, xırdaca qız!

Gəzmişəm mən görməmişəm,
Sənin tək qaşı qəməri.

Belin nazik, gərdən nazik
Bağlayıb qızıl kəməri,
Tər-təzəcə ağ koftanın
Üstündən geyib məxməri.
Əsəd sənə qurban deyib
Bu əziz can ilə səri.
Bir gün ola güzar düşə
Olaq mehman, xırdaca qız!

**GÖZƏL**
***(müxəmməs)***

Zər üstündən zər geyinib.
Başında darağı gözəl.
Ala gözdə siyah sürmə,
Qaşlarının tağı gözəl.
Ağız püstə, dodaq qaymaq,
Yanağının ağı gözəl.
Zənəxdana xal düzülüb,
Büllurdu buxağı gözəl.
Xara köynək yaxası gül,
Üstə boyun bağı gözəl.

Şeyda bülbül cəh-cəh edir,
Bağçaların barı təzə;
Səd afərin kamil bağban
Bəsləyibdi narı təzə;
Sinən Səmərqənd kağızı,
Sandım yağıb qarı təzə;
Təbiət bəxş eləyibdi,
Buna gözəl yarı təzə;
Naqafil çıxdı qarşıma,
Alır canım yağı gözəl.

Bu gün axşam bazarıdı,
Çıxıb nə seyran eləyir;
Neçəsini qəhrə salıb,
Gör necə dövran eləyir;
Xəstələrin loğmanıdı
Dərdinə dərman eləyir;
Görənlər də mail olub,
Canını qurban eləyir;
Hərdən gəlib məclisimdə
Dolandırır sağı gözəl.

Cuna altda qısa teli,
Onun üstdən al yaraşır;
Bir əlində tər bənövşə,
Buxağına gül yaraşır;
Nazik belinə kəmər,
Altdan tirmə şal yaraşır;
Bir beləcə şux gözələ,
Tərif dalbadal yaraşır;
Qoynun içi gülşən bağı,
Gül açıb, yarpağı gözəl.

Vəsf eyləyir Aşıq Əsəd.
Dolanır hər yanı belə;
Əndəlib tək leyli-nahar,
Gəzir gülüstanı belə;
Kəpəzdə ovun gözləyir,
Alvızın tərlanı belə;
Yaşasın belə gözəli,
Qoy sürsün dövranı belə;
Naz-qəmzəsi təbiidir,
Mehmanı, otağı gözəl.

## MƏSİM BƏYAZİDLİ
*(1881-1933)*

***Borçalı aşıq mühitinin yetişdirdiyi ustadlardandır. Şamlı kəndində anadan olmuşdur. Təbii fəlakət nəticəsində həmin kənd dağılmış və əhali Bəyazidli kəndində məskunlaşmışdır. Məsim də ailəsi ilə buraya köçmüşdür. Bəyazidli kəndi sonralar Qayaqocalı kəndi ilə bir inzibati ərazidə birləşir və Qayaqocalı adı ilə adlanmışdır. Saza, sözə marağı olan Məsim Bəyazidli Dollu Abuzərin yanında sənəti mükəmməl mənimsəmiş və tezliklə mühitdə ustad kimi tanınmışdır. Aşıq şeirinin müxtəlif biçimlərində çeşidli poetik örnəkləri dillər əzbəridir.***

### A SARVAN QIZI*

Nagahdan uğradın qafildan mana,
Sandım ki, ceyransan, a Sarvan qızı.
Qıyğacı baxışın aldı canımı,
Dərdlərə dərmansan, a Sarvan qızı.

Özün çox gözəlsən, həm də innabı,
Sandım ki, üstünə müşkülər yağıb.
İnanmıram səni analar doğub,
Ərşdəki qılmansan, a Sarvan qızı.

Mana irast oldu dəmir yolunda,
Dəftəri, qələmi, vardı əlində.
İsmi əzbər olub Məsim dilində,
Sazlarda dastansan, a Sarvan qızı.

---

***Qeyd: “Sarvan” Gürcüstandakı Marneuli rayonunun qədim adıdır.**

## KEÇDİ

Borçalı elində yol kənarında,
Sallandı qarşımdan yar gəldi, keçdi.
Bircə soruşmadı ərzi-halımı,
Gen dünya başıma dar gəldi, keçdi.

Al-yaşıl geyinib, xınalı dəsti,
Yel vurduqca cığalı telləri əsdi.
Qıyğacı baxışı səbrimi kəsdi,
Çiskinli, boranlı qar gəldi, keçdi.

Aşıq Məsim dərdin, qəmin kanıdı,
Şirin ləblərindən əmən qənidi.
Bir dönüb baxmağın can dərmanıdı,
Qıymadı qoynundan nar gəldi, keçdi



## ÇOBANKƏRƏLİ CƏFƏR
*(1883-1943)*

***Zəngibasar bölgəsinin Çobankərə kəndində dünyaya göz açan Aşıq Cəfər erməni qırğınlarından qaçaraq Naxçıvanın Şıxmahmud kəndinə pənah gətirmiş (1922), bölgədə ustad sənətkar kimi tanınmışdır. Dastançı aşıq kimi daha  çox xatırlanır. "Ziyad-Şövkət”  dastanının yaradıcısıdır. Aşıqların repertuarında şeirləri yaşamaqdadır.***

### KİMİ

Qızlar durub xan Arazın başında,
Eybi yoxdu kirpiyində, qaşında,
Həddi-buluq on dörd-on beş yaşında,
Sanasan dağların maralı kimi.

Arazın dörd yanı sırsıra buzdu,
Kimisi gəlindi, kimisi qızdı.
Başına döndüyüm, ay ala gözdü,
Könlümü eylədin qaralı kimi.

Aşıq Cəfər burda qoydu nişana,
Ayrılıq həsrəti kar eylər cana,
Sinəmə gəlibdi bir neçə xana,
Deməsəm, qalaram yaralı kimi.

### GÖZƏLLƏR

Al yaşıl geyinib çıxdı qarşıma,
Yeriyin naz ilə dəstə gözəllər.
Xudam sizi nə xoş gündə yaradıb,
Qurban sizin kimi dosta, gözəllər.

Qəvvas olan duz çıxarır dərindən,
Aşıq olan keçər başı-sərindən.

Üçünüzü seçmərəm biri-birindən,
Qaymaq dodaq, ağız püstə gözəllər.

Sizi mən eylərəm başımın tacı,
Həsrət könlüm gül camalın möhtacı.
Mən sizə qardaşam, siz mənə bacı,
Oldum dərdinizdən xəstə, gözəllər.

Yəqin bilin var-yoxumu tökərəm,
Gözəllərin zəhmətini çəkərəm,
İsmim Aşıq Cəfər, sizə nökərəm,
Xoş gəldiniz gözüm üstə, gözəllər.

## SƏHNƏ XANIM

Bir qız gördüm Gözəldərə elində,
Küsmə aşiqindən, gül, Səhnə xanım.
Gözüm qaldı zənəxdanda, telində,
Sallan bizə sarı gəl, Səhnə xanım.

O qələm qaşların canımı aldı,
Qıya baxıb bu cismimə od saldı,
Məşuqun üç gecə mehmanın oldu,
Qurban olsun sənə el, Səhnə xanım.

Aşıq Cəfər dərdə düşgün adamdı,
Dilin şəkər, dodaqların badamdı.
Anam Şaban, Məmişoğlu atamdı,
İstərsən xəbər al bil, Səhnə xanım.

## MİRZƏ BAYRAMOV
***(1888 -1954)***

***Tovuzun Cilovdarlı kəndindəndir. Aşıq Hüseyn Bozalqanlıdan sənət dərsi almış və uzun müddət el məclislərinə ustadı ilə birgə getmişdir. Məlahətli səsi, zil zəngulələri, yüksək səhnə mədəniyyəti, misilsiz aktyorluq məharəti ilə seçilmiş və 1920-50-ci illərdə Azərbaycanda ən məşhur ifaçı aşıqlardan biri kimi şöhrətlənmişdir. Aşıq Mirzə Bayramov Azərbaycan dastanlarının mahir ifaçısı olduğu üçün 1930-40-cı illərdə bir çox dastanlar onun repertuarından yazıya alınmış və müxtəlif antoloji nəşrlərə daxil edilmişdir. «Kərəmi», eləcə də «Koroğlu» saz havalarının yüksək səviyyəli ifaçısı olduğuna görə xalq arasında «Kərəm aşığı» və «Koroğluxan aşıq» kimi ad çıxarmışdır. «Mirzə dübeyti», «Mirzə gözəlləməsi» kimi saz havaları onun bəstəçi-ifaçı istedadından yadigardır.***

### GÖZƏLLƏR

Yenə bu günləri bayram günüdür,
Bürünüb yaşıla, ala gözəllər.
Kələğay bağlayıb hələ başına,
Tirmə örtüb qəddi-dala gözəllər.

Olmaz sizin kimi qəmzəsi qanlar,
Alma yanaqlılar, qaşı kamanlar,
Gözəl dəstənizi görən cavanlar,
Yəqin düşər özgə hala, gözəllər.

Huri, mələk ola bilməz sizə tay,
İşıq alır camalızdan ərşdə ay.
Qoyub yolunuzda Mirzə haqqı-say,
Dəyməsin boyuza bəla, gözəllər.

## YADIMA DÜŞDÜ

Yarın gərdəninə qolum salanda,
Zülfə dolaşdığı yadıma düşdü.
İstədim ki, əl uzadım qoynuna,
Düyməsin açdığı yadıma düşdü.

Sallanıb gələndə, dərdim biləndə,
Əl-ələ çalanda, cəh-cəh güləndə,
Əylənib qalanda, pünhan olanda,
Deyib danışdığı yadıma düşdü.

Kirpiyin qalxanda, cana çaxanda,
Həmayıl taxanda, ənbər qoxanda,
Seyrəqib baxanda, evim yıxanda,
Kənardan keçdiyi yadıma düşdü.

Aynasın quranda, ziynət vuranda,
Zülfünü hörəndə, telin buranda,
Mirzəyəm, görəndə qolun gərəndə,
Həsrət sarışdığı yadıma düşdü.



## ƏLİ XANXANIMOĞLU

***Naxçıvan aşıq mühitinin XIX yüzillikdə yetirdiyi ustad sənətkarlardandır. Yaradıcı aşıq olmuş, xalq arasında şeirləri geniş yayılmışdır. Aşıqların repertuarında onun yaradıcılığından müxtəlif örnəklər yaşamaqdadır. Şeirləri zəngin koloriti və canlı danışıq üslubuna yaxınlığı ilə seçilir.***

### NƏ SİNƏ BAĞLAR

Məxmər çuxa geyib, qolları nazik,
Dəstinə yaraşır gümüş bilərzik.
Veriblər xoryada, olubdu yazıq,
Nə üzün daldalar, nə sinə bağlar.

Məxmər çuxa geyib, ucu dizindən,
Doymaq olmur bunun ala gözündən.
Bir gözəl törəyib Urum qızından,
Nə üzün daldalar, nə sinə bağlar.

Allahım veribdi, bu da bir paydı,
Ördəyin məskəni çəməndi, çaydı.
Asnılı Əlini çarvadar saydı,
Nə üzün daldalar, nə sinə bağlar.

### GÖZƏLİN

Gözü badamıdı, gərdəni mina,
Şüşəbənddi solu, sağı gözəlin.
Kəbə qəndilidi püstanı-rəna,
Qoynu içi cənnət bağı gözəlin.

Başına örtübdür ağ nazik cuna,
Yaxılmış əllərə al-əlvan həna,
Camalı lağ edir günə, həm dana,
Yanaqları gül yarpağı gözəlin.

Əli görməyibdi sən tək növcavan,
Hökmündədir Gəncə, Şəki, İrəvan.
Səhər yeli əsdi, aşdı giriban,
Qoruq olub gecə bağı gözəlin.

## ŞƏMŞİR QOCAYEV
*(1893-1980)*

***Kəlbəcərin Dəmirçidam kəndində şair Qurbanın ailəsində pərvazlanan Aşıq Şəmşir XX əsr Azərbaycan aşıq sənətinin ən parlaq simalarından biridir. Atası Ağdabanlı Qurbandan şeir-sənət dərsi almışdır. Aşıq Ələsgərin saz-sözünün hikmətini yeniyetməlik çağlarından mükəmməl şəkildə mənimsəmişdir. Ömrünün erkən çağlarından püxtə, yetkin sənətkar kimi saz-söz aləmində ad qazanmışdır. Aşıq Şəmşir istedadının parlamasında Səməd Vurğunun qayğı və himayəsinin rolu böyük olmuşdur. Saz-havacat elminin sirlərinə vaqif bir ustad olduğundan aşıq musiqisini ifa və təqdim etməkdə özünəməxsus dəst-xətt nümayiş etdirmişdir. Aşığın bəstələri olan «Şəmşiri», «Qaragözü», «Şəmşir müxəmməsi» kimi havalar melodik zənginliyə malik sənət inciləridir.***

### SARI

Nazlı canan axşam üstü,
Göz dikmişdi yola sarı.
Çin-çin olub qıvrım saçı,
Tökülmüşdü qola sarı.

Aşkar baxma arif duyar,
Ara vurma mərdimazar.
Ləblərinin şirəsi var,
Arı qonar bala sarı.

Üzün göstər qəmər kimi,
Açılmış təzə-tər kimi,
Şəmşiri bir kəmər kimi,
Dola, incə belə, sarı.

## GƏLİN

Azərbaycan maralısan,
A qaşları qara gəlin.
Qoy el bilsin haralısan,
Gedərgisən hara, gəlin.

Sənin cismin simü zərdi,
Hüsnün mahi-münəvvərdi,
Dodaqların bal, şəkərdi,
Qaşların mahpara gəlin.

Yanıb bağrım olub kabab,
Dil möhnətə gətirmir tab,
Bir busə ver elə savab,
Məni yetir vara, gəlin.

Şəmşir yanar ocağında,
Pərvanə tək çırağında,
Qoy can verim qucağında,
Əlim dəysin nara, gəlin.

## MƏNİM

Qaşları qələmim, şirin kəlamım,
Sənsən bir sevgili gözəlim mənim.
Həm canım, cahanım, külli aləmim,
Olaydın axırım, əzəlim mənim.

Qayada kəkliyim, düzdə ceyranım,
Murovum, Qoşqarım, dağım, aranım,
Şonqarım, Şahbazım, tülək tərlanım,
Qəlbimdə növrəstə gözəlim mənim.

Şərəfim, izzətim, gülbərgitərim,
Kövkəbim, mehrabım, mahım, ülkərim,
Ağzı beçə ballı, dili şəkərim,
Ləbləri şirinim, məzəlim mənim.

Eşqim, məhəbbətim, arzu, diləyim,
Behiştim, cənnətim,  huri mələyim,
Məqsədim, məramım, ruhum, ürəyim,
Öz cismim, öz canım, öz əlim mənim.

Taleyim, dövranım, eyşim, ləzzətim,
Şəmşirəm, səndədir xətir, hörmətim,
Dilimdə əzbərim, sözüm, söhbətim,
Saf təbim, pak şeirim, qəzəlim mənim.

## ELLƏR GÖZƏLİ

Xəstəyə bir dəstə gül gətiribsən,
Özün də olubsan güllər gözəli.
Qoy səsin yayılsın Azərbaycana,
Ey gözəllər şahı, ellər gözəli.

Lalədən, nərgizdən üzün qəşəngdi,
Qaşın aya bənzər, gözün qəşəngdi,
Şirin danışmağın, sözün qəşəngdi,
Şairlər əzbəri, dillər gözəli.

Yanağın dağların ağ çiçəkliyi,
Sən haqdan alıbsan bu gözəlliyi,
Sən Kəpəz tərlanı, Murov kəkliyi,
Suların sonası, göllər gözəli.

İşıqlı mayaksan Bakı şəhrində,
Yaranıbsan huri-qılman təhrində,

Laçına oxşarsan dağlar sehrində,
Muğan ceyranısan, çöllər gözəli.

Şəmşir amadədi hər nə buyursan,
Qeyrətdə təmizsən, lətifə nursan,
Simada mələksən, elə məşhursan,
Aylar günəşisən, illər gözəli.

## SƏNƏM

Ayaz aylarında nəfəsin yazdır,
Sənin hüsnün çəmən gülü yay, Sənəm.
Nə qədər tərifin deyilsə azdır,
Kirpiyin ox, qələm qaşın yay, Sənəm.

Sən bircə dərdimi yüz elə, söylə,
Bu əlli dərdimi yüz ilə söylə,
Yüz mahala danış, yüz elə söylə,
Dastan elə, obalara yay, Sənəm.

Şəmşir deyər sənsən dağlar lilpəri,
İşləyərmi düşsə topun bir pəri?
Bir mələkdir, bir huridir, bir pəri,
Gözəlliyi yerə-göyə yay, Sənəm.

## REYHAN

Qəddi-qamətinə, boy-büsatına,
Səd afərin səndə bu hala, Reyhan.
Duruşun oxşayır tülək tərlana,
Qaşların bənzəyir hilala, Reyhan.

Ləblərinə bal şirəsi bələnib,
Yanağına ətri-ənbər çilənib.

Məcnun kimi qapı-qapı dilənib,
Çatan varmı sizin mahala, Reyhan.

Qamətin göyçəkdi bir humay kimi,
Çiçəklənən bahar kimi, yay kimi,
İşıq salır bədirlənmiş ay kimi,
Çatıbsan bu hüsni-camala, Reyhan.

Haqq səni yaradıb nə əcəb gözəl,
Bəlkə gözəlliyi sən aldın əzəl,
Xublar karvanının görüşünə gəl,
Versin tellərini sığala, Reyhan.

Şəmşir, gözlərinin axmasın yaşı,
El gəzdin salamat saxladın başı,
Birdən aldanarsan, olarsan naşı,
Qoy səni verməsin zavala, Reyhan.

## YARAŞIR

Bir gözəl gəlibdi Turş bulaq üstə,
Bulaq ona, o bulağa yaraşır.
Camalı ay kimi təzə növrəstə,
Qoşa xallar ağ buxağa yaraşır.

Gül yanağı nə solu, nə saralı,
Düşməsin obadan, eldən aralı,
Qarabağın xumar gözlü maralı,
Boy-büsatı bizim dağa yaraşır.

Mələk baxışlıdı bu əziz qonaq,
Lalə yanaqları təzə qardan ağ,
Tuti təhər şirin kəlmə danışmaq,
Belə nəcib dil-dodağa yaraşır.

Göl sonası, su pərisi həməndi,
Əndamı mirvari, yaqut, yəməndi,
Arif, nəzər yetir, cəm elə zəndi,
Deyirsən şamama tağa yaraşır.

Satnan rey əlifdi, qafınan qələm,
İnan, heyran qalıb hüsnünə aləm,
Qocaman aşığam, həm əhli-diləm,
Şəmşir hələ söz yazmağa yaraşır.

## BU LALA QIZLAR
***(təcnis)***

Birisi bənövşə, biri çəməngül,
Dağlarda açılan bu lala qızlar.
Elə bil yaranıb abü səlsəbil,
Bəzənib yəmənə, bu lala qızlar.

Çox çətindi dəmir ovxar sov ala,
Nə istərsən  məni qəmdən sov ala,
Necə cavab verim  dərin suvala,
Bir rəhminiz gəlsin bu lala, qızlar.

Şəmşir, yenə çaylar kimi bir daşam,
Sədlər üstdən bir daşmışam, bir də aşam,
Elə sanma ovuclarda bir daşam,
At göyə qolların bulala, qızlar.

## VEYSƏL SİVASLI
*(1894-1971)*

***XX yüzillik Anadolu aşıq mühitinin yetirdiyi istedadlı sənətkarlardandır. Yaradıcılığı və həyatı ilə əfsanələşmişdir. Xalq arasında haqqında çoxlu hekayətlər və rəvayətlər dolaşmaqdadır. Yeddi yaşında olanda gözləri tutulmuş Aşıq Veysəl erkən yaşlarından saza maraq göstərmişdir. Gənc yaşlarından xalq şeiri üslubunda biri-birindən gözəl nümunələr yaratmışdır. Bunların içərisində gözəlləmələr də dəyərli yer tutur.***

### OLUM

Hər səhər, hər səhər suya gedərkən,
Yar yolunda torpaq olum, toz olum.
Baxıb dörd bir yana seyrə dalanda,
Qara qaş altında ala göz olum.

Oğrunca-oğrunca çıxanda yola,
Neçə dilsizləri gətirir dilə.
Yaşılbaş ördəktək enərkən gölə,
Ya bir şahin olum, ya bir baz olum.

Veysəl ördək olsun, sən də göl, yarım,
Daha bəsdir, kərəm eylə, gəl, yarım.
Lalə, sünbül, tər bənövşə, gül, yarım.
Sən bir çiçək olsan, mən bir yaz olum.

### GİZLƏNDİ

Bir səhər vaxtında, gənclik çağında,
Xəyalı qəlbimə gəldi, gizləndi.
Boynum əydi, səmə, sərxoş gəzərkən,
Ağlımı başımdan aldı, gizləndi.

Bu sevda başından ayrılmaz, - dedi.
Eşqin dəryaları durulmaz, - dedi.
Hər gözələ meyil verilməz, – dedi,
Bir baxdı üzümə, güldü, gizləndi.

Xəyalmıdır, röyamıdır, mən çaşdım,
Çox aradım, guşə-guşə dolaşdım,
Sevda adlı bir sahilə qovuşdum,
Eşqin dəryasına daldı, gizləndi.

Mələkmidi, hurimidi, pərimi?
Bir gözələ bənzəyirdi durumu.
Dedi: Veysəl, faş eləmə sirrimi,
Bilməm hara getdi, noldu, gizləndi.

## SƏNİ

Sən bir ceyran olsan, mən də bir ovçu,
Ovlasam çöllərdə saz ilə səni.
Tapılmaz dərmanı, yoxdur əlacı,
Vursam, yaralasam söz ilə səni.

Öyünmə sevdiyim, gözələm deyin,
Bürünmə qaraya, al-yaşıl geyin.
Mən bir çoban olsam, sən də bir qoyun,
Bəsləsəm əlimdə duz ilə səni.

Qoyun olsan otarardım yaylada,
Tellərini yoldurmazdım xoryada,
Balıq olsan, yana üzsən dəryada,
Düşürsəm toruna hız ilə səni.

Veysəl deyər, ismin düşməz dilimdən,
Ayrı düşdüm, vətənimdən, elimdən.
Quş olsan da qurtulmazdın əlimdən,
Əgər görsə idim  göz ilə səni.

## MİSKİNLİ VƏLİ
*(1894-2001)*

***Vəli Alı oğlu Bayramov (Miskinli Şair Vəli) Gədəbəyin Qarabulaq kəndində yoxsul ailədə anadan olmuşdur. Təhsil almamış, güclü yaddaşı eşitdiklərini yadında saxlamağa imkan vermişdir. Daşkəsən və Gədəbəy ərazisinə yayılmış Emir (Eymur) soyundandır. Zəngin yaradıcılığa, güclü təbə malik olmuşdur. Gəraylı, qoşma, təcnis, divani, müxəmməs və s. formalarda şeirləri vardır. Aşıq Şəmşir, Şair Cavad, Yetkin Qəşəmlə deyişmələri mühitdə bir sənətkar kimi tanındığını göstərir.***

### BOYLANA-BOYLANA

Yarım mənə vədə verib,
Gəlir boylana-boylana.
Hərdən-hərdən yana durub,
Gülür boylana-boylana.

Yardan götürməm gözümü,
Yana tutmaram üzümü,
Ürəkdə pünhan sözümü,
Bilir boylana-boylana.

Görüb sevdi Aşıq Vəli,
Ürkək gəzən tək gözəli,
Yuyunur, tər nazik əli
Silir boylana-boylana.

### YERİYİR

Bəxtəvər başına, ay çeşmə sənin,
Hər səhər üstünə sona yeriyir.
Gözlərini süzür, canımı üzür,
Qəmzələri qəhri cana yeriyir.

Qüdrət qələmindən çəkilib qaşı,
Yandırır sinəmi eşqin ataşı.
Qoysalar məzara, örtsələr daşı,
Yenə ruhum o canana yeriyir.

Yenə könül quşu canana döndü,
Kərəm tək od tutub yanana döndü,
Yazıq Vəli Şeyxi-Sənana döndü,
Səməndər tək yana-yana yeriyir.

## NECƏ CANDI
### *(qoşayarpaq qoşma)*

Tər məmə, tər sinə, tər əndamına,
Bax, necə cavandı, ax, necə candı.
Yanağı, dodağı lalə yarpağı,
Ətirlər saçandı, güldü, gülşəndi.

Gözləri xumarı qoy deyim barı,
Uca dağın qarı, fəslin baharı,
Qoynunda nübarı o bir cüt narı,
Xəstəyə dərmandı, təzə cavandı.

Vəli de, halına, hər cəlalına,
O mah camalına, xəttü-xalına,
Dağlar maralına, pür kamalına,
Pərvanəm dolandı odlara yandı.

## İNDİ
### *(təcnis – güllü qafiyə)*

Səhərin sübhündə bir dan ulduzu,
Gördüm işıq salır Həmayəm indi.
Dedim: – Gözəlliyi hardan alıbsan?
Dedi: – Həm ulduzam, həm ayəm indi.

Dedim: – Var baratım bir neçə sənə,
Dedi: – Şən həyatım bir neçə sənə,
Dedim: – Eşqin atın bir neçə sənə,
Dedi: – Gözəllikdə Həmayə mindi.

Dedim: – Qızılgülə gülür ha lala,
Dedi: – Bülbül həsrət çəkir hal ala,
Dedim: – Vəli qiymət verir halala,
Dedi: – Öz işindi, həm Ay əmindi.

## YAXŞIDI
***(qoşayarpaq müxəmməs)***

Bax gözələ, məh camala,
Yanağı lala yaxşıdı.
İnci dişi, qələm qaşı,
Gözləri ala yaxşıdı.
Dodağı südün qaymağı,
Dönüb zülala yaxşıdı.
Var maçı, qarğı saçı,
Tökülüb dala yaxşıdı.
Səhər durur, ziynət vurur,
O məhcamala yaxşıdı.

Özü cavan, mətləb qanan,
Bu gözəlin nazına bax.
Kitab əldə, şirin dildə,
Oxuyur, avazına bax.
Gör nə göyçək açıb çiçək,
Baharına, yazına bax.
Hər kim gördü, olmaz dərdi,
Söhbətinə, sazına bax.
Aşıq gərək dastan yaza,
Belə camala yaxşıdı.

Gəzib eldə, şirin dildə,
Nə görsəm onu yazıram.
Gözəlin, durna telini,
Nədir nişanı yazıram.
Ay gözəlim, dərdin alım,
Sənin tək canı yazıram.
Xəstəyəm, gör, can üstəyəm,
Düşər dərmanı yazıram.
Arı kimi sızıldaram,
Pətəkdə bala yaxşıdı.

Bax bu gələn, canlar alan,
Gözəllərin ülkəridi.
Həm səlfiraz, sinə bəyaz,
Dağların təzə qarıdı.
Mən dediyim, istədiyim,
Tər şamama nübarıdı.
Danışıram, alışıram,
Sinəmdə eşqin narıdı.
Bülbüləm bil, gül ucundan,
Qonmuşam dala yaxşıdı.

Qönçə dəhan, gülü-reyhan,
Ay boyu mina gözəlim.
Təbibim ol dərdimi bil,
Yetir dərmana, gözəlim.
Olma naşı, eşq ataşı,
Qalama canı, gözəlim.
Muradımdı, nə lazımdı,
Deyim inana gözəlim.
Vəli sözdə qiymətini,
Verir kamala yaxşıdı.

## GÖZƏL
***(qoşayarpaq cığalı müxəmməs)***

Biri nuru, qəlbi duru,
Açır gövhər-kanı gözəl.
Daşı-qaşı, al qumaşı,
Hər ləli-mərcanı gözəl.
Təxti-bəxti, zərrü-rəxti,
Mənzili, məskəni gözəl.
Al yanağı, güllü bağı,
Xanası, eyvanı gözəl.
Hüsnü bahar, yaz,
Boyu sərfiraz,
Gəl əyləş bir az,
Əhli vəfadar,
Qoynu dolu nar,
Diyarbədiyar,
İşıq salır, ilham alır,
Gözəllər sultanı gözəl.

O, hal-hazır, yaxşı yazır,
Gözəli tanı mötəbər.
Üzü-gözü, doğru sözü,
Əhdi-peymanı mötəbər.
Səyi-rəyi, xoş diləyi,
Vicdanı, qanı mötəbər.
Zərrəsi tər, zərlə bəzər,
Səddi, səhranı mötəbər.
Xoşdu dövranı,
Geyir əlvanı,
Gəzir hər yanı,
Quş kimi uçur,
Könüllər açır,
Gur işıq saçır.

Zatı əsil pak, müddəsil,
Aşkarı, pünhanı gözəl.
Aşıq Vəli, var əməli,
Yazır bu dastanı verir.
Həqiqəti, xoş niyyəti,
Güllü gülüstanı verir.
Gör nə göyçək açır çiçək,
Dərdlərə dərmanı verir.
Hər nə ki var, hüsnü bahar,
Cansızlara canı verir.
Rəsmi-pərzadın,
Bu xoş muradın,
Kim çəkir adın,
Görür xidmətin,
Açır söhbətin,
Deyir hörmətin.
Bir mehriban, ruhi-canan,
Bəsləyir dünyanı gözəl.



## TEYMUR MORULLU
***(1895-1980)***

***XX yüzillikdə Şəmkir aşıq mühitinin yetirdiyi ustadlardandır. Şəmkir rayonunun Morul kəndində anadan olmuş, həmin kəndin adı ilə Morullu Teymur kimi tanınmışdır. SSRİ Yazıçılar İttifaqının üzvü olmuş (1947) və üzvlük vəsiqəsini ona S.Vurğun vermişdir. Yüksək təbi, yaradıcı istedadı ilə sayılıb-seçilən sənətkarlardan olmuşdur.***

### DÜŞÜBDÜR

Bu gün bir gözəlin seyrinə vardım,
Məcnun xəyal bilməm hara düşübdür?
Xoş illərin novbaharı gələndə,
Bülbülün nəğməsi xara düşübdür.

Nanəcibin yaxşı adı yayılmaz,
Səni görən sərxoş olar, ayılmaz,
Camalına baxmağınan doyulmaz,
O hilal qaşlara qara düşübdür.

Qıyğacı baxıban könül çalırsan,
Görənləri dərdə-qəmə salırsan.
Gözəlsən, qan tökür, canlar alırsan,
Yanaqlara mahi-para düşübdür.

İnsafa gəl, mənə etmə bu cəbri,
Canlar alır zülflərinin xoş ətri.
Görsə hilal olar ağ ayın bədri,
O şahmar zülflərin mara düşübdür.

Gözəl o kəsdi ki, o incə ola,
Həddi-buluq ola, yaşı gənc ola,
Xasiyyəti sevgisiylə təng ola,
Teymurun guşları kara düşübdür.

## GÖRMÜŞƏM

Şəmkir mahalında, Zəyəm çayında,
Bu gün mən bir mah-camalı görmüşəm.
Görcəyin qalmadı huş nəzərimdə,
Tubu boylu, şəhdi-balı görmüşəm.

Yanağı lalədir, gözlər almadır,
Hürülərdən, pərilərdən qalmadır.
Zalım qəsd elədi, canım almadı,
Zənəxdanda qoşa xalı görmüşəm.

Kimsə ağ geyinib, kimsə qırmızı,
Kimisi gül dərir, kimsə nərgizi,
Ötəni, keçəni, yandırır bizi,
Ləblərində cah-cəlalı görmüşəm.

Gözəllər durubdu qabaq-qabağa,
Süzülür gözləri həm sola-sağa,
Səyyadı səs salıb o dağ – bu dağa,
Gərdənində tirmə şalı görmüşəm.

Tor görür gözlərim, heç tutmur əlim,
İstərəm ölkəni dolanım gəlim.
Huş başımdan gedib, əyilib belim,
Teymurun qəddində dalı görmüşəm.

## NƏ ÇARƏ
*(cığalı təcnis)*

Tovuz tamaşalı, maral baxışlı,
Çəkilibdir hilal qaşın nə qara.
Aşıq deyər nə qara,
Qəhr eyləyər nə qara,

Xoş günün tərsə dönüb,
Heç olmaya nə qara.
Pərişanlıq el içində olmaya,
Geyinməyə yar qəddinə nə qara.

Nainsafın qələmi gör nə yazdı,
Dalğalanan təbim indi nə yazdı,
Aşıq deyər nə yazdı,
Nə payızdı, nə yazdı,
Vəfalı dostu görmək,
Böyük nəzir, nəyazdı.
Tülək tərlan oylağından nə yazdı,
Qismətinə yazılıbmış nə qarə.

Çatmamışam mən kamala nadanam,
Səsin gəlir qulağıma nadanam.
Yox aşıq nadanam,
Doğru sözü nadanam.
Hamı deyər aliməm,
Kim deyir ki, nadanam.
Qalmayıbdı dəhanımda nədanam,
Teymur, gözün seçir ağla nə qara.



## XINDI MƏMMƏD
***(1896-1968)***

***Borçalı aşıq mühitinin yetirdiyi ustadlardandır. Böyük Muğanlı kəndindəndir. Uşaqlıqdan məlahətli səsi olmuşdur. İstedadını nəzərə alan dayısı Söyün Qoca oğlu Xındı Məmmədi Şair Ağacanın yanına gətirmişdir. Fitri istedadı, yaradıcı qabiliyyəti onun tezliklə tanınmasına səbəb olmuş, bənzərsiz ifa tərzi ilə mühitdə seçilmişdir. Divani, gəraylı, təcnis, müxəmməsləri xalq arasında tezliklə yayılmışdır. Şair Ağacan, Şair Nəbi, Bəyazidli Məsim və bir sıra başqa sənətkarlarla şeirləşmiş, “Borçalı bülbülü” kimi şərəfli ad qazanmışdır. Pantürkist adı ilə keçən əsrin 30-cu illərində həbs olunmuşdur. Borçalıda, Qazaxda, Tovuzda, Şəmkirdə, Gəncədə ustad aşıq kimi tanınmışdır.***

### BƏNÖVŞƏ

Gözəllikdə yoxdu tayın,
Yanaqları al Bənövşə.
Cilvələnib qalx ayağa,
Qol boynuma sal, Bənövşə.

Siyah zülfün dəstə-dəstə,
Firqətindən mənəm xəstə,
Çox görmüşəm yanaq üstə,
Qoşa-qoşa xal, Bənövşə.

Xındı Məmməd fərağında,
Məcnun kimi sorağında,
Şəhdi-şəkər dodağında, -
Nolar versən bal, Bənövşə.

## ÇİÇƏK DƏRƏN

Səhər tezdən sığal verib özünə,
Dağların döşündən tər çiçək dərən.
Seçib xublarını dəstə bağlayıb,
Ağ nazik əlinlə dər, çiçək dərən.

Görən əl çəkərmi sən incə beldən,
Danış ilham alım o şirin dildən,
Nərgiz, bənövşədən, lalədən, güldən
Ağ sinən üstünə sər çiçək dərən.

Gözündən gülməkdə məramın nədir?
Leyli məhəbbətin Məcnun bəslədi.
İstəsən tanımaq Xındı Məmmədi,
Durub pişvazına gir, çiçək dərən.



## NÖVRƏS İMAN
*(1903-1953)*

***Aşıq Ələsgərin qardaşı Məşədi Salahın oğludur. Dini elmlərə kifayət qədər dərindən bələd olmuş, bədii və tarixi kitabları mütaliə yolu ilə zəngin bilik əldə etmişdir. Gənc yaşlarından mühitdə istedadlı şair kimi tanınmış, 1925-ci ildən aşıqlıq etməyə başlamışdır. Növrəs İman 1930-cu ildə Göyçədən Azərbaycana gəlmiş və 1932-ci ildən yoxa çıxmışdır. Taleyi naməlumdur. İranda və Türkiyədə olması barədə əhvalatlar mövcuddur. Ehtimal olunur ki, 1953-cü ildə Ərdəbildə vəfat etmişdir.***

### EYLƏR

Ala gözlü, nə durubsan qarşıda,
Səni görüb könlüm ahu-zar eylər.
Salıb cəsədimi yandırdın oda,
El görər bizləri, səngisar eylər.

Sürahi gərdənin sərvi-rəvandı,
Hər qıya baxışın min nahaq qandı.
Sədrin çəməngahı mənə dərmandı,
Sağaldar mərizi, xub rəftar eylər.

Səni gördüm, nələr düşdü yadıma,
Dərdim desəm, kimlər yetər dadıma?
Vəfasızlıq uymaz mənim adıma,
Növrəs İman hər vaxt düz ilqar eylər.

### BİR-BİR

Oturmuşdum səhər çağı bixəbər,
Gözəllər üstümə gəldilər bir-bir.
Əzdilər qəlbimi, etdilər qabar,
Bağrımın başını dəldilər bir-bir.

Ötüşür kəkliklər, səs verir qaya,
Camalın şöləsin bənzətdim aya,
Huridi, pəridi bir bölük maya,
Söylədim dərdimi, bildilər bir-bir.

Olsa bizim yerdə belə nazdılar,
Qulsuz, qarabaşsız saxlamazdılar,
İman ərz eyləyir, şirin sözdülər,
Xumar gözlərini süzdülər bir-bir.

## GÖZƏL QIZ

Ağ libasın, tər əndamın, gül üzün,
Nə yaraşır bir-bir üstə, gözəl qız!
Xoş yerişin, şux gülüşün, dür sözün,
Ayaq saxla, get ahəstə, gözəl qız!

Əylən, bircə qəmli könlüm şad elə,
Şirin aşna olub verək əl-ələ,
Həsrətin çəkməkdən döndüm bülbülə,
Dəstinə gül götür dəstə, gözəl qız!

Könül ərəb atdı, haçan yorular?!
Bağrının başına millər vurular,
Eşq oduna yanar, yanar, qovrular,
Aşıq İman kimi xəstə, gözəl qız!

## OLMAZ

Bu şan, bu şövkət, bu şərafət,
Heç bir gözəllərdə aşikar olmaz.
Bu hüsni-vəcahət, bu qədd-qamət,
Səndədir, bir kimsə bərabər olmaz.

Bu gövhər kamalın, bu xətti-xalın,
Bu əbri-hilalın, bu gül camalın,
Açılmış xəyalın, qurğu-cəlalın,
Bir kəsdə tapılıb, bərqərar olmaz.

Bu hörmət, bu zinət, həm də məhəbbət,
Bu ülfət, sədaqət, böylə mərhəmət,
Bu eşqi-cəragət, qəmzə, nəzakət,
Verəsən İmana, kəcilqar olmaz.

## GÖZLƏR

Aman Allah, sevgi necə şirindi,
Məcnun Leyli deyin bu dağı gözlər.
Leyli vədə verdi, gələrəm dedi,
Bir ildi sərsəri bulağı gözlər.

Məcnun gözü qaldı Leyli qaşında
Yazıq canı yandı eşq atəşində,
Çöl quşları yuva saldı başında,
Tutulmuşdu nitqi, qulağı gözlər.

İman baxtı Leyli, Məcnun baxtıdı,
Yarın hökmü şahü xaqan taxtıdı,
Zimistan keçibdi, yaylaq vaxtıdı,
Gələn qəflə-qatır ulağı gözlər.

## OLA

Könül bağlayanda bir şux gözələ,
Baxtın kəsə, bir istəkli yar ola.
Əndazədən düzgün, ağılda kamil,
Dinməmiş könüldən xəbərdar ola.

Açıla gül üzü nobahar kimi,
Sinəsi dağlara yağan qar kimi,
Dikələ məməsi təzə bar kimi,
Necə ki, budaqda yetkin nar ola.

Gülərüzlü, şirin dilli, xoşqabaq,
Dolana başına pərvanə sayaq,
Qismət et, ilahi, qoyma sən uzaq,
Bəlkə İmana da xidmətkar ola.

## GÖZƏLDİ

Bir dilbəri bəsləyibdi anası,
Vəsfi düşüb bu cahana, gözəldi.
Canana tay olmaz gölün sonası,
Bəzək verib cismü cana, gözəldi.

Savalan qarıdı onun sinəsi,
Gövhərdi kalamı, ləldi kəlməsi,
Dinəndə insana xoş gəlir səsi,
Şəkər əzib dil-dahana, gözəldi.

Gözdən qoymaq olmaz belə sirdaşı,
Nə gözəl çəkilib, qaradı qaşı,
Tərlan tamaşalı, xubların başı,
Dəyişmərəm ol qılmana, gözəldi.

Mahalda, obada heç tayı yoxdu,
Qəmzələri neştər, kirpiyi oxdu,
Bu dünya üzündə gözəllər çoxdu,
Doğrudan da bu bir dana gözəldi.

Xəstəyəm, dərdimə ləbləri şəfa,
Bir kərə gəlmədi mürvət, insafa,
Hər zaman yolunda çəkirəm cəfa,
Cövrü sitəm bu İmana gözəldi.

## AY ÜZƏR, ÜZƏR
*(təcnis)*

Camalın şöləsi gəzir cahanı,
Necə ərş üzündə Ay üzər, üzər.
Həsrət dolanmağa yandırır canı,
Demə ki, danışar ay üzər, üzər.

Qəmər hüsnün seraqubdan daldala,
Oxuyan sinəmi, çalar “dal” “dal”a,
Sənin fikrin mana gəldi dal-dala,
Tək çəkə bilmirəm, ay üzər, üzər.

Geydim ayağıma hicran çəkməsin,
Qəm başımdan tutub, hicran çəkməsin,
Heç kəs İman kimi hicran çəkməsin,
Axırda ömrünü ay üzər, üzər.

## GÖZƏL

Bir ilahi xəlq eləyib
Tək gəlib cahana gözəl;
Hüsndə şəbahətdi
Yusifi-Kənana  gözəl.
Ariflər, huş yetirin,
Nə gəlir dastana gözəl;
Qamətin ər-ər kimi,
Duruşun məstanə, gözəl!
Əhsən, əhsən deyirəm
Sən kimi cavana, gözəl!

Çəkilib əbrulərin,
Qüdrəti-xudadı, yəqin;
Qumru tək lisanının
Ləfzi tamaşadı, yəqin;
Afərin ustadına!
Çox kamil ustadı, yəqin;

Ləblərin yaqut kimi,
Gözlərin şəhladı, yəqin;
Vəsfinə nəzmə deyib,
Yanaram hər yana, gözəl!

Boy-büsatın nəqş olub,
Dəndanın dürr dənəsidi.
Süzülüb şəhdi-şəkər,
Dahanın mey xanəsidi.
Bir dinib danışmağın
Gövhərin xəzanəsidi.
Cismimə zərbət vuran
Eşqinin pərvanəsidi.
Xəstəyəm,  insafa gəl,
Bir yetir dərmana, gözəl!

Yanağın təşbih olur,
Dağların gül, lalasına.
Bəstəyəm Məcnunsifət
Çeşminin piyalasına;
Lütf qıl, mərhəmət et.
Bax könlümün nalasına.
Hər kimə nazınan baxsan,
Düşər eşqin bəlasına;
Kəfər baxsa gələr dinə,
Sən kimi insana, gözəl!

Cisminə bir ləhzədə,
Nəzər salıb kərəmkanı;
Xoş bilib əndamına
Nəqş eləyib zərəfşanı.
Bimürvət, bir dön bəri.
Gör bircə bu binəvanı;
Sən niyə tənə qılıb,
Görmürsən Növrəs İmanı?!
Utanmadınmı, bəs necə
Sanırsan divanə, gözəl!?

## ƏLİMƏRDANLI NƏCƏF
*(1905-1946)*

***Əlimərdanlı Nəcəf təxəllüsü ilə tanınan Hüseynov Nəcəf Alı oğlu Tovuz rayonunun Əlimərdanlı kəndindəndir. Erkən yaşlarından saza, şeirə xüsusi marağı olmuşdur. Aşıq Hüseyn Bozalqanlının yanında iki il (1928-1929) şagird durmuş, sonra müstəqil aşıqlığa başlamışdır. Gəncəbasarda ifaçılığı, yüksək yaradıcı qabiliyyəti ilə tezliklə məşhurlaşmış, Səməd Vurğunun zəmanəti ilə Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur. Aşıq Nəcəf rus-alman müharibəsində iştirak etmiş, ağır yaralanmış və gözünün birini itirmişdir. Ustadların yaradıcılığına, klassik dastanlara, saz havalarına dərindən bələd olmuşdur. Gözəlləmələri aşıqların repertuarında geniş yer alır.***

### OLMAZMI

Gözləri can alan gözəl,
Gözəldə ilqar olmazmı?
Sənin dərdin bağrım əzər,
İşim ahu-zar olmazmı?

Əylən görüm, mələkzada,
Ver əlindən mənə badə.
Məni qoyub getsən yada,
Gülə həmdəm xar olmazmı?

Olmaz sənin kimi pəri,
Mənəm gözünə müştəri,
Nəcəf deyər, müxtəsəri,
Səndən mənə yar olmazmı?

## CEYRAN

Bəzənib keçmə qarşımdan,
Kirpikləri qara ceyran.
Ox atma qələm qaşından,
Vurma mənə yara, ceyran.

Sən ki, bağda qızılgülsən,
Xoş ixtilat, əhli dilsən,
Oxuyan şeyda bülbülsən,
Niyə uydun xara, ceyran?

Təklif etdim gəl bir dinə,
Sığındın pirlər pirinə.
Nəcəfin qəmli dərdinə,
Özün eylə çara, ceyran!

## ZÜLFÜN

Gözəl, səndə bir nişana görmüşəm,
Qüdrətdən götürüb qaranı zülfün.
Mən özüm ki, eşqin divanəsiyəm,
İmandan çıxarır görəni zülfün.

Gördüm camalını, gəldim həvəsə,
Ucundan abdalam əlimdə əsa.
İncilə İsadır, Tövrata Musa,
Əzbərdən öyrənib Quranı zülfün.

Nə durmusan sən Nəcəfin qəsdinə,
Bihuş olsa kim yanaşar dəstinə.
Hərdən-hərdən mən fəqirin üstünə,
Havadan yağdırar boranı zülfün.

## EYLƏ

Boylana-boylana gələn maralım,
Qayıt səyyadına bir nəzər eylə.
Nə müddətdir intizarın çəkirəm,
Bu məlul könlümü mürqüzar eylə.

Mailəm hüsnünə, müştağam boya,
Səni görcək sərim düşdü sevdaya,
Aşığam, bu elə gəlmişəm toya,
Buyur məclisimə, xoş güzar eylə.

Mən oxuyum, sən qulaq as sözümə,
Eşqili çağıma, xoş avazıma,
Şövq sal məclisimə, oyna sazıma,
Sübhəcən məclisi laləzar eylə.

Divanə eylədin neçə cavanı,
Gözəllər sərrafı Nəcəfi tanı,
Ox atdın, sinəmin töküldü qanı,
Nahaq qan tökməkdən bir hazar eylə.

## GÖZƏLLƏR

Qəlbim dönüb ixtiyardan, cavandan,
Gətiribdir məni cana gözəllər.
Bacü-xərac alır küllü cahandan,
Baş əymir, sultana, xana gözəllər.

Əziz gündür seyrə çıxıb gözəllər,
Bənövşə dərərlər, nərgiz üzərlər,
Buxaxlar altına güllər düzərlər,
Qənd əzərlər dil-dahana gözəllər.

Aşıq bərat alar haqın özündən,
Qaynayar, dəm çəkər eşqin gözündən,
İnciməyin siz Nəcəf sözündən,
Yetişməyib hələ kana, gözəllər.

## QADASIN ALDIĞIM

Kənar gəzmə, yar, otağa qədəm bas,
Asta-asta gəl, qadasın aldığım.
İnsaf eylə, məhəbbəti unutma,
Kəsmə bizdən yol, qadasın aldığım.

Saqi ol məclisdə gəl payla şərbət,
Nazı-qəmzə satma, zalım, bimürvət.
Bircə saat mənlə eyləyib söhbət,
Xumar gözlə gül, qadasın aldığım.

Axtarıb Nəcəfi eyləsən soraq,
Ələ düşməz azad dövran, bu növraq.
Sönməz nurdan gələn belə bir çıraq,
Tarix boyu bil, qadasın aldığım.

## GÖZƏL
***(müxəmməs)***

Səni görən kimsənə tez gələr imana, gözəl,
Qamətin, boy busatın, bənzəyir qılmana, gözəl,
Neçə canlar, növcavanlar, salıbsan gümana, gözəl,
Ey mələk, qəsdin bilək, xoş gəlibsən sana gözəl,
Qalaram, qul olaram, sən qaşı kamana, gözəl.

Bu gələn qah-qah gülən, telləri xınalıdımı?
Xub təzə, çəkib üzə, ağ kətan cunalıdımı?
Şirin dilli, incə belli, yaxası düyməlidimi?
Bu həvəsli, kəklik səsli, qızıldan tanalıdımı?
Şümşad boyun, yoxdu tayın, tək gəldin cahana, gözəl.

Bu baxışlı, qələm qaşlı bənzər göllər sonasına,
Əyləşib, xoş yaraşıb, nə əcaib binasına,
Çəkib zəhmət. yüzü rəhmət, bu tərlanın anasına,
Bu yerdə, salıb dərdə, aləm gəlib havasına.
Yox çarə bədnəzərə, ox dəysin yamana, gözəl.

Deməm yalan, ağlı olan, yaxşı sevsin yarı taza,
Ay pərim, qoy bir görüm, dost qoynunda narı taza,
Baş-başa, dərək qoşa, bağçamızdan barı taza,
Mən sayıl,  oldum mayıl,  istəmirəm varı taza,
Ay nazım, qurban gözüm, sən kimi ceyrana, gözəl.

Səni alan, yarın olan, düzdürə eyvan otağı,
Əziz tuta, qiyamata, pozulmaya bu növrağı,
Bu lala, düzüb dala, yellidir zülfünün tağı,
Sərgəş gəzir, Nəcəf yazır, çarhovuzu, gülşən bağı,
Gör təzə, yenib bizə, bu gün, bu zamana gözəl.



## BORSUNLU MƏZAHİR DAŞQIN
*(1909-1979)*

***Borsunlu Məzahir” və “Məzahir Daşqın” təxəllüsü ilə tanınan Məzahir Məşədi Həmzə oğlu Axundov əslən Tərtərin Borsunlu kəndindəndir. İkinci Dünya müharibəsində iştirak etmiş, Sovet qoşunları sırasında İrana getmişdir. Aşıq Hüseyn Cavanla, Şair Səyyahla orada tanış olmuş, deyişmələri (Şair Səyyahla) xalq arasında dastanlaşmışdır. Ön cəbhəyə keçirildikdən sonra əsir düşmüş (1942), Almaniyada Fətəli xan Düdənginskinin yaratdığı legionçulara qoşulmuş, orada nəşr edilən “Azərbaycan” qəzetində şeirləri çap olunmuşdur. Avropanın əksər ölkələrini gəzən Məzahir Daşqın vətənə döndükdə (1946) həbs edilmiş, Mingəçevir həbsxanasında saxlanılmış (1946-1947), sonra Sibirə sürgün edilmişdir. 23 iyul 1956-cı ildə vətənə qayıdan şair artıq Məzahir Daşqın kimi tanınırdı. Şeirləri xalq arasında geniş yayılsa da, mətbuatda nəşr olunmasına icazə verilməmiş, məclislərdə aşıqlar tərəfindən oxunmuşdur.***

### ƏLİNDƏDİR

Gözəl, mənim hissim, duyğum,
Ay qabaqda, telindədir.
Körpə kimi şirin uyqum,
Sən layla çal, dilindədir.

Sən mənim günüm, gündüzüm,
Ayrılığa necə dözüm?
Altun şerim, şirin sözüm,
Zər kəmərdə, belindədir.

Aldın əldən imanımı,
Niyə qırdın amanımı?
Daşqınınam, al canımı,
İxtiyarım əlindədir.

## KİMDƏN ÖYRƏNDİN?

Söylə gözəl, belə sərxoş,
Gəzməyi kimdən öyrəndin?
Ay qabağa qıvrım teli,
Düzməyi kimdən öyrəndin?

Başın eşqin havasında,
Ürək çırpır yuvasında,
Cumub eşqin dəryasında,
Üzməyi kimdən öyrəndin.

Qoy çəkilsin qara pərdə,
O pərdə yaraşmaz mərdə,
Məzahir tək yarsız dərdə,
Dözməyi kimdən öyrəndin?

## GÜLLÜ

Sənin kimi bir nazənin,
Yaranıbdır az, ay Güllü.
Gündə gəlir tamaşana,
Sona, qəndab, qaz, ay Güllü.

Sinəndədir bağı-bostan,
Əsirgəmə barın dostdan,
Adına bağlayım dastan,
Mən söyləyim, yaz, ay Güllü.

Səni gördüm əqlim çaşır,
Xəyalım dağlardan aşır,
Səndən deyir, hey danışır,
Şair, aşıq, saz, ay Güllü.

Bax deyirəm dönə-dönə,
Vurulubdur könül sənə,
Bir çıx sən seyri-gülşənə,
Qoy bəzənsin yaz, ay Güllü.

Danışmayır, dayanıb lal,
Gözlərinə vurğun hilal,
Məzahiri yadına sal,
Etmə belə naz, ay Güllü.

## HİCRAN

Necə də gözəldi qəddin, qamətin,
Sən Aysan, Günəşsən bu ana, Hicran.
Bu yar-yaraşığın, bu vəcahətin,
Gətirdi könlümü heyrana, Hicran.

Qaşların kaman, şəmşir kirpiklərə bax,
Qalxanlar dağıdır başa bir sayaq,
Səndəki dil-dodaq, səndəki yanaq,
Bənzərin görməyib zəmanə, Hicran!

O qara gözlərin baxması gözəl,
Könüllər oxlayıb, yaxması gözəl,
Hərdən də süzülüb axması gözəl,
Xoş gəlmisən bizim cahana, Hicran.

Qaranlıq bürüyər insan dünyasın,
Tanrı səndən yaraşığı almasın,
Sənin kimi gözəl göy sürəyyasın,
Yaradan bəxş edib dövrana, Hicran!

Nurdan yaranmısan, şəfəqlər qızı,
Səndən nurun alır o dan ulduzu,
Sənlə cana gəlir Daşqının sözü,
Səni təsvir edir təranə, Hicran!

## BAŞINA DOLANIM

Ay qız, sənin eşqin məni yandırır,
Bir dərdimə qal, başına dolanım.
Mənə Fərhad misal dağ dolandırır,
Yox canımda hal başına dolanım.

Boyun bənzər, inan, turi-sənayə,
Yaraşığın yaşılbaşlı sonaya,
Məktubum var səni doğan anaya,
Yetir ona, al, başına dolanım.

Sən demə ki, bu gözəllik bağıdı,
Gəlib keçən günlər ona yağıdı,
Qumral telin  cavanlığın bağıdı,
Qoyma dəyə əl, başına dolanım.

İnsaf elə, axır bağrım qan oldu,
Ah çəkməkdən, bax sinəm şan-şan oldu,
Mərhəmətin niyə bizdən yan oldu,
Nəzərini sal, başına dolanım.

Niyə döndün Məzahirdən, a pəri,
Ahı tutub ay dolanan göyləri,
Səni görüb səni sevəndən bəri,
Saçı olub çal başına dolanım.

## PƏRİ
### *(müxəmməs)*

Təbiət çəkib gözəl qaşlarını qara, Pəri,
Şirin dil, dərdimi bil, gəl etginən çara, Pəri.
Mah camal, Şirin misal, gəlginən ilqara, Pəri,
Aşiqəm, etmə sitəm, gəl yandırma nara, Pəri,
Qoy düşsün mah camalın şöləsi ruzigara, Pəri.

Ay xanım, mehribanım, başına güllər dolanır,
Sən kimsən, kimsəninsən, payına yellər dolanır,
Qabaqdan, gül yanaqdan öpməyə ellər dolanır,
Çox aşiq, əhli məşuq, bax, uzun illər dolanır,
Yüzlərlə dərdiməndi qoymusan avara, Pəri.

O fələk qurur kələk, yaxşını yamana yazır,
Verir qəm, dərdi-sitəm,  bayğunu virana yazır,
Bax işə, cəfakeşə, möhnəti ürfana yazır,
Borsunlu Məzahir də gizlətmir, mərdana yazır,
Uğrunda külüng çalır Fərhadtək dağlara, Pəri.



## AVDI QAYMAQLI
*(1910-1988)*

***Qazax aşıq mühitinin yetirməsidir. Yeniyetməliyindən saza maraq göstərmişdir. İncə Dərəsində, Gəncəbasarda, Gürcüstanın ayrı-ayrı kəndlərində ağır məclislər keçirmiş, ustad aşıq kimi tanınmışdır. Aşıq Cəlal Qəhrəmanov, Aşıq Yəhya, Aşıq Sadıq, Aşıq Sədi onun şagirdləri olmuşdur. Aşıqların IV qurultayında (1984) iştirak etmişdir. Aşıq Avdı Qaymaqlının "İncəgülü" (2009) şeirlər kitabı nəşr olunmuşdur. "Avdı və Mehriban" dastanı vardır. "İncəgülü" saz havasının yaradıcısıdır.***

### SƏNƏM

Sən bağımsan, bağbanımsan,
Sən olubsan gülüm, Sənəm.
Görürsən ki, mehmanınam,
Sizə düçüb yönüm, Sənəm.

Şeir, qəzəl yazaramsa,
Dərd əlindən bezaramsa,
Sənnən ayrı gəzərəmsə,
Bağlı qalsın yolum, Sənəm.

Avdının sənsən avazı,
Bu qəlbimin quba qazı,
Sənnən ötrü telli sazı,
Gecə-gündüz çalım, Sənəm.

### MEHRİBANIM

Bu qəlbimin guşəsində,
Ucalırsan Mehribanım.
Bivəfa, fani dünyada,
Sən solursan, Mehribanım.

Sən atlısan piyadayam,
Dərdi həddən ziyadayam,
Elə bil ki, dəryadayam,
Qocalırsan, Mehribanım.

Müxənnətə getsin qadan,
Düşmə uzaq el, obadan,
Gedə-gesə sən Avdıdan,
Yad olursan, Mehribanım.

## YALVARIR

Bir gün durdum çıxdım gülşən seyrinə,
Gördüm ki, bülbüllər gülə yalvarır.
Bənövşə boynunu büküb nərgizə,
Nərgiz özü şirin dilə yalvarır.

Bir yanda dayanmış xumar gözlü yar,
Bağda hər çiçəyin öz nəşəsi var.
Bir neçə addımda bulaqdan kənar
Lilpar batıb dərin lilə yalvarır.

Hər otun başında var bir piyalə,
Yasəmən dalğındı, batıb xəyalə.
Mehriban çıxanda sorğu-suala,
Avdı yaşın silə-silə yalvarır.

## GÖZLƏRİN

Sancılır qəlbimə hər səhər çağı,
O süzgün baxışın, ala gözlərin.
Titrəyir bədənim, həm də qorxuram,
Şahmar ilan kimi çala gözlərin.

Söylə görüm neyləmişəm sənə mən,
Yandırıb yaxırsan de könlümü sən?
Gələ bir gün uzaq düşəm bu yerdən,
Axtara, dalımca qala gözlərin.

Gahdan bir könlümü dağa mindirən,
Gahdan bir də yer altına endirən,
Gahdan bir də işarəylə dindirən,
Dil verir dilsizə, lala gözlərin.

Nə mələk, nə pəri, nə huri, qılman,
Avdı təkcə sənə deyir, Mehriban.
Kamalın artıqdı güldən, laladan,
Yaraşıqdı gül camala gözlərin.



## AŞIQ FƏTULLAH
***(1910-1942)***

***Naxçıvan mahalının yetirdiyi istedadlı sənətkarlardandır. Babək rayonunun Şıxmahmud kəndində anadan olmuş, Aşıq Cəfərin yanında sənətin sirlərinə yiyələnmişdir. Aşıqların repertuarında olan şeirləri onun güclü yaradıcı təbə malik olduğunu göstərir. İkinci Dünya müharibəsində vəfat etmişdir. Ayrı-ayrı toplularda şeirləri çap olunmuşdur.***

### ZÜLFLƏRİN

Bir ala gözlüyə nəzər eylədim,
Darayıb töķübdü yana zülflərin.
Halqa-halqa, dəstə-dəstə, çinbəçin,
Yaxşı düzüb dal gərdənə zülflərin.

Gecə-gündüz gözüm gəzdi, aradı,
Ah çəkməkdən bağrım başı yaradı,
Gecəm sitəmlidi, günüm qaradı,
Döndərib könlümü qana zülflərin.

Fətulla hər cövrü cəfaya dözər,
Nazi-qəmzələrin bağrımı əzər,
Bəxtəvər başına sinəndə gəzər,
Arayar, axtarar şana zülflərin.

### DODAQ-DODAĞA

Bahar fəsli, gül mövsümü gələndə,
Ötüşər bülbüllər, qonar budağa.
İki həsrət bir-birini qucanda,
Qoyarlar ləb-ləbə, dodaq-dodağa.

Pünhan-pünhan danışarlar, gülərlər,
Şümşad bilək, şana barmaq, gül əllər,
Qaydadı gözəldən dilək diləllər,
Aşıqlar dilinə olmaz qadağa.

Fətullah eşqindən şirin güləndə,
Hərdən yar yanına pünhan gələndə,
İşarətlə dərdi-dilin biləndə,
Canım olsun belə dosta sadağa.

## BƏNZƏR

Sevdiyim, bənzərsən Misir şahına,
O kaman qaşların hilala bənzər.
Düz on dörd gecəlik aydı camalın,
O şəhla gözlərin piyala bənzər.

Bir sənsən, özgəyə gəlmir gümanım,
Sirrim, həm sirdaşım, dinim, imanım.
Yayınma gözümdən əzəli canım,
Sən getsən işlərim zavala bənzər.

Buxağında əlvan-əlvan gülləri,
Vardı mənim kimi çox bülbülləri.
Məzədi ləbləri, şirin dilləri,
Bu qəndi-şəkərə, o bala bənzər.

## ALLI QIZ

Xətrinə dəyməsə bir söz deyərəm,
Zər-ziba geyinən yaşıl, allı qız.
Ətirli buxağın gül qönçəsidi,
Ləbi şirin, dodaqları ballı qız.

Ürəyim açılar olsan mənə yar,
Çıxar bu könlümdən, gedər qəm-qubar.
Eşqindən olubdu dünya mənə dar,
Şirin dil, şirin söz, xoşxəyallı qız.

Fətulla aşıqdı, ilqarda düzdü,
Oxların sinəmdə əllidi, yüzdü,
Başına döndüyüm, ay ala gözlü,
Ağ buxağı dənə-dənə xallı qız.

## İSTƏR KÖNLÜM

Baharın xoş fəsli güllər açanda,
Nərgiz, bənövşəli yaz istər könlüm.
Tovuz tamaşalı, tərlan duruşlu,
Qəmzəsi can alan qız istər könlüm.

Dindirəsən can deyə, cana can düzə,
Hər vaxt aşiqinin cəbrinə dözə.
Yanaqlar piyalə, dodaqlar məzə,
Onda  işvə, qəmzə, naz istər könlüm.

Könlüm bir pay dilər sinəndə nardan,
Camalın ötədi yaylaqda qardan.
Bil ki, əl çəkmərəm vəfalı yardan,
Yarınan qol-boyun gəz, istər könlüm.

Sevdiciyim, bürünmüsən ala sən,
Bu sınıq könlümü alsan ələ sən.
Götürüb qələmi alsan ələ sən,
Mən deyim dərdimi yaz, istər könlüm.

Fətullah mayıldı cığalı telə,
O qaymaq dodağa, o şirin dilə.
Xoş yeriyə, xoş danışa, xoş gülə,
Bu nişanlar onda düz istər könlüm.

## ƏMRAH GÜLMƏMMƏDOV
*(1913-1987)*

***Borçalı aşıq mühitinin yetirdiyi ustadlardandır. Saz çalmağı atası Paşa Gülməmmədovdan öyrənmiş, Məsim Yediyarovun şagirdi olmuşdur. Mahir saz ifaçısı kimi tanınmış, sazın pərdələrinə əlavələr etmiş, bəzi havaları cilalamışdır. Aşıq Əmrah məlum-məşhur dastanlardan əlavə, aşıqlar arasında az söylənən dastanların da bilicisi və söyləyicisi kimi şöhrətlənmişdir. Klassik aşıq yaradıcılığının kamil bilicilərindən olmuşdur. Lirik şeirləri, gözəlləmə ruhunda düzüb qoşduğu qoşma və gəraylıları aşıqların repertuarında yer alır.***

### BƏNÖVŞƏ

Həsrətini mən çəkəli,
Dilim olub lal, Bənövşə.
Boyuna allar yaraşır,
Başda tirmə, şal, Bənövşə.

Sənlə dövran sürən ölməz,
Camalın qələmə gəlməz,
Qaşın cəllad, gözün almaz,
Gəl sinəmə çal, Bənövşə.

Sən üçün çəkirəm ahı,
Saxlaya haqqın dərgahı,
Unutma aşıq Əmrahı,
Bir insafa gəl, Bənövşə.

### YAVAŞ GET

Ala gözlü nazlı ceyran,
Aman ay qız, gəl yavaş get.
Atəşinə mənəm yanan,
Bir qeydimə qal, yavaş get.

Gəl məndən kəsmə əlini,
Yada dərdirmə gülünü,
Olasan anam gəlini,
Bir ərzimi al, yavaş get.

Mən yazığın nə günahı?
Çəkdirirsən mənə ahı,
Unutma aşıq Əmrahı
Könül sazın çal, yavaş get!

## MƏLƏK

Gözəllər içində bircə dənəsən,
Göründün gözümə haradan, Mələk?
Bir ustad ovçuya irast gələndə,
Heç səni ötürməz bərədən, Mələk!

Özün gənc olmaxla çox kamallısan,
Cavanlar içində qeyli-qallısan,
O bəyaz sinədə siyah xallısan,
Geyinirsən aldan-xaradan, Mələk!

İstəməm tay-tuşdan geri qalasan,
Qardaş bilib bir ərzimi alasan,
Əhdim budur biz tərəfə gələsən,
Bir ilqar keçirək aradan, Mələk.

Özünə qardaş bil aşıq Əmrahı,
Bəlkə də şeirdə vardı günahı,
Müxtəsəri budur sözün kütahı,
Səni hifz eləsin yaradan, Mələk.

## AY QIZ

Könlümün sultanı, el yaraşığı,
Niyə bizdən kənar gəzirsən, ay qız!
Mən səndən ötəri yanıram oda,
Bağrımın başını əzirsən, ay qız!

Səhər günəşimsən, eşqin sultanı,
Qoy mən olum o gözlərin qurbanı,
Yer üzündə sənə bəşər tay hanı,
Necə bizdən ayrı, dözürsən, ay qız!

Əmrahın dərdini yetirdin yüzə,
Səni qismət etsin yaradan bizə,
Vədə verib dedin gəlləm Tiflisə,
Gahdan bir ilqarı pozursan, ay qız.

## AŞİQƏM

Mənə canı yanan, qəlbimi bilən,
Şəhla gözlü bir dilbərə aşiqəm.
Hicab edib incə çox narın gülən,
Nazlı gözəl bəxtəvərə aşiqəm.

Qoy üstündən acı yellər əsməsin,
Haqq üstündən nəzərini kəsməsin,
Naz eyləyib nə də məndən küsməsin,
Məni duyan nazlı yara aşiqəm.

Aşıq Əmrah, söylə belə can hanı,
Sən olasan gözlərinin qurbanı,
Onu sənə versə Kərəmin kanı,
Yalvar-yapış, mən biçarə aşiqəm.

## AĞALAR MİKAYILOV
*(1913-1979)*

***Böyük saz-söz ustadı Mirzə Bilalın ailəsində dünyaya gəlmiş, aşıq sənətinin sirlərini də atasından öyrənmişdir. Bir sənətkar kimi qırxıncı illərdən tanınmağa başlamışdır. Aşıq Ağalar təkcə ifaçı aşıq kimi deyil, yaradıcı ustad sənətkar kimi də mühitdə böyük şöhrət qazanmışdır. Aşıq havaları ilə yanaşı, Azərbaycan muğamlarının bilicisi və məharətli ifaçısı kimi də tanınmışdır. Şirvanda, ondan kənarlarda məclislər aparmış, rəsmi tədbirlərdə çıxışlar etmişdir. Bir neçə şeir kitabı da nəşr edilmişdir. Diqqətçəkici gözəlləmələr müəllifidir.***

### SONA GÖRDÜM

Qubanın elində, meyvə bağında,
Alma, heyva dərən bir sona gördüm.
Başında ağ çalma, ayağında məst,
İpəkdən bürünmüş al dona, gördüm.

Qara gözləriylə qıyğacı baxdı,
Eşqi ürəyimə süzüldü, axdı.
Qırmızı güllərdən telinə taxdı,
O qızı günəşlə yan-yana gördüm.

Söz açdım sevgidən, çiçəkdən, güldən,
O qız gülümsədi, dilləndi birdən:
Söylədi oğlum var, incimə məndən,
Mən onu mehriban bir ana gördüm.

## GÖZƏLLƏR

Gül, çiçək açıbdır bizim bu yerlər,
Başlayıblar işvə, naza gözəllər.
Al-yaşıl geyinib seyrana çıxmış,
İşvə satır güllü yaza gözəllər.

Durna kimi qatar çəkib gəzəndə,
Dağ döşündən tər bənövşə üzəndə,
Lalələri ağ sinəyə düzəndə,
Özlərini qoyur naza gözəllər.

Ağalaram, sular kimi duruldum,
Əzəl gündən gözəlliyə vuruldum,
Uzun illər qələm əldə yoruldum,
Sizə tərif yaza-yaza gözəllər!



## NABAT CAVADOVA
*(1914-1973)*

***Aşıq Nabat XX əsrin istedadlı qadın aşıqlarındandır. Naxçıvanın Şərur rayonunda anadan olmuş, sonralar Bərdə və Yevlaxda yaşamışdır. Uşaqlıqdan saza-sözə böyük məhəbbət bəsləmiş, məlahətli səsə və gözəl məclis aparmaq qabiliyyətinə malik olmuşdur. Moskvada keçirilən Azərbaycan mədəniyyəti dekadasında (1939) iştirak etmiş, fəxri mükafata layiq görülmüşdür. Yazıçılar İttifaqının üzvü (1959) və Əməkdar mədəniyyət işçisi (1970) olmuşdur. Bir neçə şeir kitabı nəşr edilmişdir.***

### GÖZƏLLƏR

Bu gün gəlib gözəl bayram günümüz,
Çıxmışıq laləzar yaza, gözəllər.
Al yaşıl geyinib tirmə bağlayın,
Bənzəyin qubaya, qaza, gözəllər.

Ağ buxağa gül, bənövşə düzərsiz,
Gərdən çəkib bağrım başın əzərsiz.
Sığallanıb çəmənlərdə gəzərsiz,
Bu hal çox yaraşır sizə, gözəllər.

Həqiqət yolunda mən bir səyyadam,
Günəşli ölkəmə baxdıqca şadam.
Cəfakeşəm, yorulmamış Fərhadam,
Nabat meylin salıb saza, gözəllər.

## HÜSEYN CAVAN
## *(1916-1985)*

***Əslən Güney Azərbaycandandır. 1946-cı ildə Təbrizdən Goranboya köçmüşdür. Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın yanında şagird durmuş, aşıq sənətinin sirlərini ondan öyrənmişdir. Gəncəbasar aşıq mühitində böyük nüfuz sahibi olmuş, sözü-sənəti həmişə yüksək qiymətləndirilmişdir. Dövlət tədbirlərində, mədəniyyət toplantılarında, festivallarda əsas iştirakçılardan olmuş, zil səsi, ifaçılıq məharəti ilə seçilmişdir. Aşığın “Kimdən öyrəndin?”, “Boylana-boylana”, “Dilbər”, “Məryəm”, “Bu dağlarda” və s. kimi məşhur mahnıları vardır ki, bu gün də məclislərdə ən çox oxunan nümunələrdəndir. Əvvəlcə “Fərman”, sonra “Cavan” təxəllüsü ilə şeirlər yazmışdır.***

### KİMDƏN ÖYRƏNDİN?

Sevgilim, sən maral kimi,
Gəzməyi kimdən öyrəndin?
Ay qabağa cığa teli,
Düzməyi kimdən öyrəndin?

Tez yuxudan oyanmağı,
Al qumaşa boyanmağı,
Gərdən çəkib dayanmağı,
Süzməyi kimdən öyrəndin?

Mən sevmişəm Zərnişanı,
Onda var gülün nişanı,
Sağ əlinlə bənövşəni,
Üzməyi kimdən öyrəndin?

Kəklik kimi qayalarda,
Ceyran kimi səhralarda,

Sona kimi dəryalarda,
Üzməyi kimdən öyrəndin?

Bulud almasın ay üzü,
Hüseyn görsün dan ulduzu,
Xumar-xumar ala gözü,
Süzməyi kimdən öyrəndin?

## BOYLANA-BOYLANA

Gözəl bir qız girib bağa,
Gəzir boylana-boylana.
Xumar gözün sola,sağa,
Süzür boylana-boylana.

İçib eşqin bulağından,
Gəzir Məcnun sorağından,
Tər qönçəni budağından,
Üzür boylana-boylana.

Alıb kitabı əlinə,
Baxır hər bir sətirinə,
Atılıb eşqin gölünə,
Üzür boylana-boylana.

Açıb qönçə dəhanını,
Qumru təkin zəbanını,
Cavan Hüseynin canını,
Üzür boylana-boylana.

## NƏ QAYDADIR

Süzgün baxıb qaş oynatmaq,
Gözəllərdə nə qaydadır?
Qəmzəsilə oxlar atmaq,
Gözəllərdə nə qaydadır?

İşvə-naz ilə qandırmaq,
İlqar verib inandırmaq,
Aşiqin oda yandırmaq,
Gözəllərdə nə qaydadır?

Qəlbən sevən yarın atmaz,
Qəmin dəryasında batmaz,
Cavan Hüseyn yuxu yatmaz,
Aşıqlarda bu qaydadır!

## AĞRIN ALIM

Ay qabaqlı, hilal qaşlı,
Qumral gözlü, ağlın alım!
Ceyran kimi şux baxışlı,
İşvə-nazlı, ağrın alım!

Gözəl keçən illər kimi,
Rəngi solmaz güllər kimi,
Oxuyan bülbüllər kimi,
Xoş avazlı, ağrın alım!

Ey şərəfli, namuslu qız,
Ürəyi pak, qəlbi təmiz,
Min çiçəyin birini üz,
Solmaz yazlı, ağrın alım!

Nə vara, şöhrətə alçal,
Sevgilinlə qoşa qocal,
Öz yarına min nəğmə çal,
Telli sazlı, ağrın alım!

Cavan Hüseyn edir dilək,
Sizsiz həyat nəyə gərək,
Səni görən təmiz ürək,
Coşub yazdı, ağrın alım!

## NƏRGİZ

Ala gözlər üstə qara qaşların,
Çatılıb yay kimi arası, Nərgiz.
Onun rəngi təbiətdən qatılıb -
Vəsməsi, sürməsi, qarası, Nərgiz.

Üzünə baxanın xəyalı çaşır,
Məhəbbətin kəməndinə dolaşır,
Xumar gözün hansı gözə sataşır,
Tapılmır dərdinin carası, Nərgiz.

Eşq əhlisən, sən Hüseyni qınama,
Heç kim dözməz bu qüssəyə, bu qəmə.
Məhəbbət oxunu vurma sinəmə,
Çoxdur bu aşiqin yarası, Nərgiz.

## DİLBƏRİM

Meysiz də məst edib məni gözlərin,
Müjganın sinəmə çalma, dilbərim!
Dayan, əhvalımı soruş, sonra keç,
Bu qədər insafsız olma, dilbərim!

Söndürmə qəlbimin nurlu çırağın,
Şam kimi əritmə qəlbimin yağın,
Rədd eləmə sən məhəbbət dustağın,
Günahsız canımı alma, dilbərim!

Hüseyn ilqar verib sənin tək yara,
Pünhan sirrimizi açma əğyara,
Nə müddətdi göz dikmişəm yollara,
Aşiqi nəzərdən salma, dilbərim!

## YAR ÜZMƏ, ÜZMƏ
*(qoşayarpaq)*

Oldum dilşikəstə, ey boyu bəstə,
Əlim ətəyində, yar, üzmə, üzmə.
Nədir sinən üstə, ləbləri püstə,
Mürvət et canımı, yar, üzmə, üzmə.

Dərmansız bimaram, yar intizaram,
Könül tutmur aram, səndədir çaram,
Mən ki, günahkaram, nə qədər varam,
Qoy baxsın gözlərin, yar, üzmə, üzmə.

Mənalar mənası, gözəllər xası,
Min dərdin davası, könül bənnası,
Hüseyndir qadası, var təmənnası,
Eşqin dəryasında, yar, üzmə, üzmə.

## NAZ GÖZƏL OLAR

Mənim sevgilimtək ilqarı doğru,
Eşqə sadiq olan az gözəl olar!
Eşqin Leylasından soruşdum, dedi:
İşvə gözəl olar, naz gözəl olar!

Ürəyimi sevgilimə vermişəm,
Can sarayın məhəbbətdən hörmüşəm.
Gözlərimlə neçə dəfə görmüşəm,
Qış mübah gələndə yaz gözəl olar!

Hüseyn, sevgililər bir ucalsalar,
Bir yaşa dolsalar, bir qocalsalar,
Könül sazlarını qoşa çalsalar,
Söhbət gözəl olar, saz gözəl olar!

## ÇİÇƏKDƏN DƏ GÖZƏLSƏN

Yarın sinəsində bir dəstə çiçək,
Yarı qönçə, yarı nərgiz, yarı gül.
Çiçəkdən də, nərgizdən də yar göyçək,
Xoş halına kimin vardı yarı gül.

Qızılgül cananın al yanağıdır,
Nazik yarpaqları bal dodağıdır.
Ağ gül gözəllərin tər buxağıdır,
Gülər üzlər heç olmasın sarı gül.

Olmayaydı çətin günlər, nəs illər,
Ah çəkməzdi bizim gələn nəsillər.
Xoş keçərdi bir-birindən fəsillər,
Heç görməzdi bağçalarda xarı gül.

Aşıqlar söhbəti, sazı çox sevər,
Gözəllər işvəni, nazı çox sevər,
Gül bülbülü, bülbül yazı çox sevər,
Olar məhəbbətin ilk nübarı gül.

Güldü yaraşığı bağça-bağların,
Xaldı yaraşığı ağ buxaqların.
Yardı yaraşığı gen otaqların,
Cavan Hüseyn çəkir intizarı, gül.

## OLUM

Mahir ovçu kimi məni izləyən,
Qumral gözlərinin qurbanı olum.
Saxta baxışlardan məni gözləyən,
İşvə nazlarının qurbanı olum.

Varmı sənin kimi solmayan çiçək,
Əbrişim cığalı, qanavuz birçək?
Doğra məni, tikə-tikə şişə çək,
Bişir gözlərinin qurbanı olum.

Cavan Hüseyn doymaz saf məhəbbətdən,
Gəl qurtar aşiqi qəmdən, möhnətdən,
Beçənin balından, nabatdan, qənddən,
Şirin sözlərinin qurbanı olum.

## ALAGÖZ
***(müxəmməs)***

Qələm qaşlı, siyah saçlı
Gözəl balasan, Alagöz,
Sən gül yanaq, qaymaq dodaq,
Ləbi piyalasan, Alagöz,
Mən bir bimar, bir ərzim var,
Ərzim alasan, Alagöz,
Ah çəkərəm, iş  tökərəm
Çeşmim siləsən, Alagöz,
Həm üz-üzə, həm göz-gözə
Canım alasan, Alagöz.

Gözəl gəlin, nazik əlin
Canları candan eyləyir,
Ağlını alır sərindən
Dindən, imandan eyləyir,
Edir abdal, salır çölə,
Xanimanından eyləyir,
Ala gözlər süzüləndə
Könlümü xəndan eyləyir,
Əzəl gündən yaranıbsan
Mənə balasan, Alagöz.

Çox dolandım səhraları,
Görmədim sən tək maralı,
Görən eylər ahü nalə
Kəsilər səbrü qərarı,
Fərhad kimi dağlar çapar
Düşsə Şirindən aralı,
Eşq ucundan olar Məcnun,
Gəzər dağları yaralı.
İnsafdırmı aşiqini
Dərdə salasan, Alagöz!?

Əllərinlə belə versən
İçərəm olsa da ağı,
Şümşad kimi barmaqların
Qoy çəksin sinəmə dağı,
Bil ki, atəşsiz əridir
Eşqin ürəyimdə yağı,
Gül üzünü tutma yana
Qoy görüm qaymaq dodağı,
Küsdürdüyün bu könlümü
Nolar alasan, Alagöz.

Cavan Hüseyn fərağında,
Gecə-gündüz edir nala,
Aşıqlara yoxdur zaval,
Rəhm elə, yetir vüsala,
Sənin bir xoş baxışını
Verməərəm iki mahala,
Ala gözlər süzüləndə
Salır məni min xəyala,
Hərdən-hərdən sən bizə də,
Nəzər qılasan, Alagöz!

## GÖZƏL
*(divani)*

Səni görən aşiqlərin
Yox səbri, qərarı, gözəl,
Ah çəkib, nalə edirlər
İnan səndən sarı, gözəl,
Çoxunun da qəlbi sınıb
Aç yarasın sarı, gözəl,
Səndədir dərdin dərmanı,
Əsirgəmə, barı, gözəl.

Hansı aşiq sızıldayır,
Bil ki, yardan yaralıdır,
Gərək tapsın öz həmdəmin,
Aşiqlərin qərarıdır,
Səni görən təsdiq edir:
Deyir, dağlar maralıdır,
Axtarar öz həmdəmini,
Gəzər səhraları, gözəl.

Gəl qoyma kamana gözəl,
Ala gözlərin oxunu,
Çıxar kamandan amandır,
Aşiq qəlbinə toxunu,
Sənə bir dastan yazaram
Azad ellərdə oxunu,
Adın düşər dildən-dilə,
Gəzər mahalları, gözəl.

Həzər salmaq xumar-xumar,
Budur gözəlin adəti,
Şairlərin ilk baharı
Aşıqların söz ziynəti,
El aşığı Hüseynin də
Şirindir sözü, söhbəti,
Bu sözləri bir töhfədir,
Saxla yadigarı, gözəl.

## HÜSEYN SARAÇLI
## *(1916-1987)*

***Borçalı aşıq mühitinin yetirdiyi ustadlardandır. Borçalının Faxralı kəndindən Şair Nəbi və Sarvan Bayramın yanında püxtələşərək istedadlı sənətkar kimi yetişmişdir. Aşıq Hüseyn Saraçlı özünəməxsus çalğısı, avazı ilə həmişə maraq doğurmuş, bənzərsiz dastançı aşıq kimi şöhrətlənmişdir. Radio və televiziya şirkətlərinin Qızıl fondunda Aşıq Hüseyn Saraçlının söylədiyi dastanlar lentə alınaraq qorunub saxlanılır. Ədəbiyyat və incəsənət ongünlüklərində təmsil olunmuş, mükafatlara layiq görülmüşdür. Əməkdar mədəniyyət işçisi fəxri adını daşımışdır.***

### GÜLBƏNİZ

Gözəllikdə yoxdu tayın,
Yanaqların al, Gülbəniz.
Danış mənlə şirin-şirin,
Sal boynuma qol, Gülbəniz.

Səni görcək oldum xəstə,
Siyah zülfün dəstə-dəstə,
Bənd olubdu qaşın üstə,
Xub yaraşır xal, Gülbəniz.

Hüseyn həsrətin çəkər.
Didələrdən qan-yaş tökər.
Ağzın, dilin qəndi şəkər,
Dodaqların bal, Gülbəniz.

### YAVAŞ GET

Gör nə vaxtdır gözləyirəm,
Ağrın alım yar, yavaş get!
Gəl aşığı gözü yolda,
Qoyma intizar, yavaş get!

Ovçu gəzər ovun ovlar,
Tülək tərlanını qovlar,
Həsrətindən gileyim var,
Etmə məni xar, yavaş get!

Saraçlını saldın dərdə,
Qəlbi dindi pərdə-pərdə,
Çox demişəm, deyim bir də
Sənə sözüm var, yavaş get.

## GƏLƏRƏM

Əgər izin versən, nazənin gözəl,
Qədəm basıb otağına gələrəm.
Gül camalın pərvanəsi olaram,
Busə üçün buxağına gələrəm.

Doymamışam gözəllikdən, gözəldən,
Gözəlliyin aşiqiyəm əzəldən.
Payız vaxtı üşüyəndə xəzəldən,
İsinməyə ocağına gələrəm.

Saraçlıyam, talasan da canımı,
Atəşlərə qalasan da canımı,
Cəllad olub alasan da canımı,
Behişt deyib qucağına gələrəm.

## ALAGÖZ

Qəfildən qarşıma çıxdın bu dəmdə,
Ağlımı başımdan aldın, Alagöz!
İstədim soruşam ərzi-halını,
Ömrümə baltalar çaldın, Alagöz!

Kəsildi qərarım dinə bilmədim,
Qanrılıb geriyə dönə bilmədim,
Yandım öz-özümə sönə bilmədim,
Canıma sən alov saldın, Alagöz!

Kəlağayın lalə, üzə bükülmüş,
Siyah zülfün çox pərişan tökülmüş,
Sinəsinə çarpaz dağlar çəkilmiş,
Saraclını qonaq aldın, Alagöz!

## MARALIM

Artıb dərdim, həddən aşıb,
Al qələmi yaz, maralım.
Eşitmişəm savadlısan,
Gəl eyləmə naz, maralım.
İşarət eyləsən mənə,
Anlayaram tez, maralım.
Sən Əslisən, mən də Kərəm,
Alışıbdır köz, maralım.
Bir yaxın gəl, həmdəm olaq,
Qoy üzümə üz, maralım.

Qaranlıqda işıq saçan,
Şəmsi-qəmərdi camalın.
Hər baxanı heyran edir,
İxtilatın, pür camalın.
Lalənin al bağrıdı,
Yanaqdakı güllü xalın.
Səndən ayrı düşər olsam,
Öldürəcək bu məlalın.
Boyun bənzər sürahıya,
Sallanıban gəl, maralım.

Gümüş qotazlı kəmərin,
Çəkibsən incə belinə.
Dodağına bal bələnib,
Şəkər tökübsən dilinə.
Özümü xoşbəxt sanaram,
Əlim çatarsa əlinə.
Siyah zülfün pərişandı,
Külək toxunur belinə.
Qorxuram qeyri kəslərdən,
Sənə dəyər göz, maralım.

Məhəbbətin sevdasında,
Qəsd eləmə şirin cana.
Hicranına dözəmmərəm,
Ağlayaram yana-yana.
Məcnun kimi baş götürüb,
Çəkilərəm biyabana.
Məndən belə üz çevirib,
Girmə bir mələk donuna.
Mən də Hüseyn Saraçlıyam,
Gəl ol mənim öz maralım.

## ƏHMƏD RÜSTƏMOV
*(1921-2008)*

***Şirvan aşıq mühitinin yetirdiyi sənətkarlardandır. Kürdəmirin Carlı kəndindəndir. Erkən yaşlarından saza maraq göstərmiş, sənətin sirlərini ilk olaraq kəndlərində balabançı Əlidən öyrənmişdir. Aşıq Şakir Hacıyevin sənət dostu olmuşdur. 1946-cı ildən aşıqlıq etməyə başlamışdır. Şeirləri Şirvan aşıqlarının repertuarında geniş yer tutur. “Əhməd gözəlləməsi” saz havasını bəstələmişdir. Bir neçə şeir kitabı nəşr olunmuşdur. Aşıq Əhmədin yaradıcılığı ilə bağlı müxtəlif səpkili məqalələr yazılmış, tədqiqatlar aparılmışdır. Gözəlləmə ruhlu şeirləri aşıqların və xanəndələrin repertuarında geniş yer alır.***

### DİLBƏR

Qoy baxım ala gözlərə,
Şeir düzə-düzə, dilbər!
Qaşların aya bənzəyir,
Gözlərin nərgizə, dilbər!

Camalını görən çaşır,
Gül üzündən göz qamaşır,
Kirpiyin gözə yaraşır,
Qıvrım saçlar, üzə, dilbər!

Sən nə qəşəng, nə göyçəksən,
Dərilməmiş tər çiçəksən,
Gözəllər içində təksən,
Gəlməyəsən gözə, dilbər!

Ay uca boy, mina gərdən,
Əhmədi yad eylə hərdən!
Ləblərin tək xam şəkərdən.
Bir busə ver bizə, dilbər!

## SƏN

Söylə görüm, a dildarım,
İlin baharısanmı sən?
Yaqut rəngli albalının
Təzə nübarısanmı sən?

Dolanırsan hələ gendən,
Ayrılmayır ürək səndən,
Hüsnü könüllər fəth edən,
Qəlbin açarısanmı sən?

Sənsən könlümün ilhamı,
Saf eşqimin arzu-kamı,
Sən mənim ol, desin hamı,
Əhmədin yarısanmı sən?

## ZƏRNİŞAN

Qaşların yay, kirpiyin ox,
Gözlərin qara, Zərnişan!
Ürəyimi iki bölüb,
Etmisən para, Zərnişan!

Ovsunludur qaşın, gözün,
Şirin dilin, şəkər sözün,
Sevən sağalmaz, sən özün
Etməsən çara, Zərnişan!

Əhməd vəsfini söyləsin,
Ömür keçib, dil nə desin?
Bəxt səni qismət eyləsin,
Özüntək yara, Zərnişan!

## KƏNARINDA

Oğrun baxıb hey süzülür gözlərin,
Elə bil ulduzdur ay kənarında.
Kirpiklər qaş altda dayanıb səfə,
Düzülüb ox kimi yay kənarında.

Qanadlı arzumu daşlara vurma,
Zərif bənövşətək boynunu burma,
Ürkək-ürkək baxıb qəlbimi qırma,
Toyxana küncündə, toy kənarında.

Əhmədin könlündə yurd salan Mələk,
Baxışın mehriban, yerişin qəşəng,
Gülə aşiq olan şeyda bülbültək,
Mən gəlim dolanım qoy kənarında.

## MAİL OLMUŞAM

Bir qara qaşlıya, şux baxışlıya,
Tovuz naxışlıya mail olmuşam.
Mirvari dişliyə, xoş gülüşlüyə,
Turac yerişliyə mail olmuşam.

Süfrəsi bəzəkli, ləziz xörəkli,
Bir xoş gələcəkli, alnı çörəkli,
Başı gül-çiçəkli, üzü çiçəkli
Təbiət işliyə mail olmuşam.

Əhmədi yandıran, qaçıb yan duran,
Eşqi, məhəbbəti ona qandıran,
Zülfünü şux buran, baxıb göz vuran,
İncə gülüşlüyə mail olmuşam.

## SƏNƏ

Təbiət üzünə qızıl gül çəkib,
Yoxdu gözəllikdə bərabər sənə.
Hər gözünə neçə gözlər dikilib,
Elə gül dəyməsin bədnəzər sənə.

Dodağın qönçədir, boyun sürahı,
Sənə layla çalıb mələklər şahı,
Bizi yoxdan var eyləyən ilahi,
Görən yaradıbmı bir bənzər sənə?!

Yanağının təri cənnət suyudur,
Sürt üzümə, bəlkə yanğım soyudu.
Yandırmaz cismimi cəhənnəm odu,
Qaynayıb qarışsam bir təhər sənə.

Mən şaha baş əyməz vüqarlı dağam,
Gözəlliyə əsir düşmüş dustağam,
Əhmədəm, söz düzüm nə qədər sağam,
Sazla layla çalım hər səhər sənə.

## QADASIN ALDIĞIM

Cilvələnib tovuz kimi qarşımda,
Nə durmusan, ay qadasın aldığım.
Gözlərin qüdrətdən sürmələnibdi,
Qaşı kaman, yay qadasın aldığım.

Ağ tülə bükmüsən o gül əndamı,
Sərv qamətinə heyrandı hamı,
Qədr gecəsində, bayram axşamı,
Bədrlənmiş ay, qadasın aldığım.

Bənzəsə bənizin kimsə rəngbərəng,
Görək sənə bənzər heç varmı  bir rəng,
Yanağın lalədir, üzün tər çiçək,
Dara zülfün say, qadasın aldığım.

Əhməd ilham alır şövqü şəstindən,
Gözlərin doymayır canım qəsdindən,
Lütf eylə aşiqə yanaq üstündən,
Bir busə ver pay, qadasın aldığım.



## ŞAKİR HACIYEV
*(1922-1979)*

***XX əsr Azərbaycan aşıq sənətinin görkəmli simalarından olan Aşıq Şakir Hacıyev mənsub olduğu Şirvan ifaçılıq məktəbinin inkişafında misilsiz xidmətlərə malikdir. Sənət şəcərəsinə görə, Göyçaylı Aşıq Mürsələ və böyük saz-söz ustadı Mirzə Bilala bağlı olan Aşıq Şakir 1946-cı ildən sərbəst aşıqlığa başlamışdır. Qısa zaman içində gözəl səsi, məlahətli ifası, yüksək məclis aparma qabiliyyəti ilə xalq arasında böyük şöhrət qazanmışdır. “Şakir gözəlləməsi”, “Kəndimiz”, “Səhər-səhər”, “Bala Nərgiz”, “Nə bağ bildi, nə də bağban” mahnı-bəstələri onun unudulmaz ifaçılığının bənzərsiz yadigarlarıdır.***

### SƏHƏR-SƏHƏR

Hər çıxanda qızıl günəş,
Üfüq yanar səhər-səhər.
Seyrək uçan buludlar da,
Al boyanar səhər-səhər.

Ceyran qaçar oylaqlara,
Sürü qalxar göy dağlara,
Quşlar yaşıl budaqlara,
Uçub qonar səhər-səhər.

Çəmən gülər, çiçək gülər,
Otlar üstə şeh tökülər.
Külək əsər göy zəmilər,
Dalğalanar səhər-səhər.

Kəklik səkər daşdan-daşa,
Düzlər girər al qumaşa,
Gözəlləşib başdan-başa,
Bizim diyar səhər-səhər.

Kənd qızları çıxar yola,
Tarlalara uğur ola
Hünərilə qurur qala,
Bizim ellər səhər-səhər.

Şakir deyir, yaxan günəş,
Dağ başından baxan günəş,
Vətənimdə doğan günəş
Şəfəq yayar səhər-səhər.

## CEYRAN

Yenə çıxıbdır qarşıma,
Budur boyu bala Ceyran.
Kirpiklərin müjgan edib,
İstər canım ala Ceyran.

Camalın bənzəyir aya,
Gözəlliyin gəlməz saya,
Yenə aşığı sevdaya,
İstəyir ki, sala Ceyran.

Azad könlüm sənin, Ceyran,
Olub camalına heyran.
Qarşımıza gözəl dövran,
Gəlir gülə-gülə, Ceyran.

Çox aşıq dünyadan gedib,
Öz məşuqunu yad edib.
Sən də məni Məcnun edib,
Salma çöldən-çölə, Ceyran.

## SÜZƏ-SÜZƏ

Bir gözəl çıxdı qarşıma,
Gözlərini süzə-süzə.
Hər baxanda min can alır,
Gözlərini süzə-süzə.

Sinəmə müjganı taxır,
Tər qönçə tək pünhan baxır.
Aşığı yandırıb yaxır,
Gözlərini süzə-süzə.

Almayanaq, ay can alan,
Ömrümə sən salma talan.
Necə baxır min can alan,
Gözlərini süzə-süzə.

Dözmək olmayır nazına,
Bənzəyir Quba qazına.
Baxır Şakirin sazına,
Gözlərini süzə-süzə.

## GÜLGƏZ

Qədəm qoyub bu məclisə,
Xoş gəlibsən, təzə, Gülgəz.
Nə qəşəngsən, nə gözəlsən,
Gəlməyəsən gözə, Gülgəz.

Könül əzəl gündən bəri,
Sevib sənin tək dilbəri,
Darayıb qara telləri,
Nə tökübsən üzə, Gülgəz.

Ay qız, dinlə bir səsimi,
Ver könlümün nəşəsini,
Gəzdir eşqin badəsini,
Gəl məclisi bəzə, Gülgəz.

Sevgi vaxtın ötürmə gəl,
Əhdimizi itirmə gəl,
Ala könlüm, al, tirmə gəl,
Bir dərdimi, üzə Gülgəz.

Şakir deyir, getmə dayan,
Bir sözüm var sənə pünhan,
Eşqimizi edək bəyan,
Danışaq üz-üzə, Gülgəz.



## MİKAYIL AZAFLI
***(1924-1990)***

***Mikayıl Azaflı (Zeynalov Mikayıl Cabbar oğlu) Tovuz mahalının yetirdiyi görkəmli saz-söz şairidir. Erkən yaşlarında «Coşğun» təxəllüsü ilə şeirlər yazan aşıq-şair bir müddət «Əzablı» təxəllüsünü daşımışdır. Lakin son olaraq doğma kəndinin adını - «Azaflı»nı özünə təxəllüs götürmüşdür.***

***Azaflı Mikayıl klassik aşıq ənənələrini layiqincə davam etdirmiş sənətkarlardandır. Onun yaratdığı «Azaflı dübeyti» (Qoca Qartal), «Azaflı gözəlləməsi», «Azaflı sənəti», «Azaflı dünyası», «Azaflı gəraylısı», «Azaflı himni», «Mikayılı», «Azaflı dağları», «Azaflı bəhri», «Məzahiri», «Azaflı müxəmməsi», «Azaflı gülü» kimi saz havaları aşıq bəstəçiliyinin ən dəyərli örnəklərindəndir. Aşıq şeiri şəkillərinin əksəriyyətindən məharətlə istifadə edən ustad sənətkar iki mindən çox şeirin müəllifidir. Onun yaradıcılığında təkcə təcnisin 29 növünə təsadüf edilir. Gözəlləmələri də aşıq ifaçılığında geniş yer alır.***

### O GÖZLƏRİ

Məhəbbətin aləmidir,
Can cananın o gözləri.
Qüdrətin nur aləmidir,
Din, imanın o gözləri.

Həsrətindən aşiq ölər,
Vüsal üçün arzu dilər,
Milyonları əsir elər,
Bir xaqanın o gözləri.

Azaflıya candı canı,
Ürəyimə qandı qanı,
Bəndə salıb bir dünyanı,
Mehribanın o gözləri.

## DOYAMMADIM

Yarın əlvan naxışından,
Gül üzündən doyammadım.
Bir mehriban baxışından,
Nur gözündən doyammadım.

İncə şirin sətirindən,
Sədaqətin xətirindən,
Gül-çiçəyin ətirindən,
Mən özündən doyammadım.

Azaflıyam, haqq səsindən,
Dostların pak nəfəsindən,
Ellərin şən nəğməsindən,
Düz sözündən doyammadım.

## GÖZƏL, GÖZƏL
### (təsnif)

Qurban dillərə,
Gülə, güllərə
Bizim ellərə,
Gəl, gözəl-gözəl.

Qurban gözlərə,
Şirin sözlərə,
Töküb üzlərə,
Tel gözəl-gözəl.

Dərdimi qanan,
Hey zaman, zaman,
Dostları qurban,
Bil gözəl-gözəl.

İsdərəm səni,
Bəsdərəm səni,
Səsdərəm səni,
İl  gözəl-gözəl.

## GÖZLƏRİM

Səbrim tükənibdir səbr eləməkdən,
Yoruldu baxmaqdan yola gözlərim,
Bir səni arayır, bir də gəncliyi,
Boylandıqca sağa, sola gözlərim.

Əzəldən olmusan əhdə ilqarsız,
Məhəbbəti şaxta, eşqi baharsız,
Biz belə deyildik, ay etibarsız,
Necə qıydın qanla dola gözlərim.

Könlümü vermədim başqa birinə,
Dünya sərvətinə, simü-zərinə,
Əgər mən olsaydım sənin yerinə,
İstəsən, deyərdim, "ala gözlərim".

Nə ulduz deyilsən, nə də ay, günəş,
Nədənsə görəndə eyləyirəm qəşş,
Dodağımda alov, qəlbimdə atəş,
Çəkib dərd-qəm, min bir bəla gözlərim.

Azaflı əhdimi başa yetirdi,
Hicran gəncliyimi aldı itirdi,
Şöləsi qaraldı, sarı gətirdi,
Sənə həsrət qala-qala gözlərim.

## A GÖZLƏR

Qaşın gözlər ayı, üzün dan yeri,
Gözləri qamaşır baxan, a gözlər.
Nə huri məláksən, nə cənnət pəri,
Nə şaha baş əyir, nə xana gözlər.

Biri qüdrət verir, biri nur satır,
Sevdası aləmi aləmə qatır,
Biri kaman qurub, biri ox atır,
Sinəmi oxladı, ox, ana, gözlər.

Artıqdı bir muyun şahı-şahandan,
Min bir xəzinədən, ləli-cahandan,
Biri gündoğandan, bir aydoğandan,
Dünyanın üstünə çıxan, a gözlər.

Aşıq ziyarəti eşqin bulağı,
Üfüqün şəfəqi, behişt çırağı,
Canımın cəlladı hökümdar yağı,
Sənsən Azaflını yıxan, a gözlər.

## MEHRİBAN SONAM

Mənim gözlərimdə, mənim qəlbimdə,
Gözəllər göyçəyi, mehriban sonam.
Sevinclə hördüyüm sevgi çələngi,
Solmasın çiçəyi, mehriban sonam.

Gözlərin gözümə nur çırağıdı,
Camalın canıma can bulağıdı,
Elə bil göylərin göy qurşağıdı,
Saçların birçəyi, mehriban sonam.

Azaflıyam, olsun qismətim, payım,
Üstümə şox salsın Günəşim, Ayım,
Çətin günlərimdə harayım, hayım,
Sən ol sevincəyim, mehriban sonam.

## MEHRİBANIM
*(qoşayarpaq cığalı müxəmməs)*

Mehri-mahım, qibləgahım,
Şahı şahan mehribanım.
Eşq amalın, gül camalın,
Nuru cahan, mehribanım.
Üzü lalə, gözlər şəhla,
Qaşlar kaman, mehribanım.
Vallah inan, sizə canan,
Oldum heyran, mehribanım.
Məni heyran eylədin,
Könlü viran eylədin.
Qəlbimi qan eylədin,
Necə giryan eylədin,
Ölərəm əl çəkmərəm,
O yan, bu yan eylədin.
Eyləmə belə,
Gəl gülə-gülə,
Dön qızılgülə,
Mən də bülbülə,
Zər kəmər təki
Dolanım belə.
Axşam, sabah dolanan mah,
Huri qılman, mehribanım.

Huri canan  sənə hər yan,
Etsin gözəllər ziyarət.
Dağnan aran, cümlə cahan,
Eyləsin ellər ziyarət.
Göy yaylaqlar, hər oylaqlar,
Ceyranlı çöllər ziyarət.
Uçan quşlar, yaşıl başlar,
Sonalı göllər ziyarət.

Göldə sona belə döy,
Əldə xına belə döy,
Nə yaradıb yaradan,
Doğan ana belə döy.
Anası pəri,
Doğub dilbəri,
Oldum sərsəri,
Çəkdim qəhəri,
Getmə amandı,
Bir dön bax bəri.
Bax xəstəyəm, yol üstəyəm,
Elə dərman, mehribanım.

Elə dərman mənə, loğman,
Yar aşiqin davasına.
Bülbül ağlar, sinə dağlar,
Qızılgülün havasına.
Nakəs deyər, qəlbə dəyər,
Uyma namərd xülyasına.
Nadan bular, qismət olar,
Gül qoynunun səfasına.
Qoynu cənnət guşəsi,
Baharın əndişəsi,
Surəti ay şüşəsi,
Baxışı canlar alan,
Şəmsi qəmər şöləsi,
Hamıdan göyçək,
Saçları birçək,
Deyirəm gerçək,
Qalmışam çərçək,
Canım əlində,
Bir yana çək, çək.
Durma pəri, di gəl bəri,
Çıxdı bu can, mehribanım.

Yar, bu canım al, qurbanın,
Kəsərəm hər anda sənə.
Gözəl payın, olmaz tayın,
Nə yerdə, asimanda sənə.
Nə behiştdə, ərşdə, gürşdə,
Nə cənnət rizvanda sənə.
Yaxşı görüb, zinət verib,
Yaradan divanda sənə.
Böyük yaradana bax,
Dünyanı qurana bax,
Gəl əhdi-peymana bax,
İnsafa, imana bax,
Getməmiş gözəlliyin,
Düşməyən yamana bax.
Düşmə yamana,
Olma divana,
Bir gəl imana,
Dönüb ilana,
Sitəm eyləmə,
Sənə yanana.
Dərdə həkim mənim kimi,
Olmaz inan, mehribanım.

Olmaz inan, eşqə yanan,
Mənim kimi yar aşiqi.
Məhəbbətim, mərhəmətin,
Eyləməsin xar aşiqi.
Azaflıyam, əzablıyam,
Hər gözəlin var aşiqi.
Kimi süzər, tərlan gəzər,
Məşuq olma nadana,
Bir gün atar o yana,
Adın vermə nişana,
Qorxuram düşəm qana,

Xudanın bir işi var,
Yaxşı yazar yamana.
Yaxşını dindir,
Qəlbinə mindir,
Sinənə endir,
Çəkib isindir,
Gəl səfa sürək,
Dünya beş gündür.
Qocalmamış, biz ölməmiş,
Sürək dövran, mehribanım.

**A SULTANIM**
***(qoşayarpaq müxəmməs)***

Mehribanım, din-imanım,
Canım, qanım, a sultanım.
Şahım, xanım, xanimanım,
Fikrim, anım, a sultanım.
Can-cahanım, asimanım,
Şöhrət, şanım, a sultanım.
Həm loğmanım, həm dərmanım,
Şəfa kanım, a sultanım.

Sənsən eşqim, məhəbbətim,
Qibləm, Kəbəm, ziyarətim,
Yaz-baharım, təravətim,
Min aləmim, təbiətim,
Saf diləyim, sədaqətim,
Ömrə, günə dəyanətim,
Arzum, sevgim, mehr-ülfətim,
Sübhüm, danım, a sultanım.

Camalındı nur ziyalı,
Qaşlarındı ay hilalı,

Yanaqların dan boyalı
Güldən gözəl gül camalın,
Hər kəlamdan var kamalı,
Təb dəryası, zər amalı,
Bir baxışın min can alı,
Söz qananım, a sultanım.

Telin dəyər yüzlərinə,
Qurban olum gözlərinə,
Şirin-şirin sözlərinə,
Yandım, aman közlərinə,
Nur çəkilib üzlərinə,
Dözəmmirəm dözlərinə,
Düşdüm sevda düzlərinə,
Dürr məkanım, a sultanım.

Gələ-gələ Azaflını,
Gətir dilə Azaflını,
Gülə-gülə Azaflını,
Sözə bələ Azaflını,
Gövhər lələ Azaflını,
Dünya bilə Azaflını,
Saxla elə Azaflını,
Şöhrət-şanım, a sultanım.



## XANMUSA MUSAYEV
### *(1924-2017)*

***Şirvan mühitinin yetirdiyi ustad sənətkarlardandır. Aşıq ailəsində anadan olmuşdur. Atası Aşıq Musaxandan, əmisi Aşıq Cənnətalıdan sənətin sirlərini öyrənmişdir. Erkən yaşlarından saza həvəs göstərmiş, sonralar Şamlıda Aşıq Xanbalanın yanında şagird olmuşdur. Cəyirli Aşıq Abbasın da onun bir sənətkar kimi yetişməsində mühüm xidmətləri vardır. Aşıq Xanmusa yaradıcı aşıq kimi tanınmış, aşıq şeirinin müxtəlif formalarında yazıb yaratmışdır. 1954-cü ildə Şamaxıdan Qaradağ rayonunun Qobustan qəsəbəsinə köçmüşdür. Respublika və ümumittifaq festivallarında iştirak etmiş, mükafat və diplomlar almışdır. Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür (2016).***

### İTKİDİ

Baharın şən çağı açmasa güllər,
Aylara zərbədi, ilə itkidi.
Sonalar süzməsə gen sinəsində,
Ləpələr çırpınar, gölə itkidi.

Adətdi, gözəllər halbahal olar,
Sevib sevənlərdə xoş vüsal olar.
Yar-yara yetəndə nitqi lal olar,
Deyib-danışmamaq dilə itkidi.

Gözələ qaşıdı, gözü yaraşıq,
Ağıldı, kamaldı düzü yaraşıq,
Qaməti, gərdanı, üzü yaraşıq,
Hörüksüz görünmək belə itkidi.

Xanmusa, de sözün ariflər qana,
Mənasız ömürdən nə fayda cana.
Ceyranın azlığı Milə, Muğana,
Aşığın yoxluğu elə itkidi.

## MƏNİ
***(təcnis)***

Hicran dustağıyam gözlərim yolda,
Göynədir sinəmdə yaralar məni.
Eşqdir dərdimin dəvası, həkim,
Kim dedi cərraha yaralar məni?

Sevgi baxmaz nə insafa, nə dinə,
Xəstə könlüm nə danışa, nə dinə.
İşarəylə qandırmayır nədi, nə?
Süzgün baxışıyla yaralar məni.

Xanmusayam, yar qeydinə qalandım,
Sən əbədi qal sevincim, qal andım.
Gecə-gündüz oda, közə qalandım,
Alsa dərd əlindən yar alar məni.

## ŞİRVAN GÖZƏLİ
***(müxəmməs)***

Gözəllərin içində,
Hamıdan birincisən.
Ürəklərə nur saçan,
Nadir, şəffaf incisən.
Eyləyərsən yolundan,
Hər qocanı, gənci sən.
Qoy səni vəsf eyləyim,
Əyər məndən incisən.
Ollam sərsər, ya dəli,
Yaşa Şirvan gözəli.

Arzum budur ağ sinən,
Qoy görməsin dağ sinən.

Yanağından rəng alar,
Al-qırmızı ağ sənin.
Açılıbdı sinəndə,
Yeddi cənnət bağ sənin.
Ürkək baxşılarından,
Xəstə olur sağ sənin.
Eşqim, ruhum təzəli,
Yaşa Şirvan gözəli.

Baxışından məhəbbət,
Yerişində gözüm var.
Eşq əhliyəm sinəmdə,
Deyilməmiş sözüm var.
Xanmusayam, ay gözəl,
Məndə dərdə dözüm var.
Öz çəmənim, öz gülüm.
Öz alovum, közüm var.
Yaşa səni min yaşa,
Yaşa Şirvan gözəli.



## İSGƏNDƏR AĞBABALI
*(1925-1992)*

***Ağbaba aşıq mühitinin yetirməsidir. Aşıq Nəsibin şagirdi olmuşdur. Aşıq sənətinin sirlərini öyrəndikdən sonra müstəqil aşıqlığa (1945) başlamış, məlahətli səsi, mahir ifaçılığı ilə məşhur olmuşdur. Dastanların bilicisi kimi tanınmış, "Gürcü qızı", "Yetim Məhəmməd", "Yaralı Mahmud", "Təbriz oğlu" və digər qədim dastanların söyləyicisi olmuşdur. Dastan yaradıcılığında da mühüm xidmətləri vardır. "İsgəndər şah", "Dəli Yusif", "Aybəniz", "Gündoğar" dastanlarının yaradıcısıdır. "Dərbədəri", "Konyalı", "Sarı yaylıq", "Sarı gəlin", "Şenlik xoşdamağı", "Çuxurobası", "Dəli hicranı", "Otalı qızı" və s. kimi az-az ifa olunan saz havalarının mükəmməl ifaçısı olmuşdur. "Güləndamı" saz havası onun adı ilə bağlıdır. Gözəlləmə ruhlu şeirləri çoxdur.***

### ÖYRƏNDİN

Oğrun-oğrun daldalardan,
Baxmağı kimdən öyrəndin?
Ağ əlinə əlvan xına,
Yaxmağı kimdən öyrəndin?

Gah o yandan, gah bu yandan,
Canımı sən aldın candan.
Bu bəzəknən, belə donnan,
Qaçmağı kimdən öyrəndin?

İsgəndərin gördü gözü,
Peşkəş dedim sənə sözü.
Əl-qol atıb, yığıb közü,
Yanmağı kimdən öyrəndin?

## BƏYƏNMİŞƏM

Gözəl, sənə məlum olsun,
Hər işini bəyənmişəm.
Oğrun-oğrun maral kimi,
Baxışını bəyənmişəm.

Sarı tellər gözün üstə,
Dərdindən olmuşam xəstə,
Hərdən-hərdən, çox ahəstə,
Gəzişini bəyənmişəm.

İsgəndərəm, el aşığı,
Telli sazdı yaraşığı,
Ağ əllərin saraşığı,
Naxışını bəyənmişəm.

## BOYLANA-BOYLANA

Bir cüt gözəl çeşmə üstə,
Gəlir boylana-boylana.
Məni qoyub qəmli yasda,
Gülür boylana-boylana.

Bir cüt əcəb gözəl qızdı,
Gözəl demək ona azdı,
Elə bil ki, bahar-yazdı,
Gəlir boylana-boylana.

Hər ikisi bir cüt çətir,
Görənlərə verir ətir,
Dedim, ay qız, bir su gətir,
Gülür boylana-boylana.

Dedim, ay qız, özüm matam,
Xoş baxtım var, inan şadam,
Əlimi qoynuna atam,
Gülür boylana-boylana.

İsgəndərəm, yaxşı bildim,
Hicran vədəsində gəldim,
Canımı odlara verdim,
Bilir boylana-boylana.

## A BƏXTƏVƏR

O yaradan qələm çalıb,
Gül yaradıb, a bəxtəvər.
Gözəlliyi sana verib,
Mələk xanı, a bəxtəvər.

Qara qaşlı, qara gözlü,
Ağzı şəkər, şirin sözlü,
Hər baxışı işvə-nazlı,
Gövhər kanı, a bəxtəvər.

İsgəndərəm, mən tək yansan,
Eşdib, mətləbim qansan,
Həm gözəlsən, həm cavansan.
Şirin canı, a bəxtəvər.

## CEYRAN

Durum qolanım başına,
Qaşı-gözü qara Ceyran.
Dərdindən çoxları xəstə,
Eylə dərdə çara, Ceyran.

Ay qız sənin gözün pürzə,
Danışanda sözün purzə,
Aşıq gərək vəsfin düzə,
Qəlbim oldu yara, Ceyran.

Tərlan kimi səsə gəldin,
İsgəndər, həvəsə gəldin,
Neçəsinin canın aldın,
Söylə gedim hara, Ceyran.

## ƏZİZİM

Şəkər dodaqların yoxdu qiyməti,
Çox gəzmişəm bu cahanı, əzizim.
Bir beçə balıdı verəndə dadı,
Hər kim sürsə o dövranı, əzizim.

Şirindir dəhanın, qaradır qaşın,
O şahmar gözlərin, xoşdur baxışın,
Özün dərd əhlisən, cavandır yaşın,
Qoyuram yolunda canı, əzizim.

Aşıq İsgəndərəm, qurbanam sənə,
Dağlaram sinəmi baxmasan mənə,
Can sağ ikən gəl bağlayaq əhdnamə,
Fanidi bu dünya, fani, əzizim.

## DƏYDİ, DAYANDI

Bir sona ceyranım açdı qapını,
Gəldi binəsinə dəydi, dayandı,
Gördüm ki, minibdi eşqin atını,
Mətahını yerə qoydu, dayandı.

Əvvəl salam verib gözün gəzdirdi,
Qaşını oynadıb canım üzdürdü,
Çox minnət eləyib mahnı düzdürdü,
Baxış əncamınnan döydü, qayıtdı.

Eşqin alovunda sıxıldı canı,
Gördüm ki, gedibdi dini, imanı,
Aşıq İsgəndərim, kitab-Quranı,
Hamısın ürəkdən saydı, dayandı.

## QARAGÖZ GƏLİN

Hilal qaşın mənim ağlımı aldı,
Sallan keç qarşımdan, bir də süz, gəlin.
Məni Məcnun kimi çöllərə saldı,
Alıbdı canımı qaragöz gəlin.

Bilirsənmi, könlüm çox sevir səni,
Yazığam, odlara yandırma məni.
Bu gözəl vətəni, bu şən dünyanı,
Dolanıb deyirəm dərdə döz, gəlin.

Belə olub ta əzəldən zamana,
Yazılıbdı, yaxşı gedər yamana.
Sən mələksən, ta gəlibsən cahana,
İsgəndər sözünü deyər düz, gəlin.

## ARASINDA
***(cığalı qoşma)***

Həsrətin çəkəndə dağlar qızının,
Axtara, gəzəsən el arasında.
Sən aşıq arasında,
Qaşların arasında,

Ceyran gəlib yan gedər
Dağların arasında.
İstəsən ki, canan sənə can desin,
Şəkərdən şirindi dil arasında.

Hər insan çağırar yaradan Allah,
Seçginən ağları qaradan, Allah.
Aşıq deyər, ya Allah,
Ya İrəsul, ya Allah,
İnsan səni səsləyir,
Dada yetiş, ya Allah.
Sənsən hər kəsəni yaradan Allah,
Hesabı çək ağa-qul arasında.

Aşıq İsgəndərin çırağı sənsən,
Həyatı, diləyi, çırnağı sənsən.
Aşıq deyər ya sənsən,
Ya canandı, ya sənsən,
Neçəsin dərdə salan,
Ya fələkdi, ya sənsən.
Qeyrisin neyniyər, cananı sənsən,
Qoyma ki, o azsın yol arasında.

## YARADIB
### *(divani)*

Ol yaradan qələm çalıb,
Haqq səni bir can yaradıb.
Gözəlliyi sana verib,
Aşiqi qurban yaradıb.
Xəstə görsə şəfa tapar,
Sahibi-dövran yaradıb.
Qaş qara, gözlər qara,
Sanki çıraqban yaradıb.

Gözəllikdə nə qaydadı,
Sirr sözünü xara verər.
Bal dodağı, gül yanağı,
Götürüb əğyara verər.
Ol fələk də düz eləməz,
Gözəli yassara verər.
Axırında puç eləyər,
Sanki Süleyman yaradıb.
Ağbabalı İsgəndərəm,
Hər elmdən halıyam mən.
Ellərkəndin halal oğlu,
Öz  mövlamın quluyam mən.
Dindirməyin mən yazığı,
Ürəkdən yaralıyam mən.
Qızılgülü xara verib,
Gör necə fərman yaradıb.

## GÖVHƏRƏ
*(divani)*

Ay həzərat, yaxşı baxın,
Qarşıda gələn Gövhərə.
Gül kimi şölə verir,
Qaşları kaman Gövhərə.
Gözəllikdə çox əladı,
Huriyi-qılman Gövhərə.
Bu sifətdə, bu surətdə,
Can deyim qurban Gövhərə.

Ay camaat, kim görübdü,
Gözəllikdə Gövhər kanı.
Gəzmişəm çox yerləri,
Bu misalda gözəl hanı?
Məclisə ki, qədəm qoysa,

Qoçaqlıqda yoxdu tayı.
Qıryatda da kişi kimi,
Dillərdə dastan Gövhərə.

Aşıq sözün doğru deyər,
İsgəndər də tərif eylər.
Gözəllikdə tayı yoxdur,
İstərsə divan da söylər.
Namusu var öz yerində.
Gözəlliyin dastan eylər.
Yeriyəndə çox gözəli
Baxsan ha üzdən Gövhərə.



## SOLTAN SEYİDOV
***(1925-2004)***

***Quba-Dərbənd mühitinin XX yüzillikdə yetirdiyi ustad sənətkarlardandır. Rutul rayonunun Katrux kəndində anadan olmuş, sonralar köçüb Qubada yaşamışdır. Atası Hacı Seyidov da dövrünün tanınmış sənətkarlarından idi. Aşıq Soltan (Seyidov Soltan Hacı oğlu) erkən yaşlarından sənətə həvəs göstərmiş, yaradıcı aşıq olmuşdur. “Soltan və Qəndab” dastanının müəllifidir.***

### GƏL BƏRİ

Maral kimi nə baxırsan,
Qayıt gəl bəri, gəl bəri.
Canım odlara yaxırsan,
Qayıt gəl bəri, gəl bəri.

Məcnun tək didərgin oldum,
Gül təki saraldım, soldum.
Həsrətindən bəlkə öldüm,
Qayıt gəl bəri, gəl bəri.

Qaşlarındı əymə-əymə,
Yaxandan açıldı düymə.
Soltanın kefinə dəymə,
Qayıt gəl bəri, gəl bəri.

### QIRMIZI

Bu gün bir gözəl görmüşəm,
Geyinmişdi al qırmızı.
Ceyran təki cilvələndi,
Sanki oldu yol qırmızı.

Qolunda var cüt bilərzik,
Barmağında qızıl üzük,
Boyu uca, beli nazik,
Başındakı şal qırmızı.

Elə dönüb baxdı mənə,
Para-para oldu sinə,
Aşıq Soltanın qəlbinə,
Düşdü qəfil xal qırmızı.



## PƏNAH PƏNAHOV
*(1926-1979)*

***Muğan-Salyan bölgəsinin yetirdiyi ustad sənətkarlardandır. Bir neçə il dövrünün ustad sənətkarlarından olan Aşıq Qurban Sadıqovun şagirdi olmuş, aşıq sənətinin sirlərini, saz havalarını, dastanları mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. Aşıq Pənah tanındıqdan sonra ansambl yaratmış, aşıqlar dəstəsinə rəhbərlik etmişdir. “Kür” aşıqlar ansamblı onun adı ilə bağlıdır. 1950-1970-ci illərdə aşıqlar arasında xüsusilə fərqlənmiş, festivallarda iştirak etmişdir. Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. Xeyli sayda aşıq mahnısı (“Ana Kürüm”, “Salyan gözəlləməsi”, “Pənah gözəlləməsi” və s.) bəstələmişdir.***

### GÖZƏLLƏRİN

Bir ox olub yaxır məni,
Şəhla gözü gözəllərin.
Alır başımdan ağlımı,
Şirin sözü gözəllərin.

Günəş kimi nur çiləyir,
Hər tərəfə od ələyir,
Könlümü məftun eləyir,
Ayna üzü gözəllərin.

Safdır eşqi, məhəbbəti,
Yaratmaqdır xoş niyyəti,
Dağlar yıxan mətanəti,
Vardır, düzü, gözəllərin.

Pənah deyər: hər zəfəri,
Arzuları, əməlləri,
Bəzəyir qadir əlləri,
Ölkəmizin gözəllərin.

## ZƏRİFƏ

Gülüşün mehriban, baxışın aləm,
Kirpiyin qəlbimi çaldı, Zərifə.
Nazəndə yerişin, gözəl duruşun,
Könlümü odlara saldı, Zərifə.

Bu elin qızısan, boyun da bəstə,
Çoxları dərdindən olubdur xəstə,
Ayağın gəzdikcə torpağın üstə,
İzlərin bu yerdə qaldı, Zərifə.

Gözəllər qəlbimə vursa da yara,
Kəssələr dilimi, çəksələr dara,
Çaralı dünyada Pənaha çara,
Sənin üzündəki xaldı, zərifə.

## BİR DƏ GƏL

Bir yol gördüm mayıl oldum üzünə,
Aman gözəl, insaf elə bir də gəl.
Şirin-şirin gülüşünə, sözünə,
Canım qurban gül-gülə bir də gəl.

Tərifinə nəğmə deyir bulaqlar,
Yüz çiçəkdən bal əmib o dodaqlar,
Yanağında dan yerinin rəngi var,
Bənzəyirsən qızıl gülə bir də gəl.

Mən oxuyum, sədasına oyan sən,
Tovuz kimi gərdən çəkib dayan sən,
Səhər-səhər bizim bağı dolan sən,
Kəmər taxıb incə belə, bir də gəl.

Gəlişinlə gözün gülsün, ay pəri,
Şeirim gülsün, sözüm gülsün, ay pəri,
Könlüm gülsün, sazım gülsün, ay pəri,
Mizrab vursun Pənah telə, ay pəri.

## SALATIN

Sallana-sallana seyrə çıxıbsan,
Bayramıdır çölün, düzün, Salatın!
Dedim: günəş doğur, sabahın xeyir,
Gördüm işıq saçır üzün, Salatın!

Bir yanar ürəksən – ellərə vurğun,
Bir ahu ceyransan - çöllərə vurğun,
Bir gözəl mahnısan – tellərə vurğun,
Səsin gəlsin həzin-həzin, Salatın!

Hanı bərabəri sən tək gözəlin,
Yüz il tacı olsun şerin, qəzəlin,
Gözəllik eşqinə düşən, qız, gəlin,
Səndən alır əvvəl izin, Salatın!

Xınalı kəkliyi koldan eylədin,
Qoca Ələsgəri yoldan eylədin,
Binəva Pənahı haldan eylədin,
Bir çarə qıl buna özün, Salatın!.

## GƏLİN
*(müxəmməs)*

Belin incə, boyun uca,
Camalın aypara, gəlin.
Dodağından şəkər damar,
Gözün çəkər dara, gəlin.

Tellərini daraqla yox,
Sübh yeliylə dara, gəlin.
Çox incidib aşiqini,
Etmə günü qara, gəlin.
Şirin ləbin xəstəsiyəm,
Sənə qalıb çarə, gəlin.

Xub yaraşır əllərinə,
Əcəb qoymusan xına sən.
Dan yerinin rəngidirmi,
Sürtmüsən yanağına sən?
Niyə belə pis baxırsan,
Mehriban qonağına sən?
İstəyirəm yaxın düşəm,
Qoymayırsan yaxına sən.
Qulac-qulac hörüklərin,
Çevrilir şahmara, gəlin.

İnsaf elə bəsdi daha,
At işvəni, burax nazı.
Bircə kəlmə şirin sözlə,
Toya döndər toyu, yası.
Məhəbbətin bağçasından,
Qovsun qışı eşqin yazı.
Səadətdən yüz il desə,
Kökdən düşməz telli sazı.
Aşıq Pənah qoşa çıxsa,
Səninlə gülzara, gəlin.

## İMRAN HƏSƏNOV
***(1928-2000)***

***XX əsr Azərbaycan aşıq sənətinin parlaq simalarından olan Aşıq İmran Həsənov Göyçədə anadan olmuşdur. Göyçəli Aşıq Məhərrəmdən sənət dərsi almış, gənc yaşlarında Tovuza köçmüş və buradakı saz-söz mühitində püxtələşərək şöhrətlənmişdir. O, daha çox öz zil və şaqraq oxu tərzi ilə məşhur olmuşdur. Güclü səs diapazonuna və qeyri-adi zəngulələrə malik olan İmran Həsənov xalq arasında “Koroğlu aşığı”, “Koroğluxan” ünvanını qazanmış, “Koroğlu” dastanının təkrarsız söyləyicisi kimi də ad çıxarmışdır. Oxuduğu mahnılar və söylədiyi dastanlar Azərbaycan aşıqlığının qızıl fonduna daxildir. Bir neçə şeir kitabı işıq üzü görmüşdür. Aşıq İmran “İmran divanisi”, “Solmazı”, “Səlminazı”, “İmran gözəlləməsi” kimi saz havaları da bəstələmişdir.***

### HARALISAN?

Ləbi şirin, xoş xəyallı,
Ay gülyanaq, haralısan?
Qaşı kaman, yandım aman,
Huri sayaq, haralısan?

Ay camalın şölə salır,
Hər baxışın canlar alır.
Zülfün şahmar kimi çalır,
Qaymaq dodaq, haralısan?

Ayaq saxla, qəddi mina,
Od salıbsan şirin cana.
Qəsd eyləmə sən İmrana,
Nurlu çıraq, haralısan?

## OLANDA

Ürək cavan, arzu şirin,
Nə olar ki, çal olanda?
Duyan bilər ləzzətini,
Dodaq qaymaq, bal olanda.

Fikir vermə çox daş-qaşa,
Meylini sal qələm qaşa,
Ömürdən də çəkmə haşa.
Əlif qəddin dal olanda.

Qınama gəl, sən İmranı,
Nə qocası, nə cavanı.
Cavan saxlayar insanı,
Yarı əhli-hal olanda.

## GƏLƏ

Səhər tezdən oyananda,
Yarın gəzə-gəzə gələ.
Xoş danışa, xoş da gülə,
Dodağında məzə gələ.

Yetəsən arzu-diləyə,
Şeh ələyə, nur çiləyə,
Ağ buxağa, zər biləyə,
Hər arzular təzə gələ.

Yüz yaşasa olar cavan,
Yar yarını sevə hər an,
İmran, yoxa çıxa hicran,
Canan işvə-naza gələ.

## GÖZLƏR

Qanrılıb baxanda o telli sona,
Yandırır bağrımı badamı gözlər.
Mən nə biləydim ki, havalandırıb,
Çöllərə salarmış adamı gözlər.

İşvəsi, qəmzəsi nələr andırar,
Qayanı dindirər, daşı qandırar.
Məni həm ağladar, həm də yandırar,
Birə-min artırar qadamı gözlər.

İmran saz götürüb, məclis quraydı,
Könül tellərinə mizrab vuraydı,
Bir cüt ulduz kimi nurlandıraydı,
Zülmət otağımı, odamı gözlər.

## YARANIB

Gözlərin ülkərdən, saçın zülmətdən,
Baxışın, gülüşün nazdan yaranıb.
Avazın çeşmədən, sözün şəkərdən,
Qəlbinin telləri sazdan yaranıb.

Boyun təbiətin yaraşığıdır,
Xəyalın qəddinin sarmaşığıdır,
O şux təbəssümün ay işığıdır,
Yanağın, dodağın közdən yaranıb.

Eşqin dəryasında bir gövhərmisən?
Məhəbbət mülkündə bəxtəvərmisən?
Ürəklər oxşayan söz istərmisən?
İmranın ürəyi sözdən yaranıb.

## GÖZƏL

Bəzənib-düzənib çıx seyrangaha,
Sənsən yaraşığı yaylağın, gözəl.
Açılıb yolları, bitib gülləri,
Gözləri yoldadır bulağın, gözəl.

İndi novbaharın gəlhagəlidir,
Tülək tərlan kimi könlüm dəlidir,
O yerə baş qoyub can verməlidir,
Hansı daşa dəysə ayağın, gözəl.

Cilvələnib dağdan-dağa aşarsan,
İmran kimi hər gülə söz qoşarsan,
Telli sazın tilsiminə düşərsən,
Yayılar ellərə sorağın, gözəl.

## QARAGÖZ
***(divani)***

Yanağın gül, saçın sünbül,
Qaşın təzə, ay Qaragöz!
Aşiqin çox, mürvətin yox,
Qoy, salım haray, Qaragöz!
Qəddin çinar, qoynunda nar,
Düşməz mənə pay, Qaragöz!
Ceyran nədir, tərlan nədir,
Yoxdur sənə tay, Qaragöz!

Özün şirin, sözün şirin,
Məlahətsən başdan-başa;
Nə incəsən, könlümcəsən,
Qismət olsun, yüz il yaşa!
Gözəl çiçək, gəl and içək,

Könül verib, gəzək qoşa.
Keçmə belə, gülə-gülə,
Səninləyəm, ay Qaragöz!

Aşıq İmran sənə qurban,
Bir gəl bulağın başına;
Qeydinə qal, bir kölgə sal,
Qəmli qonağın başına.
Gözəl xanım, qoy dolanım
Sən tək çırağın başına.
Bəxtim gülər, bir gün gələr,
Eyləyərəm toy, Qaragöz!



## CƏLAL QƏHRƏMANOV
***(1928-1978)***

***Qazax rayonunun Kəmərli kəndindəndir. Aşıqlığın sirlərini ustad sənətkar Aşıq Avdı Qaymaqlıdan öyrənmişdir. Aşıq şeirinin müxtəlif janrlarında qoşma, gəraylı, divani və təcnisləri vardır. “Cəlaloğlu” saz havasının bəstəçisidir. Özünəməxsus ifa tərzi, çalğısı ilə həmişə diqqət mərkəzində olmuş, “Qaratel və Aşıq Cəlal” dastanını yaratmışdır. Bir neçə şeir kitabı çap olunmuşdur.***

### XANIM

Muğanlının gözəlisən,
Ruzgarıma yaz, ay Xanım.
İlk eşqimin əzəlisən,
Hər cəfaya döz,  ay Xanım.

Nə dedim ki, inciyirsən,
Hərcayı sözlər deyirsən,
Hərdən xətrimə dəyirsən,
Çox eyləmə naz,  ay Xanlm.

Eşqim saf, diləyim təmiz,
Ürəyimdə adın əziz,
Cəlalam, dinməyir sənsiz,
Sinəm üstə saz, ay Xaınm.

### SEVGİLİM

Baxdıqca tərifi çoxdur,
Deyim düzü sevgilimin.
Ədəblidir el içində,
Var nüfuzu sevgilimin.

Ağıllıdır, kamalı var,
Gözəl-göyçək camalı var,

Yanağında üç xalı var,
Xoşdur üzü sevgilimin.

Yeriş edir çox həvəslə,
Söhbəti yox başqa kəslə,
Danışanda zərif səslə,
Bilir özü sevgilimin.

Atasının adı Məsi,
Nə xoşdur deyib-gülməsi,
Valeh edir hər bir kəsi,
Şirin sözü sevgilimin.

Hər yerdə ucadır başı,
Can alandır gözü-qaşı,
Deyirəm çox olsun yaşı,
Keçsin yüzü sevgilimin.

**ALTI QIZLAR**
***(Xan Kərəmə nəzirə)***

Altı qızın biri Xanım,
Altı qızlar, altı qızlar.
Od tutub yandı canım,
Altı qızlar, altı qızlar.

Altı qızın biri Tamam,
Yerişindən mən nə qanam?
Ətrafınızda dolanan,
Altı qızlar, altı qızlar.

Altı qızın biri Nüyvər,
Sinəsinin üstündə zər,
Xəyalım sizinlə gəzər,
Altı qızlar, altı qızlar.

Altı qızın biri Şaxı,
Olubdur qızların şahı,
Nədir eşqimin günahı,
Altı qızlar, altı qızlar.

Onlardan biri Hüriyyət,
Etmir danışmağa cürət,
Məndə də qalmayıb qeyrət,
Altı qızlar, altı qızlar.

## EL QIZI

Sən məni görəndə yüz naz edirsən,
Naz bu qədər şirin olmaz, el qızı.
Yaxına gəlmirsən, gendən gedirsən,
Qorxma, o gül rəngin solmaz, el qızı.

Sənin Gülsüm adın dilimdə dastan,
Atan Məhəmməddir, anan Gülüstan,
Gəl məni sevindir, qoy çıxım yasdan,
Yadlar məni yada salmaz el qızı.

Uşaqsan, cavansan on beş yaşında,
Amma ki, durarsan qızlar başında,
Gözüm qaldı sənin qələm qaşında,
Qara qaşın olub almaz, el qızı.

Nazikdir bədənin, boyundur bala,
Gözlərin canımı salıb zavala,
Zülflərin tökülüb o qəddi-dala,
Züleyxadan geri qalmaz, el qızı.

Aşıq Cəlal tərifini söylədi,
Şux baxışın məni yoldan əylədi,
Eşq havası mənə əsər eylədi,
Özgə hava sazım çalmaz, el qızı.

## KAMANDAR ƏFƏNDİYEV
***(1929-2000)***

***Borçalı aşıq mühitinin XX yüzillikdə yetirdiyi görkəmli ustad sənətkarlardandır. Borçalı mahalının Kəpənəkçi kəndində anadan olmuşdur. Aşıq Sadıq Sultanovdan, Aşıq Əmrah Gülməmmədovdan, Dərya Məhəmməddən sənətin sirlərini öyrənmişdir. Yüksək ifaçılıq qabiliyyətinə malik saz-söz ifaçısı kimi məşhur olmuşdur. “Ceyhun” imzası ilə şeirlər yazmışdır. Dastançı aşıq kimi daha çox tanınmışdır. “Kamandar gözəlləməsi” saz havası məşhurdur.***

### SƏNİ

Mən istərəm, a tərlanım,
Gündə yüz yol görəm səni.
Sol gözümnən sağ gözümə,
Müjdə alıb verəm səni.

Dağ inildər məlalına,
Göy guruldar cəlalına,
Dəyişməz dünya maına,
Kərəm əhli, kərəm səni.

A dağların bəyaz qarı,
Dolanıram Məcnunvarı,
Çox incitmə Kamandarı,
Tutar dərdi-vərəm səni.

### CANANA CANI
***(təcnis)***

Canan can dilədi şirin dililə,
Könül əsir etdi canana canı!
De ürək neyləsin neçə il ilə,
Gərək dost yolunda can ana canı.

Ata haray çəkdi: ay oğul, haray,
Anana nəzər sal: ay oğul, hər ay,
Ana car eylədi: ay oğul, haray,
Dedi: canan aldı, can, ana, canı.

Ay Kamandar, söylə dərdin di yara,
Şad olarsan, getsən hansı diyara,
Bu meydanda dərdimizi de yara,
Canan əsirgədi canana canı.



## ƏKBƏR CƏFƏROV
## (1933-1990)

***Tovuz rayonunun Bozalqanlı kəndindəndir. Sənətə balabançılıqla başlamış, lakin çox gözəl və məlahətli səsi olduğu üçün 1955-ci ildən aşıqlıq yolunu tutmuşdur. Aşıq Hüseyn Bozalqanlının bacısı oğlu Qədir İsmayılovdan dərs almışdır. Gənc yaşlarından məlahətli ifası ilə hər kəsi heyran qoyan Aşıq Əkbər 1959-cu ildə Moskvada keçirilən Beynəlxalq Musiqi Festivalında qızıl medala layiq görülmüşdür. 1964-cü ildə Beynəlxalq Folklor Festivalının laureatı adını almış, Avropa, Amerika, Türkiyə və İranda lent yazıları yayılmışdır. Azərbaycan televiziyası və radiosunun arxivində onun oxuduğu mahnılar və söylədiyi dastanlar qızıl fondda qorunur. Gözəl səs effektinə görə «Ögey ana» və «Böyük dayaq» filmlərində aşıq mahnılarını oxumaq Əməkdar mədəniyyət işçisi Əkbər Cəfərova etibar edilmişdir.***

### GETDİ

Yarım yenə seyrə çıxıb,
Töhfə üçün gülə getdi.
Cilvələnib, tumarlanıb,
Kəmər vurub belə getdi.

Gözəlliyi açmış bahar,
Yanaq lalə, ağ sinə qar,
Baxışında yüz məna var,
Sığal verib telə getdi.

Dağlar, düzlər çiçəklənib,
Əkbər, könül fərəhlənib,
Sonalar da küləklənib,
Uçdu göldən-gölə getdi.

## GÖRÜNÜR

Məclisimə gələn gözəl,
Halın yaman hal görünür.
Xatirinə kim dəyibdi,
Yanaqların al görünür?

Gözəllərin ən göyçəyi,
Budur sözümün gerçəyi,
Dodaqlar qaymaq çiçəyi,
Arasında bal görünür.

Sözlərimdə yoxdu yalan,
Könlüm şəhri oldu talan.
Cavanları eşqə salan,
Ağ üzündə xal görünür.

Demə Əkbər dərindədi,
Ağlı-huşu sərindədi,
Məhəbbəti yerindədi,
Bir az saçı çal görünür.

## SƏNDƏDİR

Bağ içində gəzən gözəl,
Bağların barı səndədir.
Ağ əlləri görüb dedim,
Dağların qarı səndədir.

Ayrılığa dözmək olmaz,
Əlindən əl üzmək olmaz,
Səndən ayrı gəzmək olmaz,
Gözümün nuru səndədir.

Aşiqlərin cəfasısan,
Hər bir dərdin dəvasısan,
Xəstələrin şəfasısan,
Əkbərin narı səndədir.

## GÖZƏL

Göydə ulduza bənzəyir,
Asta-asta gələn gözəl.
Kirpikləri bir ox kimi,
Ürəyimi dələn gözəl.

Çiçək alıb sağ əlinə,
Sığal veribdi telinə.
Evimizi yaxdı yenə,
Qaş-göz ilə gülən gözəl.

Xəbər aldım yuvasını,
Nişan verdi obasını,
Əkbərin dərd-dəvasını,
İşarədən bilən gözəl.

## TƏZƏLƏNDİ

Yaşıl don geyindi yenə çöl, çəmən,
Bahar bayramında, ay təzələndi.
Buludlar çəkildi göyün üzündən,
Atdı duvağını, Ay təzələndi.

Bir gözəl üzünə tökdü telini,
Yengələr araya aldı gəlini,
Gedib gətirdilər bəyin gülünü,
Məclis aşıb-daşdı, toy təzələndi.

Əkbər nəğmə dedi bir də çöllərə,
Oynayan şimşəyə, axan sellərə,
Töküldü ağ yağış, qovuşdu dərə,
Təzə sular gəldi, çay təzələndi.

## GÖZƏL QIZ

Nə vaxtdır görmürəm gül camalını,
Olmaya dəyişib halın, gözəl qız?
Camalın günəşdir, qaşların hilal,
Nöqtədir çəməndə xalın, gözəl qız!

Qıvrım saçlarına gül düzə-düzə,
Nazik əllərinlə hüsnünü bəzə,
İstərəm həmişə qalsın tər-təzə,
Bəyaz yanağında alın, gözəl qız.

Əkbərə doğmadır hər el, hər oymaq,
Görmədim sənin tək dodağı qaymaq,
Söylə, söhbətindən olarmı doymaq,
Şirindi ləbində balın, gözəl qız!

## A KÜRD BALASI

Həyatın mənası gözlərindədir,
Maral tək baxırsan, a kürd balası.
Eşqin atəşinə düşən aşiqi,
Yandırıb, yaxırsan, a kürd balası.

Dağlar laləsisən, bağçalar gülü,
Qoyma intizarda şeyda bülbülü.
Səni buraxmayır eşqimin gölü,
Çalxanıb çıxırsan, a kürd balası.

Laçına bənzəyir qıya baxışın,
Bahardan incədir əlvan naxışın.
Məni də aparır su tək axışın,
Əkbəri yaxırsan, a kürd balası.

## QAŞLARIN

Gözəl, qurban olum üzünü yan tut,
Qoy bir az çevrilsin yana qaşların.
Məni xəncər kimi doğradı tökdü,
Niyə sığışmayır qına qaşların.

Vurğunam tökülən dalğalı zülfə,
Kirpiklər nizamla düzülüb səfə,
Gəzlə ki, məhv edə məni bir dəfə,
Ömrümü yetirə sona qaşların.

Əlim simlər üstə oynamaq istər,
Bağbanın ürəyi bağça-bağ istər,
Yazıqdır Əkbər də yaşamaq istər,
Qoy bais olmasın qana qaşların!

## QAYITDI

Çoxdan həsrətini çəkdiyim gözəl,
Qəfildən qarşıma çıxdı, qayıtdı.
Elə bil ki, heç yox imiş insafı,
Könlümün evini yıxdı, qayıtdı.

Tovuz kimi min naz ilə yeridi,
Qara tellər incə beli bürüdü,
Cismim atəşlərə yandı, əridi,
Canımı odlara yaxdı, qayıtdı.

Gözəllik cavanda sönməz həvəsdi,
Gün kimi parladı, yel kimi əsdi.
Əkbər ovçu olub bərəni kəsdi,
O da şimşək kimi çaxdı, qayıtdı.

## MƏMMƏDAĞA BABAYEV
*(1933-1977)*

***Şirvan aşıq mühitinin yetirməsidir. Şamaxının Cəyirli kəndindəndir. Təkrarolunmaz səsə, güclü musiqi duyumuna malik ustad sənətkar erkən yaşlarından saza, sənətə maraq göstərmiş, Aşıq Abbas Söhbətovun yanında şagird olmuşdur. Sənətin sirlərini ondan öyrəndikdən sonra aşıqlığa başlamış (1959), istedadlı aşıq və məharətli muğam ifaçısı kimi məşhurlaşmışdır. Şamaxıda ilk dəfə Aşıqlar Birliyinin təməlini qoymuşdur (1959). Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmiş (1974), Beynəlxalq Musiqi Festivalının (1968) laureatı olmuşdur. Moskvada “Melodiya” firması tərəfindən ayrıca valı buraxılmışdır.***

### NİYƏ GEC-GEC GÖRÜNÜRSƏN

Söylə görüm, a dilbərim,
Niyə gec-gec görünürsən?
Soruşmaq ayıb olmasın,
Niyə gec-gec görünürsən?

Demirəm dür, sən incisən,
Könlümün ilk sevincisən,
Bəlkə məndən incimisən,
Niyə gec-gec görünürsən?

Sordum səni yasəməndən,
Dedi gəlib keçdi gendən,
Gəl saxlama küsü məndən,
Niyə gec-gec görünürsən?

Dil də susar, dinməz inan,
Eşq atəşi sönməz inan,
Məmmədağa dönməz inan,
Niyə gec-gec görünürsən?

## MURAD NİYAZLI
*(1933-2004)*

***Göyçə və Şəmkir mühitinin yetirdiyi ustad sənətkarlardandır. 1948-ci ildə Göyçədən Şəmkir rayonuna köçmüş, Aşıq Məhəmməd Rzayevin şagirdi olmuş (1954-1959), dastanları, ustadların yaradıcılığını, saz havalarını öz ustadından mükəmməlliklə mənimsəmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində yazıb yaratmış, bir neçə şeir kitabı nəşr edilmişdir. “Muxtar bəy” adlı dastanı vardır. “Murad gilənarı” adı ilə məşhur olan saz havası onun barmaqlarından yadigardır.***

### DÜŞDÜ

Dilbər, sənin baxışların,
Dastan oldu dilə düşdü.
Gözlərinin giləsindən,
Gözlərimə gilə düşdü.

Səhər oldun bir axşama,
Ürəyimə dama-dama.
Pərvanə yanmağa şama,
Özü bilə-bilə düşdü.

Niyazlıyam, var ilqarım,
Tükənməzdi etibarım.
Qönçələnmiş arzularım,
Muğan sevdi, Milə düşdü.

### BİR SƏHƏR GƏL, BİR GÜNORTA, BİR AXŞAM

Vəfalı dilbərim, məni görməyə,
Bir səhər gəl, bir günorta, bir axşam.
Halımı soruşub salam verməyə,
Bir səhər gəl, bir günorta, bir axşam.

Deyək, gülək, söhbət açaq sazınan,
Fərə kəklik kimi xoş avazınan,
Bəzən, sallan bizə qarşı nazınan,
Bir səhər gəl, bir günorta, bir axşam.

Keçən günlər bir də düşsün yadına,
Şeir yazdım, dastan qoşdum adına.
Aşıq Murad Niyazlının dadına,
Bir səhər gəl, bir günorta, bir axşam.

## OLDUĞUM

Sevgilim, bir gecə mehman et məni,
Məhəbbət bağına qurban olduğum.
Qulac qollarını dola boynuma,
İsti qucağına qurban olduğum.

Gətir əllərinlə bir içim suyu,
Gətir əllərinlə bir içim, suyu,
Gətir əllərinlə bir içim suyu,
Qaymaq dodağına qurban olduğum.

O dağların çiçəyindən gözəlsən,
Bənövşənin göyçəyindən gözəlsən,
Qızıl gülün ləçəyindən gözəlsən,
Alma yanağına qurban olduğum.

Günəş camalından bir nur calandı,
Gördü cəlalını, ay daldalandı,
Eşqinin oduna niyazlı yandı,
Zülfünün tağına qurban olduğum.

## DEYİL

Sevincdənmi, kədərdənmi nəmlənib,
Gözlər o gözlərdir, yaş o yaş deyil.
Cəm gözəllik camalında cəmlənib,
Baxış o baxışdı, qaş o qaş deyil.

Bağçamızda gül-çiçəyə batardın,
Qoltuğuma qısılardın, yatardın,
Hey dalımca söz sapandın atardın,
Dillər o dillərdir, daş o daş deyil.

Ömrümüzü yola verdik bir təhər,
Arzular çevrilib olubdur qəhər.
Yolunu gözləyən hər axşam-səhər
Murad o Muraddır, yaş o yaş deyil.



## MAHMUD MƏMMƏDOV
*(1935)*

***1948-ci ildə ailəsi ilə birgə Göyçədən Tovuz rayonuna köçmüşdür. Tovuzda aşıq sənətinin sirlərini Aşıq İmran Həsənovun yanında mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. Ayrı-ayrı bölgələrdə məclislər aparmış, istedadlı aşıq kimi tanınmışdır. Onun söylədiyi “Koroğlu” və “Abbas-Gülgəz” dastanı Azərbaycan Televiziyasının Qızıl Fondunda saxlanılır. Ustad aşıq kimi tanınır. Bir neçə kitabı nəşr olunmuşdur. 2008-ci ildən ölkə Prezidentinin fərdi təqaüdçüsüdür.***

### QURBAN OLUM

Gah qəzəbli, gah mehriban,
Baxışına qurban olum.
Ağ üzündə qoşa xalın
Naxışına qurban olum.

Eşqin min cür bəlası var,
Sevinci var, naləsi var.
Vüsalının şəfası var,
Baxışına qurban olum.

Mahmud, nələr çəkib başın,
Müştağıyam qələm qaşın.
Şəhla gözdən axan yaşın
Axışına qurban olum.

### DÜNYADA

Nə gözəl yaradıb gözəl Yaradan,
Gözəl, gəlməyəsən gözə dünyada.
Gözəl olan gözəl adın gözləyər,
Gözəl də gəşt edə gəzə dünyada.

Adın da gözəldi, özün də gözəl,
Yaranıb qoşa xal üzündə, gözəl.

Tərifin də gözəl, sözün də gözəl,
Layiqsən dastana, saza dünyada.

Bəxş eyləyib sənə ol kərəm kanı,
Hüsnün mat eyləyir görən insanı.
Mahmudam, kəsərəm qada-qurbanı,
Görməyəsən qəhri-qəza dünyada.

**MİNAYƏ**
***(Qazax elinin gözəlinə)***

Şəninə dastan yazıram,
Eşitsin hər yan, Minayə.
Bu camala, bu kamala
Afərin, əhsən, Minayə.
Pak ailənin övladıdı,
Qazanıb ad-san Minayə.
Həmi şad, həm də gözəl,
Huri-qılman Minayə.

Bir idarə müdiridi,
Təmkinlidi, tədbirlidi.
Nə acizdi, nə də sərtdi,
Öz işində səbirlidi.
Allah ona nüsrət verib,
Qiymətlidi, xətirlidi.
Haqq saxlasın bəd nəzərdən,
Görməsin ziyan Minayə.

Əlli ildi mən ellərdə
Meydan açıb, saz çalmışam.
Çox dastanlar danışmışam,
Məclislərdə nur saçmışam.
Müxtəsəri, səndə olan
Cəsarətə mat qalmışam.
Vəsf eyləyir aşıq Mahmud,
Aslansan, aslan, Minayə.

## İSFƏNDİYAR RÜSTƏMOV
*(1937-2018)*

***XX əsr Azərbaycan aşıq sənətinin ustad sənətkarlardan biri olmuşdur. 1975-1977-ci illərdə keçirilən Ümumittifaq festivalında iştirak etmiş, rəhbərlik etdiyi aşıqlar ansamblının üzvləri qızıl medala layiq görülmüşdür. Zil, şaqraq səsə malik "Koroğluxan aşıq" kimi tanınmışdır. Dastanların mahir bilicisi və ifaçılarından sayılmışdır. Əməkdar mədəniyyət işçisi (1991), Prezident təqaüdçüsüdür (2010). Gədəbəy aşıqlar ansamblının rəhbəri olmuşdur. Aşıq şeirinin müxtəlif çeşidlərində poetik örnəkləri vardır.***

### GÖZLƏRİN

Bir bulaq başında, yol kənarında,
Gözümə sataşdı qara gözlərin.
Süzgün baxışların aldı canımı,
Sinəm üstə vurdu yara gözlərin.

Saxladım atımı bir az dayandım,
Elə bil yatmışdım, birdən oyandım,
Ürəyim titrədi, eşqindən yandım,
Həsrət qoydu məni nara gözlərin.

Aşıq İsfəndiyar lap cavanıydı,
Sağı, solu bilməz beyni qanıydı,
Bu da mənim üçün imtahanıydı.
Saldı məni intizara gözlərin.

### QURBAN

Sərv boylu, alagözlü gülyanaq,
Hərdən süzgün baxan gözünə qurban.
Ləbi qönçə, sinəsi qar mələyim,
Şərbət tək süzülən sözünə qurban.

Ahusan, mələksən, hüri-qılmansan,
Xudam xəlq eyləyib ən gözəl cansan.
Müxtəsəri qadan alım qanansan,
Yeri sinəm üstə, izinə qurban

Əhdi - peyman verib ilqar eylərsən,
Ürək fərəhlənər döğru söyləsən,
Bir xoş kəlam ilə məni əyləsən,
Olar İsfəndiyar özünə qurban.

## OLARDI

İzin versən, yar girərdim qoynuna,
Gəzərdik bağları seyran olardı.
Əgər çarə etsən mənim dərdimə,
Sevən könlüm sənə qurban olardı.

Üşüdü ürəyim haçan isinə,
Həmdəmim yox, deyəm dərdimi kimə?
Lütf etsin ləbindən xəstə könlümə,
Təbibsiz dərdimə dərman olardı.

İsfəndiyar bilsə dərdi dilləri,
Solmazdı qəlbinin açan gülləri.
Əgər yada salsa bizim elləri.
Dağlar bayram edib heyran olardı

## O YERDƏ

Getdim o dağlara ilk bahar çağı,
Yar mənim könlümü aldı o yerdə.
Yaxın dostlarıyla gəzdirdi məni,
Ayaq izlərimiz qaldı o yerdə.

Məni valeh edən ay kimi üzlüm,
Qumru tək ləhcəli, bal kimi sözlüm.
Qadasın aldığım, o xumar gözlüm,
Qolunu boynuma saldı o yerdə.

O yerdə doymursan bir baxış ilə,
Təbiət bəzəyib min naxış ilə.
Aşıq İsfəndiyar dost xahişiylə
Götürüb sazını çaldı o yerdə.

## SÖHBƏTİNDƏYƏM

Ala gözlüm, nə qəsd edirsən mənə?
Hər axşam sözündə, söhbətindəym.
Bilmirəm mələksn, yoxsa, ki nəsən?
Camalın şövqünün həsrətindəyəm.

Ya qul eylə, çək bazara sat məni,
Ya biryolluq vüsalından at məni,
Ya ləbinin şəkərinə qat məni,
Çəkirəm, dərdinin möhnətindəyəm.

Aşıq İsfəndiyar, daha az danlan,
Çıxma hövsələdən, dinnnən, imannan.
Məhəbbət bir yannan, əcəl bir yannan,
Bilmirəm, hansının qismətindəyəm.

## ƏDALƏT NƏSİBOV
*(1939-2017)*

***Qazax aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından saza həvəs göstərmiş və sənəti atasından öyrənmişdir. “Yeddi oğul istərəm” filmində Aşıq Ədalət “Yanıq Kərəmi” saz havasını ifa etməklə daha da məşhurlaşmışdır. “Yanıq Kərəmi”, “Ruhani”, “Misiri”, “Cəlili”, “Sarıtel” saz havalarının misilsiz ifaçısı kimi tanınır. YUNESKO-da nadir ifaçılar seriyasından qızıl valı və diski buraxılmış, sənəti ilə bağlı kitab və məqalələr yazılmışdır. Aşıq Ədalətə yüzlərlə şeir həsr olunmuşdur. Ayrıca ifaçılıq məktəbi yaratmış sənətkarlardandır.***

### QUCAĞINDA

Xanım qışdı, icazə ver,
Çıxım yaza qucağında.
Yaxşı qoru qoy tutmasın,
Məni qəza qucağında.

Qəbulumdu sən nə desən,
Hər nazını qoy çəkim mən.
Heyif sənə, yer vermisən,
Anlamaza qucağında.

Ədalətə sadağa ver,
Dodağını dodağa ver,
Əllərimə qadağa ver,
Çəkim cəza qucağında.

## YARAŞIĞI

Bu mələk misallı, həbəşi xallı,
Hara ceyranıdı, çöl yaraşığı.
Yanaqları allı, ləbləri ballı,
Bu sular sonası, göl yaraşığı.

Geyinib naxışdı, maral baxışdı,
Gözümə sataşdı, xəyalım çaşdı,
Dərdim həddən aşdı, huşum dolaşdı,
Hörüklər gərdəndə bel yaraşığı.

And verdim ilqara, olmadı çara,
Oldum baxdı qara, qaldım avara,
Vurdu mənə yara, o mahı para,
Qəmər üzdən alır tel yaraşığı.

Gəl eşit Dədəni, a nazlı pəri,
Sərraf seçər zəri, gəl ol müştəri,
Üzün çevir bəri, oldum sərsəri,
Qoy alsın hüsnündən el yaraşığı.

## DEDİM, DEDİN

Sənin qamətinə, boyuna, gözəl,
Mən dedim yaşıldı, sən dedin aldı.
Aşıqlar şəninə sədəfli sazı,
Mən dedim çalmadı, sən dedin çaldı.

Mən dedim qəlbimdə vardı təhlükə,
Sən dedin təmənna edirəm bəlkə.
Nədir yanağında görünən ləkə?
Mən dedim busədir, sən dedin xaldı.

Mən dedim sevmirəm belə adəti,
Sən dedin verməynən bu xəcaləti.
Aşıq Ədalətin qəddi-qaməti
Mən dedim “əlif”di, sən dedin “dal”dı.

## EHTİYACIM VAR

Məcnun xəyallıyam, başımda sevda,
Hüsnün vüsalına ehtiyacım var.
Eşqindən yanıram, gəl eylə kərəm,
Həbəşi xalına ehtiyacım var.

Sən məni edibsən, divanə, dəli,
Büllur buxaqlısan, ləbi məzəli,
Mən necə sevməyim sən tək gözəli,
Yanağın alına ehtiyacım var.

Mən Dədəyəm, gözəl, sizə qurbanam,
Qələm qaşa, şəhla gözə qurbanam,
Qəmər üzə, şirin sözə qurbanam,
Ləblərin balına ehtiyacım var.

## GÖZƏL
***(divani)***

Mən necə aşiq olmuşam,
Sən tək zülfü mara, gözəl!
Bil ki, ürəkdən sevirəm,
İstər qəlbim ara, gözəl!
Gülün aşiqi bülbüldü
Həmdəm olmaz xara, gözəl!
Aşiq iqbalından dönməz,
Çəksələr də dara, gözəl!

Eşqindən Məcnun edib,
Eylədin divanə məni.
Süzdürüb qaş-gözünü,
Salmayan gumana məni.
Qadir Allah qovuşdursun,
Ürəkdən sevən sevəni.
Bu arzuma kömək etsin,
Cəddi imamzadə gözəl!

Şirin kimi zülm eyləmə,
Dağlar çapan o Fərhada.
Yazıq Kərəm Əsli deyib,
Özünü yandırdı oda.
Bir ovçuyam şikarımı,
İtirmişəm bu səhrada.
Ədalətəm, atəşinə
Yanıram aşikarə, gözəl!



## UMBAY AXUNDOV
*(1940)*

***Laçın mühitində formalaşmış, Aşıq Şəmşir və Mayis Gəncəli kimi ustad aşıqlara qulluq etmişdir. Qoşma, gəraylı, təcnis, divani və müxəmməs kimi aşıq şeiri şəkillərində çoxsaylı poetik örnəklər düzüb qoşan ustad aşıq «Laçında dillənən saz» (1989) və «Mən belə yaşadım» (2012) kitablarının müəllifidir. Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür (2016).***

### TİTRƏSİN

Yeri-yeri, dağlar qızı,
Yerişindən dağ titrəsin.
Qönçələnib eşqin bağı,
Könlümdə yarpaq titrəsin.

Qəm yolunu sevinc kəssin,
Qoyma könlüm səndən küssün,
Qarlı dağdan ağ yel əssin,
Şalında saçaq titrəsin.

Yumşalsın hicran ürəyi,
Partlasın yaman ürəyi,
Umbayın dastan ürəyi,
Qoy varaq-varaq titrəsin.

### GÖZƏLDİR

Niyə belə ağlayırsan,
Ağlamağın da gözəldir.
Yanan aşiq ürəyini,
Dağlamağın da gözəldir.

Gözüm qalıb bulaqlarda,
Dolanırsan uzaqlarda,
Mən yazığı intizarda,
Saxlamağın da gözəldir.

Qələm qaşın yaya bənzər,
Gül camalın aya bənzər,
Yazda daşan çaya bənzər,
Çağlamağın da gözəldir.

De dərdini, gəl insafa,
Eşq ucundan çəkmə cəfa.
Umbay ilə əhdi-vəfa,
Bağlamağın da gözəldir.

## MƏNƏ

Niyə oğrun-oğrun baxırsan, gözəl?
Bəlkə deyiləsi sözün  var mənə?
Dərdini qəlbində saxlama pünhan,
Gəl söylə sirrini aşikar mənə.

Sən ki, atəşlisən, gördüm gələn tək,
Saçır eşq atəşin şölə gülən tək,
Saxlaram sirrimi özüm bilən tək,
Bağla həmişəlik etibar mənə.

Yazıb məhəbbəti tarixə bəşər,
Eşq ömür yolunda qazanıb zəfər,
Etibar eyləsən tezliklə göndər,
Əhdi-peyman mənə, düz ilqar mənə.

Sevgi həsrətilə alışsa ürək,
Ürəyin odunda yanasan gərək,
Umbay kimi sevsən, a nazlı mələk,
Hüsnün bəşx edəcək bir bahar mənə.

## HAŞIM QUBALI
*(1946)*

***Haşım Qubalı (Balasıyev Haşım Səftər oğlu) 1946-cı ildə Qubanın Rəngidar kəndində doğulmuşdur. Aşıq sənətinin sirlərini aşıq Əşrəf və Barat Əhmədoğludan öyrənmiş, 1968-ci ildən müstəqil aşıqlığa başlamışdır. “Güllü və Tağı” dastanının müəllifidir. 2002 və 2003-cü illərdə Türkiyənin Bursa şəhərində keçirilən beynəlxalq ozan – aşıq yarışmasının laureatı olmuşdur. Azərbaycan aşıqlarının V və VI qurultaylarının iştirakçısı və idarə heyətinin üzvüdür. Əməkdar mədəniyyət işçisidir (2016). Beş kitabı nəşr olunmuşdur. Gözəlləmələri el arasında geniş yayılmışdır.***

### GÖZLƏRİN

Hər baxanda çəkir məni,
Sorğu-suala gözlərin.
Baxmayanda kədərlənib,
Dalır xəyala gözlərin.

Salır haldan-hala məni,
Salacaqdır ala məni.
Qorxuram ki, sala məni
Qovğaya-qala gözlərin.

Buraxmayırsan əlimi,
Bəndə salıbsan dilimi.
A sevdiyim, bulud kimi,
Qoymaram dola gözlərin.

A Şabranın tər çiçəyi,
Gözəllərin ən göyçəyi.
Haşımı sevir, amma ki,
Gəlməyir yola gözlərin.

## ƏSİRGƏMƏ

Hərdən-hərdən yolum üstə,
Çıxmağını əsirgəmə.
Həsrət ilə aşiqinə,
Baxmağını əsirgəmə.

Tellərin yenə yan durub,
Keşiyində bir can durub.
Məni odlara yandırıb,
Yaxmağını əsirgəmə.

Sən Haşımı saldın qəmə
Ha söylədin ki, qəm yemə,
Günəş tək mənim ömrümə,
Doğmağını əsirgəmə.

## İSTİSUDA BİR QIZ GÖRDÜM
***(Xaltan İstisuyunda)***

Mələk desəm, mələk yalan,
Çiçək desəm, çiçək yalan,
Yanında çox göyçək yalan,
İstisuda bir qız gördüm.

Üzü gülər, boyu bəstə,
Hörükləri dəstə-dəstə.
Həsrətindən düşdüm xəstə,
İstisuda bir qız gördüm.

Həm sadə, həm gözəl insan,
Dili şəkər, gözü ceyran.
Tərifi dilə sığmayan,
İstisuda bir qız gördüm.

Belə gözəl görməmişdim,
Gizli ürək verməmişdim,

Belə dərdli olmamışdım,
İstisuda bir qız gördüm.

Camalı günəş, batmayan,
Naz-qəmzəsini satmayan,
Haşımın əli çatmayan,
İstisuda bir qız gördüm.

**BU QIZ**
***(divani)***

Sallanır min naz ilə,
Ya Rəbb, sultandı bu qız.
Bənzəri var qönçə gülə,
Bax, gülüstandı bu qız.
Yalvarıban tutdum dilə,
Bir kəlmə danışmadı,
Qaş oynatdı gülə-gülə,
Dərdə dərmandı bu qız.

Süzdürübən gözlərini,
Öldürür adamımı.
Oynadaraq qamətini,
Tez atır addımını.
Saxlayıb təravətini,
Əsdirir əndamını.
Bu səsindən ölü durar,
İnan, loğmandı bu qız.

Aşıq Haşım ov axtarsa,
Özü şikara dönər.
Görəndə gül çöhrəsini,
Səcdəyə gələr, enər.
Lal eyləsə aşiqini,
Qaş ilə, gözlə dindirər.
Daha səbrim tükənibdir,
Özgə cür əyandı bu qız.

## ÜRFAN ƏLİ
*(1950)*

***Əli Abuzər oğlu Quliyev Tovuzun Əlimərdanlı kəndindəndir. “Ürfan Əli” təxəllüsü ilə şeirlər yazır. Tovuz mühitinin yetirdiyi ustad sənətkarlardandır. Azərbaycanın ən güclü solo saz ifaçılarından sayılır. “Sözdən pənah gətirmişəm” (2000) , “Sazlı-sözlü dünyam” (2004), “Tanrı payı telli sazım” (2007), “Qəm daşıyan dərviş oldum” (2012) adlı şeir kitablarının müəllifidir. Əməkdar mədəniyyət işçisidir (2008).***

### QARASINDA

Səni gördüm, aşıq oldum,
Yüz gözəlin sırasında.
Sevgi dolu xanə yapdım,
Ürəyimin parasında.

Sinəm üstü yırğalandı,
Dəli könlüm havalandı,
O gözlərin yuvalandı,
Gözlərimin qarasında.

Əliyəm, gah bihuş oldum,
Gah köçəri bir quş oldum,
Qəm daşıyan dərviş oldum,
Eşqimizin arasında.

### BİR SAZ OLA,
### BİR MƏN OLAM, BİR DƏ SƏN

Bahar fəsli quşlar nəğmə deyəndə,
Bir saz ola, bir mən olam, bir də sən.
Bənövşələr açıb boynun əyəndə,
Bir saz ola, bir mən olam, bir də sən.

Məclis quram sənin kimi gözələ,
Süfrəmizə sürahilər düzülə.
Səmavətdən gəlmə şərab süzülə,
Bir saz ola, bir mən olam, bir də sən.

Şux nəfəsin zildən enib bəmlənə,
Dalğın könlüm sevgi üstə cəmlənə,
Söhbət üçün ağ samovar dəmlənə,
Bir saz ola, bir mən olam, bir də sən.

Yorğun düşsən ağır dağlar aşanda,
Dincim alam Qoçbulağın qaşında,
Durna gözlü bulaqların başında,
Bir saz ola, bir mən olam, bir də sən.

Mən Əliyəm, “Ya Hu” deyib neylərəm,
Minib eşqin səməndini teylərəm.
Cəhənnəmi cənnət-məkan eylərəm,
Bir saz ola, bir mən olam, bir də sən.

## DEDİ

Dedim: Hör zülfünü, görüm üzünü,
Qorxuram, xal düşər, hörmürəm, dedi.
Dedim: Gəl, gül dərək, düz yanağına,
Yanaqlarım güldü, dərmirəm, dedi.

Dedim: Az naz eylə, hövsələm yoxdu.
Dedi: Qan salaram, kirpiyim oxdu.
Dedim: Gözəllərə zəkatım çoxdu,
Bihudə söyləmə, görmürəm, dedi.

Dedim: Bir Əliyə aman verginən.
Dedi: Günahım var, fərman verginən.
Dedim: Gəl, xəstənə dərman verginən,
Mən loğman deyiləm, vermirəm, dedi.

## ƏHLİMAN ŞİRVANLI
*(1955)*

***Ucarın Bərgüşad kəndindəndir. Sənət dərsini Ucardan olan ustad aşıq Fərhaddan almışdır. Azərbaycan Dövlət İncəsənət İnstitutunun (hazırda ADMİU) Mədəni-maarif fakültəsində təhsil almış (1984-1989), Ucar rayon Mədəniyyət evində işləmişdir (1977-1989). ADMİU-da “Aşıq sənəti” kafedrasının müdiri (2011-ci ildən), sənətşünaslıq üzrə fəlsəfə doktorudur. “Aşıq sənətinin perspektivləri və problemləri” (2009), “Şirvan aşıq havaları: səciyyəsi, təsnifi və tədrisi metodikası” (2014) kimi araşdırmaları vardır. “Könlümlə danış, sazım” (2004), “Sazımı sözə calamışam” (2014) adlı şeir kitablarının müəllifidir. Əməkdar mədəniyyət işçisidir (2007).***

### NAZ EYLƏYİR

Yenə gəlib yaz ayları,
Gül bülbülə naz eyləyir.
Sevirəm sözün deməyə,
Dodaq dilə naz eyləyir.

Kərəm tək yanan olmuşam,
Ürəyi al-qan olmuşam,
Görür yarıcan olmuşam,
Bilə-bilə naz eyləyir.

Bənövşələr əlindədir,
Gümüş kəmər belindədir,
Tül libası əynindədir,
Bədən tülə naz eyləyir.

Ala gözlər şölə salır,
Hərdən xəyallara dalır,
Uzaqdan canımı alır,
Gələ-gələ naz eyləyir.

Aşıq Əhliman çarası,
Gözümün ağı-qarası,
Qaş-qabaqla yox arası,
Gülə-gülə naz eyləyir.

## GÖZƏL

Ötdü başım üstdən həftələr, aylar,
Unuda bilmirəm səni, ax gözəl.
Xəstə adam üzün görcək saz olar,
Çox demişəm tərifini, bax, gözəl.

Səndə qalıb bilirsən neçə gözlər,
Camalın görənlər yolunu gözlər.
Onları mat qoyur səndəki gözlər,
Səndədir çatma qaş, kirpik, ox, gözəl.

Aşıq Əhlimana bircə sal nəzər,
Bizdən uzaq olsun pis nəfəs, nəzər.
Sənə lazım deyil nə bəzək, nə zər,
Xudam yaratmışdır səni çox gözəl.



## MƏHƏRRƏM HÜSEYNLİ
*(1959)*

***Tovuz rayonunun Qaradağ kəndində anadan olmuşdur. Gənc yaşlarından aşıq sənətinə maraq göstərmişdir. Aşıq Əkbərin, Aşıq İmran Həsənovun, Mikayıl Azaflının, Aşıq Yusif Yusifovun və digər ustadların səsinin sehrinə, dastan ifaçılığına diqqət və meyil göstərmişdir. Mikayıl Azaflının şagirdi olmuşdur. Şeir kitabları çap olunmuşdur. Koroğluxan aşıq kimi tanınır.***

### GÖZƏL

Sənin eşqinlə yanıram,
Söndürmürsən sönəm, gözəl.
Canını canım sanıram,
Endirmirsən enəm, gözəl.

Belə sitəm çəkməz adam,
Sənin ilə bir az şadam.
Qaş-qabağa məndə yadam,
Dindirmirsən dinəm, gözəl

Məhərrəm dözdü nazına,
Dərdini dedi sazına.
Eşq atına murazına,
Mindirmirsən minəm gözəl.

### DODAĞINDA

Danış, danış qulaq asım,
Bal görmüşəm dodağında.
Qucaraq bağrıma basım,
Öpüşüm var yanağında.

Başıma oyun açırsan,
Günəş kimi nur saçırsan.
Niyə məndən gen qaçırsan,
Çox olmuşam sınağında.

Qoçalıram çallaşıram,
Səni görcək hallaşıram.
Tək səninlə yollaşıram,
Məhərrəmin yığnağında.

## GÖZƏL

Gözlərinə gözüm tuşlanan gündən,
Canımı odlara salmısan, gözəl.
Məni çıxarırsan imandan, dindən,
Qəlbimi qəlbinlə almısan, gözəl.

Heyran - heyran camalına baxıram,
Eşqin ilə şimşək kimi çaxıram.
Suya dönüb yanağına axıram,
Sinəmdə saz kimi çalmışam, gözəl.

Nə günə salmısan mən binəvanı,
Məhərrəm neyləsin, tökülür qanı.
Sən o çox sevdiyin dayının canı,
Çıxgınan qəlbimdə qalmısan, gözəl.

## BU QIZA

Təbiət yaradıb, min bəzək vurub,
Üstəlik də verib nazı bu qıza.
Sevgisi sinəmdə hekayət qurub.
Yüz şeir yazmışam azı bu qıza.

Duruşu, baxışı sanki bir ceyran,
Hüridi, pəridi yoxsa bu canan?!
Məni ovsunlayıb, olmuşam heyran,
Ucaltmışam xoş avazı bu qıza.

Ox olub tuşlanıb kipriyi qaşı,
Məhərrəm özünü sanmaynan naşı.
İntizarda qoyub qohum - qardaşı,
İstərəm dindirəm sazı bu qıza

## ALTAY MƏMMƏDLİ
*(1971)*

***Gədəbəy rayonu Düzrəsullu kəndində asnadan olmuşdur. Azərbaycan Aşıqlar Birliyi sədrinin müavini (2018), filologiya üzrə fəlsəfə doktoru (2017). Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Bədii yaradıcılıq fakültəsində təhsil almışdır. Əkbər Cəfərov ifaçılıq ənənəsini ləyaqətlə davam etdirir. Aşıq şeirinin çeşidli poetik biçimlərində əsərləri vardır. ADMİU-da “Aşıq sənəti” kafedrasının dosentidir.***

### MƏNİ

Ay qaşları qələmkarım,
Kipriyinlə oxla məni.
Özünə yar seçər olsan,
Sına məni, yoxla məni.

Hayanda olsan yetərəm,
Mənki Məcnundan betərəm,
Dilindən düşüb itərəm,
Ürəyində saxla məni.

Bir mələksən, yoxdur əvəz,
Altay səndən yaman deməz,
Torpaq olsam üstümdə gəz.
Çəmən olsam qoxla məni.

### BU QIZ

Qaməti şux, ruhu sağlam,
Necə də göyçəkdi bu qız.
Ləçəkləri göz oxşayır,
Elə bil çiçəkdi bu qız.

Mələklərin sırasında,
Ürəklərin parasında,
Gözəllərin arasında,
Bir dənədi, təkdi bu qız.

Altay düşüb həvəsinə,
Möhtacdır bir kəlməsinə,
Aşiqinin sinəsinə,
Sevda dağı çəkdi bu qız.

## GÜLÜSƏN

Sən bənövşə ətirlisən,
Çiçəklərin yaz gülüsən.
İstəklisən, xətirlisən,
Gözəllərin naz gülüsən.

Maral sənsən, çıxsan dağa,
Qönçə sənsən düşsən bağa,
Bir nəğməsən dil-dodağa,
Söz-gülüsən, saz gülüsən.

Sinən cənnət oylağıdı,
Gözün həyat bulağıdı,
Ömrünün tərlan çağıdı,
Altayam, muraz gülüsən.

## GƏLİB

Başına döndüyüm gözəl Xumara,
İlahi gözəllik binadan gəlib.
Pərvaz edib, gərdən çəkib, nazlanmaq,
Ayna sulardakı sonadan gəlib.

Danışanda gül qoxuyur nəfəsi,
Deyib gülüb, şadlanmaqdı həvəsi,
Bəyaz bilək, nazik əllər boyası,
Yumru qayalarda xınadan gəlib.

Qeyri eldə bu biçimdə qız olmaz,
Günəşdə də belə atəş, köz olmaz,
İlməsinə, naxışına söz olmaz,
Təzəcə kəsilib xanadan gəlib.

Dodaq qönçə, yanaq dağlar lalası
Baxışıyla şirin canım alası,
Pərvazlanıb ağ göyərçin balası,
Buludlar yarılıb səmadan gəlib.

Gözəlliyə qurban Altayın canı,
Gözəllik yaşadır küllü cahanı,
Baxan deməz belə şahlar-şahanı,
Atadan yaranıb, anadan gəlib.

## GÖZƏL

Mən səni görmüşdüm on beş yaşında
Gözəl yaranmışdın, anadan gözəl.
İndi də gözəllık taxtı səndədir,
Necə ki gözəlsən, binadan gəzəl.

Pərvanələr yanar çıl-çırağında,
Bülbül fəqan eylər baxca –bağında,
Çıxıram seyrinə göl qırağında,
Görürəm gözəlsən, sonadan gözəl.

Beçənın şırəsi dillərindədi,
Altayam, gül ətiri tellərindədi,
Günəşin istisi əllərindədi,
Barmaxlar boyanıb xınadan, Gözəl.

## GÖZLƏRİN

O yerdə gün çıxar, ay bədirlənər,
Baxıb böylandıqca hara gözlərin.
Qaşların kamandı, kipriyin oxdu,
Az qalır can ala qara gözlərin.

Ey dərd əhli, sinəmdə çox yara var,
Bir görəsən daş dəyməmiş hara var?
Baxışında min bir dərdə çara var,
Edərmi dərdimə carə gözlərin?

Səndədir gözəllik, səndədir səfa,
Xoş olar yolunda çəksəmdə cəfa,
Nə olar söylə ki, gəlsin insafa,
Çəkməsin Altayı dara gözlərin.

## GÖYÇƏK

Sərv boylu, incə belli gözəlsən,
Nazlanıb gedirsən yolları göyçək.
Tanrı gözəl çəkib öz qələmini,
Düzübdü üzünə xalları göyçək.

Xumar baxışlısan, inçə bellisın,
Qaşları qələmkar, siyyah tellisən,
Dişlərin mərcandı, şirin dillisən,
Qaymaq dodaqların balları göyçək.

Həsrət versən şad ürəyi qəm ollam,
Altaya yad baxsan, bəxti kəm ollam,
Dünyada bəxtəfər aşiq mən ollam,
Dolasan boynuma qolları, Göyçək!

# DASTAN GÖZƏLLƏMƏLƏRİ



## “YETİM AYDIN” DASTANINDAN

***Türkmənistanda «Aşıq Aydın ocağı» adlı pir-ziyarətgahda (XIII əsrə aid edilir) uyuyan təsəvvüf böyüklərindəndir. Türkmən aşıqları Aşıq Aydını özlərinin mənəvi-ruhani babası, hamisi, yol göstərəni sayırlar. Şirvan folklor çevrəsində, xüsusən də Dərbənd aşıq mühitində Aşıq Aydınla bağlı olan «Yetim Aydın» adlı arxaik bir dastan da vardır. Həmin dastanda poetik örnəklərin bir qismini gözəllik motivli şeirlər tutur.***

### İNCİMƏSİN

Belə gəl, belə get bağ arasıyla,
Hürküşüb bülbüllər gül inciməsin.
Daransın zülfləri badi-səbayla,
Şana inciməsin, tel inciməsin.

Sürməni çəkəsən göz ilə qaşa,
Tutasan dünyanı, gedəsən başa.
İki sevgi bir-biriylə barışa,
Gərdən titrəşibən, bel inciməsin.

Yetim Aydın deyər, dərdimi demə,
Yetişib ürəyim qayğıya, qəmə.
Verəydin o şirin ləbini əmə,
Dodaq tərpəşibən, dil inciməsin.

### GÖZƏLİM

Sərçeşmədən su doldurub gedirsən,
Uca boylu, Xırmandallı gözəlim.
Müjgan atıb bağrım başın didirsən,
Uca boylu, Xırmandallı gözəlim.

Geymisən əynini nazikbənazik,
Qoluna yaraşır qızıl bilərzik.
Verərlər özgəyə olarsan yazıq,
Uca boylu, Xırmandallı gözəlim.

Yetim Aydının sözünü əyər,
Uzundur saçların torpağa dəyər.
Beş min beş yüzdən də artığa dəyər,
Uca boylu, Xırmandallı gözəlim.

## DÜŞÜBDÜ

Ay ağalar, bu bulağın üstündə,
Ay işığı nə pünhana düşübdü.
Anasına deyim, yoxsa qızına,
Mənim gözüm bu ceyrana düşübdü.

Ay qız, hurisənmi, ya da ki mələk?
Yeri, gəl üstümə mən oldum həlak.
Sənə qurban olum, ay çərxi-fələk,
Siyah zülfü dal gərdana düşübdü.

Ay qız, pərisənmi, ya da quba qaz?
Yeri, gəl üstümə dərdim eylə az.
Yer üstündə belə insan yaranmaz,
Yaranıb da nə imana düşübdü?

## “AŞIQ QƏRİB” DASTANINDAN

***XV əsrin sonları XVI əsrin birinci yarısında Təbriz-Qaradağ aşıq mühitində yaşayıb yaratmışdır. Əsil adı Rəsul olan aşıq hələ öz zamanında «Aşıq Qərib» təxəllüsü ilə məşhurlaşmış, Haqq aşığı adını almışdır. Sufi-dərviş dünyagörüşünün daşıyıcısıdır. Sağlığında özünün yaratdığı rəmzi-məcazi səciyyəli «Aşıq Qərib» dastanında avtobioqrafik məqamlar da çoxdur. Şeirlərində gözəlliyin tərənnümü, təbiət və məhəbbət lirikası ilə yanaşı təsəvvüf simvolikası da mühüm yer tutur.***

### SƏNƏMİM

Durubdu daldadan baxır,
Mənim Sənəmim, Sənəmim!
Canımı odlara yaxır,
Mənim Sənəmim, Sənəmim!

Bəzirganlar gəlib getməz,
Mətahını daha satmaz,
Gücüm yetməz, əlim çatmaz,
Ağlar Sənəmim, Sənəmim!

Göldən uçan yaşılbaşdı,
Mən gedirəm gözü yaşdı,
Qərib yad ellərə düşdü
Ağla Sənəmim, Sənəmim!

### GÖZƏL

Sərxoş-sərxoş baxır yar aşnasına,
Şahsənəm əlində aynası gözəl.
Cümlə aləm gəlir tamaşasına,
Büllur piyaləsi, sağısı gözəl.

Yar məni dindirir şirin dil ilə,
Gözə sürmə çəkir gümüş mil ilə.
Otağı bəzənib qızılgül ilə,
Süsəni, sünbülü, lalası gözəl.

Alışan otaqlı, xoş imarətli,
Gözəllər içində qəddi-qamətli,
Ahu baxışlıdı, laçın sifətli,
Uçmağa, qonmağa cığası gözəl.

Aşıq Qərib sözün deyər avaznan,
Dindirəndə canım alar o naznan,
Yarım eyvanında cüt qoşa qıznan,
Şahsənəm əladır, hamısı gözəl.

## AĞCAQIZ

Səni gördüm, könlum oldu pərişan,
Əridi ürəyim yağı, Ağcaqız!
Qıya baxıb, könül evin yıxansan,
Tanımırsan solu-sağı, Ağcaqız!

Camalın seçilməz üç günlük aydan,
Qaşların seçilməz kamandan, yaydan.
Bir xəbər ver mənə saçı lay-laydan,
Səhərdən gəzirəm bağı, Ağcaqız!

Eşqilə düşmüşəm mən bu diyara,
Yalvarıram gecə-gündüz mövlaya.
Çünki məcnun oldum saçı Leylaya,
Bir zaman gəzərəm dağı, Ağcaqız!

Mən Qəribin dərdin yaz qələm ilə,
Günüm keçirdirəm qəm-ələm ilə.
Məndən Şahsənəmə sən salam eylə,
Gəlməsə dağlaram bağı, Ağcaqız!

## QAŞLARIN

Bulağın başında saçın hörəndə,
Göründü gözümə maya qaşların.
Gör necə düşübdür sulara şövqün,
Bənzəyir üç günlük aya qaşların.

Hüsnünün düşübdür cahana şövqü,
Artırıbdır baharda bülbülün zövqü.
Yandırıbdır məni camalın şövqü,
Ağlımı eylədi zaya qaşların.

Qaşların bəzirgan, gözlərin xoca,
Baxışın peykandı, rüxlərin uca.
Sevindir Qəribi barı bir gecə,
Könlümü salıbdır vaya qaşların.

## SƏNƏM

Dön bəri, dön bəri, bir üzün görüm,
Çoxdandı ayrıldım səndən, ax, Sənəm!
Bir-bir libasların tərif eyləyim,
Sən də geyin, qurşan görüm, qalx, Sənəm!

Mən görmədim sənin kimi gözəli,
Payız olcaq bağlar tökər xəzəli.
Dilin şəkər, dodağındır məzəli,
Gözüm nuru, dur, aynaya bax, Sənəm!

Dillərdə dastandır Tiflis alması,
Min tümənə dəyər saçın hörməsi.
Yar, sənə gətirdim Hələb xınası,
Ağ ələ yaraşır, al bir yax, Sənəm!

Yüz minlərə dəyər üzün yaşmağı,
İncə belə bağla qızıl qurşağı.
Ayağa geyibsən zərli başmağı,
Qərib deyir, dur aynaya bax, Sənəm!

## "ŞAH İSMAYIL" DASTANINDAN

### GƏLDI

Ay qız, sənin uca boyun
Görülməyin çağı gəldi.
Qara telin dal gərdəndə
Hörülməyin çağı gəldi.

Qəddin əlif, boyun uca,
Aşıq gərək boyun quca.
Qız, sinən dönüb turunca,
Dərilməyin çağı gəldi.

Şah İsmayıl deyər, Xuda!
Əzəl dərsim əlif-nida.
Yolunda bu canım fəda
Verilməyin çağı gəldi.

### BƏNZƏMƏZ

Hurilər, pərilər yığılıb bağa,
Heç birisi Gülüzara bənzəməz.
İşvələri, qəmzələri, nazları,
Heç birisi Gülüzara bənzəməz.

Kimi al geyinib, kimi qırmızı,
Kimi gül döşürür, kimi nərgizi,
Hamıdan göyçəkdi vəzirin qızı,
Heç birisi Gülüzara bənzəməz.

Kimi al geyinib, kimi turabı,
Kimisi üzünə çəkib niqabı.
Deyil bunlar Şah İsmayılın babı,
Heç birisi Gülüzara bənzəməz.

## NECƏ

Yarım yenə çıxıb gülşən seyrinə,
Ətrafında bağça necə, bağ necə?
Seyrəqibin tənə-tənə sözləri,
Sinəm üstə düyün necə, dağ necə?

Əlinə yaxıbdı əlvan xınasın,
Guşuna taxıbdı qızıl tanasın.
Həvəslənib sıxam turunc məməsin,
Qanı qaça, yeri qala ağ necə?

Şah İsmayıl bu yolların naşısı,
Yaman olar nazlı yarın acısı.
Pəri xanım yeddi qardaş bacısı,
Ayrı düşə məşuqundan sağ necə?



## “ƏMRAH” DASTANINDAN

***XVI əsrin sonu XVII əsrin əvvəllərində Ərzurum çevrəsində yaşadığı ehtimal olunur. Doğulduğu və vəfat etdiyi tarix, anadan olduğu yer dəqiq bəlli deyildir. Haqqında müxtəlif səpkili fikirlər vardır. Ancaq Ərzurumlu Əmrah, Əzətinli Əmrah kimi adlarla yazıb yaratmışdır. Ərzurumlu Əmrahın şeirləri ümumi ruhu etibarilə daha çox XVI-XVII əsrlərin şeir dili ilə səsləşir. Haqqında “Əmrah” dastanı yaranmışdır. Dastanın “Əmrah” və “Əzətinli Əmrah” kimi iki variantı vardır. Bu variantlar arasında kifayət qədər yaxınlıqlar müşahidə olunur. Hər iki variantda Əmrahın atasının adı Əhməd, sevgililərinin adı Səlminaz və Səyatdır. Hər ikisinin başlanğıcında Azərbaycan dayanır. Əmrah Azərbaycandan Osmanlı torpaqlarına gedir. Şeirlərində Araz, Kür, Muğan adları tez-tez çəkilir. Mənbələr onu Azərbaycan aşığı kimi təqdim edir. Şeirləri haqqındakı dastan vasitəsilə günümüzə çatmışdır. Türkmənistanda “Sayat və Həmra” adı ilə yayqındır.***

### MƏN QURBAN

Səhər-səhər xanasından,
Bu gələn yara mən qurban!
Badəni içib məst olub,
Çeşmi-xumara mən qurban!

Özünü salıbsan bağa,
Gülləri saldın ayağa,
Xırda-xırda ağ buxağa,
Tökülən tərə mən qurban!

Bir ox çıxdı kamanından,
Gedir dağlar damanından,
Əmrahı boya qanından,
Yaxan əllərə mən qurban!

## GƏLİR

Yarım çıxıb yenə bağda gəzməyə,
Sallanıban yüz min nazılan gəlir.
Bir ayna qabaqlı, mah qələm qaşlı,
Ağ üzə xalları düzülən gəlir.

Bir xalın var hey vadi – gəlməz irəngə,
Bir xalın bərgədi - gedər Firəngə.
Bir xalın aləmi salıbdı ləngə,
Bir xalın söhbəti-sazilən gəlir.

Əmrah deyər, ya Rəb, bu necə işdi,
Qəfəsdə oxuyan bir tutuquşdu.
Bir xalın payızdı, bir xalın qışdı,
Bir xalın bahardı, yazilən gəlir.

## QAYIT İNDİ

Sallana-sallana gedən salatın,
Hayana gedirsən, qız, qayıt indi?
Süsəndən, sünbüldən, tər bənövşədən,
Dəstinlə qönçəni üz, qayıt indi.

Boyunu bənzətdim mələksimaya,
Dərdini çəkməkdən düşdüm ah-vaya.
Kəklik kimi nə qalxırsan havaya?
Tərlan yox ovladam, süz, qayıt indi.

Əgər bağban isən, bağçı məni gör,
Bağlar gül-gül oldu bağ-çəməni gör,
Əmrah deyər Sayat, bax, çiməni gör,
Ömür başa vardı, tez qayıt indi.

## QIRMIZI

Bizim göldə bir cüt sona dövr elər,
Başı yaşıl, ayaqları qırmızı.
İncidən, sədəfdən almış ağzına,
Alma kimi yanaqları qırmızı.

Bizim dağlar sizin dağdan ucadı,
Malım yoxdu, yara qurban bu candı.
Yaqut deyil, yəmən deyil, mərcandı,
Ağ qollarda qolbağları qırmızı.

Sayat Pərim, qalx ayağa bu dəmdə,
Ağlamaqdan yaş qalmadı didəmdə.
Əmrah deyər, çalın-çarpaz sinəmdə
Səlmi çəkib bu dağları qırmızı.

## SƏLMİNAZ

Qəfil pəncərədən baxdı qayıtdı,
Tavus tamaşalı, sona Səlminaz.
Müjganların bağrım başına atdı,
Keçdi, kar eylədi cana Səlminaz.

Sənsən bu yerlərin qızılgülləri,
Gəl yanıma mürvət elə, ay pəri.
Vallah, billah, səni görəndən bəri
Gəlmişəm imana, dinə, Səlminaz!

Əgər aşıq isən, məşuqun hanı?
Əgər mollamısan, dərsini tanı.
İranı, Turanı, bu şirin canı,
Əmrah qurban eylər sənə, Səlminaz!

## DEDİM, DEDİ
### *(güllü qafiyə)*

Dedim: Gülşən nədi? - Dedi: Bağımdı.
Dedim: Səfalıdı? - Söylədi: Yox-yox.
Dedim: İşrət nədi? - Dedi: Səfamdı,
Dedim: Gəlsən sürək. - Söylədi: Yox-yox.

Dedim: Ala nədi? - Dedi: Gözümdü,
Dedim: Şəkər nədi? - Dedi: Sözümdü,
Dedim: Şirin nədi? - Dedi: Üzümdü,
Dedim: Öpməlisən! - Söylədi: Yox-yox.

Dedim: İnci nədi? - Dedi: Dişimdi,
Dedim: Əbru nədi? - Dedi: Qaşımdı.
Dedim: Yumru nədi? - Dedi: Döşümdü,
Dedim: Əmməlisən? - Söylədi: Yox-yox.

Dedim: Siyah nədi? - Dedi: Telimdi,
Dedim: Şəkər nədi? - Dedi: Dilimdi.
Dedim: Nazik nədi? - Dedi: Belimdi,
Dedim: Qucmalısan! - Söylədi: Yox-yox.

Dedim: Qulac nədi? - Dedi: Qolumdu,
Dedim: Uzaq nədi? - Dedi: Yolumdu.
Dedim: Əmrah kimdi? - Dedi: Qulumdu,
Dedim: Gəlsən gedək! - Söylədi: Yox-yox.

## QIZLAR

Bir bölük pərilər, pərizadalar,
Yenə geyinibsiz ay ağım, qızlar!
Mənə gəlsin o sizdəki qadalar,
Olun qürbət eldə dayağım, qızlar!

Alnıma tökülüb görürsüz, tərim,
Çoxdan yar yolunda mən ki nökərim.
Yenə gəlmədimi o Sayat Pərim?
Onunçun açılmaz qabağım, qızlar!

Şana olum, zülfünüzə çatılım,
Saği olum, dəstənizə qatılım.
Əmrah deyər, qul adına satılım,
Çıxsın ölkənizə sorağım, qızlar!



## “ƏSLİ VƏ KƏRƏM” DASTANINDAN

***XVI-XVII yüzilliklər arasında yaşamış saz-söz sənətkarıdır. Gəncə xanlığının Ziyadoğlular xanədanına mənsub olduğu söylənilir. «Əsli-Kərəm» dastanı onun hal-hekayətləri əsasında qoşulmuşdur. Şeirlərinin əksər qismi bu dastanda cəmləşmiş, bir hissəsi də aşıqların repertuarında rəvayətli qoşma kimi müstəqil şəkildə ustad-şagird şəcərəsi boyunca günümüzə daşınmışdır. Haqqındakı dastan və dastandankənar şeirlər Qafqaz, İran, Anadolu, Orta Asiya və Balkan türkləri arasında geniş yayıldığından onların bir çoxu dəyişmiş və variativ şəkillər almışdır.***

### DÜYMƏLƏ, DÜYMƏLƏ

Sallanıban gələn dilbər,
Yaxan düymələ, düymələ!
Məni dərdə salan dilbər,
Yaxan düymələ, düymələ!

Al geyib yaşıl bürünər,
Zülfləri yana sürünər,
Yel vurar, sinən görünər,
Yaxan düymələ, düymələ!

Yaxan çarpaz ilişməsin,
Heç kim dinib-danışmasın,
Yadlar görüb gülüşməsin,
Yaxan düymələ, düymələ!

Köynəyinin gülü yaşıl,
Süsən sünbülə dolaşır,
Gözəllik sənə yaraşır,
Yaxan düymələ, düymələ!

Əyninə geyinib şilə,
Bizi tutub şirin dilə,
Zər kəmər çəkincə belə,
Yaxan düymələ, düymələ!

Kələğayın ucu sarı,
Açılar könlüm qubarı,
Söylə, sənsən kimin yarı?
Yaxan düymələ, düymələ!

Kərəm sənə nələr demiş,
Dil- dodağın qəndi yemiş,
Kətan köynək, bəndi gümüş,
Yaxan düymələ, düymələ!

**GÖRDÜNMÜ**

Nazlı yarımı qaçırtdım,
Ellər, xan Əslim gördüzmü?
Bülbülü bağdan uçurtdum,
Güllər, xan Əslim gördüzmü?

Əsli huridi bilənə,
Qoynu cənnətdi girənə.
Gözləri bənzər ceyrana,
Göllər, xan Əslim gördüzmü?

Obaları oymaq-oymaq,
Olmaz imiş yardan doymaq.
Ağız süddü, dodaq qaymaq,
Dillər, xan Əslim gördüzmü?

Zülfüdü hazar, səd hazar,
Nə gözəl darayıb düzər.

Qürbət elə düşmüş, gəzər,
Yollar, xan Əslim gördüzmü?

Kərəm deyər, canım kimi,
Atlas geyər xanım kimi,
Mən sevirəm canım kimi,
Ellər, xan Əslim gördüzmü?

## DİLBƏR

Cilvələnə-cilvələnə
Nə gedirsiz qoşa, dilbər?!
Tanrı ayrılıq verməsin
Havadakı quşa, dilbər!

Xoşladım xasyət, halını,
Ağ üzdə qara xalını,
Görəndə gül camalını,
Könül gəldi coşa, dilbər!

Sevdim sən kimi sonanı,
Qafil oxladın sinəmi,
Gözlərin qanlı haramı,
Qadağa ver qaşa, dilbər!

Bir ox atdım zərnişana,
O da getdi pərişana,
Dedim bəlkə bir yumşala,
Bağrı dönmüş daşa, dilbər!

Heyranıyam Əsli xanın,
Kərəm də olsun qurbanın,
Sənin bu dəli dövranın,
Varmaz hərgiz başa, dilbər!

## GÖZLƏRİN

Çıxar taxta, divan eylər,
Əsli, qaşların, gözlərin.
Gözümdən qan rəvan eylər,
Əsli, qaşların, gözlərin.

Şah kimi mətləb bitirər,
Hökmün yerinə yetirər,
Dilsizi dilə gətirər,
Əsli, qaşların, gözlərin.

Firqətin məni yandırar,
Dağı, daşı dolandırar.
Qapı-qapı diləndirər,
Əsli, qaşların, gözlərin.

Havada şahinə bənzər,
Yerdəki laçına bənzər,
Göydə göyərçinə bənzər,
Əsli, qaşların, gözlərin.

Gah ağladar, gah güldürər,
Gah gözəlliyin bildirər.
Axır Kərəmi öldürər,
Əsli qaşların, gözlərin.

## ALTİ QIZLAR

Altı qızın biri Banı,
Altı qızlar, altı qızlar!
Bizə məhəbbətin hanı?
Altı qızlar, altı qızlar!

Altı qızın biri İnci,
Gözəllikdə lap birinci.
Qoynunda iki turuncu,
Altı qızlar, altı qızlar!

Altı qızın biri Püstə,
Dərdindən olmuşam xəstə.
Qoy qədəmin sinəm üstə,
Altı qızlar, altı qızlar!

Altı qızın biri Ceyran,
Olum gözlərinə heyran.
Sizlə kaş sürəydim dövran,
Altı qızlar, altı qızlar!

Altı qızın biri Xədcə,
Qəddi əlif, beli incə.
Gözəl görməmişəm səncə,
Altı qızlar, altı qızlar!

Altı qızın biri Bəsdi,
Gözləri canımın qəsdi.
Bu dərdlər Kərəmə bəsdi,
Altı qızlar, altı qızlar!

## QIRMIZI GEYİNİBDİ

Sevdiyim başdan ayağa,
Al qırmızı geyinibdi.
Yaraşır qəddi-dalına,
Şal, qırmızı geyinibdi.

Atalıdı, analıdı,
Ördəklidi, sonalıdı,

Qulaqları tanalıdı,
Ləl qırmızı geyinibdi.

Badə doludu içməyə,
Gül, fidan, ağac əkməyə.
Vaxtı gəlibdi açmağa,
Gül qırmızı geyinibdi.

Yaşa, sevdiciyim, yaşa,
Nə yazılsa gələr başa.
Al yanaqda qoşa-qoşa,
Xal qırmızı geyinibdi.

Kərəm dada gəldi sizə,
Qədəm basdı evinizə,
Mail oldu ala gözə,
Al qırmızı geyinibdi.

## EYLƏDİN

Sallana-sallana yolun üstünə,
Çıxan dilbər, məni candan eylədin.
Quba qaz yerişli, şahin baxışlı,
Baxan dilbər, məni candan eylədin.

Şahin kimi gör nə gəlir üstümə,
Xub yaraşır qızıl güllər dəstinə.
Baxışları durub canım qəsdinə,
Baxan dillər, məni candan eylədin.

Tərlan görsə, hürküşəcək sonalar,
Qorxum budu - qeyri gölə qonalar.
Ağ əllərə, əlvan-əlvan hənalar,
Yaxan dilbər, məni candan eylədin.

Kərəmin dərdinə ağlayar göylər,
Gəlib gedənlərə dərdini söylər,
Könül Əsli xandan qeyrisin neylər?!
Duran dilbər, məni candan eylədin.

## QAŞLARI

Sofi ləfəm, bu gün bir gözəl gördüm,
Qüdrətdən çəkilib qara qaşları.
İstədim ki, nazlı yarı dindirəm,
Aşıq öldürməkdi, bildim işləri.

Nə gözəl bəzənib könül sonası,
Taxtı-Süleymandı yarın sinəsi.
Min naz ilə bəsləyibdi anası,
Dal gərdəni bürüyübdü saçları.

Kərəm deyər, dürlü-dürlü halı var,
Yanağında dənə-dənə xalı var,
Ağzı şəkər, dodağında balı var,
İncə sədəf düzülübdü dişləri.

## GƏLİR

Ay həzərat, bilin, Əsli xanımın,
Üzündə xalları nazınan gəlir.
Bir xalı əlifdi, bir xalı beydi,
Bir xalı dəftərə yazınan gəlir.

Bir xalı heyvadı, gəlməz irəngə,
Bir xalı İranı salıbdı ləngə,
Bir xalı elçidi, gedər Firəngə,
Bir xalı söhbətü sazınan gəlir.

Bir xalı yaxşıdı, bir xalı yaman,
Bir xalı könlümə salıbdı güman,
Bir xalı buluddu, bir xalı duman,
Bir xalı dağlara ayaznan gəlir.

Bir xalı bəzzazdı, Rumun Qeysəri,
Bir xalı içibdi abi-kövsəri.
Bir xalı ağlımı edib sərsəri,
Bir xalı ağ üzə düzülən gəlir.

Kərəmə gəlibdi təmizlik, paklıq,
Tanrıya gəlibdi yalnızlıq, təklik.
Qatardan ayrılmış ay gözəl kəklik,
Xan oğlu üstünə bazınan gəlir.



## “TAHİR VƏ ZÖHRƏ” DASTANINDAN

***Tahir Mirzə Azərbaycan saz-söz sənətinin XVII yüzillikdəki ustad aşıqlarındandır. Şeirlərindən və yaratmış olduğu «Tahir - Zöhrə» dastanından dərin istedada və mükəmməl savada malik olduğu görünməkdədir. Müəllifi olduğu «Tahir - Zöhrə» dastanından aydın şəkildə görünür ki, Tahir Mirzə astroloji aləmin-ulduzlar dünyasının sirlərinə bələd olmuş və həmin bilgilər əsasında mükəmməl bir astral dastan düzüb-qoşmuşdur.***

***Tahir Mirzənin yaratdığı dastan, eləcə də çoxsaylı aşıq şeirləri Azərbaycan aşıqlarının repertuarında yer alan ən mötəbər epik və lirik mətnlərdir. Onun zəngin bədii keyfiyyətlərə malik olan poetik irsi Orta Asiya, Anadolu və Balkan türkləri arasında da geniş şöhrət qazanmışdır.***

### NƏRGİZ

Budur gəldi bahar fəsli,
Açılıbdır lala, Nərgiz!
Ağız süddü, dodaq qaymaq,
Dilin batıb bala, Nərgiz!

Gedərsən Çinə, Maçinə,
Müşk, ənbər səpdin saçına,
Bənzəyirsən ağ laçına,
Hey cumursan gölə, Nərgiz!

Kəsibsən aşiqin yolun,
Qırıbsan qanadın, qolun,
Tuti kimi ötür dilin,
Dönübsən bülbülə, Nərgiz!

Ha deyirəm: Xanım, xanım,
Od tutdu cəsədim, canım,
Töhmət altda çıxdı canım,
Rəhmin gəlsin qula, Nərgiz!

Uca-uca dağlar qaldı,
Gülü solmuş bağlar qaldı,
Zöhrə yarım ağlar qaldı,
Dur sal məni yola, Nərgiz.

Sən Tahiri küsdürübsən,
Qol-qanadın üzdürübsən,
Gəlir yolun kəsdiribsən,
Necə gedim belə, Nərgiz?!

## OLMUŞAM

Mollalar mollası, alimlər xası,
Bir ala gözlüyə aşiq olmuşam.
Silinibən getməz könlümün pası,
Bir ala gözlüyə aşiq olmuşam.

Tiği qəmzələri qəsd etdi cana,
Nola rəhm edəsən məni-tiflana,
Adı Zöhrə, özü yaşılbaş sona,
Bir ala gözlüyə aşiq olmuşam.

Tahir Mirzə, yerin olubdu gülşən,
Bad əsdi zülfləri oldu pərişan,
Ağ üzündə tamam xallar, xoşnişan,
Bir ala gözlüyə aşiq olmuşam.

## ƏMQIZI

Bahar gələr, yaz açılar, bülbüllər,
Cəh-cəh vurub oxuyarlar, əmqızı!
Gəl ikimiz bülbül olaq, gül olaq,
Biz də edək o xəyallar, əmqızı!

Sən bir gül ol, mən də bülbüli-şeyda,
İlqar qoyaq hər ikimiz arada.
Biz də yetək gül fəslində murada,
Canım alır qoşa xallar, əmqızı!

Mən Tahirəm, sirrim sənə əyandı,
Sevgi sevgisindən doymaq yamandı.
Ürək sözüm sən Zöhrəyə bəyandı,
Dərman mənə düşdü narlar, əmqızı!



## “KOROĞLU” DASTANINDAN

***Epos qəhrəmanı Koroğlunun genetik kökləri əski mifoloji çağlara gedib çıxsa da, onun aşıq-şair kimi XVI yüzilliyin son qərinəsi ilə XVII yüzilliyin birinci yarısı arasında yaşadığı ehtimal olunur. Saz-söz sənətkarı Koroğlunun şairlik və aşıqlıq istedadına malik olması dastanın məşhur Qoşabulağın sehrli suyu epizodundan da aydın şəkildə görünür. Koroğlu təxəllüsü ilə söylənmiş şeirlərin böyük əksəriyyəti igidlik, qəhrəmanlıq səciyyəsi kəsb edir və əsasən «Koroğlu havaları» adı altında cəmləşən xüsusi qrup saz havaları ilə oxunur.***

### DEYİLMİ

Mənə qara deyən gözəl,
Qaşların qara deyilmi?
Tökülübdü dal gərdənə,
Saçların qara deyilmi?

Çənlibeldə qurdum binə,
Bənzəyirsən aya, günə.
Ağ üzündə dənə-dənə
Xalların qara deyilmi?

Koroğlu mayıldı sizə,
Qulaq verin saza, sözə,
Siyah sürmə ala gözə
Çəkibsən, qara deyilmi?

### TELLƏRİN

Hürü, Allahı sevirsən,
Qoy tökülsün şux tellərin!
Gəl saxlama dal gərdəndə,
Qoy tökülsün şux tellərin!

Sən bir yaşılbaş sonasan,
Baissən min bir qana sən.
Nə ola sözüm anasan,
Qoy tökülsün şux tellərin!

Koroğlunun dirliyilə,
Dəlilərin birliyilə.
Xan Eyvazın ərliyilə,
Qoy tökülsün şux tellərin!

## YARISAN

Başına döndüyüm gül üzlü xanım,
Xanım, hansı bəxtəvərin yarısan?!
Görcək səni yara oldu ciyarım,
Bir de, hansı bəxtəvərin yarısan?!

Siyah saçlar dal gərdənə düzülü,
Qara gözlər xumarlanıb süzülü,
Elə baxma, indi canım üzülü,
Xanım, hansı bəxtəvərin yarısan?!

Koroğlu haq deyib, haqdan dərs alıb,
Tər sinənə külək dəyib hovlanıb,
Qara gözlər şux yanaqdan can alıb,
Yoxsa ay qız, bala qonmuş arısan?!

## GÜL ÜZÜN

Oğrun-oğrun tül altından baxan yar,
Qaldır ürbəndini, görüm gül üzün!..
Aşıqları eşq oduna yaxan yar,
Qaldır ürbəndini, görüm gül üzün!..

Vurulmuşam sarmaşıqlı bağına,
Bostanına, şamamalı tağına,
Apar məni yar deyib otağına,
Qaldır ürbəndini, görüm gül üzün!..

Koroğluyam, mən sözümdən dönmərəm,
Səməndərəm, alışmışam, sönmərəm,
Səndən qeyri huri görsəm sevmərəm,
Qaldır ürbəndini, görüm gül üzün!



## “ABDULLA VƏ CAHAN” DASTANINDAN

***XVII yüzillikdə yaşayıb-yaratmış istedadlı aşıqlardandır. Abdulla adı aşıqların repertuarında yaşayan örnəklərdə, eləcə də folklorşünaslıqda müxtəlif səpkilərdə özünə yer alır. Belə ehtimal olunur ki, “Abdulla və Cahan” dastanının da yaradıcısı həmin adla tanınan sənətkar olmuşdur. Daha çox isə dastan qəhrəmanı kimi tarixin yaddaşına düşmüşdür.***

### GEDİR

Lələ, yatmışıdım xabi-qəflətdə,
Oyandım ki, bahar, yaz gəlib gedir.
Bir əlində süsən, sünbül, ərğəvan,
Yanınca qırx incə qız gəlib gedir.

Ölüm yeydi bu sağlıqdan, bu gündən,
Sinəm fariq olmaz dağü düyündən.
Tərlan binəsindən, laçın ovundan,
Ürküşdü qubalar, qaz gəlib gedir.

Eşqin atəşinə düşüb Abdulla,
Belə gözəl görməmişəm mən billa.
Vərqa var, Gülşa var, Yusif, Züleyxa,
Cahan kimi canlar az gəlib gedir.

### BƏLLİDİ

Sallana-sallana gələn salatın,
Tərlan təki süzüşündən bəllidi.
Bir yel əsdi, atdı rübəndi üzündən,
Canlar oda yaxışından bəllidi.

Sinən ağdı, Savalanın qarı nə?
Bundan artıq gözəlliyin karı nə?

Yumruluqda bənzər Kürdaş narına,
Ağ məmələr duruşundan bəllidi.

Zülf tökülüb yandan, qucubdu gərdən,
Abdullanın ağlı gedibdi sərdən.
Ey ilahim, özün saxla nəzərdən,
Bir ay doğub, doğuşundan bəllidi.

## QURBANI CANIM

Boyu mina, qəddi nazikbədən yar,
Yüz min işvə, nazın qurbanı canım!
Bir gülgəz yanaqlı, abi-ireyhan,
Oğrun baxan gözün qurbanı canım!

Əzəldən aşnaydıq, yad olduq nədən?
Mən sənə qurbanam, ay nazik bədən!
Girəydim qoynuna ta ki, sübhətən,
Şəhdü şəkkər dilin qurbanı canım!

Alı aldı, qırmızısı al yanaq,
Əmmək üçün ləzzət verir bal dodaq.
Məmən dikdi, sinən bəyaz, gen qabaq,
Şəmsü qəmər üzün qurbanı canım!

Abdullayam, var xəyalı yerində,
Ağlı, huşu, var kamalı yerində.
Zülfü, muyi, qəddi, dalı yerində,
Bu nişanda qızın qurbanı canım.

## “ABDULLA VƏ CAHAN” DASTANINDA CAHANIN
*dili ilə söylənmiş gərayli:*

### NƏ BAĞ BİLDİ,
### NƏ DƏ BAĞBAN

Səhər-səhər bağa girdim,
Nə bağ bildi, nə də bağban.
Hər budaqdan bir gül dərdim,
Nə bağ bildi, nə də bağban.

Gördüm bu bağ əcəb yerdi,
Çiçəkləri təzə-tərdi.
Yarım mənə busə verdi,
Nə bağ bildi, nə də bağban.

Bağın bərəsindən aşdım,
Süsən sünbülə dolaşdım,
Öpdüm, qucdum, halallaşdım
Nə bağ bildi, nə də bağban.

Mən Cahanam, oxum atdım,
Külli-aləmi oyatdım,
Qızılgüldən yüküm tutdum,
Nə bağ bildi, nə də bağban.

## “MƏSİM VƏ DİLƏFRUZ” DASTANINDAN

***Məsum Əfəndi XVIII əsr Dərbənd mühitinin yetirdiyi el şairlərindəndir. Aşıq Valehlə deyişmələrindən və “Valeh-Zərnigar” dastanından haqqında müəyyən bilgilər almaq olur. Dastandan aydınlaşır ki, Valeh Dağıstana səfər edərkən yolda Məsum Əfəndinin qonağı olmuş, hətta Məsum Əfəndi ahıl yaşlarında olduğundan ona “oğlum” deyə müraciət etmişdir. Məsum Əfəndinin Valehlə deyişmələrindən başqa bir də özü tərəfindən yaradılmış “Məsum və Diləfruz” dastanı vardır.***

### YERİDİ

Budur gəldi bahar fəsli,
Gur sellər axdı yeridi.
Süsən, sünbül, lalə, nərgiz,
Bülbülə baxdı yeridi.

Aşıq deyilmisən məyər,
Bənövşələr boynun əyər.
Qafil yatmışdım bixəbər,
Süleyman taxtı yeridi.

Bağbanlar bəslər bağını,
Lala göstərdi dağını.
Məsum eşqin çırağını,
Canında yaxdı yeridi.

## “MƏSİM VƏ DİLƏFRUZ” DASTANINDAN DİLƏFRUZUN *dilindən deyilən şeirlər*

### İÇİNDƏ

Səhər durdum, seyrə vardım,
Yarı gördüm bağ içində.
Dərər, dərər, dəstə bağlar
Qızıgül yarpağ içində.

Ləblərin tən durur qəndə,
Rəhm eylə mən dərdiməndə.
Yar məni vurubdu bəndə,
Bir əlvan otağ içində.

Diləfruzam, budu andım,
Deməynən yardan usandım.
Alışıban oda yandım -
Piltə kimi yağ içində.

### DE, DANIŞ!

Başına döndüyüm, qurban olduğum,
Şirin dilli mehribanım, de, danış!
Sən danışsan mənim könlüm şad olar,
Ala gözlü şux tərlanım, de, danış!

Bayqu gələr, məskən salar sənə yar,
Sən hurisən, sən pərisən mənə yar,
Sən çor desən, mən can deyim sənə, yar,
Xoş sifətli, din-imanım, de, danış!

Əfruz deyər: Dərdi-qəmə bulandım,
Yar yolunda cəfalandım, talandım.
Yandım, yandım, oda qalandım,
Alışıbdı giribanım, de, danış!

# EL ŞAİRLƏRİNİN GÖZƏLLƏMƏLƏRİ



## BAYAT ABBAS

***Ustad sənətkar kimi XVI əsrdə Dərbənd və ətraf əyalətlərdə məşhur olmuş, güclü yaradıcı təbi ilə həmişə maraq doğurmuşdur. Haqqında danışılan rəvayətlər, hekayətlər də bunu göstərir. Cünglərdə (1572) bayatı, qoşma, gəraylı və təcnisləri vardır. Şeirlərinin dil xüsusiyyətlərindən də onun Dərbəndlə bağlılığı görünür. Müxtəlif mövzularda (məhəbbət, təbiət, ictimai-siyasi) yazdığı şeirlər sonrakı dövr aşıq yaradıcılığına güclü təsir etmiş, bir çox ustadlar ona nəzirələr qoşmuşlar.***

### XALLARIN

Ruxun ətrafında nə xoş,
Düşübdür danə xalların.
Olubdur atəşə məhrəm,
Qorxmazsan yana, xalların?

Kəkilin sünbülü tərdir,
Üzün gül-bərqi-əhmərdir.
Məskən tutmuş nə kafirdir,
Gəlməz imana xalların.

Kafirdir qəsdi can elər,
Varıb Kəbədə qan elər,
Çıxıb təxtə divan elər,
Bənzər sultana xalların.

Bayat Abbas sərfə qandı,
Eşqin atəşinə yandı,
Satıbdır Bəlx ilə Hindi,
Gəlir İranə xalların.

## QARACAOĞLAN

***XVII əsrdə Anadolu çevrəsində yaşamış məşhur tərəkəmə-türkman şairidir. Heca vəznində qoşduğu qoşma və gəraylılar bu gün də ustad aşıqların dilində, yaddaşında yaşamaqdadır. Haqqında çoxlu rəvayətlər, əhvalatlar, hekayətlər gəzib dolaşmaqdadır. Qaracaoğlanın tərcümeyi-halı rəvayətlər dumanına büründüyündən onun tarixi kimliyini dəqiq söyləmək olmur. Gözəlləmələri poetik mükəmməlliyi ilə diqqəti çəkir.***

### QIZLAR

Yolum düşdü sizin elə,
Bulaq üstə duran qızlar!
Şana çəkib qara telə,
Birçəyini buran qızlar!

Mən qurbanam ala gözə,
Şəhdi-şəkər şirin sözə,
Hərdən satıb işvə, qəmzə,
Aşığını yoran qızlar!

Səhər gəldim sizə sarı,
Artdı könlümün qubarı,
Dağlar qucdu Leyli yarı,
Yurdum oldu aran, qızlar!

Ağladarsız, güldürərsiz,
Göz yaşımı sildirərsiz,
Axır məni öldürərsiz,
Yay-oxunu quran qızlar!

Mayılam yarın qaşına,
Olaydım onnan aşına,
Qaracaoğlan başına,
Yağdırırsız boran, qızlar!

## QURBAN OLDUĞUM

Ay sallanıb gedən dilbər,
Yoluna qurban olduğum.
Əylən, bir az tanış olaq,
Dilinə qurban olduğum.

Sabahdan rast gəldim yara,
İşimdən oldum avara.
Ayağını qoyan yerə -
Tozuna qurban olduğum.

Soyuq sular axar dağda,
Qom bənövşə bitər bağda.
Sarılıb yatacaq çağda,
Nazına qurban olduğum.

Qaracaoğlan söylər dilim,
Yarla necə olur halım?
Anası bir qatı zalım,
Qızına qurban olduğum.

## DEMƏDİMMİ

Ala gözlü nazlı dilbər,
Vaxtın keçər demədimmi?
Gözlərin cəllad yağıdır,
Qanım içər demədimmi?

Bax bu qaşa, bax bu gözə,
Canım qurban şirin sözə.
Yaxasız köynəklər bizə,
Fələk biçər demədimmi?

Qaracaoğlan mərdilən,
İşim yoxdu namərdilən,
Fələk məni bu dərdilən,
Salıb keçər demədimmi?

## SEVSƏM ÖLDÜRƏRLƏR, SEVMƏSƏM ÖLLƏM

Bir cüt gözəl keçdi bu səhər çağı,
Zülfünü darayıb dolanır bağı.
Ağ köksün arası zəmzəm bulağı,
İçsəm öldürərlər, içməsəm öllən!

Başına qoyubdu al-əlvan fəsi,
Çıxmaz xəyalımdan yarın həvəsi,
Çəkiblər önümə dəmir qəfəsi,
Baxsam öldürərlər, baxmasam öllən!

Qaracaoğlan der, özüm öyməyim,
Ləpələnib sahilimi döyməyim,
“Gözəl sevmə” derlər, necə sevməyim?
Sevsəm öldürərlər, sevməsəm öllən.

## ÜÇ GÖZƏL

Barçın yaylağında üç gözəl gördüm,
Hər birisi gözəl, körpə fidandır.
Ağlım çaşdı, qərib belim büküldü,
Hər üçü də hürkək ahu ceyrandır.

Bellərində gördüm Lahur şalını,
Yanaqları güldən almış alını,
Gümüş kəmər şax tutubdur belini,
Gözəllikdə bunlar sultandır, xandır?

Üç qumrudur bulaq üstə ötüşür,
Mənə ancaq durub baxmaq yetişir.
Dəli könül bərəsində yatışır,
Mahir ovçu, dur ovunu dayandır.

Qaracaoğlan, söylə bu yer haradı,
Yarın meyli heyvayadı, naradı,
İncə bel üstündən saçın daradı,
Belə sevgi ağla, huşa ziyandır.



## DADALOĞLU
*(1785-1868)*

***Əsil adı Vəlidir. Güney ellərində dolaşan və Toros dağlarında Kozan, Ərzin, Payas ərazilərində yaşayan türkmən oğuzlarının Əfşar tayfalarındandır. Şeirləri aşıqların, söz-sənət bilicilərinin yaddaşında yaşamışdır. Oğuz-türkmən söz sərraflarının öndə gedənlərindən sayılır.***

### HƏR SABAH SEYRAN GƏZƏRKƏN

Hər sabah, hər sabah seyran gəzərkən,
Urcah gəldim səlvi boylu fidana.
Top-top olmuş, kirpikləri bölünmüş,
Xoş bənzətdim samur qaşlar kamana.

Al yanağın almasmı ola, qarmı ola?
Çarpaz vurmuş düymələri darmı  ola?
Əcəb, mislin bu cahanda varmı ola,
Ensəm getsəm Hindistana, Yəmənə?

Əlifdir kirpiyi, kamandır qaşı,
Bu gözəllik sənə Mövla baxışı.
Arasam cahanda bulunmaz eşi
Heç mislin gəlməmiş dövri zamana.

Dadaloğlum der də, xubların xası,
Fərhadın Şirini, Məcnun Leylası,
Ağlım əyləncəsi, könlüm yaylası,
Bir yel əsdi başımdakı dumana.

## SEYR EYLƏYİN GÖZƏLİ

Gəlin ağalar, seyr eyləyin gözəli,
Sona ördək kimi endi göllərə.
Cilalar sürünmüş allar geyinmiş,
Doğan aylar kimi doğdu sabahdan.

Ağ yarın de karşısında durulmaz,
Hürümüdür, mələkmidir bilinməz,
Ağır akça ilə satın alınmaz
Dürri-mah kimi də keçti sabahdan.

Məcnun kimi mən dağları gəzərəm,
Bir gözəldə əhdim qaldı nazaram,
Harda gözəl görsəm ismin yazaram
Dəftərim əlimdən aldı sabahdan.

Dadaloğlu der ki, usuldur boyu,
Kirpiklər ox olmuş, qaşları yayı,
Çatılmış qaşları yıxar yaylayı
Kirpiyi sinəmi dəldi sabahdan.



## ULULU KƏRİM

***Zəngəzur mahalının Ululu kəndində anadan olmuşdir. Mənbələrdə onun uzun ömür yaşaması, XVIII əsrin sonlarında anadan olması və XX əsrin əvvəllərində vəfat etməsi ilə bağlı bilgilər vardır. Yüksək yaradıcı təbi olan bu el şairi sonralar Naxçıvana köçmüş və orada yaşayıb yaratmışdır.***

### GETDİ

Mən bir gözəl gördüm yanağı xallı,
Sallana-sallana sallandı getdi.
Gözləri xumardı, dodağı ballı,
Üzünü görcəyin allandı, getdi.

Çox xoşuma gəldi boyu-buxunu,
Dedim bir azca da gəlsə yaxına.
Sinəmin başına atdı oxunu,
Ürəyim titrədi, xallandı getdi.

Dedim: "adın nədi?", astaca güldü,
Baxdım donu güllü, özü də güldü.
Nə bir kəlmə kəsdi, insafa gəldi,
Ululu Kərim də hallandı getdi.

## MƏLİKBALLI QURBAN
## (1790-1865)

***XIX əsrdə yaşayıb yaradan el şairidir. Göyçay qəzasının Məlikballı kəndində anadan olmuşdur. Mədrəsə təhsili almış, dövrünün elmlərinə yiyələnmişdir. Yüksək yaradıcı təbi ilə mühitdə sayılıb seçilmişdir. Xalq şeiri üslubunda şeirlər də yazmışdır. Şeirləri Şirvan aşıqlarının repertuarında geniş yayılmışdır.***

### QURBAN OLDUĞUM

Yenə saldı məni eşqi-gümana,
Lalə güzarına qurban olduğum.
Hərdən baxıb işvə verər naz ilə,
Çeşmi-xumarına qurban olduğum.

Zülfü pərişanın töküb dalına,
Canım qurban ağ üzündə xalına.
Yaxşı həyasına, xoş məqalına,
Şirin göftarına qurban olduğum.

Məlikballı Qurban mayil işinə,
Xəlvət ədasına, əlvan eyşinə.
Cənnət heyvasını qoyub döşünə,
Təzəcə narına qurban olduğum.

## YƏHYA BƏY DİLQƏM

***XVIII əsrin sonu XIX əsrin birinci yarısında Şəmkir mahalının Dəllər-Cəyir elində yaşamışdır. İmkanlı ailədən olduğu üçün öncə mədrəsə təhsili almış, ərəb və fars dillərini öyrənmişdir. Daha sonra XIX əsrin 30-cu illərində Moskvada oxumuşdur. Sevimli ömür-gün yoldaşı Telli xanımla övladları olmadığından ailələri dağılmış, Yəhya bəyin bundan sonrakı həyatı iztirab içərisində keçmişdir. O özünə ürəyi qəmli anlamını verən «Dilqəm» təxəllüsünü götürmüş, Telli xanımı isə «Dostu xanım» obrazı ilə öz nisgil, həsrət və kədər dolu şeirlərinə köçürmüşdür.***

### GÖRDÜM

Gəncənin Şəmkir elində,
Bu gün bir gözəl gördüm.
Gözləri canlar alandı,
Qaşlarını kaman gördüm.

Duruşu gəldi xoşuma,
Yem verdi könlüm quşuna,
Sevdası doldu başıma,
Oldu halım yaman gördüm.

Göldə üzən gözəl sona,
Nə girirsən donnan-dona,
Neçə molla, alim ona,
Verdi əldən iman gördüm.

Gözüm düşdü o dilbərə,
Baxmadı mənə bir kərə,
Elə bil ki, göydən yerə,
Yendi hüri, qılman gördüm.

Dilqəmi saydı bir gəda,
Rübənd açdı mələkzadə,
Müxtəsər şəbi-yəldada,
Mən onu mahtəban gördüm.

## DÜŞÜBDÜR

Şəmkir diyarında, Tovuz çayında,
Gözüm bu gün bir dildara düşübdür.
İki çeşmi cadu canım afəti,
Belə mehri gülrüxsara düşübdür.

Yüz naz ilə tutar üzünə ayna,
Müjganından bir ox çəkdi yayına,
Döşənim, fərş olum xaki-payına,
Onda deyim can nisara düşübdür.

Gülüstani-Rəmdən gəlmiş ol pəri,
Ay, gün camalına olub müştəri,
Gör necə dolanır şahmar zülfləri,
Mənim gözüm o şahmara düşübdür.

Niqab açdı, nəzər saldı hər yana,
Hüsnünün şəminə olum pərvanə,
Gül üzü bənzəyir bağa, bostana,
Nə çəmənə, nə gülzara düşübdür.

Necə şirin olar vüsali-həmdəm,
Fərağında nalə çəkdim dəmadəm.
Axır bu dünyada Qeys oldu Dilqəm,
Leylisindən ol avara düşübdür.

## MƏNİ

Leyli camalını görəndə, dilbər,
Eylədi Məcnun tək divanə məni.
Eşqin zəncirini açma boynumdan,
Bağışla o əhdi-peymana məni.

Gördüm camalını oldum qələndər,
Laçın tək qıya bax, üz bəri döndər.
Yanıram oduna misli-səməndər,
Görsə qanlar ağlar pərvanə məni.

Qaşların aşiqə nəzakət eylər,
Gözlərin can alar, qiyamət eylər,
Zülflərin sayilə hidayət eylər,
Gözlərin gətirər imanə məni.

Kuyində Dilqəməm tərsa dağında,
Bülbül fəğan eylər gül budağında,
Könül quşu, yar camalın bağında,
Döndərdin o Şeyx Sənanə məni.

## GÖRDÜM

Sənubər qamətli, sürahi gərdən,
Könül əl götürməz belə dilbərdən,
Göydə mələklərdən, yerdə bəşərdən,
Hüsnü-vəcahətdə bir əfzəl gördüm.

Deyib danışmadım, boylandım hərdən,
Ağıl başdan getdi, dizlərim girdən,
Bir şux qıya baxdı, huş aldı sərdən,
O cadu gözlərdə bir əməl gördüm.

Dilqəməm, qarşıma çıxdı xuraman,
Bir şəbi-yəldada, bir mahi-taban,
Gözləridi mücrim, qaşları kaman,
Zülfi-siyahını müsəlsəl gördüm.

## HAVALANIBDI

Laçın bərəsindən, şikar elindən,
Bir tülək tərlanım havalanıbdı.
İstədim ki, səyyad olam yetişəm,
Əldən -ələ düşüb qovalanıbdı.

Firəng şüşəsindən ağdı qolları,
Göyün ulduzuna bənzər xalları,
Ağ üzündə müsəlsəldi telləri,
Çalıbdı çalmanı sonalanıbdı.

Canan vəsfi mən Dilqəmin dilində,
Eyib yoxdu nazlı yarın telində,
Dostu dilbər Ocaqlının elində,
Ağ nazik əlləri hanalanıbdı.

## GÖRMÜŞƏM

Belin nazik, qəddin suca, üzün gül,
Məlahəti sən cananda görmüşəm.
Gülüstani-Rəmdə tək şahipərdə,
Nə mələkdə, nə insanda görmüşəm.

Müjganındı peykan, qaşındı kaman,
Gözlərin cadudu, ey afəti-can,
Sən hüsndə, vəcahətdə novcavan,
Nə uqbada, nə cahanda görmüşəm.

Az bilmirsən camalının qədrini,
Görsə hilal edər ayın bədrini,
Necə deyim, o zülfünün ətrini,
Nə bənövşə, nə reyhanda görmüşəm.

Hüsnün ziynət verir xüldi-bərinə,
Pişivazə gəlir gözəllər yenə,
Zülfünün ətrini müşk ənbərinə,
Nə limuda, nə fincanda görmüşəm.

Dilqəm görsə ləbin, olmaz əfsana,
Ləbin nisbət şəhdə, abi-heyvana,
Aqil alim görsə olar divana,
O xal ki var, zənəxdanda görmüşəm.

## GƏLMƏDİ

Laçın bərəsində, Kür kənarında,
Getdi telli sonam, gölə gəlmədi.
İstədim ki, onun tərifin yazam,
Sığışıb qələmə, dilə gəlmədi.

Can verdim cananın yolunda durdum,
O dağı, düyünü sinəmə vurdum,
Bir tərlanın bərəsində tor qurdum,
Dedim bəlkə tora gələ, gəlmədi.

Belə gözəl olmaz xüldi-bərində,
Ağıllı, kamallı, huşu sərində,
Məcnun kimi durdum vədə yerində,
Leyli kimi getdi çölə, gəlmədi.

Yenə yada düşdü o səlmi-nazım,
Şəninə qafiyə, qəzəllər yazım,
Havalı ceyranım, şahım, şahbazım,
Qırdı şikar bəndin, ələ gəlmədi.

Dilqəm ayrı düşdü qönçə dəhandan,
Ətri bənövşədən, güli-reyhandan,
Cənnəti-rizvandan, huri-qılmandan,
Əfzəl olan bu müşkülə gəlmədi.

## ŞAİR MƏMMƏDHÜSEYN
*(1800-1884)*

***Göyçə mahalının Daşkənd obasındandır. “Şair Məmmədhüseyn”, “Daşkəndli Məmmədhüseyn” adı ilə tanınmışdır. Bədahətən söz demək qabiliyyəti, yüksək istedadı onu məşhurlaşdırmışdır. Aşıq şeirinin müxtəlif şəkillərindən istifadə etməklə gözəl nümunələr yaratmışdır. Gəraylı, qoşma, təcnis və divaniləri bu gün də ustadların repertuarında, xalq arasında yaşamaqdadır. Məşhur “Heydəri” saz havası onun “Yatıb oyanmaz-oyanmaz” şeiri ilə daha çox oxunduğundan həmin havaya aşıqlar “Məmmədsöyünü” də deyirlər.***

### MƏN OLUM

Gül bağçadan boylanan yar,
Boyuna qurban mən olum.
Özün Gülzar, elin gülzar,
Hüsnünə heyran mən olum.

Ağladarsan ağlat özün,
Çağladarsan çağlat özün,
Dağladarsan dağlat özün,
Sinəsi al qan mən olum.

Məmmədhüseyn səndən doymaz,
Özgələrə məhəl qoymaz,
Əzabını əzab saymaz,
Tək sənə mehman mən olum.

### BƏNZƏMƏZ

Gözəl çoxdu bu mahalda, obada,
Mən gördüyüm özgəsinə bənzəməz.
Qəh-qəhinə susdu dağda kəkliklər,
Heç səs onun xoş səsinə bənzəməz.

Ətrafında vardı nazənin qızlar,
Hər yanında parıldaşan ulduzlar,
Məst edir görəni şirin avazlar,
Heç bir dəstə dəstəsinə bənzəməz.

Məmmədhqüseyn görüb onu vuruldu,
Könül aldı hal-əhvalı duruldu,
Ötdü xoş nəğmələr, məclis quruldu,
Heç bir nəğmə nəşəsinə bənzəməz.

## HA YANA-YANA
***(cığalı təcnis)***

Baxışların bir od vurub canıma,
Qalmışam çarəsiz ha yana-yana.
    Aşıq deyər ha yana,
    Dara zülfün ha yana.
    Eşqindən səməndərəm,
    Cismim oda ha yana.
Ümidəm, gözlərin baxa üzümə,
Nə isə hey baxır ha yana-yana.

Canan getdi bağçalardan gül üzə,
Güllər baxdı, heyran qaldı gül üzə.
    Mən aşiqəm gül üzə,
    Qoyma xoryad gül üzə.
    Bülbül fəğan eylədi,
    Endi güldən gül üzə.
Kərəm yandı, həsrət qaldı gül üzə,
Əsli də oduna ha yana-yana.

Məmmədhüseyn, yar yuxudan oyandı,
Səhər günəş camalından o yandı.
    Aşıq deyər oyandı,
    Günəş kimi o yandı.
    Mənim qəlbim ondadı,
    Onun qəlbi o yandı.
Bahar gəldi, ana dağlar oyandı,
Çiçəklər köksündə ha yana-yana.

## ŞİŞQAYALI AYDIN
*(1825-1915)*

***XIX əsr Göyçə aşıq mühitinin yetirdiyi istedadlı söz ustasıdır. “Şişqayalı Aydın”, “Şair Aydın” adı ilə xalq arasında tanınmışdır. Onun zəngin yaradıcılığından ancaq yaddaşlarda olanlar bizə gəlib çatmışdır. Əlimizdə olan şeirlər Şişqayalı Aydının təbli, istedadlı sənətkar olduğunu göstərir.***

### ENDİ

İki dağın arasından,
Gördüm bir cüt maral endi.
Biri eşqin həvəsində,
Biri yardan yaral endi.

Xına vurub əllərinə,
Sığal çəkib tellərinə,
Gümüş kəmər bellərinə,
Heyif məndən aral endi.

Əsmə, badi-səba, əsmə,
Yar, meylini məndən kəsmə.
Biri Dursun, biri Məsmə,
Aydın deyər, bular endi.

### GƏLİN

Gedirdim, yoldan eylədi,
Bir qırmızı tatar gəlin.
Qul eylər, çəkər bazara,
Axır bir gün satar gəlin.

Cəvahir seçdim dəryadan,
Məni qəflətdən oyadan.
Sənin kimi ağ mayadan,
Düzdürəydim qatar, gəlin.

Aydın gəzər yar yanında,
Qalsın haqqın divanında.
Heç arzu qalmaz canında
Hər kim sənlə yatar, gəlin.



## PADARLI ABDULLA

***XIX əsrdə Oğuzun Padar kəndində yaşayıb yaratmışdır. Xalq şeiri üslubunda söz qoşan sənətkarlardandır. Gözəlləmələri, ustadnamələri və təcnisləri Şirvan aşıqlarının repertuarında geniş yayılmışdır.***

### QAYITDI

Bir nazənin, huri-mələk simalı,
Gəldi məni gördü, güldü, qayıtdı.
Pünhanı göstərib gül yanağını,
Tər üzünə şəbnəm doldu, qayıtdı.

Vəsf eləmək olmaz xətti-xalını,
Soruşmadı şikəstənin halını,
Nagahan göstərdi gül camalını,
Biçarənin canın aldı, qayıtdı.

Mən görmüşəm gözəllərin çoxunu,
Belə olmaz ancaq boyu, buxunu,
Müjganından çəkib xədəng oxunu,
Yaralı sinəmə çaldı, qayıtdı.

Gözlər ikən gözlərimə yetişdi,
Mürdə cismim eşq oduna tutuşdu,
Şahrayıdan qıya baxıb ötüşdü,
Yollarında gözüm qaldı, qayıtdı.

Biçarə Abdulla gəşt etdi bağı,
Zülmətlərin nuru, aləm çırağı,
Çaharşənbə günü ilkindi çağı,
Gəldi səni dərdə saldı, qayıtdı.

## ŞAİR MƏHƏMMƏD (ÇOBAN MƏHƏMMƏD)
## *(1857-1937)*

***Göyçə aşıq mühitinə mənsub el şairdir. Ağkilsə kəndində yaşamışdır. “Şair Məhəmməd” və ya “Çoban Məhəmməd” təxəllüsü ilə tanınmışdır. Zəngin istedadı, gözəl təbi olmuşdir. Babası Allahverdi, atası Alməmməd, qardaşları Ələsgər, Salah, Xəlil kimi onun da bədahətən şeir qoşmaq istedadı olmuş, bir neçə dastan da yaratmışdır. Bunlardan “Məhəmməd və Sərv Xuraman” (“Məhəmmədin Qars səfəri” də deyirlər) daha çox yayılmışdır. Zəngin istedadı ilə mühitdə sayılıb seçilən Şair Məhəmməd çeşidli poetik örnəkləri, o cümlədən də gözəlləmələri ilə yaddaşlarda qalmışdır.***

### BİRDİ

Vəfalı dost tək-tək olar,
İnsanlarda yüzdə birdi.
Sən arzula cansağlığı,
Çox da birdi, az da birdi.

Kəklik ötər qış keçəndə,
Ovçu yanar boş keçəndə,
Güzaranın xoş keçəndə,
Qış da birdi, yaz da birdi.

Bir söz deyim tapa bilsən,
Sınıq könlüm yapa bilsən,
Sevdiyini öpə bilsən,
Qaş da birdi, göz də birdi.

Mən dəliyəm, o divana,
Sözün söylə söz qanana?
Meylin qonsa bir canana,
Dul da birdi, qız da birdi.

Məhəmmədəm, düşdüm xəstə,
Canım qurban yaxşı dosta.
Eşqin olsa sinən üstə,
Tar da birdi, saz da birdi.

## MƏN

Aran çox istidi, yaylaq sərindi,
Bilmirəm qalmayım, yoxsa qalım mən?!
Könül bir gözələ aşiq olubdu,
Bilmirəm almayım, yoxsa alım mən?!

Çox ziba gözəldi, gözəllər xası,
Əyninə geyinib əlvan libası,
Görünür gözümə eşqin dəryası,
Bilmirəm dalmayım, yoxsa dalım mən?!

Məhəmmədəm, ağlım başdan azalıb,
Zimistan zəhmərin əldən yaz alıb,
Dəli könlüm altmışında saz çalıb,
Bilmirəm çalmayım, yoxsa çalım mən?!

## BU DAĞLAR MƏNİM

Yayda yaylağımdı, qışda oylağım,
Yazda seyrangahım bu dağlar mənim.
Köçürüb ellərin payız ayları,
Gözüm görüb, könlüm budu ağlar mənim.

Bir yaqut yanaqlı, yasəmən xallım,
Dəhanı kövsərlim, ləbləri ballım,
İlə ilqar verib Leyli misallım,
Onçu məskənimdi bu dağlar mənim.

Kamil ovçu itirəndə maralı,
Kəsilər aramı, səbri, qəralı,
Məhəmmədəm, düşdüm yardan aralı,
Çəkildi sinəmə bu dağlar mənim.

## DEYƏR SANA

Ay qəddi alişan, qoynu gülüşan,
Görənlər açılmış yaz deyər sana.
Cəmdi gözəlliyin nişanbanişan,
Şairlər tərifi az deyər sana.

Bir bəri gəl görüm kimə talıbsan?
Gözəlliyi aydan, gündən alıbsan,
Cəmi aşıqları eşqə salıbsan,
Götürüb əlinə saz, deyər sana.

Söylə mənə görüm, hansı ellisən?
Mina gərdənlisən, incə bellisən.
Tovuz bəzəklisən, durna tellisən,
Məhəmməd də quba qaz deyər sana.

## AY SƏNƏM, SƏNƏM

Sübhü şam dərdindən yahu çəkərəm,
Ölüncə deyərəm, ay Sənəm, Sənəm.
Gözlərimdən qanlı yaşlar tökərəm,
Kirpiyi ox, qaşı yay Sənəm, Sənəm!

Bağban olsam, gəl bağçaya, bar apar,
Gəzək seyr eyləyək bağı barabar.
Yoxdu yer üzündə sana barabar
Ərşdə mələklərə tay Sənəm, Sənəm!

Buxağın büllurdu, yanağın lala,
Vəsfin təzəlikcə düşüb mahala,
Məhəmmədi döndəribsən abdala,
Eyləyibsən ömrü zay Sənəm, Sənəm!

## AĞDABANLI QURBAN
*(1859-1934)*

***Nəsil və sənət şəcərəsi ilə Miskin Abdal (XVI əsr) ocağına bağlı olan Ağdabanlı Qurban mədrəsə təhsili aldığı üçün el-camaat arasında həm də Molla Qurban adı ilə tanınmışdır. Çağdaşı olan Kəlbəcər aşıq və şairlərini çevrəsində toplayan Ağdabanlı Qurban saz-söz məclisi yaratmış, bu məclis həm onun sağlığında, həm də özündən sonrakı dönəmdə “Qurban bulağı” adı ilə şöhrətlənmişdir. Ağdabanlı Qurban böyük saz-söz ustadı Aşıq Ələsgər və onun qardaşı oğlu Növrəs İmanla yaxın dost olmuş, oğlu Şəmşiri Göyçə mahalına Dədə Ələsgərdən sənət dərsi almağa göndərmişdir. Ağdabanlı Qurban özündən sonra zəngin poetik irs qoyub getmişdir. Bu şeirlərin bir xeyli qismi gözəlləmə səciyyəsi daşıyır.***

### ÜSTÜNDƏN

Usta nəqqaş o qaşların,
Qara çəkib ağ üstündən.
Gözəl yaradıb saçların,
Çin-çin, tağı tağ üstündən.

Nə oğrun-oğrun baxarsan,
Sinəmə oxlar çaxarsan,
Yandırıb oda yaxarsan,
Dağ çəkərsən dağ üstündən.

Sinən ağdı, büllur şüşə,
Bəzənib qızıl, gümüşə,
Açılıb nərgiz, bənövşə,
Düzülüb yanaq üstündən.

Gözəl, səndə nə cəlal var,
Ağ üzündə qoşa xal var,

Ləblərində şirin bal var,
Süzülüb qaymaq üstündən.

Sənsiz bu Qurban ağlayar,
Cəsəd əsər, can ağlayar,
Arı görsə, şan ağlayar,
Olmaz ayırmaq üstündən.

**ARASINDA**

Sevdiyim şamama bəslər,
Dolanar tağ arasında.
Xəstə düşsəm, könlüm istər,
Bir cüt nar, bağ arasında.

Canım eşq oduna yandı,
Sinən nazbalış, yorğandı,
Tüstüm asmana dayandı,
Bir qarlı dağ arasında.

Qulac zülfünü hörsünlər,
Tovuztək bəzək versinlər,
Qoy Qurbanı öldürsünlər
Sinənin ağ arasında.

**BİR-BİR**

Qəmər üz, qadanı bu canım alsın,
Sallanıb gələndə otağa bir-bir.
Diləfruzun şöləsində dolansın,
Pərvanələr olsun sadağa bir-bir.

Rübənd çəkib kəlağayı bürünür,
Yaşmaq altdan mah camalı görünür,

Dərdin çəkən xəstə düşür, sürünür,
Məcnun olub düşür bu dağa bir-bir.

Gözə qorxu yoxdu, dilə qadağa,
Canım gözəllərə qurban, sadağa,
Şəhdi-şəkər, bal süzülüb dodağa,
Öpəndə xal düşür yanağa bir-bir.

Sizi gördüm, qəmim dağıldı dahı,
Ürəyimdən şadam çəkərəm ahı,
Budur iltimasım, sənəm-sürahı,
Qədəm qoyun bizim bulağa bir-bir.

Xurşud da axtarır mahı-tabanı,
Qırmızı yanaqdan güllər utanı.
Öldür qurtar, həsrət qoyma Qurbanı,
Qohum-qardaş gəlsin sorağa bir-bir.

## BAL QAYMAĞINAN

Gözəl odur yanağında xal olsun,
Necə ki yaxşıdır bal qaymağınan.
Əmlik əti, kabab ola duzunan,
Yeyəsən soğanla, ya sumağınan.

Yorğan qumaş ola, qu balınc-döşək,
Başlayıb zarafat edib, gülüşək...
Nə də bir kimsədən qorxuya düşək,
Dolanaq cahanda bu damağınan.

Gəlməsə bu işə guman danışma,
Aləmi aldatma, yalan danışma,
Qurban bir nov ilə dolan, danışma,
İstərsən tərəqqi təmtərağınan.

## QOŞA-QOŞA

Nazlı yar bağçanı seyr edib gəlir,
Tutubdu dəstində gül qoşa-qoşa.
Bad əsəndə zülfü bənzər sünbülə,
Lalə yanağında xal qoşa-qoşa.

İki mələk gördüm, biri Sərvinaz,
Yeriyəndə yerə eylər ərkinaz,
Mələkmənzər, şirindilli, xoşavaz,
Düzülüb üzünə tel qoşa-qoşa.

Nələr gəldi bu Qurbanın başına,
Rəhmin gəlsin gözlərimin yaşına,
Bir dağ çəkdin ürəyimin başına,
Bu dağı sinəmdən al qoşa-qoşa.



## BORÇALI ŞAİR NƏBİ
*(1873-1945)*

***Borçalının Faxralı kəndində anadan olmuş, Şair Nəbi adı ilə tanınmış, “Miskin” təxəllüsü ilə şeirlər yazmışdır. 13 yaşında dövrünün tanınmış aşıqlarından olan Aşıq İsmayılla deyişmiş, həmin vaxtdan da tanınmağa başlamışdır. Xalq arasında onunla bağlı maraqlı əhvalatlar, rəvayətlər danışılır. Zəngin yaradıcılığı olan Şair Nəbi gözəl dastanlar da yaratmışdır. Xalq arasında şair kimi məşhurlaşan bu sənətkar aşıqlarla bərabər el məclisləri aparmışdır.***

### GÖZƏL

Tellərin qəzəbi bənzər şahmara,
Qatlanıb zülflərin ayağı, gözəl.
Qaşların əyrisi kanı-qüdrətdən,
Kim çəkib rənginən boyağı gözəl?

Geydiyin əyninə qumaşdı, aldı,
Tamam sırğaların, cəvahir, ləldi,
Xudam səbəb saldı, nə gözəl oldu,
Dəydi bizim yerə ayağı gözəl!

Mən Nəbiyəm, bəyan etdim özümü,
Zimistan eylədin bahar, yazımı,
Özüm dedim, mən eşitdim sözümü,
Sən oldun canıma nə yağı gözəl!

### ALTI NİŞAN

Bir gözəldə altı nişan görmüşəm,
Biri qaşdı, biri gözdü, biri xal.
Səfası var ləzzət verir damağa,
Biri yanaq, biri dodaq, biri dil.

Pünhan durub yar yarına əl eylər,
Yaxa açar, ləblərini bal eylər,
Vədəsi gələndə çox şirin söylər,
Biri tuti, biri bülbül, biri gül.

Tovuz kimi sallanıban gəzməyi,
Nəzakətlə ala gözün süzməyi,
Nə xəyaldı yaxasına düzməyi,
Biri inci, biri mərcan, biri ləl.

Sinəsində qönçə-narı bitiri,
Əl dəyəndə əzildikcə yetiri,
Çox gözəldi gözəllərin ətiri,-
Biri gülab, biri mixək, biri hil.

Şair Nəbi yara verdi bir ilqar,
İlqarımdan dönər olsam el qınar.
Sığal verib cilvələnər pürvüqar,
Biri zülfü, biri şanə, biri tel.

## DAYANMAZ

Səhərin günəşi tərlan havalı,
Elə pərvaz eylər qaşda dayanmaz.
Yandırdın cismimi, döndərdin közə,
Pünhanı ağlaram, yaş da dayanmaz.

Gözün bir cəlladdı, yoxdu amanı,
Ləbin neylər, ay qız, əxrət-imanı?!
Ağ sinədə bəsləyirsən məməni,
Ona qul olmağa döş də dayanmaz.

Qamətin gözəldi, cismin əladı,
Kirpiyin müjganı başa bəladı,
Nəbi deyər, ərzi-halım belədi,
Ün salıb dağlara, daş da dayanmaz.

## ZÜLFLƏRİN

Salıbsan cismimə yar, əlamanı,
Göründü şahmardan əla zülflərin.
Siyah bulud kimi kəsib qərarım,
Tökülüb gərdana-dala zülflərin.

Dərdin bu canımda intizar oldu,
Daima çəkdiyim ahu-zar oldu.
Eşqin dustağıyam, biqərar oldu,
Açılmır zindandan qala zülflərin.

Nəbi deyər, yar libasın bəzənə,
Qurban olum lövhü qələm yazana,
Naz satırsan özgələrə, bizə nə,
Məni saldı min xəyala zülflərin.

## GÖZƏL

Kirpiyin cəlladdı, gözlərin yağı,
Qaşların kim çəkib qaraya gözəl?
Əyləşib səninlə ülfət eylərəm,
Sözlərim meylinə yaraya, gözəl.

Dərdi-qəm əlindən bezmişəm candan,
Üzüldü bədənim, olmuşam qandan,
Nə mən dönüm səndən, nə sən dön məndən,
Bir belə söz qoyaq araya, gözəl.

Qızıl bazubəndi gördüm qolunda,
Bu canı qoymuşam sənin yolunda.
Layiqdi məşşatə sağı-solunda,
Səhərdən zülflərin daraya, gözəl.

Şair Nəbi deyər, sürmədim səfan,
Çox çəkdim ucundan səbrlə cəfan,
Oduna yanalı olmadı vəfan,
Dərdimi söyləyim haraya, gözəl?

## SU SONASIDI

Bir gözəl görmüşəm uca eyvanda,
Tamam sırğaları dür dənəsidi.
Ətrafı bağçadı, zövqü səfalı,
Özünün mülküdü, öz binəsidi.

Cərgə-cərgə qızlar gəzir başında,
Fitnələr oynayır  gözü-qaşında,
Bir parça qar gördüm dağın başında,
Dedilər qar deyil, öz sinəsidi.

Şair Nəbi tərif edir üçünü,
Yaylağa varanda aran köçünü,
Gahdan uca gedər Alvız laçını,
Gah da düşər gölə su sonasıdı.

## XOŞ GƏLDİN

Başına döndüyüm xubların şahı,
Qədəm basıb bizim köyə xoş gəldin.
Gözlərin cəlladdı, kirpiyin yağı,
Qaşların qurulmuş yaya, xoş gəldin.

Bu necə kirpikdi, bu necə qaşdı?
Eynini görəndə xəyalım çaşdı.
Qamətin surahı, xalın həbəşdi,
Camalın bənzəyir aya, xoş gəldin.

Ovçu olan tapar ovlar maralı,
Heyif olsun düşdüm səndən aralı,
Nəbim deyər, dünyam sənsiz dar olu,
Qatardan ayrılmış maya, xoş gəldin.

## ŞAİR VƏLİ BOZALQANLI
***(1880-1933)***

***Tovuz rayonunun Bozalqanlı kəndində yaşamış və Şair Vəli adı ilə məşhurlaşmışdır. Yeniyetmə vaxtlarında papaqçılığı öyrənən Vəli bir müddət sonra dükan açıb papaq alış-verişi ilə məşğul olmuşdur. Həmin vaxtlar özünə bir saz da almış, boş vaxtlarını çalıb oxumaqla keçirmişdir. Bozalqanlı Aşıq Hüseyndən və Xəyyat Mirzədən ifaçılıq sənətini öyrənmiş, ustadların yaradıcılığını mənimsəyib özü də ara-sıra şeirlər yazmağa başlamışdır. Xüsusi bacarıq sahibi olan Şair Vəlinin şeirləri tezliklə xalq arasında yayılmış, ustadlar onun qoşma və gəraylılarını məclislərdə oxumuşlar.***

### YAVAŞ GET

Nə müddətdi intizaram,
Kərəm eylə yar, yavaş get.
Ay qabaqlı, qələm qaşlı,
Qəddi-qələmkar yavaş get.

Dürr dəhanlı, şirin sözlü,
Gül camallı, qəmər üzlü,
Tuti dilli, xoş avazlı,
Ağ sinəsi qar, yavaş get.

Şair Vəli göhər kanı,
Müjganların tökər qanı,
Qıya baxdın, aldın canı,
Cana sitəmkar, yavaş get.

## AYRILIB

Başına döndüyüm vəfalı dilbər,
Yanaqların sənin güldən ayrılıb.
Bülbül kimi ahu fəğan çəkirəm,
Siyah zülfün sağı-soldan ayrılıb.

Şəhladır gözlərin, kamandır qaşın,
Yandırır cismimi süzgün baxışın,
Şəhdi-şəkər dilin, mirvari dişin,
Qaymaq dodaqların baldan ayrılıb.

Şair Vəli deyər, zülfləri dəstə,
Tovuz tamaşalı, bir boyu bəstə,
Qız-gəlin yığnağı bulağın üstə,
Yaşılbaş sonadır, göldən ayrılıb.

## MƏRHƏMƏT EYLƏR

Könül müştaq olub mah camalına,
Səni şirin-şirin ixtilat eylər.
Kövsər dodağından, gül yanağından,
Bir busə lütf etsən kifayət eylər.

Yenə canım qaldı dərd ayağında,
Dilbər sevdasında, gül oylağında,
Könlümün bülbülü hüsnün bağında,
Oxuyur şövq ilə qiyamət eylər.

Yoxdu sənin kimi qaşları kaman,
Qul Şair vəlidir oduna yanan,
Mərhəmətli sultan, lütfkar canan,
Öldürməz aşığı, mərhəmət eylər.

## YERİDİ

Şənbənin günündə yol kənarında,
Sallandı qarşımdan sona yeridi.
Biri mehribandı, güldü, danışdı,
Biri cilvələndi yana yeridi.

Biri çox gözəldi, əhli məhəbbət,
Birinin qaməti şirin hekayət,
Sümükləri uyğun, zülfləri kəmənd,
Rübənd tutdu dürr damağa yeridi.

Biri növcavandı, dodağı ballı,
Biri şirin sözlü, kövsər zülallı,
Sürahi qamətli, ağ üzü xallı,
Bir ox vurdu, göhərkana yeridi.

Biri alışdırdı, din imanımı,
Almas kirpikləri tökdü qanımı,
Biri qıya baxdı aldı canımı,
Nazü-qəmzələri qana yeridi.

Biri gül açıbdır təzə sənubər,
Vəlinin onlardan şikayəti var,
Gözəllər içində biridir ülkər,
Şölə saldı nur asmana yeridi.

## DİLBƏR

Sevdiciyim, səndən ayrı düşəli,
Yəqin bil ki, gəlmişəm amana, Dilbər!
Sən bir gülsən, həsrətini çəkməkdən,
Bülbül təki gəldim fəğana, Dilbər!

Şirin ləhcəlisən, şirin sözlüsən,
Qaymaq dodaqlısan, qəmər üzlüsən,
Bəyaz gərdənlisən, ahu gözlüsən,
Qaşların bənzəyir kamana, Dilbər!

Xəstə xəyalıma oldun bənnalar,
Könlümə mələklər, ərşü səmalar,
Bizə göndərdiyin salam-dualar,
Xoşdur Vəli kimi cavana, Dilbər!

**BÜKÜLMÜŞ**

Bir  gözəl sallanıb çıxdı qarşıma,
Gümüş kəmər incə belə bükülmüş.
Şahmar zülflərini töküb gərdənə,
Müşkü-ənbər siyah telə bükülmüş.

Yoxdu bu nişanda dünyaya gələn,
Mənəm bu dilbərin dərdindən ölən,
Məlul durma sevdiciyim cilvələn,
Şirin söhbət, şirin dilə bükülmüş.

Qüdrət xəlq eyləyib bir belə bəla,
Vəli aşiq olub ağ üzdə xala,
İzin ver qol salım o qəddi-dala,
Nar məmələr nazik ələ bükülmüş.

**ŞİRİN**
**(cığalı müxəmməs)**

Göz gördü, könül sevdi,
Sən tuti-zəbanı Şirin.
Gəzərlər, yoxdur tayın,
Hələb, İsfahanı, Şirin!

Görmüşəm çox mahalı,
Bərabərin hanı, Şirin?
Bülbüləm gül eşqindən
Çəkirəm fəğanı, Şirin!
Ahu fəğansan,
Qəmzəsi qansan,
Tazə cavansan,
Qaşı kamansan,
Kamandır qaşın,
İncidir dişin,
Yumrudur döşün,
Xoşdur baxışın.
Xudam sənə bəxş eyləyib
Bu dürlü nişanı Şirin!
Gözəlliyin nişanıdır,
Mayıl oldum mah camala.
Huri misal, mələk mənzər,
Mən valehəm xətti-xala.
Gözlərin qan piyaləsi,
Ənnabi ləblər piyala,
Yasəmən tellərini,
Aşırıbsan qəddi dala.
Siyah tellisən,
Tuti dillisən,
İncə bellisən,
Ləbi ballısan,
Ləbləri gövhər,
Sərvi-sənubər,
Xalları ülkər,
Ay təzə nöbər.
Vergilən muradımı,
Tez tapım inamı, Şirin!

Hər tərəfdə gileylidir
Sonalar siyah telindən.

Tutilər avaz alır
O şirin imran dilindən.
Ənkəbut tək şan asılıb
Sənin o incə dilindən.
Yoldaşından gileyliyəm,
Bir də ki, sənin əlindən.
Yoldaşı ilqarlı gəlin,
Ağ sinəsi qarlı gəlin,
Yenə ucu düyməlónib,
Əttar sədri parlı gəlin.
Bir busə lütf eylə mənə,
Ay təzə nübarlı gəlin!
Ağ üzündən maç,
Telin bir qulac,
Üz rübəndin aç.
Vəsf etsin şair Vəli
Bu şövkəti, şanı Şirin!



## XƏYYAT MİRZƏ
*(1885-1922)*

***Tovuz mühitinin yetirdiyi istedadlı sənətkarlardandır. Mollaxanada təhsil almış, ərəb, fars dillərini mükəmməl öyrənmişdir. Atası Abbasqulu onu dərzi yanına şagird qoymuşdur. Dərziliyi öyrənməklə yanaşı, onda şeirə, sənətə böyük maraq olmuşdur. Dərzi olduğundan şeirlərini də “Xəyyat” (dərzi) təxəllüsü ilə düzüb qoşmuş, xalq şeiri üslubunda yazıb yaratmışdır. Bozalqanlı Xəyyat Mirzə təxəllüsü ilə tanınmışdır. Aşıq Hüseyn Bozalqanlı, Şair Vəli ilə deyişmələri məşhurdur. Hazırcavablığı, istedadı ilə həmişə mühitin marağına səbəb olmuşdur. Haqqında “Mirzə-Nazənin” dastanı yaranmışdır. Gözəlləmələri də olduqca maraqlıdır.***

### GÖZƏL QIZ

Sallana-sallana gedən gözəl qız,
Ay qız, bu güzarın bulağadırmı?
Niyə gec gəlib də, tez qayıdırsan,
Tez gəlib gec getmək qadağadırmı?

Mən qurbanam sən tək ayna qabağa,
Simi-zənəxdana, gülgəz yanağa,
O bəyaz bədənə, o ağ buxağa,
Şəkərin şərbəti dodağadırmı?

Ölməyib tapaydın, həyat, a Mirzə,
Olmaz sənin kimi xəyyat, a Mirzə,
Bərələri güdən səyyad, a Mirzə,
Canın yar yolunda sadağadırmı?

## İNCİDİR

Sallanıban min naz ilə gələn qız,
Bu cür sallanışın yolu incidir.
Göstərirsən badi-səba yelinə,
Eylər pərakəndə teli incidir.

Nə Misirdə Yusif-Züleyxa, Kənan,
Xudam xəlq etməyib sən təki canan.
Demə aşiqlərdi eşqinə yanan,
Firqətin mahalı, eli incidir.

Buyun uzmasıdı belə xoş macal,
Münasib, mükatib dövrəndə kamal.
Bağlarda bülbülün nitqi olur lal,
Yanağın laləsi gülü incidir.

Çoxdu səndə gözəlliyin hesabı,
Bircə götür ağ üzündən niqabı.
Əyninə geyəndə zəri-zərbabı,
Qızıl kəmər incə beli incidir.

Nəqqaşkar xoş çəkib sənin naxışın,
Çox xoşuma gəlir bu sallanışın,
Yorğun maral kimi qıya baxışın,
Mirzə təki pürkamalı incidir.

## KİMİN YARIDI?

Bu mina gərdənli, nazik bədənli,
Yarəb, söylə görən kimin yarıdı?
O alma yanağı, büllur büxağı,
Təzə yağmış Savalanın qarıdı.

Səni görcək taqət endi dizimə,
Ay qabaqdan şölə düşdü gözümə,
Neyləmişəm, baxmayırsan üzümə?
Yazıq canım nəyin günahkarıdı?

Məni görcək üzdən atdı niqabı,
Zülfləri bənd edib on dörd kitabı,
Gözəllik hüsnünün yoxdu hesabı,
Cəmi gözəllərin kamandarıdı.

Mənim canım atəşlərə bükürsən,
Eynim yaşın ürüxsarə tökürsən,
Bu dünyada nə ki, zillət çəkirsən,
Bil, Xəyyat Mirzənin ahu-zarıdı.

## GÖZƏLLƏR

Yenə bu günləri bayram günüdür,
Bürünüb yaşıla, ala gözəllər.
Kəlağay bağlayıb hərə başına,
Tirmə örtüb qəddi-dala gözəllər.

Olmaz sizin kimi qəmzəsi qanlar,
Alma yanaqlılar, qaşı kamanlar,
Gözəl dəstənizi görən cavanlar,
Yəqin düşər özgə hala, gözəllər.

Huri-mələk ola bilməz sizə tay,
İşıq alır, camalızdan ərşdə ay,
Qoyub yolunuzda Mirzə haqqi-say,
Dəymısin boynuza belə, gözəllər.

## HƏSƏN XƏYALLI
## (1885-1966)

***Həsən Xəyallı (Həsən Məhərrəm oğlu Hacıyev) XX əsr Göyçə mühitinin yetirdiyi sənətkarlardandır. Ədəbi-mədəni mühitdə, xalq arasında Xəyallı Həsən adı ilə tanınmışdır. Aşıq yaradıcılığına xüsusi maraq göstərmiş, ustadların yaradıcılığını toplamağa çalışmış, özü də xalq şeiri üslubunda şeirlər yazmışdır. Aşıq Ələsgər ocağı ilə, xüsusilə Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Nəcəflə aralarında möhkəm dostluq münasibəti olmuşdur. Qoşmaları, gəraylıları, təcnisləri, cığalı təcnisləri onun bir sənətkar kimi istedadının ifadəçisidir.***

### DİLBƏR

Bir bağda bülbül olmasa,
Gülün nə miqdarı, Dilbər!
Dal gərdənə tökülməsə,
Telin nə miqdarı, Dilbər!

Baxan canlar üzülməsə,
Xumar gözlər süzülməsə,
Al yanağa düzülməsə,
Xalın nə miqdarı, Dilbər!

Ya dür olsun, ya da gövhər,
Yaqut, yəmən, ya simu zər.
Xiridarı yoxsa əgər,
Ləlin nə miqdarı, Dilbər!

Xəyallıyam yaz olmasa,
Sinəm üstə saz olmasa,
İşvə, qəmzə, naz olmasa,
Halın nə miqdarı, Dilbər!

## GƏL ALIM

Qara deyib toxunmuşam könlünə,
Qadan, balan hər nə varsa, gəl alım.
Hicran xəstəsiyəm, qəm bəzirganı,
Qəlbin dolu ahu-zarsa gəl, alım.

Sərraf zərrəsindən tanıyır zəri,
Eyvandan qıyğacı baxmagil bəri,
Qaşın almaz, gözün tacir gövhəri,
Yanaqların xiridarsa, gəl alım.

Xəyallını bir yada sal, biilqar,
Ürəyimdə səndən qeyri de kim var,
Dilin şəkər, qoynundakı şirin nar,
Müştəriyəm, sinən qarsa, gəl alım.



## BİSAVAD TEYMUR
***(1890-1981)***

***Goranboy rayonunun Tap Qaraqoyunlu kəndindən olan Bisavad Teymur (Teymur Əsgər oğlu Əhmədov) saz ruhunda şeirlər yazan el şairi olmuşdur. Aşıqlar onun şeirlərini keçən əsrin 20-ci illərindən başlayaraq məclislərdə oxumuşlar. Zəngin yaradıcılıq yolu keşmişdir. Şeirlərinin əlyazması ailəsində saxlanılır. Aşıq şeirinin müxtəlif formalarında bir-birindən maraqlı nümunələr yaratmışdır. Çap olunan şeirləri onun kifayət qədər güclü istedada malik olmasından xəbər verir. Klassik ədəbiyyatın mükəmməl bilicilərindən olan sənətkar xalq şeiri üslubunda yazmağa üstünlük vermişdir.***

### AY MARAL-MARAL

Tanrı səni nə xoş gündə yaradıb,
Gəzirsən dağları, ay maral-maral.
Kərəm kimi həsrətindən ölürəm,
Çeşmim intizarı, ay maral-maral.

Yanıram dərdindən dərdimə inan,
Sən də mənim kimi od tut, alovlan.
Eylərəm canımı yolunda qurban,
Gəlsən bizə sarı, ay maral-maral.

Anlamasan mətləbimi yazıynan,
Di gəl danış Bisavadın özüynən,
Müxənnətin, seyrəqibin sözüynən,
Unutmaz yar yarı, ay maral-maral.

## MİRZƏ SƏMƏD
*(1890-1981)*

***Qazax mahalının Daşsalahlı kəndindəndir. Erkən yaşlarından saza - sözə maraq göstərmişdir. Aşıq Hüseyn Bozalqanlı, Xəyyat Mirzə, Telli Məhəmməd, Çoban Əfqan, İsmayıl Katib və başqaları ilə yaxın sənət əlaqələri olmuşdur. Haqqında çoxlu əhvalatlar, hekayətlər vardır. Gəncədə Zərnişan adlı dağıstanlı qızla deyişməsi əsasında “Zərnişan-Mirzə Səməd dastanı” yaranmışdır. Mirzə Səmədin “Mirzə Səmədlə Sarıtel dastanı” da xalq arasında məşhurdur. Mirzə Səmədin gəraylı, qoşma, müxəmməs, divani, deyişmə və dastanları zəngin istedad sahibi olduğunun göstəricisidir.***

### TELLƏRİN

Bürünmə qara çarğata,
Görünür cığa tellərin.
Qamətin şəmsi qəmərdi,
Şəkərdən şirin dillərin.

Maralsan, ovçu güdərsən,
Bağrımın başın didərsən,
Gec gələr, tez gedərsən,
Uzağa düşüb yolların.

Qızıl sırğalar guşunda,
Həmayillər var döşündə,
Yaşıl şəddələr başında,
Bağlasın nazik əllərin.

Sözlərin yazım hər yana,
Bir üzünü Dağıstana,
Bir busə ver bu Mirzə cana
Dadsın ləbindən balların.

## BƏNZƏR

Ay qız, sənin bu qamətin,
Sərv üstündə dala bənzər.
Dəhanından çıxan sözlər,
Şəhdü şəkər bala bənzər.

Qızılgülü dərməyəndə,
Pünhan yerə sərməyəndə,
Hərdən-hərdən görməyəndə,
Bir günüm min ilə bənzər.

Qaşın yay, kirpiyin oxdu,
Yer üzündə tayın yoxdu,
Seyraqıb arada çoxdu,
Əlin-əldən ala bənzər.

Duman dağı bürüyəndə,
Yağan qarlar əriyəndə,
Sən qarşımda yeriyəndə,
Yazıq Mirzə qula bənzər.

## YASƏMƏN

Beyqafıldan gördüm, xəyalım çaşdı,
Geyinmişdi yaşıl allar Yasəmən.
Süzgün-süzgün baxdı, sərxoş yeridi,
Qabaqda tərpəndi tellər, Yasəmən!

Üzünü sürtəsən zülfə, buxağa,
Otaqda danışasan dodaq-dodağa,
Onunla gedəsən yazda yaylağa,
Al-yaşıl bəzənə yollar, Yasəmən!

Şirin kəlmələri, dadlı, məzəli,
Üstünə tökülsün gülün xəzəli,
Mirzənin yazdığı .şeiri, qəzəli,
Qoy oxusun bütün ellər, Yasəmən!

**İNCİ**

Şirin dostun sənə məhəbbəti var,
Verməz səni bir mahala, ay İnci!
Hörməti, izzəti, şərəfi, şanı,
Sənin kimi ləbi bala, ay İnci!

Mah camalın şölə salır hər yana,
Gözəlsən, salma sən bizi qana.
Od düşər bədənə, o cismi-cana,
Elə sığal vursan telə, ay İnci!

Tərlan tərpənişin, bu sallanışın,
Dərdimənd öldürür qıya baxışın,
Ağ nazik əlinlə zərqəniş işin,
Görən çatar tez zavala, ay İnci!

İsmin İnci, incilərdən say səni,
Tapa bilməz gözəllərdə tay səni.
Əgər görsə göy üzündə ay səni,
O da müştaq qəddi-dala, ay İnci!

Əslin dağıstanlı, Qazax ellisən,
Tovuz tamaşalı, durna tellisən,
Yaşılbaş sonasan, Zəmzəm göllüsən,
Sən gəzirsən göldən-gölə, ay İnci!

O şəhla gözlərin canlar alanda,
Şahmar zülfün ağ buxağa salanda,
Loğman olub sən qaydıma qalanda,
Bir rəhm elə Mirzə qula, ay İnci!

## ZÜLFÜNƏ

Növbahardır, güllər təzə növrəstə,
Güldən, bənövşədən sarı zülfünə.
Həsrətin çəkənlər cana yetişdi,
Gizlətmə baxsınlar sarı zülfünə.

Pərvanələr yanır şamdan içində,
Ləblərin noğuldu qənddan içində,
Züleyxa tək qaldın zindan içində,
Çəkdirirlər ahu-zarı zülfünə.

İsmin "sey", "fey", "əlif" üstdən düzülür,
Qamətinə dürlü sözlər yazılır,
Ləlü gövhər bəhr içində gəzilir,
Qoyma baxsın xoyrat barı zülfünə.

Qamətin ərərdir, gözün sitəmkar,
Aşiqin baxanda üz bəri döndər,
Nə gözəl nəqş edib  qadiri-qəhhar,
Bəxş eyləyib küllü-varı zülfünə.

Tutidən artıqdır şirin dillərin,
Tovuzdan göyçəkdir cığa tellərin,
Görünür gözümə nazik əllərin,
Bağla, Mirzə, dilifkarı zülfünə.

## XOCA MƏHƏMMƏD

*(XIX əsrin sonu və XX əsrin birinci yarısı)*

***Borçalı mahalının Qoçulu kəndindəndir. Borçalı mühitinin yetişdirdiyi istedadlı el şairlərindən olmuşdur. Mühitdə bədahətən söz demək bacarığı ilə sayılıb seçilmiş ustadlardandır. Ağsaqqalların söyləmələrinə görə zəngin yaradıcılığı varmış. Hayıf ki, həmin örnəklər vaxtında yaziya alınıb qorunmamışdır. Onun Aşıq Hüseyn Saraçlı ilə yaxın dostluq münasibəti olmuşdur. “Minayə” gəraylısı da təbii bir reallığın nəticəsi olaraq yaranmışdır. Həmin şeir Xoca Məhəmmədin həyatində şeir-sənət söhbəti edən bu iki sənətkara 15-16 yaşlarında çay gətirən Minayə adlı qıza müraciətlə deyilmişdir. Hüseyn Saraçlının repertuarında uzun illər səslənən bu gəraylı Gnəcəbasar və Borçalı aşıqlığında geniş yayılıb dillər əzbəri olmuşdur.***

### MİNAYƏ

Gözəlliyi cəm edibsən,
Camalın var, ay Minayə.
Alagözlü, qaragilə,
Qaşlarındı yay, Minayə.

Uca boylu, incə belli,
Dal gərdəndə siyah telli,
Ağ biləkli, nazik əlli,
Gətir içim çay, Minayə.

Eşit, budur sözün düzü,
Xumarlanıb ala gözü.
Bahar gülü, dan ulduzu,
Olmaz sənə tay, Minayə.

Yeniyetmə, bağça barı,
Uca dağın bəyaz qarı.

Anan Mina, atan Sarı,
Etsin sənə toy, Minayə.

Qurban lazım hər ayına,
Müştağam göyçək boyuna.
Müjdə gətir sən dayına,
Böyük hörmət qoy, Minayə.

Elləri var Qoçulu kəndi,
Sənə deyim neçə bəndi?
İtməz Məhəmmədin zəndi
Gözəl sənsən, ay Minayə!



## ŞEYDA ƏZİZ
*(1897-1957)*

***Qazax folklor mühitinin yetirdiyi istedadlı saz şairidir. “Şeyda” imzası ilə şeirlər yazmış, dövri mətbuatda çap olunmuşdur. Sadə, aydın, səlis dildə yazdığı poetik nümunələr Azərbaycan aşıq ədəbiyyatını zənginləşdirmişdir. S.Vurğunla səmimi münasibətləri olmuşdur. Aşıqlar şeirlərini məclislərdə oxumuşlar.***

### GƏLƏNDƏ

Bilirsənmi səndən niyə küsmüşəm,
Baxmadın üzümə sizə gələndə.
Ona görə bu dostluğu kəsmişəm,
Kəm baxırsan üzbəüzə gələndə.

Kərəm kimi eşq oduna yanaram,
Dostuma dost, düşmənimə yamanam,
Mən arifəm işarədən qananam,
Kəlmədən başlayıb sözə gələndə.

Şeyda deyər, heş dərdimi bilmədin,
Can söyləyib bir üzümə gülmədin,
Vədə verdin, vədəmizə gəlmədin,
Nə danışdıq gəzə-gəzə gələndə.

### CEYRAN

Səhər çağı gəştə çıxan zamanı,
Uğradı qarşıma özü Cryranın.
Bir qıya baxanda aldı canımı,
Düşdü ciyərimə közü Ceyranın.

Əsli qarabağlı, dağlar maralı,
Ürkür ovçusundan gəzir aralı,
Həsrətindən gül irəngim saralı,
Çatam vüsalına quzu Ceyranın

Şeyda müştaq oldu büllur buxağa,
Lalə zənəxdana, gülgəz yanağa,
Qəfil cilvələnib çıxdı qabağa,
Göründü gözümə gözü Ceyranın.

## AÇILIR

Dostlar qoşalaşıb seyrə çıxanda,
Gizlində səslənən sirlər açılır.
Türfə gözəllərə sığal çəkəndə,
Tuti kimi şirin dillər açılır.

Yar bəzənib yar yanına gələndə,
Pünhan qaş-göz ilə halın biləndə,
Danışıb-söyləyib, şirin güləndə,
Yanağında qızıl güllər açılır.

Günü-gündən qalxır Şeydanın səsi,
Canlanır sevdası, artır həvəsi,
Gedəndə qarşıda gözəl dəstəsi,
Bağrımın başında güllər açılır.

## GÖZƏL-GÖZƏL

Bir yuxu görmüşəm, a gözəl pəri,
Qurban gözlərinə yoz, gözəl-gözəl.
Səhərin sübhündə, ayna qabaqda,
Dara tellərinə düz, gözəl-gözəl.

Gördüm bir bağçada açıb qızılgül,
Qönçənin üstündə oxuyur bülbül.
Əyləşib bir yanda cüt saçı sünbül,
Eyləyir bir-birinə naz gözəl-gözəl.

Aşiq-məşuq durub bağı dolandı,
İki sevgi gül ətrinə bulandı,
Şeyda Əziz eşq oduna qalandı,
Atəşi canımda köz gözəl-gözəl.

## GÜLLƏR AÇILIR

Yar bəzənib yar yanına gələndə,
Qaş ilə, göz ilə halın biləndə,
Danışıb, söyləyib şirin güləndə,
Yanağında qızıl güllər açılır.

Dost-dost ilə seyrə çıxanda yazlar,
Dolanır arada söhbətlər, sazlar,
Türfə gözəllərdən gəlir avazlar,
Tuti kimi şirin dillər açılır.

Gəlir gül üstündən Şeydanın səsi,
Canlanır sevdası, artır həvəsi,
Yeriyir qarşıda gözəl dəstəsi,
Bağrımın başında millər açılır.

## BƏNÖVŞƏ

Görən aşiq olur sürməli gözə,
Qüdrət qələm çalıb, qaşa, Bənövşə.
Hərdən fürsət düşüb üzün görəndə,
Az qalır xəyalım  çaşa, Bənövşə.

Şəkərdən şirindi dili, dodağı,
Öpməlidi üzü, bəyaz dodağı,
Növrəstə zamanı, tər-təzə çağı,
Çatıbdı on altı yaşa, Bənövşə.

Gəncə kəlağaylı, yaşıllı-allı,
Loğman dərrakəli, Yusif camallı,
Gülgəz zənəxdanlı, yanağı xallı,
Öyməli gözəlsən yaşa, Bənövşə.

Nə gözəl boy-buxun, nə qəddü-qamət,
Gözün cana yağı, qaşın qiyamət,
Keçmə aşiqindən, eylə mürüvvət,
Dönməsin ürəyin daşa, Bənövşə.

Hərdən mənə sarı süzgün baxanda,
Çəkib kirpiyini cana çaxanda,
Sona kimi süzüb qarşı çıxanda,
Çəkdirir Əzizə haşa, Bənövşə.



## İSMAYIL KATİB
***(1898-1938)***

***Zeynalov İsmayıl Novruz oğlu Qazağın Qıraq Kəsəmən kəndindəndir. İsmayıl Katib təxəllüsü ilə tanınmışdır. Xalq şeiri üslubunda yazıb yaratmışdır. Qazax qəza Partiya Komitəsinin birinci katibi seçilmişdir (1922). Tovuz, Lənkəran, Şəki, Sabirabad rayonlarında partiya komitəsinin katibi, icraiyyə komitəsinin sədri işləmişdir. Ağdaş qəza Partiya Komitəsinin birinci katibi olmuşdur (1932-1934). Azərbaycan Dövlət Nəşriyyatının direktoru vəzifəsində çalışmışdır (1937-1938). Aşıq şeiri üslubunda qoşma və gəraylıları Göyçə-Gəncəbasar və Borçalı aşıqlarının repertuarında mühüm yer tutmaqdadır. Azərbaycan Yazıçılar İttifaqının üzvü (1934) olmuşdur.***

### ŞİRİN-ŞİRİN

Ay dilbərim, gəl qarşımdan belə keç,
Bir-bir vəsfin yazım mən şirin-şirin.
Həsrət gözüm baxsın o gözlərinə,
Alsın da kamını can şirin-şirin.

At niqabı, qoy görünsün camalın,
Şövq salsın cahana o həbəş xalın.
Bilmirəm nədəndi bu qeylü qalın,
Tökür qəmzələrin qan şirin-şirin.

Əslin Kür kənarı, Qazaxda bir can,
Bəlli bir gözəlsən, ay ismi pünhan.
Yazım dəftərlərə oxunsun hər an,
Sən mənə deyirsən yan şirin-şirin.

Mən sənin ismini yazmıram aşkar,
Bir sən bil, bir də mən, telli bəxtəvər.
Ürək gedir, dil danışır, deyir, yar,
Özün iqrar eylə sən şirin-şirin.

Müştağam sən kimi ləbi ballıya,
Dərdimin dərmanı xoş xəyallıya.
Bir busə lütf elə bu Zeynallıya,
O da versin sənə can şirin-şirin.

**SƏNNƏN**

Baharın çağıdır, ay ismi pünhan,
Gəl gəzək, gözəlim, bu bağı sənnən!
O şirin ləhcəni istəyir könlüm,
Bir danış tərpənsin dodağı sənnən!

Bir əla gözəlsən yox mislin sənin,
O xumar gözlərin, o tər bədənin,
Ayağın kəsməsən gəlib - gedənin,
Qiyamət edərəm, a yağı, sənnən.

Elə ki, hüsnünə gözüm sataşır,
Oluram divanə, xəyalım çaşır.
O şümşad qolların boynumdan aşır,
Dolanaq bəxtiyar sayağı sənnən.

Bir yol qədəm bassan bizim otağa,
Canımı edərəm sənə sadağa.
Yoxsa gəlib-getmək olmuş qadağa,
Kəsilmiş görürəm ayağı sənnən.

Gündə bir yol boylan bizə aynadan,
Qumru kimi danış, səslən ucadan.
İnsafdırmı nakam gedəm dünyadan,
Aparam sinəmdə bu dağı sənnən.

Hər səhər zülfünə çəkəndə şana,
Sitəm eyləyirsən bu şirin cana.

Gəl bir busə edək, dəysin cahana,
Dil məndən, diş məndən, dodağı sənnən.

Bir zaman danışıb gülməzdi Katib,
Nə eşq, nə də sevda bilməzdi Katib,
Bəlkə yüz yaşardı, ölməzdi Katib,
Görsəydi hər zaman o çağı sənnən.

## ASYANIN

Ay hazarat, canım alır
O mah camalı Asyanın,
Vəsfini bəyan eyləyim
Bilinsin halı Asyanın.
Dəyər dünyanın malına
O həbəş xalı Asyanın,
Dərd əhlini candan edər
O qilu qalı Asyanın.

Təbiət xəlq eləyib
Çatdırıb on beş yaşına,
Müştağam gözlərinə,
Elə də qələm qaşına.
Nə ölər, nə qocalar,
Kim olsa onla aşina,
Var-yoxunu sərf edəsən
Bir elə cənnət quşuna,
Əməsən, kef çəkəsən
Ləbindən balı Asyanın.

Mən görüb valeh olmuşam,
Əhsən deyim belə cana,
Yeridikcə tər bədəni
Tərpəşir hər bir yana,

Hərdən ki, naz eyləyir
Qəsd eləyir şirin cana,
Əlindən şikayətçiyəm
Mən onun Azərbaycana,
Çoxlarını dərdə salıb
O xətti-xalı Asyanın.

Məclisə qədəm basır,
Əllərində gül bəzənir,
Al qumaşı əndamına,
Gərdəninə tel bəzənir,
Həsrətini çəkənlərin
Gözlərinə mil bəzənir,
Müxtəsəri canım alır
O xoş camalı Asyanın.

Katib, dürüst fəhm elə,
Gözəllər sultanıdı bu,
Ariflərə ruh verir,
Dərdlərin dərmanıdı bu,
Siması rizvandan gəlib,
Hurilər nişanıdı bu,
Mələklər səcdə etsin
Günəşin asmanıdı bu,
Aləmə ziynət verir
Cahi-cəlalı Asiyanın.

## ŞAİR CAVAD
***(1898-1969)***

***Şair Cavad” təxəllüsü ilə məşhur olan Hüseynov Cavad Bayram oğlu Daşkəsənin Qabaqtəpə elindəndir. Bədahətən şeir demək qabiliyyətinə malik sənətkarlardandır. Şeirləri xalq arasında, aşıqların repertuarında özünə geniş yer tapmışdır. Dağ mühitində yaşayıb yaradan Şair Cavad başına gələnlər əsasında “Şair Cavadın Aran səfəri” adlı dastan qoşmuşdur. Ağbabalı İsgəndərlə görüşü və deyişmələri vardır. Şair Cavadın Miskinli Vəli ilə sıx dostluğu, poetik əhvallaşması və deyişmələri də olmuşdur. Xalq arasında onunla bağlı maraqlı rəvayətlər, əhvalatlar, hadisələr danışılır.***

### AY ÇİÇƏK DƏRƏN

Adı bəlli Xoşbulağın dağında,
Nədir sənin adın, ay çiçək dərən?!
Dəstə gözəllərdi solu-sağında,
Nədir sənin adın, ay çiçək dərən?!

Qızlar gedir niyə dalda qalmısan,
Dal gərdənə doqquz hörük salmısan.
Lalədən, nərgizdən dəstə almısan,
Nədir sənin adın, ay çiçək dərən?!

Seyr edirsən bu dağları gəzməyə,
Lalədən, nərgizdən dəstə düzməyə,
Şairəm, istərəm tərif yazmağa,
Nədir sənin adın, ay çiçək dərən?!

Dəstə bağla bu dağların gülündən,
Sənin kimi gözəl asar telindən.
Mən Şair Cavadam Ayrım elindən,
Nədir sənin adın, ay çiçək dərən?!

## BƏNZƏR

Kimdi bu ayqabaq, bu lalə üzlü?
Baxanda dağların qarına bənzər.
Hürüdü, pəridi, dağ maralıdı,
Dünyanın ən şirin barına bənzər.

Dərdimi ellərə aşıqlar desin,
İnsafmı canımı həsrəti yesin,
Xoşbəxtdir həmdəmi olsa hər kəsin,
Yanağı bağların narına bənzər.

Cavadam, keçərəm şirin canımdan,
Varımdan, yoxumdan, xanimanımdan.
Atdı naz oxunu öz kamanından,
Sinəm gur ocağın qoruna bənzər.



## XƏSTƏ BAYRAMƏLİ
*(1898-1952)*

***Göyçə mahalının Nərimanlı kəndindən olan Xəstə Bayraməli (Xudiyev Bayraməli Abbasəli oğlu) el şairi kimi məşhur olmuşdur. Aşıq məclisləri, zəngin Göyçə mühiti onun istedadının parlamasına güclü təsir etmişdir. Gəraylı, qoşma, təcnis, müxəmməs, divaniləri dərin istedad sahibi olduğunu göstərir.***

### NİŞANƏDİ

Hüsnün tamaşadı, ay mina gərdən,
Camalın şövqünə ay nişanədi.
Aşıqsız, çalğısız, meysiz, məzəsiz,
Sən olan məclisə toy nişanədi.

Mətləbim şirindi dillərin kimi,
Təbim çox nazikdi əllərin kimi,
Könlüm pərişandı tellərin kimi,
Qaşların tağına yay nişanədi.

Bayraməli dərdi pünhanda çəkər,
Hökmünlə qapında işlərəm nökər,
İnsafın, mürvətin yoxdumu məgər?
Gözlərim yaşına çay nişanadı.

### MƏN

Ay bimürvət, qoynun cənnət bağıdır,
İzin versən əl uzadıb dərəm mən.
İnsafa gəl, mürvət eylə amandır,
Fərağılndan coşub daşan Kürəm mən.

Siyah zülfü dal gərdənə yaymısan,
Nə deyim ki, hər yetənə taymısan?
Hürümüsən, mələkmisən, aymısan?
Bir qoysana camalını görəm mən.

Bilmirəm ki, eylədiyin qəsdimi?
Çəkdiyim zəhmətlər, de əbəsdimi?
Bayraməli xəstə düşüb, bəsdimi?
Həsrətindən bağlamışam vərəm mən.

## GÖZƏL

Sanıram gözümə sataşanda sən,
Zülmətdən ay kimi çıxırsan, gözəl.
Şölə verən bir çıraqdır camalın,
Cismimi yandırıb yaxırsan, gözəl.

Heyif ki, dərmirəm sənin narından,
Uzaqsan könlümün ixtiyarından,
Elə bil çıxıbsan səyyad torundan,
Oğrun maral kimi baxırsan, gözəl.

Xəstə Bayraməli eylədi nəzər,
Yanağın lalədir, xalların gövhər,
Şirin bir röyasan xəyala bənzər,
Sən mənim ruhuma axırsan, gözəl.

## SƏNİN

Gözəl camalına gözəl yaraşır,
Qüdrətdən düzülmüş xalların sənin.
Mələklər yanında xəcalət eylər,
Yaşılbaş sonalar - qulların sənin.

Nərgiz gözlərinin mən divanəsi,
Yandırıb, sinəmdə var nişanəsi,
Hanı siyah zülfün yoxdur şanəsi?
Pərişan görünür tellərin sənin.

Qoysan olam can evinin mehmanı,
Ləblərindi mən xəstənin dərmanı,
Xəstə Bayraməli hüsnün qurbanı,
Dolansın boynuma qolların sənin.

## BELƏ YAR
*(təcnis)*

Hilal qaşa əl çəkibdir mələklər,
Müştaq oldum belə nazik belə, yar!
Cəlladımsan al dəstinə xəncəri,
Qara bağrım belə doğra, beyə yar.

Sərrafıyam, nəzər qıllam mən zərə,
Bir maraldır, tər sinəsi mənzərə,
Sevgilimin bənzəri var Mənzərə,
Qəsdə girsə, can almazmı belə yar?

Şəkər əzib həm dodağa, dilə sən,
Xoş arzular, xoş niyyətlər dilə sən,
Mən zəlili saldın dildən-dilə sən,
Bayraməli xəstə düşüb belə, yar!

## GÖZƏLƏM İNDİ
*(təcnis)*

Səndən qeyrisinə baxsam, sevgilim,
Bivafa, biilqar gözələ, mindi,
O gülgəz camalın dil açıb deyir,
Huridən, pəridən gözələm indi.

Şahmar zülfün alar canım bir aya,
Bir gözəlsən, bənzəyirsən bir aya,
Mən xəstəyə heç demirsən bir, aya,
Dərman var ləbimdən gözəl? Əm indi!

Şəkərdən, şərbətdən, baldan şirinsən,
Şirin danış, şirin söylə, şirin sən,
Bayraməli Fərhad olsa, Şirin sən,
Dağları yarmağa, gözəl, əmindi.



## ŞAİR BƏHMƏN
*(1901-1980)*

***Göyçə mahalının Nərimanlı kəndindəndir. Bəhmən İbrahim oğlu Qarayev Göyçə aşıq mühitinin yetirdiyi sənətkar lardandır. Məlahətli səsi, gözəl natiqliyi və söz qoşmaq bacarığı onu aşıqlığa gətirmişdir. 1928-ci ildən aşıqlığa başlamışdır. “Humay”, “Ağ corab”, “Əfqan-tufan” dastan-rəvayətləri onun yaradıcılığının məhsuludur. Aşıq şeirinin bütün şəkillərində nümunələr yaratmışdır. Saz havalarını özünəməxsus üslubu, əlavələri ilə zənginləşdirmişdir.***

### ƏVƏZİNDƏ

Ala gözlüm, şanə əyib zülfünü,
Qoy əsim telində yel əvəzində.
Gecə-gündüz mən çəkirəm ahu-zar,
Xəzan dəyib, soldum gül əvəzində.

Eşqin bu sinəmə çəkibdi dağı,
Mah camalın olub cahan çırağı.
Lalə tək qırmızı, gülgəz yanağı,
Nə geysən yaraşır, al əvəzində.

Bəhmən qoyub canın yolunda niyaz,
O gizlin dərdini sən də mənə yaz.
Ölsəm məzarımı sən özün gəl qaz,
Ayaq bas sinəmə yol əvəzində.

### GÖZLƏRİN

Qafil bir ox atdı bağrım başına,
Süzülüb baxanda ala gözlərin.
Baxcağın canımı üzüb apardı,
Olubdu başıma bəla gözlərin.

Pünhan, yan qıyqacı dönüb baxanda,
Yüz min nəzakətlə kirpik çaxanda,
Müjgan oxun sinəm üstə çaxanda,
Az qaldı, canımı ala gözlərin.

Bəhmənəm, olmuşam mən sənə mayıl,
Gözlərin ağlımı eylədi zayıl.
Hər nə ki, buyursan olaram qayıl,
Salıb məni min xəyala gözlərin.

### SƏNƏ QURBAN

Qəfil məni eşqə salan bəxtəvər,
O qulac qolunu gər sənə qurban!
Mən xəstəyəm, sən təbibsən dərdim var,
Dərmanı ləbindən ver, sənə qurban!

Gəl gedək bağçada qol-boyun gəzək,
İzin ver bağından bircə gül üzək,
Ağ nazik əlinlə dəstələ düzək,
Güldən, bənövşədən dər, sənə qurban!

Dünya üzündə sən aysan, ülkərsən,
Nabatsan, noğulsan, şirin şəkərsən,
Bir ağ can mayasan, gərdən çəkərsən,
Dalınca boylanan nər sənə qurban!

Başında ipəkdən şalın yaraşır,
O mina qəddinə alın yaraşır,
Ağ büllur buxağa xalın yaraşır,
Ətrafını alıb tər sənə qurban!

Bəhmənin qəlbinə sən dəymə sınar,
Mən ölsəm dərdindən, el səni qınar,
Boyun qoysam yola, gəl, etmə kənar,
Qəbul eylə verim sər sənə qurban!

## HƏSƏN MÜLKÜLÜ
***(1904-1994)***

***Tovuz mühitinin yetirdiyi ustad saz-söz sənətkarlarındandır. Mülkülü Həsən kimi tanınmışdır. Babası Nəcəfin və əmisi Məmmədcəfərin təsiri ilə 1919-cu ildən şeir yazmağa başlamışdır. Müxtəlif vəzifələrdə çalışmış, mehribanlığı, xeyirxahlığı ilə camaatın hörmətini qazanmışdır. Bir neçə kitabı nəşr olunmuşdur. Məşhur el şairi Əziz Məftun onun oğludur. Həsən Mülkülü istedadlı, yüksək yaradıcı təbə malik qüdrətli sənətkar olmuşdur. Daha çox gözəlləmə şairi kimi tanınır.***

### DOLANDIĞIM

Bir ərzim var, qəbul eylə,
Yar, başına dolandığım.
Bəsləyibsən ağ sinəndə,
Nar, başına dolandığım.

Dərdin alım, etmə inad,
Gəl könlümlə ülfəti qat.
Ləblərində abi-həyat,
Var, başına dolandığım.

Çox demişəm dönə-dönə,
Yalvarıram sənə yenə.
Bir busə şair Həsənə,
Ver, başına dolandığım.

### SƏNİN

Özgələr bilməsin, bircə özün bil,
Vurulub gözlərim gözünə sənin.
Tüstüm duman olub göylərə qalxıb,
Kabab tək yanmışam közünə sənin.

Dal gərdəndə siyah zülfün hörəsən,
Sənin kimi gözəl varmı görəsən?
Ağ üzündən bir cüt busə verəsən,
Özüm qurban ollam özünə sənin.

Gözəl gərək hər ölkədə tanına,
Həsən istər qanın qata qanına.
And içəsən dayıların canına,
Onda inanaram sözünə sənin.

## SƏN ALLAH

İl uzunu həsrətini çəkmişəm,
Qoy baxım üzündə xala, sən Allah.
Şirin-şirin söhbət edək ikimiz,
Az məni atəşə qala, sən Allah.

Şirin canım qulluğunda fərmandı,
Əmmək üçün dodaqların dərmandı.
Varım, yoxum bütün sənə qurbandı,
Gey sallan yaşıla, ala, sən Allah.

Yazıq Həsən gəzir qürbət elləri,
Alagöz, qaraqaş, şirin dilləri,
O ağ biləkləri, qulac qolları,
Hərdənbir boynuma dola, sən Allah.

## QALDI

Müjgan kirpiyinlə sinəmə vurdun,
Ölüncə qurtarmaz yarası qaldı.
Məni Məcnun kimi səhraya saldın,
Dünyanın gəzməmiş harası qaldı?

Demədin gedəcək cavanlıq vaxtın,
Odlayıb qəlbimi yandırdın, yaxdın.
Çevrilib üzümə sən elə baxdın,
Gözümdə gözünün qarası qaldı.

Həsənəm, vuruldum ilk bahar sənə,
Məhəbbətdən çəkdim bir hasar sənə,
Dedin ki, olmaram daha yar sənə,
Üzüldü qəlbimin parası qaldı.

## YANAQLARI

O qara gözlərin alır canımı,
Mənim könlüm istər gül yanaqları.
Bədnəzər görməsin, ləkə düşməsin,
Götürüb dəsmalı, sil yanaqları.

Döşün şamamadan, nardan gözəldi,
Sinən, buxaq təzə qardan gözəldi,
Dövlətdən, şöhrətdən, vardan gözəldi,
Necə təsvir etsin dil yanaqları.

Həsənəm, məqsədim yetişsə başa,
Bəxtimin aynası dəyməsə daşa,
İstər qocalayam, yetəm yüz yaşa,
İnan unutmaram bil yanaqları.

## GÖZLƏR

Qıyğacı baxıban saldın ovsuna,
Neyləmişdim sənə, a qara gözlər!
Qövr edir sinəmdə vurduğun yara,
Bir də vurdun üstdən dübara, gözlər!

Məhəbbət sinəmdə salıbdı binə,
Rəhm eylə sən mənim kimi düşgünə.
Gecə aya bənzər, gündüzlər günə,
Fəsillərdə oxşar bahara gözlər!

Yaxın gəl, yaxın gəl, sinəmdə söz var,
Qoyubsan könlümə alovlu köz var,
Gözlərin içində min cürə göz var,
Hamsından gözəldir o, qara gözlər!

Könlüm istər ağ sinənin narını,
Dedim ki, ver mənə ixtiyarını.
Səyyad itiribdi öz şikarını,
İndi sən yüz axtar, yüz ara gözlər.

Nədən o kirpiyin çoxdu kamanı,
Hər qıya baxanda eyləyir qanı.
Oxladın, oxladın yazıq Həsəni,
Nə dərman tapılır, nə çarə, gözlər!

## SƏNİN

Sürahi gərdənli, ay mina boylu,
Tökülüb gərdənə saçların sənin.
Aləmə şux salır ayna qabağın,
Qüdrətdən çəkilib qaşların sənin.

Mən səni gəzirəm bil oymaq-oymaq,
Tərlan baxışından olarmı doymaq.
Dilin beçə balı, dodağın qaymaq,
İncidən düzülüb dişlərin sənin.

Mülkülü Həsənəm, nə deyim yara,
Çatmayır əllərim, uzaqdır ara,
Təbibsən dərdimə eyləsən çara,
Aləmə xoş gələr işlərin sənin.

## ZƏRNİGAR

Xudam sidq ürəknən qələm çalanda,
Səni yaradıbdır belə, Zərnigar!
Gözəllikdə kimsə olmaz sənə tay,
Rəngin bənzər qızılgülə, Zərnigar!

Tərif edək dili, dişi, dəhanı,
Yoxdur tayın tamam gəzək cahanı,
Dərginən nərgizi, gülü, reyhanı,
Taxgınan buxağa, telə, Zərnigar!

Eşqin salıb mən fəqiri çöllərə,
Çeşmim yaşı yenə döndü sellərə.
Yaşılbaşlar şığıyanda göllərə,
Sən düşgünən bizim gölə, Zərnigar!

Qaşına, gözünə eylə qadağa,
Sığal ver əndama, büllur buxağa,
Deyilib əzəldən canım sadağa,
Sənin üzündəki xala, Zərnigar!

Qızılgüllər, bənövşələr dərəsən,
Dost yolunda mətahını sərəsən,
İstəsən ki, əyər məni görəsən,
Həsən gəlib sizin elə, Zərnigar!

## OLDUĞUM

Nədən ləkə düşüb gül yanaqlara,
Qara gözlərinə qurban olduğum.
Gərdənə tökülmüş siyah zülfünü,
Dara, gözlərinə qurban olduğum.

Ucundan düşmüşəm min ahu-zara,
Təbibsən dərdimə gəl eylə çara.
Üst-üstdən sinəmə vurma dübara,
Yara, gözlərinə qurban olduğum.

Dilimin əzbəri, könlümün yarı,
Çıxardıb qəlbindən unutma barı.
Düşsən çətinliyə satma ilqarı,
Sara, gözlərinə qurban olduğum.

Sən məni unutma, ey nazlı mələk,
Düşəndə yadıma çırpınır ürək,
Əgər günahkaram əllərinlə çək,
Dara, gözlərinə qurban olduğum.

Həsənəm, yolunda qurbandı canım,
Mən sənin oduna birdəmi yanım?
Söykənsin qoy başım, sən mənim canım,
Nara, gözlərinə qurban olduğum.



## BİMAR ƏLİ
***(1904-1952)***

***Kəlbəcər mahalının istedadlı saz-söz nümayəndələrindəndir. Bimar Əli adı ilə tanınmışdır. Aşıqlıq sənətinə xüsusi marağı olmuş, bu sənəti ustadlardan öyrənmiş, lakin aşıqlıq etməmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində şeirlər düzüb qoşmuşdur.***

### DİLBƏRİM

Bir əzrayıl kimi girib qəsdimə,
Qorxuram canımı ala gözlərin.
Həsrət baxıb, ahı tökür üstümə,
Salır məni qeylü qala dilbərim.

Kamandarsan, oxun atma ov deyil,
Yaralıyam bir də vursan, kov deyil.
Arifsən, hər yetən sənə bab deyil,
Baş al gedək bir mahala, dilbərim.

Aqilsən, mətləbi özün qanarsan,
Od vurma könlümə, yoxsa yanarsan,
Bir gün olar cavanlığı anarsan,
Çıxar göyə ahu-nalən, dilbərim.

Xəstəyəm – Bimaram, var iltimasım,
Yansam eşq oduna saxlasın yasım.
Düşürəm budaqdan yoxdu əsasım,
Mən ölsəm də bəlkə qala dilbərim.

## ƏSMƏR

Dərdin aldı məni, daha bəsdimi?
Az eylə bizlərə cəfanı, Əsmər.
Qönçə gülə badi-xəzan əsdimi?
Kəsilmir bülbülün fəğanı, Əsmər.

O sərvi qamətin çıxarmı yaddan,
Ölüncə yanaram vurduğun oddan.
Unutma aşiqi, keçmə bu addan,
Qoyma dərgahına nadanı, Əsmər.

O ki yada salmır yazıq Bimarı,
Sən də unut belə kəmetibarı.
Kimsənin bivəfa olarsa yarı,
Günahkar biləcək Xudanı, Əsmər.



## MƏMMƏD İLQAR

***1951-ci ildə Qazax mahalının İncə dərəsində Aslanbəyli kəndində anadan olub. Aşıq şeiri tərzində çeşidli poetik örnəklər müəllifidir. Şeirləri aşıqların repertuarında özünə geniş yer almışdır. İstedadlı təcnis ustadı kimi tanınır. Mövzu rəngarəngliyi ilə seçilən qoşma, gəraylı və təcnislərində mühüm bir hissəni gözəlləmələr tutur.***

### NƏ GÖZƏL ÇƏKİR
***(təcnis)***

İlahi! Belə də gözəl olarmı?
Kimdi qələm çəkən, nə gözəl çəkir?!
Üz-üzə, göz-gözə sehrlənmişik,
Nə mən göz çəkirəm, nə gözəl çəkir.

Günay gözlüm, gözəllikdə bircəsən,
Bu güllükdə bir mən olum, bircə sən,
Gül üstündə arıya bax, bircə sən,
Gör gülün nazını nə gözəl çəkir?

Salma sən Məmmədi gözündən, gözəl,
Gözüm gözmü görüb, gözündən gözəl!
Mən ölmüş neyləyim gözündən, gözəl,
Nə bir könül doyur, nə göz əl çəkir?!

# ƏCNƏBİ KƏLMƏLƏR SÖZLÜYÜ

abdal (ə) – ağlını itirmiş
abi-həyat (f-ə) – dirilik suyu
abi-kövsəri (f-ə) – kövsər suyu
afitab (f) – günəş
ahən (f) – dəmir
bad (f) - içinə keçi qılı qatılmış qatı palçıq
badi-səba (f-ə) - səba yeli, səhər yeli
badi-sərsər (f-ə) – qumlu, şiddətli külək, qasırğa
bəqa (ə) - əbədi, daimi olan
bəndərgah (f) - düşmənin və ya ovlanacaq heyvanın keçə biləcəyi yeganə yer, keçid
bərq (ə) – parlaq işıq
bərqi-əhmər (ə) - qırmızı işıq
bərqi-ireyhan (ə) – reyhan yarpağı
bəst (f)- 1. Pənah yeri, sığınacaq, ziyarətgah; 2. Bağlı; 3. Döşənmə
bəzirganlar (ə) – tacirlər
bidəxa (f-ə) – dərmansız, əlacsız
bihudə (f) - boş
bisəmər (f-ə) – xeyirsiz, dəyərsiz
bitab (f-ə) - tabsız
busə (f) - öpüş
buy (f) – qoxu, ətir
büllənd olmaq (f) – qalxmaq, yüksəlmək
büryan olmaq (f)- alışıb yanmaq
çeşmi-giryan (f0- gözü yaşlı
cəbr (ə) - əzab-əziyyət
cəng (f) - savaş
cənnətülməva (ə) – cənnət mənzili, cənnət kimi yer
cida salmaq (f) – ayrı salmaq
cihad (ə) – müqəddəs müharibə
çak (f) - cırıq, yırtıq
çarvadar (f) – mal-qara alverçisi

çeşm (f) - göz
çeşmə (f)- bulaq
çeşmi-xumar (f) - xumar gözlü
damən (f) - ətək
danəndə (f) - alim
dari- fəna (ə) – fani dünya
dəhan (f) - ağız
dəhr (ə) – dünya, zaman, dövr
dər (f) – qapı
dərdimənd (f) – dərdə yetən, haraya çatan
dəstinlə (f) - əlinlə
didar (f) - görüş
didə (f) - gözün bəbəyi
dilxun (f) - ürəyi qanlı
dudi – ah (f) – ahın tüstüsü
duxtər (f) – qız, qız övladı
eyn (ə) - göz
əbrişin (f) – a) ipək, qatlanmış ipək, b) qıvrım
əbru (f) - qaş
əbrü-kaman (f) – qaşı kaman, kaman qaşlı
əfkarı (ə) – fikri, dərd-qəmi
əflakə (ə) - fələklər, göylər
əfzəl (ə) – üstün, daha gözəl
əhmər (ə) – qırmızı
əxi (ə) – qardaş
əxkər (f) – qor, köz, qızılcım
əxtər (f) – ulduz, bəxt, tale
ələm (ə) – qara bayraq
əndəlib (ə) - bülbül
ənkəbud (f) - hörümçək
ənahi-zülfün (f) – saçlarınını ətri
ərbayi-ənasir (ə) – dörd ünsür
ərş (ə) – göy üzü
əsəl (ə) - bal

əsəli-müsəffa (ə) – bal səfası
əşkbar (f) – göz yaşı seli
əşki-al (f) - qanlı göz yaşı
əttar (ə) - ətir satan
fanus (ə) – qədim əl fanarı
fəraq (ə) - ayrılıq, hicran
firdovsi-əlada (ə) – cənnət bağında
gərdənbənd (f) - boyunbağı
giranbar (f) – göz yaşı tökən
giriftar (f) – mübtəla olmuş, tutulmuş
giryan (f) – ağlar, gözü yaşlı
gireyvan (f) – boğaz, hulqum
göftar (f) – söhbət
guşuna (f) – qulağına
gülbərg (f) – gül yarpağı
hidayət (ə) - doğru yol
hilal (ə) - ay
hüsnü-vəcahət (ə) – hüsnün gözəlliyi
xab (f) - yuxu
xaki-payına (f) - ayağın torpağına
xakisar (f) - yerlə bir
xanə (f) - ev
xar (f) - tikan
xavər (f) - ulduz
xəddim (f) - 1) yamaq, üz; 2) qırışıq
xədəng (f) - ox
xəndan (f) – gülən, şən, açılmış
xəyyat (ə) – dərzi
xəyəti (ə) - dərzi iynəsi
xəzan (f) – payız, yarpaq tökümü
xirədmənd (f) – düşüncəli, ağıllı, bilikli, alim
xırxa (f) – dərviş kürkü
xoryad (f) – alçaq adam, ləyaqətsiz
xub (f) – gözəl

xuban (f) - gözəllər
xudkeş (f) – işi yaxşı gedən
xunxar (f) – qaniçən
xunfəşan (ə)- pıspısa, donzanqurud
idbar (ə) - çirkin
iltica (ə) - xahiş
iltimas (ə) - xahiş
iltifat (ə) – rəhm, mehribanlıq, lütf
imran (ə) - tuti, gözəl səsli quş
istiqna (ə) – etinasızlıq, ağır davranma
kani-səxa (f) - səxa aləmi
kar (f) - iş
keysu (f) – gözəl
kəbir (ə) – böyük
kəmtər (f) – a) daha az, b) aciz, yazıq
kəzzab (ə) – yalançı, yalan danışan
kibr (ə) – hiylə
kuh (f) – dağ, qaya
külahi (f) – papaq, börk
kuyuna (f) - a) kənd, məhəllə, b) ətrafına, çevrəsinə
külbeyi-hicran (ə) – hicran otağı
qadiri -qəffar (ə) - Allah, Tanrı
qafa (ə) – baş, beyin
qəffar (ə) - 1) çox bağışlayan, günahlardan keçən; 2) Allahın gözəl adlarından biri
qəflə (ə) - karvan
qəmər (ə) - ay
qəsəm (ə) - and
qəssal (ə) – meyit yuyan, mürdəşir
qəvi (ə) - 1) qüvvətli, güclü; 2) mətin, möhkəm
qövsey (ə) – iki qövs, iki yay
laşərik (ə) – şəriki olmayan
Leyli- nahar (ə) - gecə-gündüz
Ləhni- Davud (ə) – Davud peyşəmbərin gözəl səsi, şirin dili

olduğuna işarədir
ləhzə (ə) - dəfə
ləm (ə) - işıq
ləşkər (f) - qoşun
libas (ə) - paltar
lisan (ə) - dil
mah (f) - ay
mahi - ənvər (f-ə) – nurlu, işıqlı ay
mahi – təban (f) – açılmış ay
manəndeyi-bülbül (f) – bülbül kimi
mar (f) - ilan
matəmdar (ə) - yas içində olan
məlal (ə) – dərd, qəm
məğrib (ə) - Qərb
məriz (ə) – xəstə
məşriq (ə) – Şərq
mətah (ə) – az tapılan dəyərli mal
məşşatə (ə) – gəlinə, qadına bəzək vuran
mötədil (ə) - orta
mövzun (ə) - əla, düzgün, gözəl
mur (f) – qarışqa
muraz (ə) – murad, dilək
muy (f) – tük, saç
mübah (ə) – qadağan olmayan, halal
mücrim (ə) – cani, müqəssir
müəttər (ə) - ətirli
müənbər (ə) - ənbər ətirli
müjgan (f) - kirpik
müğ (f) – atəşpərəst, şərabsatan
mükəddər (ə) – kədərli
münəvvər (ə) - işıqlı
mürdə (f) - ölü
mürəssə (ə) - qaş-daşla, cəvahiratla bəzədilmiş
mürği-ruhum (f) – könül quşu, ruh quşu

müsəffa (ə) – saflaşdırılmış, xalis
müsəlsəl  (ə) – silsilə, düzüm-düzüm
müstəhəqq  (ə) – ləyaqətli, layiq
müşkün (f) – gözəl qoxulu
müşkü-fəşan (f) - ətir saçan
müttəsil  (ə) - daimi, hər zaman
naçaq (f) - kefsiz, əhvalsız
nagahan (f) - qəfildən, birdən-birə
namə (f) - məktub
namidar (f) – adlı-sanlı, şöhrətli
nalə (f) - ağlar
nan (f)  – çörək
natəvan (f)  – zəif, gücsüz
nar  (ə) – od
neştər (f) – iynə
nəqqaş (ə) – nəqş edən, rəssam
nəng (f) – namus, ar
nihan (f) – gizli, qapalı
niqab (ə) – üz örtüyü
nimtənə (f) - don, üst paltarı
nisab (ə) – son hədd,
nisar (ə) - qurban
nisfi  (ə) - yarı, yarısı
növrəs (f) – yeniyetmə
nümayan oldu  (f) – aydın, aşikar oldu, üzə çıxdı
nütfə (f) – kökdən, mayadan
pasiban (f) – yaxın, həmdəm, qoruyan, keşik çəkən
payəndaz  (f) – yerə döşənmiş
payibənd  (f) – ayağı bağlı
payinə (f) - ayağına
peykan (f) – kirpik, oxun ucundakı itiuclu dəmir
pərini (f) - qanadını
pərtovi-camalın  (f) – parlaq camalın
pəsənd (f) – bəyənmə, bəyənən

pəs etmək (f) – azaltmaq, bitirmək
piran (f) - qoca
piranələr (f) - müdrik qocalar
pust (f) - dəri, dərviş ayaqqabısı
pünhanda (f) - gizli
püstanı-rəna (f) - gözəl sinə
rah (f) - yol
rəhni-mürvət (ə) – mürvətli olan
rəxti-vücud (f) – bədən boyu
rəvan (f) – asan, axıcı
riza (ə) – razılıq
rizq (ə) – ruzi, yemək, çörək
rizvan (ə) – cənnət, cənnətin bağbanı, behişt
röya (ə) - yuxu
rubənd (f) – üz örtüyü, niqab
rux (f) –yanaq, üz
ruyi-zəmin (f) – yer üzü
saqi (ə) – şərab paylayan, aşıq ədəbiyyatında mənəvi mey gətirən nurani dərviş
sayə (f) - kölgə
seyrəqib (f) – it rəqib, əğyar (aşıqların dilində bu söz seyrəğib, seyrəqub, segrəqib, seyrəgub və s. şəkillərdə səslənir ki, biz də poetikliyi qorumaq üçün mətndə olduğu kimi saxladıq)
səg (f) - it
Səlsəbil (ə) – behiştdə axan çay
səməndər (f) – alov quşu
sənə (ə)- il
səng (f) - daş
səngixarə (f) - çaxmaq daşı
səngisar (f) – daşa basmaq, daşqalaq etmək
sər (f) – baş
sərasər (f) - başdanbaşa
sərvi-rəvan (f) - uca boylu
sərdar (f) - başçı

sərgəşteyi- aləm (f) – aləmi heyran edən
səyyad (ə) - ovçu
sin (ə) – məzar, qəbir
sitəmkar (f) – sitəm edən, əziyyət verən
siyahipuş (f) – qara geyimli, qara örtüklü
siyah (f) - qara
süxəndan (f) – söz bilicisi, söz sərrafı
şahimərdan (f) – Həzrəti Əli
şamu-səhər (f) – axşam-sabah
şeşi cihat (f) – altı cəhət
şəbahətin (ə) – bir-birinə oxşayan, bənzəyən
şəbistan (f) – gecə gəzintisi
şəbnəm (f) -şeh
şəbi-yelda (f) - ən uzun gecə
şəddə (ə) - 1. ərəb əlifbasında təkrar olunması lazım gələn samitlərin
üzərinə qoyulan işarə; 2. bəzəkli parça növü
şərif (ə) – şərəfli, şərəf gətirən
şərm eyləmək (f) - utanmaq, həya eyləmək
şəkərfəşan (f) - qənd, şəkər saçan
şəmistan (ə) – odlu yer
şəms (ə) – günəş
şikar (f) – ov
şikəstə (f) – sınıq, sınıq qəlbli
şikvə (ə) - şübhə, güman, şikayət
şum (f) – uğursuz, nəhs
şükufəli (f) – çiçəkli
şütür (ə) - dəvə
tar olmaz (f) – qaralmaz, qaranlıq olmaz
təbibi naşı (ə) – naşı təbib
tən (f) – a) bədən; b) yarı
təhəmmül (ə) – səbr etmək, dözmək
təriq (ə) - yol
tərsa (ə) – xaçpərəst

təvalla  (ə) – səy, təşəbbüs
tifil (ə)  - uşaq
tiğ (f) -  ülgüc
tutiya (ə) – gözə çəkməküçün maz, dərman, az tapılan məlhəm
üqba (ə) – axirət, o biri dünya
üryan (ə)   - çılpaq, paltarsız
üzaz  (ə) – yanaq, üz
vird (ə) – eyni bir şeyi həmişə təkrarlama
yeksan  (f) – dağılmış, səpələnmiş
zəban  (f) - dil
zəbərcəd (ə) – bahalı cəvahirat
zəhmər (ə) – acıq, qəzəb
zəkat (ə) – təmizlənmə, yoxsullara verilən pay, illik gəlirin onda biri
zənbur  (f) – arı
zənən (f) – qadın
zərd (f) – zəhər
zəvvar (ə) – Həcc ziyarətinə gedən yolçu
zikri-girdikar (ə) –xəyallar aləmində olan
zimistan (ə) - qış
ziyadə (ə) - artıq
zülf  (f) – saç
zünnar (ə) - keşişlərin belinə bağlanan kəmər

## ARXAİZM VƏ MƏHƏLLİ SÖZLƏR

adna axşamı – cümə axşamı
Ağcaqutan – gözəl bir quş adı
al – hiylə
alçaq – təvazökar adam
arı – təmiz, duru
ayıtmaq – demək, söyləmək
bayqu – qızılquş, quşların şahı
bəkləmək – gözləmək
bəlgə - nişan
bənək – xal
bəzirgan - tacir
bulmaq – tapmaq
buta – nişan
çarvadar –qoyun taciri
çuğul – satqın
dal – budaq
dalda – gizlin yer
döşləmək – qabağına qatıb qovlamaq
döşürmək – yığmaq, toplamaq
duş – yuxu
eşi – tayı, oxşarı
əsrik – havalanmış, sərxoş
əyə - sahib, yiyə
gap etmək – söhbətləşmək
göygü – kürəkən
güz- payız
irməmişəm – vüsala yetməmişəm
ismarlamaq – sifariş etmək, xəbər göndərmək
kəndi – özü
köy – kənd, oba, oymaq
qamu – hamı
qatı yay – möhkəm, sərt yay (oxun yayı)

ləliməkk – yalvarmaq, sürünmək
löyün-löyün – növbənöv
maç – öpüş
naçağ –xəstə
Sarvan – Gürcüstan Respublikasında Marneuli rayonunun əvvəlki adı
sayrı –xəstə
sayrışmaq  - səpələnmək
suç – günah
tamu – cəhənnəm
teyləmək – kəsmək, deşmək
varmaq – getmək
yazğı - ərizə
yazı – çöl, biyaban
yılmaq – yenilmək, məğlub olmaq

## MÜNDƏRİCAT

**SAZ HAVALI GÖZƏLLƏMƏLƏR**
***(M.Qasımlı, M.Allahmanlı)***

**OZAN-AŞIQ GÖZƏLLƏMƏLƏRİ**

***DƏDƏ QORQUD***
Bərü gəlgil, başum bəxti, evüm təxti!...............................
Yalab-yalab yalabıyan incə donlum!………………

***XALQ BAYATILARI***
***QURBANİ***
Dilbər...................
Aldatdı məni..............................
Gəldim......................
Gülə-gülə..............................
Göz dəyər sənə.......................
Bənövşəni.............................
Sevinsin..........................
Kənarında..........................
Doğru......................................
Vermərəm səni.........................
Yadigarıdı................................
Xoş gəldin............................
Ləblərin..................................
Açılmış................................
Eylədi..............................

***ABBAS TUFARQANLI***
Neylər........................
Bənzər.......................
Gülgəz indi........................................................................
İnciməsin......................
Təzə-tərdi.........................

Səni..........................
Oynar....................
Gül, pəri.............................
Əl aman.............................
Gəlir...........................
Yüz ilə..............................
Öp......................................
Ay bu yanda dur............................
Pərimin.........................
Göz ala...........................................

***SARI AŞIQ***

Bayatlar....................

***AŞIQ ÖMƏR***

Qısqanıram..........................
Nazınan...........................
Sən kiminsən.....................
Yarasıdır.........................
Gözəl bir canana könül düşürdüm..........................

***ORDUBADLI KƏRİM***

İnciməsin........................
Dolaşdı.............................

***XƏSTƏ QASIM***

Eylərsən..................
Yar düşdü, yar düşdü....................
Başına dolandığım....................
Sənəm, gəl...........................
Qurbanı..............................
Gülü məndən alınca..........................
Ola..........................
Tər gülər, Sənəm.............................

### *ABDALGÜLABLI AŞIQ VALEH*
Olum........................
Bu gələn bir cüt gözəlin........................
Bükülmüş........................................
Bir qız ilə bir gəlinin bəhsi var..........................

### *XƏSTƏ HASAN*
Oynamasın..........................
Qızların.......................
Gözəllər......................
Maşallah.............................
Muyların.............................

### *VARXİYANLI MƏHƏMMƏD*
Yavaş get...............................
Saldın......................................
Söz səndən..................................
Gəlin....................................
Bu qız..............................
Qurban olasan.........................................

### *AŞIQ ALI*
Olmur............................
Oldu....................
Dolandı............................
Göz....................................
Yoluna...............................
Həcərə..............................
Qaşların.............................
Tükəzban.................................
Mədinə................................................

### *HÜSEYN ŞƏMKİRLİ*
Xal üstünə......................
Ay qız.........................
Bu qız məni......................

Bayaz................................
Qoynunda......................
Sarı gül..............................
Oynasın..........................
Kimi......................................
Görmüşəm...............................
Bu gələn............................................
Bəzənib................................................

***DOLLU MUSTAFA***

Ağrın alım.....................
Sənəm səni................................
Gəlin......................................

***AŞIQ ƏLƏSGƏR***

Ceyran.................
Tellərin...........................
Üzün məndən niyə döndü.......................
Kəklik..............................
Yeridi...........................
Gülxanım...............................
Dolanır...........................
Getmə, amandı.........................
Güləndam............................
Sarı köynək................................
Düşdü......................................
Qaşların..................................
Əvəzdi........................................
Yavaş get...................................
Yaraşır.....................................
Köynəyinə..................................
Gəlibdi........................................
Güllü.........................................
Ola...........................................
Seçilmiş....................................
İncimərəm....................................

Gözəllər....................................
Narın üz.....................................
Gözələ...........................................
Mələk.............................................
Gəlir........................................

*XALTANLI TAĞI*
Gözəl......................................

*ÖYSÜZLÜ SƏMƏD*
Qara göz ......................................
Dilbərin............................................
Zeynəb.................................................
Gözəllər..........................................

*ŞENLİK ÇILDIRLI*
İstər...................................
Çəkər................................
Getdi................................
Bir yara..............................

*MOLLA CUMA*
Zülfün...........................
Dönməz...............................
Sənin.................................
Oynaşır................................
Küsübsən................................
Peşkəşdir.................................
Səni...........................................
Bir mən bilim, bir sən bil, bir də heç kim....................
Qadasın aldığım........................
Pəri.............................................................
Dilbər.................................................
Gəlin..............................................

***HÜSEYN BOZALQANLI***
Dolandığım...........................
Geyindi...................................
Qayıtdı.....................................
Sarı köynək.............................
Bu gün......................................
Həm onda səni..........................
Ola....................................................

***MİRZƏ BİLAL***
Dalmışam.............................
Kəklik..........................
Olmuşam..........................
Sevgilim...........................

***ƏSƏD RZAYEV***
Kimdən öyrəndin...........................
Yol üstündə duran gözəl..................................
Boylana-boylana.................................
Qurbanı...............................
Düşübdü..............................
O gözəldi, bu gözəl............................
Gəlin.................................
Xırdaca qız............................
Gözəl...................................

***MƏSİM BƏYAZİDLİ***
A Sarvan qızı...................................
Keçdi........................................................

***ÇOBANKƏRƏLİ CƏFƏR***
Kimi...........................
Gözəllər.........................
Səhnə xanım........................

***MİRZƏ BAYRAMOV***
Gözəllər.............................
Yadıma düşdü...............................

***ƏLİ XANXANIMOĞLU***
Nə sinə bağlar.......................
Gözəlin.....................................

***ŞƏMŞİR QOCAYEV***
Sarı............................
Gəlin..............................
Mənim...............................
Ellər gözəli..............................
Sənəm....................................
Reyhan...................................
Yaraşır..................................
Bu lala qızlar..............................

***VEYSƏL SİVASLI***
Olum............................
Gizləndi...................................
Səni..........................................

***MİSKİNLİ VƏLİ***
Boylana-boylana...........................
Yeriyir.................................
Necə candı...............................
İndi......................................
Yaxşıdı...................................
Gözəl...............................................

***TEYMUR MORULLU***
Düşübdür..................................
Görmüşəm.................................
Nə çarə..........................................

**XINDI MƏMMƏD**
Bənövşə....................................
Çiçək dərən............................

**NÖVRƏS İMAN**
Eylər.............................
Bir-bir................................
Gözəl qız...........................
Olmaz.................................
Gözlər...............................
Ola............................................
Gözəldi..............................
Ay üzər, üzər...............................
Gözəl..............................................

**ƏLİMƏRDANLI NƏCƏF**
Olmazmı........................................
Ceyran....................................
Zülfün.......................................
Eylə.........................................
Gözəllər...................................
Qadasın aldığım......................
Gözəl.................................

**BORSUNLU MƏZAHİR DAŞQIN**
Əlindədir.................................
Kimdən öyrəndin...........................
Güllü.......................................
Hicran........................................
Başına dolanım.....................................
Pəri.................................................

**AVDI QAYMAQLI**
Sənəm...............................
Mehribanım...............................
Yalvarır....................................

Gözlərin.......................................

***AŞIQ FƏTULLAH***
Zülflərin.................................
Dodaq-dodağa.........................
Bənzər....................................
Allı qız....................................
İstər könlüm....................................

***ƏMRAH GÜLMƏMMƏDOV***
Bənövşə..............................
Yavaş get................................
Mələk..................................
Ay qız...................................
Aşiqəm..................................

***AĞALAR MİKAYILOV***
Sona gördüm..............................
Gözəllər.......................................

***NABAT CAVADOVA***
Gözəllər....................................

***HÜSEYN CAVAN***
Kimdən öyrəndin..........................
Boylana-boylana.........................
Nə qaydadır................................
Ağrın alım..................................
Nərgiz....................................
Dilbərim.....................................
Yar üzmə, üzmə..........................
Naz gözəl olar..........................
Çiçəkdən də gözəlsən.............................
Olum.............................................
Alagöz...................................
Gözəl...........................................

***HÜSEYN SARAÇLI***
Gülbəniz....................................
Yavaş get.................................
Gələrəm...................................
Alagöz...................................
Maralım...............................

***ƏHMƏD RÜSTƏMOV***
Dilbər........................................
Sən.........................................
Zərnişan..................................
Kənarında.......................................
Mail olmuşam..................................
Sənə..........................................
Qadasın aldığım...................................

***ŞAKİR HACIYEV***
Səhər-səhər..........................
Ceyran................................
Süzə-süzə.............................
Gülgəz................................

***MİKAYIL AZAFLI***
O gözləri...................................
Doyammadım...................................
Gözəl, gözəl.................................
Gözlərim........................................
A gözlər......................................
Mehriban sonam................................
Mehribanım.......................................
A sultanım.............................................

***XANMUSA MUSAYEV***
İtkidi...................................
Məni...................................
Şirvan gözəli........................

***AŞIQ İSGƏNDƏR AĞBABALI***
Öyrəndin....................................
Bəyənmişəm...............................
Boylana-boylana..............................
A bəxtəvər......................................
Ceyran......................................
Əzizim....................................
Dəydi, dayandı.....................................
Qaragöz gəlin....................................
Arasında..............................................
Yaradıb............................................
Gövhərə................................................

***SOLTAN SEYİDOV***
Gəl bəri.......................................
Qırmızı...................................

***PƏNAH PƏNAHOV***
Gözəllərin................................
Zərifə..................................
Bir də gəl...........................
Salatın......................................
Gəlin..........................................

***İMRAN HƏSƏNOV***
Haralısan.................................
Olanda.......................................
Gələ..........................................
Gözəllər................................
Yaranıb........................................
Gözəl.............................................
Qaragöz.........................................

***CƏLAL QƏHRƏMANOV***
Xanım............................................
Sevgilim......................................

Altı qızlar............................
El qızı......................................

***KAMANDAR ƏFƏNDİYEV***

Səni.................................
Canana canı.............................

***ƏKBƏR CƏFƏROV***

Getdi....................................
Görünür................................
Səndədir................................
Gözəl..................................
Təzələndi..............................
Gözəl qız..............................................
A kürd balası................................
Qaşların......................................
Qayıtdı............................

***MƏMMƏDAĞA BABAYEV***

Niyə gec-gec görünürsən........................................

***MURAD NİYAZLI***

Düşdü.....................................
Bir səhər gəl, bir günorta, bir axşam..............................
Olduğum................................
Deyil....................................

***MAHMUD MƏMMƏDOV***

Qurban olum…………………….
Dünyada……………………..
Minayə………………

***İSFƏNDİYAR RÜSTƏMOV***

Gözlərin..................................
Qurban...................................
Olardı……………………

O yerdə………………………
Söhbətindəyəm………………

*ƏDALƏT NƏSİBOV*
Qucağında...............................
Yaraşığı.........................................
Dedim, dedin................................
Ehtiyacım var...........................
Gözəl..............................................

*UMBAY AXUNDOV*
Titrəsin.........................................
Gözəldir..............................
Mənə......................................

*HAŞIM QUBALI*
Gözlərin....................................
Əsirgəmə...................................
İstisuda bir qız gördüm............................
Bu qız............................................

*ÜRFAN ƏLİ*
Qarasında................................
Bir saz ola, bir mən olam, bir də sən.............................
Dedi....................................

*ƏHLİMAN ŞİRVANLI*
Naz eyləyir.........................................
Gözəl................................................

*ƏHƏRRƏM HÜSEYNLİ*
Gözəl..............................
Dodağında..............................
Gözəl..............................
Bu qıza...............................

***ALTAY MƏMMƏDLİ***

Məni........................
Bu qız.....................
Gülüsən................
Gəlib........................
Gözəl.......................
Gözlərin....................
Göyçək..........................

## DASTAN GÖZƏLLƏMƏLƏRİ

***“YETİM AYDIN” DASTANINDAN***

İnciməsin.................................
Gözəlim...............................
Düşübdü................

***“AŞIQ QƏRİB” DASTANINDAN***

Sənəmim............................................
Gözəl........................
Ağcaqız............................
Qaşların.........................
Sənəm...........................................

***“ŞAH İSMAYIL” DASTANINDAN***

Gəldı.......................................
Bənzəməz.............................
Necə..............................................

***“ƏMRAH” DASTANINDAN***

Mən qurban............
Könlüm............................
Qırmızı...............................
Səlminaz.....................................
Gəlir.........................
Qayıt indi...................

Dedim, dedi................................
Qızlar...................................

***“ƏSLİ VƏ KƏRƏM” DASTANINDAN***
Düymələ, düymələ........................................
Gördünmü…………………..
Dilbər…………………………
Gözlərin……………………..
Altı qızlar .......................................
Qırmızı geyinibdi..............................
Eylədın...........................................
Qaşları..........................................
Gəlır.........................................................

***“TAHİR VƏ ZÖHRƏ” DASTANINDAN***
Nərgiz...................
Olmuşam.........................
Əmqızı...........................

***“KOROĞLU” DASTANINDAN***
Deyilmi..................
Tellərin..............................
Yarısan............................
Gül üzün..............................

***“ABDULLA VƏ CAHAN” DASTANINDAN***
Gedir........................................................
Bəllidi…………………………………
Qurbanı canim…………………….

“***ABDULLA VƏ CAHAN” DASTANINDAN CAHANIN DİLİNDƏN DEYİLMİŞ GƏRAYLI***
Nə bağ bildi, nə də bağban.......................

*“MƏSİM VƏ DİLƏFRUZ” DASTANINDAN*
Yeridi.........................
İçində............................................
De, danış..............................................

## EL ŞAİRLƏRİNİN GÖZƏLLƏMƏLƏRİ

*BAYAT ABBAS*
Xalların...........................

*QARACAOĞLAN*
Qızlar.....................
Qurban olduğum.............................
Demədimmi........................................
Sevsəm öldürərlər, sevməsəm ölləm...................
Üç gözəl............................

*DADALOĞLU*
Hər sabah seyran gəzərkən.............
Seyr eyləyin gözəli......................

*ULULU KƏRİM*
Getdi...................................

*MƏLİKBALLI QURBAN*
Qurban olduğum...........................

*YƏHYA BƏY DİLQƏM*
Gördüm..............................
Düşübdür........................................
Məni.......................................
Gördüm.....................................
Havalanıbdı..............................
Görmüşəm....................................
Gəlmədi............................................

*ŞAİR MƏMMƏDHÜSEYN*
Mən olum.......................
Bənzəməz................................
Ha yana-yana.......................

*ŞİŞQAYALI AYDIN*
Endi......................
Gəlin.........................

*PADARLI ABDULLA*
Qayıtdı...............................

*ŞAİR MƏHƏMMƏD (ÇOBAN MƏHƏMMƏD)*
Birdi.................................
Mən..................................
Bu dağlar mənim.................................
Deyər sana......................................
Ay sənəm, sənəm.....................................

*AĞDABANLI QURBAN*
Üstündən.............................
Arasında.............................
Bir-bir.................................
Bal qaymağınan.................................
Qoşa-qoşa.......................................

*BORÇALI ŞAİR NƏBİ*
Gözəl................................
Altı nişan................................
Dayanmaz...........................
Zülflərin...............................
Gözəl..................................
Su sonasıdı................................
Xoş gəldin................................

***ŞAİR VƏLİ BOZALQANLI***
Yavaş get............................
Ayrılıb..............................
Mərhəmət eylər................................
Yeridi....................................
Dilbər.....................................
Bükülmüş...................................
Şirin..........................................

***XƏYYAT MİRZƏ***
Gözəl qız................................
İncidir....................................
Kimin yarıdı...............................
Gözəllər..............................

***HƏSƏN XƏYALLI***
Dilbər.................................
Gəl alım................................

***BİSAVAD TEYMUR***
Ay maral-maral......................................

***MİRZƏ SƏMƏD***
Tellərin.....................................
Bənzər.......................................
Yasəmən.........................................
İnci................................................
Zülfünə..........................................

***XOCA MƏHƏMMƏD***
Minayə.......................................

***ŞEYDA ƏZİZ***
Gələndə................................
Ceyran..............................
Açılır.................................

Gözəl-gözəl........................
Güllər açılır..............................
Bənövşə.....................................
***İSMAYIL KATİB***
Şirin-şirin....................................
Sənnən.........................................
Asyanın.......................................

***ŞAİR CAVAD***
Ay çiçək dərən..................................
Bənzər..................................................

***XƏSTƏ BAYRAMƏLİ***
Nişanədi......................................
Mən......................................
Gözəl.......................................
Sənin...........................................
Belə yar...................................
Gözələm indi......................................

***ŞAİR BƏHMƏN***
Əvəzində...............................
Gözlərin................................
Sənə qurban....................................

***HƏSƏN MÜLKÜLÜ***
Dolandığım.............................
Sənin........................................
Sən Allah...................................
Qaldı........................................
Yanaqları................................
Gözlər..............................
Sənin..................................
Zərnigar................................
Olduğum.................................

***BİMAR ƏLİ***
Dilbərim..................................
Əsmər..................................
***MƏMMƏD İLQAR***
Nə gözəl çəkir..........................................

***ƏCNƏBİ KƏLMƏLƏR SÖZLÜYÜ***................
***ARXAİZM VƏ MƏHƏLLİ SÖZLƏR***........................................

# “AŞIQ GÖZƏLLƏMƏLƏRİ” ŞEİR ANTOLOGİYASI

Texniki redaktoru: ***İlham QƏHRƏMANOV***

Kompüter tərtibatçısı
və dzayneri: ***Namiq VƏLİOĞLU***

Mətni yığanlar: ***Könül NƏBİYEVA***
***Nurlana ALLAHMANLI***
***Zahirə HACIYEVA***

Korrektorlar: ***Leyla ASLANOVA***
***Xatirə VƏLİYEVA***

Yığılmağa verilib: ***01.06.2020***
Çapa imzalanıb: ***10.06.2020***
Fiziki çap vərəqi: ***53***
Kağız formatı: ***70x100***
Tiraj: ***1000***

**Kitab “Nigar” KM-də yığılmış və çapa hazırlanmışdır.**
**Ünvan: Bakı, Sabunçu rayonu, Nəsib Məlikov 22/5**